
NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ
NDU
İSSN 2224-0829
ELMİ ƏSƏRLƏR
İCTİMAİ ELMLƏR SERİYASI
SCIENTIFIC WORKS
SERIES OF SOCIAL SCIENCES
НАУЧНЫЕ ТРУДЫ
СЕРИЯ СОЦИАЛЬНЫХ НАУК
№ 6 (75)
NAXÇIVAN, NDU, "QEYRƏT" - 2016

# TARİX ELMLƏRİ

**İSMAYIL HACIYEV**
*AMEA Naxçıvan Bölməsi*
*Email: ismayil_haciyev@yahoo.com*

**UOT:316**

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA MİLLİ MÜNASİBƏTLƏR

**Açar sözlər:** *Heydər Əliyev, multikulturalizm, milli münasibətlər, etnik qruplar, xalqlar, yaşamaq mədəniyyəti, milli mənsubiyyət, tolerantlıq*

**Key words:** *Heydar Aliyev, multicultural, national reltions, ethnic groups, people, living culture, national belonging, condescending*

**Ключевые слова:** *Гейдар Алиев, мультикультурализм, межнациональные отношения, этнические группы, культура проживания, национальная принадлежность, толерантность*

Azərbaycan sivilizasiyaların, mədəniyyətlərin və dinlərin kəsişməsində, mədəni müxtəlifliyin qorunmasında mühüm əhəmiyyətə malik olan dövlətdir. Əsrlər boyu bütün mədəniyyətlər, dinlər və etnik qrupların nümayəndələri Azərbaycan ərazisində sülh və qarşılıqlı anlaşma şəraitində bir ailə kimi yaşamış, bu müsbət meyillər müstəqillik illərində daha da güclənmişdir.

Azərbaycan tarixən bir çox millətlərin yaşadığı ölkə kimi tanınmışdır. Əsrlər boyu Azərbaycanda yaşayan bütün xalqlar bərabər hüquqlara malik olmuşlar. Bu gün də bu ənənələr yaşayır və bu Azərbaycanın ən mühüm sərvəti kimi dəyərləndirilir.

Azərbaycan Respublikası əhalisinin ən səciyyəvi xüsusiyyətlərindən biri onun tarixən rəngarəng etnodemoqrafik quruluşa malik olması və bütün tarixi şəraitlərdə bu xüsusiyyətlərini qoruyub saxlaya bilməsidir. Hələ 1897-ci ildə Rusiya imperiyasında aparılmış əhalinin ilk ümumi siyahıyaalınması məlumatlarında Şimali Azərbaycan ərazisində onlarla müxtəlif millətlərin, xalqların, etnik qrupların nümayəndələrinin yaşadığı qeydə alınmışdır. 1926-cı ilin ümumittifaq siyahıyaalınmasının yekunlarınına görə Azərbaycanda onların sayı 95 olmuşdur [1, s.93].

1897-ci ildə aparılmış əhali siyahıyaalınması məlumatlarına əsasən indiki Azərbaycan Respublikasının o vaxtkı ərazisində yaşamış 1806, 7 min nəfər əhalinin 1092,8 min nəfərini və ya 60,5 faizini azərbaycanlılar, yerdə qalanını isə ruslar, ermənilər, tatlar, talışlar, yəhudilər, ukraynalılar, gürcülər və b. millətlər və xalqlar təşkil etmişdir.

1989-cu ildə SSRİ-də aparılmış sonuncu ümumittifaq əhali siyahıyaalınması məlumatlarına əsasən Azərbaycanda yaşayan millətlərin, xalqların və etnik qrupların sayı əvvəlki illərə nisbətən nəinki azalmamış, əksinə, xeyli çoxalaraq 115-ə çatmışdır [1, s.94].

SSRİ-nin dağılmasından səkkiz il sonra, yəni 1999-cu ildə keçirilmiş müstəqil Azərbaycan Respublikası əhalisinin ilk milli siyahıyaalınması məlumatlarına əsasən Azərbaycan əhalisinin milli tərkibi azərbaycanlılar, ukraynalılar, ruslar, türklər, tatarlar, talışlar, ləzgilər, yəhudilər, kürdlər, ermənilər, avarlar, gürcülər, udinlər, saxurlar, tatlar və digər millət və xalqlardan ibarət olmuşdur.

Azərbaycanda yaşayan xalqlar arasında milli münasibətlər, birgə yaşamaq mədəniyyəti ahəngdar, öz dinc axarı ilə getmiş, etnik münaqişələr və gərginlik üçün zəmin olmamışdır. Burada xalqların ənənəvi yaşam tərzi də özünü göstərmişdir. Çünki Azərbaycanda tarix boyu müxtəlif xalqlar və mədəniyyətlər arasında qarşılıqlı canlı əlaqələr mövcud olmuşdur. Azərbaycanın və Azərbaycan xalqının təbii-tarixi təşəkkülünün tərkib hissəsi olan bu prosesdə onun hər bir iştirakçısı nadir mədəniyyətin ortaq sahibinə çevrilirdi. Bununla da bu gün "azərbaycanlılar" adı altında qəbul

etdiyimiz vahid birliyin özülü qoyulmuş və onun tərkibinə aparıcı türk amili ilə yanaşı Azərbaycanda məskunlaşmış bütün xalqlar daxil olmuşdur.

Sovet dövlətinin tərkibində yaşadığımız illərdə, xüsusilə sonrakı illərdə milli siyasət sahəsində kobud səhvlərə, əyintilərə yol verilmişdi. "Xalqların yeni tarixi birliyinin-sovet xalqının" formalaşması haqqında irəli sürülmüş müddəa sonrakı dövrdə öz təsdiqini tapmadı və kökündən səhv idi. Bu isə xalqların milli zəmində inkişafına vurulan zərbə idi. Bir sıra hallarda hakimiyyət orqanları milli münasibətləri inkişaf etdirmək əvəzinə, milli qarşıdurmalara, ikili siyasətə yol verirdilər. Sonrakı illərin tarixi təcrübəsi aşkar göstərdi ki, burada müəyyən düşünülmüş məqsədlər olmuşdur.

Bütün bunlara rəğmən, 60-cı illərin sonunda totalitar sovet rejiminin hökm sürməsinə baxmayaraq Azərbaycan xalqının etnik inkişafı, birgəyaşayış qaydaları və mədəniyyəti, azərbaycançılıq ideyası üçün perspektivlər yaradılırdı. Respublikada millətlərarası, azərbaycanlıların və başqa xlaqların milli mədəniyyəti və sosial inkişafı respublika rəhbərliyinin diqqət mərkəzində idi. Heydər Əliyevin siyasi və elmi nəzəri irsində, dövlətçilik təlimində mədəni cəmiyyətin yaradılması, xalqlar arasında inam və etimadın formalaşması, qarşılıqlı hörmət, milli münasibətlərin inkişafı, tolerantlıq kimi dəyərlər mühüm yer tuturdu. Təsadüfi deyildir ki, 60-cı illərdən sonra birgə yaşayışın tolerant dəyərlərinin qorunması və inkişafında Heydər Əliyevin misilsiz rolu və xidmətləri olmuşdu.

Milli ənənələrə sadiqliyi ilə fərqlənən Azərbaycan xalqı ölkələr, millətlər və xalqlar arasındakı əlaqələrin inkişafı üçün humanitar aspektrlərə hörmətlə yanaşmış, müxtəlif dövr və mərhələlərdə eyni münasibətlərin davam etməsində maraqlı olmuşdur. Çünki tarixi keçmişimiz, mədəniyyətimiz bu yolda bələdçimiz olmuşdur. Əsrlər boyu Azərbaycanda çoxkonfessiyalı, çoxmillətli cəmiyyət formalaşıb, müstəqillik dövründə bu müsbət meyillər daha da inkişaf edib. Milli dəyərlərin, mədəniyyətin, adət və ənənələrin inkişafı üçün geniş şərait yaranıb. Heydər Əliyevin 1993-cü ildə respublikaya qayıdışı və onun prezidentliyi illərində hər sahədə olduğu kimi millətlərarası münasibətlər sahəsində də böyük dəyişikliklər baş verdi. Ulu öndər Heydər Əliyev tolerantlıq və birgə yaşayış qaydalarına hörmətlə yanaşmaya böyük dəyər vermiş, millətlərarası münasibətləri əsas amil hesab edərək Konstitutiyamızda da bu ideyaların əksini tapmasına diqqətlə yanaşmışdır.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövlətlərdə xalqların birgəyaşayışına və millətlərarası münasibətlərin inkişafına daim diqqət yetirmişdir. Ulu öndərin "Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir", "Azərbaycanın ən başlıca sərvətlərindən biri, bəlkə də ən başlıcası qədimlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan müxtəlif dinlərə etiqad edən adamlardır" kimi sözləri çoxmədəniyyətliyə ən tutarlı nümunədir. Görkəmli dövlət xadimi qeyd edirdi ki, "dinindən, dilindən, irqindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşları eyni hüquqlara malikdir".

Ulu öndərimizin müəllifi və banisi olduğu müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının aşağıdakı müddəaları və bəndləri ölkəmizin multikultural təhlükəsizliyini formalaşdıran siyasi-hüquqi bazasıdır:

1. Azərbaycan Respublikası əhalisinin danışdığı başqa dillərin sərbəst işlədilməsini və inkişafını təmin edir.
2. Dövlət irqindən, milliyətindən, dinindən, dilindən, cinsindən, mənsubiyyətindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkərlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cins, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır.
3. Hər kəsin milli mənsubiyyətini qoruyub saxlamaq hüququ vardır. Heç kəs milli mənsubiyyətini dəyişdirməyə məcbur edilə bilməz.
4. Hər kəsin ana dilindən istifadə etmək hüququ vardır. Hər kəsin istədiyi dildə tərbiyə və təhsil almaq hüququ vardır. Heç kəs ana dilindən istifadə hüququndan məhrum edilə bilməz və s [2, s.9, 10, 16, 17].

Azərbaycanda keçirilən Humanitar və Ümumdünya Mədəniyyətlərarası Dialoq forumlarında bildirildiyi və dəstəkləndiyi, bütün xalqların dostluq, mehribanlıq şəraitində, bir ailə kimi yaşaması ilə bağlı Azərbaycan təcrübəsi bütün dünyada geniş təbliğ olunur. "Heç vaxt Azərbaycanda dini, milli zəmində qarşıdurma, anlaşmazlıq olmayıb və bu, bizim böyük sərvətimizdir. Çünki hər bir ölkənin gücünü əlbəttə ki, bir neçə amil müəyyən edir- siyasi imkanlar, iqtisadi güc və eyni zamanda cəmiyyətdə mövcud olan ab-hava, sağlam mühit və həmrəylik duyğuları" sözləri ilə bu sahədə qazanılan təcrübəni tolerantlıq nümunəsi adlandıran Prezident İlham Əliyevin bildirdiyi kimi, müsbət meylləri əks etdirən bu təcrübə dünyada gedən proseslərə müsbət təsir göstərir [7, 2016, 25 fevral].

Azərbaycan cəmiyyətindəki dözümlülük, qarşılıqlı hörmət, birgəyaşayış qaydalarına əməl etmək, dini tolerantlıq beynəlxalq ictimaiyyətin də diqqətini cəlb edir. İslam dininin müxtəlif təriqətlərinə mənsub insanların birgə vəhdət namazı qılması xristian dini rəhbərlərinin də görüşməsinə təsir etmişdir. Azərbaycan müxtəlif millətlərin, dinlərin və mədəniyyətlərin nümayəndələrinin sərbəst yaşamaları üçün bütün zəruri şəraitin yaradıldığı nümunəvi və nadir ölkələrdəndir. Ölkə Prezidenti İlham Əliyevin dediyi kimi, əsrlər boyu Azərbaycanda multimədəniyyətli cəmiyyətlər mövcud olub. Xalqlar arasındakı dostluq və həmrəylik bunun bariz nümunəsidir. Azərbaycan cəmiyyətində etnik, dini, irqi, mədəni mənsubiyyətindən asılı olmayaraq bütün xalqların, etnik qrupların mədəni dəyərləri qorunur və inkişaf etdirilir. Ölkədə yaşayan bütün xalqların və etnik qrupların mədəni dəyərlərinin qorunmasına dövlət və cəmiyyət tərəfindən dəstək verilir. Dövlət milli müxtəlifliyin qorunmasına qayğı göstərir.

Ümummilli lider Heydər Əliyev deyirdi ki, "Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir" [4, s.20-21, 27].

Azərbaycan müxtəlif xalqların və etnik qrupların dinc, dostluq, qardaşlıq şəraitində yaşadığı bir ölkədir. Burada yaşayan bütün xalqlar və etnik qruplar Azərbaycanı öz ortaq vətənlərinə çevirə biliblər. Xınalıqlılar, lahıclılar, yəhudilər, udilər, malakanlar... və başqa xalqlar və etnik qruplar Azərbaycana məxsusdur. Bu xalqların dil və mədəni zənginliklərini Azərbaycan dövləti öz zənginliyi, öz gücü sayır. Qeyd olunan xalqların və etnik qrupların nümayəndələrini bu gün müstəqil Azərbaycanın hər bir sahəsində-siyasətdə, iqtisadi sahədə, təhsildə, elmdə, səhiyyədə, mənəvi həyatda, bir sözlə bütün sahələrdə görmək mümkündür.

Müxtəlif dövrlərdə Azərbaycanda yaşayan xalqlar arasında milli münasibətlər ahəngdar, öz dinc axarı ilə getmiş, etnik münaqişələr və gərginlik üçün zəmin olmamışdır. Burada xalqların ənənəvi məişət və mədəniyyətlərindəki ümumi və spesifik cəhətlər sıx vəhdətdə olub bir-birini tamamlayır. Bununla yanaşı hər bir xalq sayından asılı olmayaraq spesifik, lokal mədəniyyətə malikdir. Respublikada fəaliyyət göstərən mədəniyyət mərkəzləri bu xalqların milli adət-ənənələrinin dirçəlişi, qorunub saxlanılması sahəsində böyük rol oynayır.

Azərbaycanda yaşayan xalqların birliyindən qardaşlıq və dostluğundan bəhs edən Prezident İlham Əliyev demişdir: "Azərbaycanda bütün xalqlar bir ailə kimi yaşayırlar. Bu da bizim böyük üstünlüyümüz, böyük dəyərimizdir. Biz bunu qiymətləndirməliyik və ölkəmizdə yaşayan bütün xalqlar arasında bu qardaşlığı, dostluğu daha da möhkəmləndirməliyik. Bu, bəlkə də bizim ən böyük sərvətimizdir. Əsrlər boyu Azərbaycanda yaşayan bütün xalqlar bərabər hüquqlara malik idilər. Bu gün də bu gözəl ənənələr yaşayır. Hər bir vətəndaş dinindən, dilindən, millətindən asılı olmayaraq Azərbaycanın qiymətli, dəyərli vətəndaşıdır. Bizi bəzi başqa ölkələrdən fərqləndirən məhz budur" [10, 2016, 19 fevral].

Azərbaycanda Azərbaycan türkləri tarix boyu həm dini, həm də milli baxımdan özünü kimdənsə üstün tutmamış, hamının haqqını tanımışdır. Torpaq onların olsa da, burada yaşayan hər kəsin vətəndaşlığına hörmətlə yanaşılmışdır. Beləki, eyni bir xalq dünyanın başqa ölkələrində təzyiqlərlə qarşılaşsa da, ölkəmizdə əsl vətəndaş kimi yaşayır və fəaliyyət göstərir, hüquq və azadlıqları qorunur.

Yəhudilərə qarşı törədilən soyqırımı bu gün dünyada insanlıq əleyhinə ən böyük faciələrdən biri kimi anılmaqdadır. Lakin, dünya birliyi hələ də bu cür hadisələrdən nəticə çıxara bilməyib, faşizm dalğası müasir dövrümüzə də nüfuz edərək sistemli xarakter alıb. Elə son vaxtlarda

Fransanın müxtəlif şəhərlərində, Belçikanın paytaxtı Brüsseldə yəhudilərə qarşı törədilən terrorlar, onların məzarlarının dağıdılması, muzeylərə basqınlar antisemitizm hallarının artdığını göstərir. Avropanın bir sıra ölkələrində keçirilən rəy sorğusunda rəyi soruşulanların 75 faizi antisemitizmin artdığını deyirlər[5, 2016, 21 fevral].

Müasir Azərbaycan dövləti və onun xalqı bu gün sivilizasiyaları bir-birinə yaxınlaşdırmaq, fərqli adətlərə, dini baxışlara sahib cəmiyyətlərlə mədəni əlaqələri, birgəyaşayış qaydalarını daha da gücləndirmək, onun tolerantlıq, humanizm kimi əxlaqi-mənəvi keyfiyyətlərlə bütövləşdirmək üçün genişmiqyaslı fəliyyət aparır. Ölkəmiz bütöv bəşəriyyət üçün dinlərarası və mədəniyyətlərarası dialoq, düşüncə mərkəzi rolunu oynayır. Azərbaycanda azsaylı xalqların hüquqları hər zaman qorunur və onlara ana dilini, mədəniyyətini, dinini yaşatmaq üçün hər cür şərait yaradılır.

Azərbaycan tarix boyu müxtəlif xalqların azad, sərbəst və heç bir maneə olmadan yaşadığı ölkədir. Azərbaycanda məskunlaşan xalqlardan biri dağ yəhudiləridir. Onlar əsasən Quba rayonunda məskunlaşıblar. Quba dünyada yəhudilərin kompakt məskunlaşdığı ikinci ən böyük yaşayış məskənidir. Yəhudilər 300-ilə yaxındır ki, burada yaşayırlar [9, 2016, 28 yanvar]. Azərbaycan yer kürəsində başqa xalqların dinc, sülh, əmin-amanlıq şəraitində yaşaması üçün ən münasib, münbit bir yerdir. Yəhudilər dünyanın hər yerində həm də azərbaycanlı kimi özlərini təqdim edirlər.

Hazırda ölkəmizdə yəhudilərə məxsus 7 sinaqoq, 2 orta məktəb, kollec və 3 uşaq bağçası fəaliyyət göstərir [9, 2016, 28 yanvar].

XVIII əsrdə rus çariçası II Yekaterinanın dini inanc fəaliyyətinə görə Saratov şəhərindən sürgün etdiyi malakanların bir hissəsi Gədəbəy rayonunun Novasaratovka kəndində məskunlaşıb. Onlar 200 ildir ki, burada azərbaycanlılarla mehribanlıq və dostluq şəraitində yaşayırlar [3, 2016, 19 fevral]. Başqa xalqlar kimi onlar da Azərbaycanı özlərinin doğma vətənləri hesab edirlər. Malakanlar yerli əhali ilə mehriban ünsiyyət qurmaqla yanaşı, özlərinin adət və ənənələrini, mətbəxtlərini, hətta musiqilərini də yaşadırlar. Kənddə yaşayan malakanlar azərbaycanlıların Novruz şənliklərini, azərbaycanlılar isə Pasxa bayramlarını malakanlarla birgə qeyd edirlər. Malakanlar öz milli paltarlarını geyinir, milli xörəklərini, eləcə də milli rəqslərini və mahnılarını şənlik iştirakçılarına təqdim edirlər. Kənddə malakanlarla azərbaycanlılar arasında ailə quran onlarla ailə vardır. Malakanlar bu rayonun Slavyanka kəndində də məskunlaşıblar. Prezident İlham Əliyev 2006-cı ildə Slavyanka kəndinə gəlmiş, malakanlarla görüşmüşdür. İcma rəhbəri yaşayışlarından, azərbaycanlılarla münasibətlərindən razı olduqlarını İlham Əliyevə söyləmişdir. Söhbət zamanı bildirmişdir ki, kənddə yaşayan malakanların ayrıca qəbristanlığı, məbədi və ibadət yerləri var. Bakı-Novasaratovka marşrutu ilə avtobus işləyir.

Azərbaycan həmişə regionun dini və milli baxımdan ən tolerant ölkəsi olub. Tolarantlığın həqiqi Azərbaycan nümunəsi Qəbələ rayonu nümunəsində də görmək mümkündür. Burada udilər, ləzgilər, azərbaycanlılar və digər xalqlar mehriban ailə kimi yaşayırlar. Nic qəsəbəsində də azərbaycanlılarla yanaşı, udilər və ləzgilər yaşayırlar. Udilərin əcdadları olan utilər haqqında eramızdan əvvəl V əsr yunan müəllifi Herodotun "Tarix" əsərində məlumat var. Utilər alban çarlığının yaranmasında mühüm rolu olan 26 alban tayfalarından biridir [12, s.41]. Tarixən Günəşə, Aya sitayiş edən udilər IV əsrin əvvəllərində xristianlığı qəbul ediblər və indiyədək öz dinlərini saxlayıblar. Udi xristianlar öz dinini saxlayan Qafqaz Albaniyasının yeganə xalqıdır. Udi professor Voroşil Qukasyan yazırdı ki, udilər Azərbaycan xalqının qədim əcdadlarından biri hesab edilir[12, s.3, 10].

Respublikamız öz dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmizin bərabərhüquqlu digər vətəndaşları kimi udilər də öz dini bayramlarını, ənənəvi mərasimlərini sərbəst və geniş şəkildə qeyd edirlər. Əsaslı təmir və bərpa olunan Çotari məbədi udilərin istifadəsinə verilib. Nic qəsəbəsində 3 kilsə, 2 məscid var. Qəsəbədəki məktəblərin ibtidai siniflərində udi dili tədris olunur, kilsədə dini ayinlər onların ana dilində icra edilir. Min illərdir Azərbaycanda sülh və əmin-amanlıq şəraitində yaşayan, dünyada fenomen etnos kimi tanınan udilər bu gün də öz dini adət-ənənələrini qoruyub saxlayırlar. Nic tolerantlığın, birgə yaşayışın ən gözəl məkanlarından biri kimi tanınır. "Xristian kilsələrinin anası" hesab olunan Kiş kilsəsi (Şəki rayonu, Kiş kəndi) məhz alban udilərin adı ilə bağlıdır[10, 2016, 19 fevral].

Azərbaycan ərazisində yaşayan ləzgilər, avarlar, saxurlar, ingiloylar, ruslar, tatlar, talışlar, kürdlər, buduqlar, qrızlar, Ahıska türkləri və başqa xalqlar və milli azlıqlar azərbaycanlılarla birgə ölkəmizin sosial-iqtisadi, siyasi və mədəni həyatında yaxından iştirak edir və fəaliyyət göstərirlər. Ərazi birliyi, oxşar ictimai-iqtisadi, coğrafi və tarixi şərait azərbaycanlıların və azsaylı xalqların məişət və mədəniyyətlərində, adət-ənənələrində ümumi cəhətlərin formalaşmasına səbəb olmuşdur.

Göründüyü kimi, bir ölkədə yaşayıb müxtəlif xalqları, milli azlıqları təmsil edənlərin birgə yaşayış qaydalarını, mədəniyyət hüquqlarını tanınan humanist dünyagörüşü və ona uyğun olan siyasət kimi anlaşılan multikulturalizm bütövlükdə dünyada müxtəlif millətlərə məzhəblərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunması və inkişafı deməkdir. Bu proses hazırda azsaylı xalqların birgə yaşadıqları dövlətlərin milli mədəniyyətinə inteqrasiya olunur. Onsuz humanizm, yüksək fərdi və beynəlxalq münasibətlər mədəniyyəti, insanlar arasında qarşılıqlı anlaşma, zənginləşmə, dostluq və əməkdaşlıq istənilən səviyyədə mümkün deyil.

Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin tolerantlıq ənənələrinə, birgəyaşayış norma və qaydalarına, mədəniyyətlər və sivilizasiyalararası dəyərlərə mühüm töhfələr verdiyini nəzərə alaraq, 2016-cı ilin respublikada "Multikulturalizm ili" elan edilməsi ilə bağlı sərəncam imzalayıb. Sərəncamda deyilir ki, tarixi İpək yolunda yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır: "Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilmişdir... Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun 2016-cı ildə Bakı şəhərində keçirilməsi barədə qərar qəbul edilməsi dünya ölkələrinin Azərbaycandakı multikultural mühitə olan münasibətlərinin real ifadəsidir" [3, 2016, 13 yanvar].

Bütün qeyd olunanlar bir daha göstərir ki, Azərbaycan müxtəlif xalqların və etnik qrupların dinc, dostluq, qardaşlıq şəraitində yaşadığı, sevinc və kədəri birgə bölüşdüyü bir məkandır. Burada yaşayan bütün xalqlar və etnik qruplar Azərbaycanı öz ortaq vətənlərinə çeviriblər.

## ƏDƏBİYYAT


1. Azərbaycan Milli Ensiklopediyası. "Azərbaycan" cildi. "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi, Bakı, 2007, 884 s
2. Azərbaycan Respublikasının Konstitusiyası. Yeni redaksiyada. Bakı, Qanun, 2009, 68 s
3. Əliyev Ş. Ayrılarmı könül candan... "Azərbaycan" qəzeti, 2016, 19 fevral
4. Heydər Əliyev siyasəti: Tolerantlıq (çıxışlar, nitqlər, görüşlər, təbriklər). Bakı, Elm və təhsil, 2015, 504 s
5. Həsənov N. Azərbaycanın multikultural dəyərləri - örnək modeli. "Respublika" qəzeti, 2016, 21 fevral
6. İsmayılov G. Tolerantlıq: bildiklərimiz və bilmədiklərimiz. Bakı, "Nurlan" NPM, 2014, 240 s
7. İsmayılqızı X. Millətlərarası münasibətlərin formalaşmasında Azərbaycan təcrübəsi. "İki sahil" qəzeti, 2016, 25 fevral
8. İvanovka multikultural dəyərlərin beşiyidir. "Azərbaycan" qəzeti, 2016, 8 mart
9. Mənsimov E. "Biz yəhudilər dünyanın hər yerində həm də azərbaycanlıyıq". "Azərbaycan" qəzeti, 2016, 28 yanvar
10. Mirzəbəyli İ. Azərbaycan həmişə regionun dini və milli baxımdan ən tolerant ölkəsi olub. "Xalq qəzeti", 2016, 19 fevral
11. Şahbazov V. Multikultural sivilizasiya: Qafqaz Albaniyasının yadigarı – Udilər. "Azad Azərbaycan" qəzeti, 2016, 27 fevral
12. Voroşil Q. Qafqaz Albaniyası. Bakı, "Öyrətmən", 1993, 108 s

**ABSTRACT**

**Ismayil Hajiyev**

**Heydar Aliyev and national relations in Azerbaijan**

According to the Order of Ilham Aliyev the President of Azerbaijan Republic the 2016th year was declared as the “Multicultural year” in Azerbaijan. In the article the author speaks about the essence of the multicultural, cultural variety in Heydar Aliyev`s scientific-theoretical heritage, together living of the nations, the equal rights of all people living in Azerbaijan, colorful ethnodemografic system of the population has been investigated. Result of the investigation it cleared that in the 20th years of the XX century there were about 95 nation, people and ethnic groups belong to different nations in North Azerbaijan. The number of those nations reached to 115 in the 90th years of the same century. Though the national composition of Azerbaijan population were multi nationalty, but there was a good national relation, together living culture among them. There was no any conflict, confrontation among them. Multicultural have been turned to the life manner of Azerbaijan society.

**РЕЗЮМЕ**

**Исмаил Гаджиев**

**Гейдар Алиев и межнациональные отношения в Азербайджане**

В соответствии с указом Президента Азербайджанской Республики 2016-й год объявлен «Годом мультикультурализма». В статье раскрывается суть мультикультурализма, культурное разнообразие научно-теоретического наследия Гейдара Алиева, равноправие всех народов, проживающих в Азербайджане, этнодемографическое разнообразие населения Азербайджана. Несмотря на то, что в 20-х годах XX века в Северном Азербайджане число этнических групп составляло 95, в 90-х годах того же века их число достигало 115-и. Несмотря на многонациональный состав населения Азербайджана, между ними всегда существовало гармоничное совместное проживание, никогда не происходило конфликтов, разногласий. Мультикультурализм превратился в образ жизни азербайджанцев.

NDU-nun Elmi Şurasının 30 mart 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

**RÜFƏT HÜSEYNZADƏ**
*AMİ*
*Prof.rufat@mail.ru*

**UOT:94 (479.242)**

# SKALA - TƏHSİLİN İLK TARİXİ MƏKANI

**Açar sözlər:** *Naxçıvan, Gəmiqaya, Nuh peyğəmbər, təhsil, məktəb*
**Key words:** *Nakhchivan, Gamigaya, Noah, Education, skala*
**Ключевые слова:** *Нахчыван, Гямигая, пророк Ной, образования, школа*

Çox qədim tarixə və zəngin mədəniyyətə malik olan, coğrafi cəhətdən türk islam dünyasnın mərkəzində yerləşən Azərbaycan və bu yurdun qədim sakinləri hələ qədim zamanlardan yazı və oxu mədəniyyətinə sahib olmuş, dövrün, ictimai həyatın xüsusiyyətlərinə uyğun təhsil ocaqları yaratmış, insanları inkişafa, tərəqqiyə, yüksək əxlaqa səsləyən müdrik fikirlər söyləmişlər. Zaman-zaman ölkəmizə edilən basqınlar üzündən ulu babalarımızın yaratdıqları zəngin elmi, ədəbi və pedaqoji irsin mühüm bir qismi tələf edilmiş, böyük bir mənəvi xəzinə vətənimizdən çıxarılmış, başqa ölkələrə aparılmış və bir qismi də itirilmişdir.

Zəngin şifahi xalq ədəbiyyatımız – “Kitabi Dədə Qorqud”, “Bilqamış”, “Alp Ər Tunqa”, “Oğuz”, “Ərkənəqun” kimi dastanlarmız, Oğuznamələr, Ustadnamələr xalqımızın qədim tarixindən, onun ictimai-mədəni həyatından, zəkasından, istək və arzularından, tərbiyə və təhsil səviyyəsindən xəbər verir. Qobustan, Gəmiqaya, Oğlanqala, Kültəpə, Orxon kitabələri və daha bir çox qayaüstü yazılı abidələrimiz xalqımızın yazı yazmaq, oxumaq, hesablamaq, rəsm çəkmək, rəqs etmək və s. mədəni, təhsil vərdişlərinə sahib olmasından xəbər verir. Tariximizin çox qədimliyini göstərən arxeoloji qazıntılar, əldə edilmiş maddi, mədəni nümunələr, xaraba şəhər və qəsəbələr Azərbaycanın ayrılmaz bir parçası olan Naxçıvanda hələ daş dövründən istifadə edilən duz mədəni və buradan tapılmış daş baltalar, buradakı duz müalicəxanası çox uzaq keçmişimizin mədəni səviyyəsindən xəbər verir. Bütün bunlar Azərbaycan xalqının hələ miladdan əvvəl mədəniyyətə, yazıya, oxuya, sistemli təlim-tərbiyə mədəniyyətinə, müalicə üsullarına sahib olduqlarını təsdiq edir.

Ulu öndərimiz Heydər Əliyev demişdir: “Naxçıvanın qədim, zəngin tarixi Azərbaycan tarixinin çox parlaq səhifələrindəndir. Əgər Azərbaycanın tarixi haqqında, ümumiyyətlə bir çox işlər görülübsə, Naxçıvanın tarixi haqqında, qədim tarixi haqqında və Naxçıvanın bir diyar kimi öyrənilməsi – həm təbiətinin, həm adət-ənələrinin, etnoqrafiyasının öyrənilməsi barədə çox az iş görülübdür” (1, 17).

Naxçıvanda tunc dövrünə aid Gəmiqaya abidəsi eramızdan əvvəl I-III minilliklərə aid edilir ki, üzərindəki rəsmlər, yazı, işarələr insanların bir-biri ilə ünsiyyət və əlaqə, öyrətmə-öyrənmə prosesini əks etdirir. Qayaüstü təsvirlərdə rəqs səhnələri o dövrün estetik zövqünü bildirir, ov səhnələri, örüş sahələri, keçi, maral, quş, habelə əmək alətləri dövrün peşələri olan ovçuluqdan, əkinçilikdən, maldarlıqdan xəbər verir, at, dəvə, ulaq, araba təsvirləri insanların istifadə etdikləri nəqliyyat növünü göstərir. Günəş, ağac, çay kimi rəsmlər qədim insanlarımızın inancından xəbər verir, daşlar üzərində düz xətlə çəkilmiş bir neçə xət və ya çox xət Gəmiqayalıların say anlayışından xəbərdar olmalarını bildirir. Gəmiqayalıların bəbir, canavar, ilan, dəvə kimi rəsmlərin müxtəlif vəziyyətlərdə daşlara döymə üsulla böyük məharətlə işləmələri bir tərəfdən o dövrün rəssamlığını, nəqqaşlığını göstərirsə, digər tərəfdən də şübhəsiz insanlara ətraf mühiti, ərazini onun flora və faunasını öyrədir. Gəmiqaya rəsmlərində bir atlının baş və ayağında geyim olması o dövrün peşələrini (toxuculuq, çəkməçilik və s.) təxmin etməyə imkan yaradır. Şübhəsiz böyüklər də əldə etdiyi bilik və təcrübələri, qazandıqları peşələri kiçiklərə öyrətmişlər və yaxud da kiçiklər böyükləri

müşahidə etməklə müəyyən bilik, bacarıq və təcrübə əldə etmiş, tərbiyə qazanmışlar.

Gəmiqayanın ilk tədqiqatçısı akademik Vəli Əliyevin tədqiqatlarından məlum olur ki, Gəmiqayada 1500-ə yaxın yazı, rəsm daş və metal alətlərlə döymə, qazma, sürtmə yolu ilə həkk olunmuşdur. Onlar aşağıdakı kimi qruplaşdırılmışdır: 1) İnsan rəsmləri; 2) Araba rəsmləri; 3) Heyvan rəsmləri; 4) Müxtəlif mövzulu səhnələr; 5) İşarələr; 6) Qeyri-müəyyən təsvirlər (4, 24).

Gəmiqayalılar nəqliyyat vasitəsi kimi at, dəvə, ulaq və arabadan istifadə etmiş, maldarlıq, ovçuluq, əkinçiliklə məşğul olmuşlar. Buradakı iki təkərli, dörd təkərli araba rəsmləri diqqətimizi cəlb edir. Belə ki, qədim tarixi mənbələrdən, "Oğuznamə"lərdən məlum olur ki, arabanı kəşf edənlər Kanqlı tayfaları olmuşlar: "...Oğuz Kağanın çeriyində bacarıqlı, cüssəli, yaxşı bir kişi vardı. Bu kişi bir araba çapdı... Arabalar gedəndə "Kanq, kanq" deyə səs çıxarırdılar. Onun üçün arabaya "Kanğa" adı qoydular. Oğuz Kağan kanğaları gördü, güldü, ayıtdı.. Qoy yüklü arabaları əsirlər çəksin. Sənə verilən "Kanğaluğ" adı qoy kanğanı yada salsın"(14, 28). Bu ad Naxçıvanda məskunlaşmış qədim Kəngərli tayfasının adıdır.

Gəmiqayalılar müxtəlif təbiət hadisələrinə, çaya, ağaca, heyvana inanmış, onların təsvirlərini çəkmiş, Günəşə sitayiş etmişlər. Gəmiqayada günəşə sitayişi ifadə edən dairə ortasına nöqtə qoyulmuş rəsmlər vardır ki, bu da günəşi, işığı, tərəqqini ifadə edir.

Ümumiyyətlə günəş, işıq, ziya insanların cahillikdən uzaqlaşıb tərəqqiyə, inkişafa yönəlməsini göstərən bir simvoldur. Hələ qədim Hindistanda V əsrdə cahilliyə, avamlığa qarşı mübarizə cəmiyyəti yaradılmışdır ki, bunun adına "Kurikul" deyilmişdir. "Ku" qədim hind dilində avamlıq, gerilik deməkdir. "Ru" və ya "Ra" - günəş, işıq, ziya deməkdir. "Kul" ailə, icma deməkdir. Beləliklə "Kurikul" cahilliyə qarşı işığın, ziyanın mübarizəsi deməkdir. Hindistanda indi də məktəbə Kurikul deyilir. Bu gün təhsilimizə daxil olan "Kurikulum" sözünün mənası və mahiyyəti buradan meydana gəlmişdir.

Pedaqoji mənbələrdə göstərilir ki, qədim Yunanıstanda quldar balalarını xüsusi təlim-tərbiyə müəssisəsinə aparıb- gətirən, onların təlim tərbiyəsi ilə məşğul olan adamlara "Peydaqoqos" deyilirdi. Qədim yunan dilində "Paydas" - "uşaq" , "gogos" - "yola salan" deməkdir ki, "pedaqogika", "pedaqoq" sözləri də buradan meydana gəlmişdir. Oradakı xüsusi təlim tərbiyə müəssisəsinin adına "Şkola" deyilirdi ki, bunun da mənası kitablarda yazıldığı kimi qədim yunan dilində "Asudə vaxt keçirilən yer" deməkdir.

Pedaqogika elminin banisi, XVII əsrin görkəmli pedaqoqu Yan Amos Komenski yazır ki, yunanlar bu sözü – yəni "Şkola" sözünü Şumerlərdən götürmüşlər. Daha sonra o "Böyük didaktika" əsərində qeyd edir ki, tarixdə ilk məktəbi Nuhun oğlu Sam yaratmışdır. Adını Skala adlandırmışdır(7, Глава 8, параграф 3. стр.23). Y.A.Komenski bu fikri bizim eradan əvvəl I əsrdə yaşamış yəhudi əsilli yunan filosofu İosif Flavidən götürmüş və ona əsaslanaraq bunu yazmışdır.

Qeyd edək ki, Naxçıvan şəhəri haqqında ilk məlumat tarixçi, filosof İosif Flaviyə (e.ə. I əsr) məxsusdur. Sonra yunan coğrafiyaşünası Klavdi Ptolomeyin (b.e. II əsri) "Coğrafiya" əsərində Naxçıvan şəhərinin adı ilk dəfə "Naksuana" (yun. Ναξουάνα, ing. *Naxuana*) şəklində qeyd olunmuş və şəhərin çoğrafi mövqeyi göstərilmişdir.

Henrix İohann Hübşman Naxçıvan toponimini Nuh peyğəmbərlə bağlı *"dünya tufanı"* hadisəsi ilə əlaqələndirir. Onun fikrincə "Naxçıvan" toponimi "törəyiş yeri" anlamını verməkdədir. Hübşmanın istinad etdiyi Bibliyadakı Nuh tufanı hadisəsinə əsaslanan versiyanın başqa bir yozumuna görə "Naxçıvan" sözü üç hissədən – "*Nax*" (Nuh), türk dillərində isim düzəldən şəkilçi olan "*-çı*" şəkilçisi və türk dilində yer, məkan bildirən "*van*" toponimik formatından ibarət olub, "Nuhçuvan" – Nuhçuların (Nuh tərəfdarlarının) məskəni", "*Nuhun diyarı*" deməkdir.

Yəhudi tarixçisi İosif Flavi Nuhun gəmisinin dayandığı yer olaraq "*Apobaterion*" (yun. Αποβατήριον) toponimini qeyd edir ki, bu toponim qramatik tərcümədə "Naxidjevan" kimi səsləndiyini deyir və "ilk dayanacaq" anlamını verir. Adı çəkilən toponim məhz müasir Naxçıvan şəhərinə aid edilir (5, 56).

Naxçıvan Azərbaycanın və Şərqin, hətta deyə bilərik ki, dünyanın ən qədim şəhərlərindən və ən qədim insan məskəni olmuşdur. "Naxçıvanın dünyanın ən qədim yaşayış məskəni olduğunu Dünya tufanı və Nuh peyğəmbərlə bağlı konkret faktik materiallar və maddi arxeoloji tapıntılar,

habelə xalq yaddaşında qorunub saxlanılmış mifoloji materiallar sübut edir" (13,30) Şəhərin tarixi minilliklərin dərinliklərinə gedib çıxır: arxeoloqlar burada eramızdan öncə II və I minilliklərə aid çoxlu maddi mədəniyyət əşyaları tapmışlar.

Yerli sakinlər Naxçıvanın yerində qədim yaşayış məskəninin yaranmasını Böyük Daşqından sonra xilas olmuş Nuh peyğəmbər haqqında rəvayətlə bağlayırlar. Əfsanəyə görə, Nuhun gəmisi quruya yan almazdan öncə üç dəfə Kiçik Qafqazın dağ zirvələrinə toxunmuş və Gəmiqayada dayanmışdır. Bu dağ Kiçik Qafqazda ən hündür dağdır ki, hündürlüyü 3906 metrdir. Zivəsi "Qapıcıq" adlanır. "Qapıcıq bəşəriyyətin yeni həyatına "açılan kiçik qapı", "giriş yeri" mənasını daşıyır" (6, 18).

Yerli sakinlər arasında dolaşan əfsanəyə görə, Nuh peyğəmbər daşqın çəkildikdən sonra burada ailəsi ilə, Ham, Sam, Yafəs adlı oğlanları ilə ömrünün sonuna qədər yaşamış və bu torpaqda da vəfat etmişdir. Akademik İsa Həbibbəyli uzun illik apardığı təhlil və tədqiqləri nəticəsində bildirir ki, Nuh tarixi şəxsiyyət olmuşdur. Gəmiqaya ətəklərindəki Qaranquş yaylağı – Nuh peyğəmbərin suyun çəkilib – çəkilmədiyini öyrənmək üçün əfsanəvi gəmidən buraxdığı və caynağında palçıq, yaxud dəfnə yarpağı geri dönən Qaranquşun adını əbədiləşdirən toponimdir (6, 18).

Son zamanlaradək Naxçıvanda yaşayan uzunömürlü ağsaqqallar, o cümlədən 106 il ömür sürmüş, "İstiqlal" ordenli, Əməkdar müəllim Lətif Hüseynzadə Nuh peyğəmbərin dəfn olunduğu yeri tanımış və o yerin müəyyənləşdirilməsi komissiyasında iştirak etmişdir. Realist məşhur rəssam Bəhruz Kəngərli "Nuhun qəbri" ni 1919-1920-ci illərdə 3 dəfə çəkmişdir (3, 18-19). Bu gün Nuhun qəbri Naxçıvanda Nuhdaban deyilən yerdədir və üzərində böyük məqbərə ucaldılmışdır.

Naxçıvanda tədqiqatlar aparmış böyük rus alimi Nikitin K.A. yazır ki, Nuh peyğəmbər Naxçıvan şəhərinin əsasını qoymuşdur (12, 111).

Y.A.Komenski qədim yunan filosofu İosif Flaviyə əsaslanaraq göstərir ki, Nuhun oğlu Sam ilk yaratdığı məktəbin adını "Skala" qoymuşdur ki, bu sonradan Avropaya yayılmışdır(8, Гл. 8, параграф 3. стр.23). "Skala" ilkin mənasında "pillə", "mərhələ" mənasını vermişdir. Rus dilində "Şkala"- "dərəcə", "mərhələ" deməkdir. Nuhun dövründə də pilləli, mərhələli məktəb yaradılmışdır. İngilis dilində məktəb mənasını verən "Skul", fransız dilində "Lekol", alman dilində "Şule", türk dilində "Okul", rus və belarus dillərində "Şkola" kəlmələri "Skala" sözündən əmələ gəlmişdir.

Həmçinin başqa dildən götürülmüş rus dilində işlənən "Skala" sözü qaya mənasında işlənməkdədir. Nuhun Gəmisi dağa deyil, məhz qayaya - Gəmiqayaya yön almış, orada dayanmışdır. Bəs bu ad – "Skala", Şkola" Şumerlərə necə gedib çıxmışdır ki, yunanlar da bunu oradan götürmüşlər.

Tarix kitablarında göstərilir ki, Şumerlərlə Arattalıların həmişə sıx əlaqələri, xüsusilə, müntəzəm olaraq sıx ticarət əlaqələri olmuşdur. Naxçıvan da Aratta, sonralar Manna dövlətinin tərkibində olmuşdur. Naxçıvan duzu at arabaları ilə Şumerlərə daşınmış və oradan əvəzində lacivərd alıb gətirmişlər. "Şumerlər duza yüksək dəyər vermiş və duza səcdə etmişlər" (7, 125). O zaman məşhur "Duz yolu" mövcud olmuş, Naxçıvan duzu nəinki Şumerlərə bütün Şərqə, Osmanlı dövlətinə daşınmışdır. Bu mübadilə mədəniyyətlərin də mübadiləsinə təsir etmişdir.

Fransız alimi Katerina Marro yazır: "Naxçıvandakı Duzdağının duzu m.ö. 4 mininci illərdə belə geniş şəkildə işlənmişdir" (11, 25). Osmanlı arxiv sənədlərində də göstərilir ki, Naxçıvan duzu müxtəlif ticarət yolları vasitəsilə ayrı-ayrı şəhərlərə daşınmışdır. "Osmanlı ordusunun yemək xərcləri hesablanarkən, Naxçıvandan alınan duza sərf edilən vəsaitin miqdarı göstərilir" (10).

İki təkərli, dörd təkərli at arabalarının rəsmini biz Gəmiqayada aydın şəkildə görürük. Qayalarda həkk olunan başında papaq, əynində kürk, ayağında çəkmə olan at üstündə atlının rəsmi hələ o dövrün peşələrindən xəbər verir. İnsan ağlı təkəri kəşf edərək araba yaratmışdır. Bu qədim insanımızın yüksək zəkası, biliyi sayəsində mümkün olmuş, o kürk toxumuş, papaqçılıq, çəkməçilik kimi peşələrə yiyələnmişdir. Bizim insan vəhşi atı əhliləşdirmiş, sürət əldə etmiş, hündürə qalxaraq idarəçilik etmişdir. Mənbələrdə göstərildiyi kimi tarixdə atı əhliləşdirən ilk dəfə türklər olmuşdur. Demək bu yerlər qədim türk- oğuz yurdu olduğu bilinməkdədir.

Tədqiqatçı Şümeroloqlar – amerikalı Kramer, türkiyəli İlmiyyə Müəzzəz apardıqları tədqiqatlara əsasən bildirirlər ki, Şumerlər özlərinə Kəngər deyirdilər. Kəngər tayfaları isə Naxçıvandadır. Bu tayfa öz cəngavərlikləri ilə, şücaətləri ilə tarixdə məşhurdurlar. Generel Naxçıvanskilər, Naxçıvan xanları Kəngərli tayfalarıdır.

Görkəmli Qazax alimi, şairi, türkoloq Oljas Süleymenov "Az-ya" əsərində türk xalqlarına məxsus maraqlı bir məlumatı yazır ki, onun bilavasitə xalqımızın yazı mədəniyyəti ilə bağlılığı vardır: "Eramızdan əvvəl III əsr Çin salnaməçisi göstərir ki, Kanqyu ("Kanqlı") xalqı ənənəvi Çin yazısından fərqli olaraq eninə - horizontal xətlə yazılar yazırmış" (15, 134). Kanqlı tayfası bu gün Azərbaycanda yaşayan Kəngərlilərin qədim adıdır. Onlar barədə hələ bizim eradan əvvəl I əsrdə və bizim eranın I əsrində, Flavi, Strabon və Plini yazmışdır. Eramızın ilk əsrlərində Çin, Bizans, Alban, ərəb tarixçiləri öz əsərlərində Kəngərlilər haqqında maraqlı məlumatlar vermişlər. Kəngərlilər "Kitabi-Dədə-Qorqud"da "Qanlı", "Kanqlı" adı altında xatırlanır."Qanlı qoca oğlu Qanturalı boyu"nda (9,183) "Qanlı"- "Kanqlı" kəlməsindəndir. Dədə Qorqudda deyilir: "Bu qədim soyköklərdən biri olan kəngərlilərin qədim adıdır (9, 261).

Gəmiqaya ilə bağlı Şumer və Naxçıvan əfsanə və rəvayətləri demək olar ki, eyniyyət təşkil edir. Bütün bunlar onları deməyə əsas verir ki, Naxçıvan qədim mədəniyyət, elm, təhsil mərkəzi olmuş, burada sistemli təlim, yazı və oxu mədəniyyəti olmuşdur. Tədqiqatçı alim Əjdər Fərzəli öz dəyərli kitabında yazır:

"Gəmiqayalıların 32 hərfdən ibarət əlifbaları olmuş. Onların 9-u sait, 23 –ü isə samit olmuşdur. Hərflər müstəqil şəkildə həm də müəyyən bir sözü ifadə edir. Bu əlaməti Orxon Yenisey əlifbasında da görmək olur (2, 328). "Gəmiqayadakı təsvirlərin özü sübut edir ki, burada yüksək inkişaf etmiş mədəniyyət olmuşdur. Buradakı yazılar, işarələr, rəsmlər istedadlı rəssamlar və bilicilər tərəfindən çəkilmiş nadir sənət inciləridir. Bu rəsmlər qayaların köksündə bədii, həndəsi-riyazi dəqiqliklə qazılmış, həkk edilmişdir. Bunların hamısı sözlü işarələrdir və Tanrıçılıq - yaradılış inamını yer-göy əlaqələrini, kosmik düşüncəni əks etdirir... Gəmiqaya yüksək inkişaf mədəniyyətinin bir göstəricisidir" (6,50). Bu rəsmləri yaratmaq, iki təkərli, dörd təkərli arabalar kəşf etmək, atlı rəsmində gördüyümüz kimi atlının başında papaq, ayağında çəkmə, əynində kürk, yaxud da müqəddəs mənbələrdə göstərildiyi kimi üzüm suyundan – şərab hazırlayaraq Nuhun istifadə etməsi və s. o deməkdir ki, burada insanlar hərtərəfli bilik qazanmış, mənalı, məzmunlu bir elm, təhsil həyatı keçirmişlər.

## ƏDƏBİYYAT


1. Əliyev Heydər. Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin yaradılmasına həsr olunmuş müşavirədə nitq Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi.Bakı, Nurlan, 2005
2. Аждар Фарзали. Ноев Ковчег и Гямигая –Гобустанский алфавит. Баку, 2014
3. Бехруз Бек Кенгерли. Каталог. Баку, 1947
4. Əliyev V.Q. Gəmiqaya abidələri. Bakı, Azərbaycan Dövlət nəşriyyatı. 1992
5. Flavius Josephus, William Whiston, Paul L. Maier - The new complete works of Josephus, Revised and expanded edition, Kregel Academic, 1999, 56)
6. Həbibbəyli İ. Ə. Nuhdaban oturaq məkanı və Duzdağ şəhərətrafı mədəniyyəti. Naxçıvan, İlkin şəhər və Duzdağ Beynəlxalq Simpozium. 27-28 iyul, 2012-ci il, Naxçıvan, 2013
7. İsayev E. Naxçıvan şəhər mədəniyyətinin formalaşmasıvə inkişafında ticarət və sənətkarlığın rolu. Naxçıvan: İlkin şəhər və Duzdağ"Beynəlxalq Simpozium. 27-28 iyul, 2012-ci il. Naxçıvan, 2013
8. Коменский Я.А. Великая дидактика. Москва, Просвещения, 1999.
9. Kitabi Dədə Qorqud. Bakı, Yazıçı, 1988

10. Kirzioğlu Fahrettin. Osmanlıların Kafkas Ellerini Fethi (1451-1490). T.T.K.Basımevi, Ahkara,1993, s.100-120
11. Marro K. Duzdağında duz mədənçiliyinin başlanğıcı haqqında”. Naxçıvan, İlkin şəhər və Duzdağ”Beynəlxalq Simpozium. 27-28 iyul, 2012-ci il. Naxçıvan, 2013
12. Nikitin K.A. Naxçıvan şəhəri və Naxçıvan mahalı. “Qafqaz ərazilərinin və tayfalarının təsviri üçün materaillar” məcmuaəsi. Tiflis, 1882.II buraxılış
13. Mahmudov Y. Naxçıvan, Dünya sivilizasiyanın ən qədim mərkəzlərindən biri. Naxçıvan, İlkin şəhər və Duzdağ”Beynəlxalq Simpozium. 27-28 iyul, 2012-ci il. Naxçıvan, 2013
14. Oğuznamələr. Bakı, Bakı Universiteti nəşriyyatı, 1993
15. Süleymenov O. Az-Ya.Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1993

**ABSTRACT**

**R.L.Huseynzadeh**

**Skala - space history of education**

Rich cultural cradle of Nakhchivan is one of the oldest human settlements . The ancient monuments, historic sites, shows that it is one of the cultural centers of space. Noah's Ark to the side of Nakhchivan Gamigaya sources . Noah's son opened the first school in the area sources. According to reliable sources (the works of Josephus, Claudius Ptolemy, John Amos Comenius, etc.) says that Noah's son Sam opened the school in Nakhchivan Gyamigaya- after the historic flood of Noah.

**РЕЗЮМЕ**

**Р.Л.Гусейнзаде**

**Скала - пространство история образования**

Богатое культурное традиция Нахчыване дает основание что с древних времен здесь были писменность, школа и системное образования. Нахчыван является одним из старейших населенных пунктов мира. Древние памятники, много исторические места, Гроб пророк Ноя и др. показывает, что Нахчыван является одним из культурных центров мира.

Наскальные рисунки Гямигая в Нахчыване увековечив следы очень богатой и очень древней культуры, дошли до наших дней. Гямигая и сегодня образец высокой культуры мира. Гямигая является самым древним прописным алфавитом мира. Гямигая и Орхон – Енисейский алфавиты связанные друг с другом, а также созданные самостоятельно. Построении шумерско-тюркского алфавита с Гямигая одиноково. Это значит культура Гямигая и Шумерская культура тесно связано друг с другом и влияя друг друга развито вместе.

По надежных источниках (труды Иосиф Флавий, Клавдии Птоломей, Ян Амос Коменский и др ) говорится что сын Ноя Сем открыл школа в Гямигая- Нахчыване после исторического Потопа Ноя.

NDU-nun Elmi Şurasının 30 mart 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

**XƏZƏR HÜSEYNOV**
*Naxçıvan Dövlət Universiteti*
*xezerhuseynov@gmail.com*

**UOT: 94 (479.242)**

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA KARTOFÇULUĞUN İNKİŞAFI TARİXİNDƏN

**Açar sözlər:** *Naxçıvan, kənd təsərrüfatı, maddi-texniki baza, kartofçuluq, iqlim şəraiti*
**Key words:** *Nakhchivan, agriculture, material-technical base, potato-growing, climate condition*
**Ключевые слова**: *Нахичеван, сельское хозяйство, материально-техническая база, картофелеводство, климатические условия*

Mənbələrin vermiş olduğu məlumata görə, tarixən aqrar diyar olan Naxçıvanda pomidor, bibər, kortof və badımcanın əkilmə tarixi 2 min il, kələm xiyar, qovun, qarpız, soğan, sarımsaq və s. bitkilərin əkilmə tarixi isə təqribən 4 min ildən artıqdır. Təbiidir ki, bu bitkilərin inkişafı heç bir zaman təsadüfi xarakter daşımamışdır.

Məlumdur ki, əhali tərəfindən ən çox işlədilən ərzaq məhsullarından biri də kartofdur. Naxçıvanda 1917-ci ilə qədər hər il 700 hektar kartof əkilirdi. İstehsal olunan kartof böyüklüyü və yüksək keyfiyyəti ilə fərqlənirdi. O zaman kartof indiki Ordubad rayonunun Xürs, Ələhi, Nəsirvaz, Tivi, Bist, Parağa, Çənnəb, Biləv və sair, Culfa rayonunun Ərəfsə, Başkənd, Ortakənd, Milax, Noraşen, Bənəniyar və Krna kəndlərində əkilərək ondan xeyli məhsul götürülürdü (6, s.15).

Son illərin təcrübəsi göstərir ki, qədim diyarımızın əksər kəndlərində bu bitki qayğı ilə becərilərsə, istənilən nəticəyə nail olmaq mümkündür. Kartof çox mühüm ərzaq bitkisidir. Onun tərkibində quru maddələr buğda, arpa, çovdar və yulafın tərkibində olduğundan təqribən 2,5-3 dəfə çoxdur. Ərzaq balansında taxıldan sonra kartof ikinci yeri tutur. Hər bir insan il ərzində təqribən 100-110 kq kartof yeməlidir. Apardığımız hesablamaya görə muxtar respublikanın əhalisi üçün perspektivdə 14-15 min ton kartof tələb olunur. Elm və təcrübə göstərir ki, kartof həm də heyvanların yemlənməsi üçün sərfəli məhsuldur. Kartof emal edildikdən sonra onun qalığı da heyvanlar üçün yaxşı yem ehtiyatı kimi istifadə olunur. Bir ton kartofda 295 yem vahidi vardır.

Naxçıvanda Sovet hakimiyyəti qurulandan sonra kənd təsərrüfatının digər sahələri kimi kartofçuluğun inkişafına da fikir verilməyə başladı. 1920-30-cu illərdə Naxçıvan MSSR-da olduqca az kartof əkilirdi. Əkilən məhsul əhalinin tələbatını ödəmirdi. Buna görədə II Dünya müharibəsindən sonrakı dövrdə Naxçıvan MSSR kolxozlarında kartof əkin sahəsi xeyli genişləndirilmişdi. 1940-cı ilə nisbətən kartof əkin sahəsi 1946-cı ildə 130,8 faiz, 1950-ci ildə 217,9 faiz, 1955-ci ildə 225,1 faiz olmuşdu. Muxtar respublikada kartof əkin sahəsinin genişləndirilməsilə yanaşı olaraq eyni zamanda onun məhsuldarlığı da artırılmışdır. Belə ki, kartofun məhsuldarlığı 1940-cı ilə nisbətən 1946-cı ildə 198,9 faiz, 1950-ci ildə 215,0 faiz, 1955-ci ildə 268,8 faiz olmuşdu (5, s.128-129). Buna baxmayaraq muxtar respublikanın bütün təsərrüfatlarında istehsal edilən kartof faktiki tələbatdan az olmuşdu. Naxçıvan MSSR əhalisinin kartof məhsullarına olan tələbatı əsas etibarı ilə Azərbaycan SSR rayonlarının, xüsusilə Gədəbəyin hesabına ödənilirdi.

"Kartof və tərəvəz istehsalını və tədarükünü artırmaq haqqında" keçmiş Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 1956-cı il 30 yanvar tarixli 146 №-li qərarına və Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin 1956-cı il 15 mart tarixli 123 №-li qərarına başqa regionlar kimi Naxçıvan MSSR-də də böyük diqqət yetirilmişdir.

Muxtar respublikanın kolxozlarında 1958-ci ildə əkilmiş 94 hektar kartof əkin sahəsindən 475

ton məhsul istehsal edilmişdir (7, s.54-57). Qeyd etmək lazımdır ki, 1950-ci ildə muxtar respublikada 38 hektar kartof əkin sahəsi olduğu halda, bu rəqəm 1958-ci ildə 141 hektara çatdırılmışdı. O cümlədən muxtar respublikanın kolxozlarında 1950-ci ildə 24 hektar kartof əkin sahəsi olduğu halda, 1958-ci ildə 94 hektar kartof əkin sahəsi olmuşdur. Deməli, 1950-ci ilə nisbətən 1958-ci ildə muxtar respublikanın kolxozlarında kartof əkini 70 hektar artırılmışdı.

Muxtar respublikada kənd təsərrüfatı bitkilərinin planlaşdırılması düzgün aparılmadığına görə 1958-ci ildən sonra kartof əkin sahəsi və məhsuldarlığı çox azaldılmışdı. Belə ki, muxtar respublikanın kolxozlarında 1959-cu ildə 84 hektar sahədə kartof əkildiyi halda, 1963-cü ildə cəmi 27 hektar kartof əkilmişdi (7, s.54).

Muxtar respublikanın dağlıq və dağətəyi zonasının torpaq-iqlim şəraiti kartofun çox geniş sahələrdə inkişafı üçün əlverişlidir. Naxçıvan əyalətində yaşayan əhalinin kartofa olan ehtiyacı yerli istehsal hesabına ödənilirdi. Lakin bütün imkanların olmasına baxmayaraq 60-cı illərdə ictimai təsərrüfatlarda kartof əkininə çox az fikir verilmişdi. Belə ki, 1965-ci ildə bütün təsərrüfat dərəcələrində muxtar respublika üzrə cəmi 70 hektar sahəyə, 1969-cu ildə isə 86 hektar sahəyə kartof bitkisi əkilmişdir. Halbuki muxtar respublikanın kəndlərində kartof əkini sahəsini genişləndirmək üçün kifayyət qədər torpaq ehtiyatı vardır (8, s.38).

Təbii şəraitdən asılı olaraq tezyetişən kartof sortunun vegetasiya müddəti 60 gündən 90 günə qədərdir. Gecyetişən kartof sortunun vegetasiya müddəti isə 110-120 gün və daha çoxdur. Kartof çox zəhmət tələb edən bitkidir. Bir hektar dənli bitki əkininə təqribən 10-12 iş günü, bir hektar kartof əkininə isə 60-80 iş günü sərf edilir. Xüsusilə kartofun becərilməsi və yığılması daha çox əmək tələb edir. Hesablamalar göstərir ki, bir hektar kartof sahəsinə toxum basdırılması, becərilib yetişdirilməsi və yığılması işləri adam və at qüvvəsi ilə götürüldükdə 57 adam-günü, həmin sahənin kvadrat-yuva üsulu ilə SKQ-4 markalı maşınla basdırılıb, cərgələrarası traktorla becərilib məhsulu kartofyığan kombayn vasitəsilə yığıldıqda 5,6 adam-gün tələb olunur, yəni əmək məsrəfi təqribən 10 dəfə azalır. Beləliklə, kartof istehsalını yüksəltməkdən ötrü əmək prosesinin mexanikləşdirilməsinə, aqrotexniki tədbirlər kompleksinin: dərin donvurma şumu aparılmasına, kartofun kvadrat-yuva üsulu ilə basdırılmasına, cins toxumlar əkilməsinə, düzgün gübrələmə sistemi tətbiq edərək kartof bitkisinə lazımi qulluq göstərilməsinə ciddi fikir verilməlidir.

Araşdırılan dövrdə Naxçıvan MR-da kartof bitkisinin istehsalı tələbatından çox geri qalırdı, kartofun məhsuldarlığının əhəmiyyətli dərəcədə artmasına baxmayaraq bu bitkinin məhsuldarlığının ümumi səviyyəsi çox aşağı olmuşdur.

Naxçıvan MR-da kartof bitkisinin istehsalının geri qalmasının səbəbi, burada əsas işlərin mexanikləşdirilməməsi, əkinin məhsuldarlığı aşağı olan toxum növləri ilə aparılması və əkinlərə mineral gübrələr verilməməsi idi.

Məlum olduğu kimi sovetlər birliyi dövründə muxtar respublikada kartof əkinləri çox az sahəni əhatə edirdi. Planlı iqtisadiyyatın tələbləri fonunda muxtar respublikada kartofa olan tələbat əsasən müxtəlif respublikalardan, xüsusilə Ukraynadan idxal olunmuş məhsul hesabına ödənilirdi. Bu gün bu sahənin strateji əhəmiyyəti, mətbəximizdə həmin məhsuldan istifadənin yüksək xüsusi çəkisi, əhalinin səmərəli məşğulluğu, taxıldan sonra ikinci çörək məhsulu hesab olunan və daxili bazarın dikdə etdiyi zəruri amillər nəzərə alınmaqla kartof istehsalının artırılması müntəzəm əsasda dəstəklənir. Digər tərəfdən isə bu gün dünya bazarlarına çıxarılan kartofun 80 faizinin transgen məhsul olması yerli istehsalın gücləndirilməsinin ən doğru seçim olduğunu təsdiqləməkdədir.

Müstəqillik illərində muxtar respublikada kartofçuluğu inkişaf etdirmək məqsədi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 11 aprel 2005-ci il tarixli sərancamı ilə təsdiq olunmuş “Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı (2005-2010-cu illər)” respublikada kartofçuluğun inkişafı üzrə Dövlət Proqramının icrası ilə əlaqədar olaraq kartof əkini üçün əlverişli torpaq sahələri müəyyənləşdirmişdir (1, s.117). Proqramın qəbulundan ötən müddətdə böyük uğurlara imza atılıb. Torpaqlardan səmərəli istifadəni, bu sahədə ilkin mərhələ üzrə investisiyaların təşviqini, müxtəlif xidmət mərkəzlərinin yaradılması ilə bağlı məqsədyönlü tədbirlərin həyata keçrilməsini, daxili bazarın qorunması ilə yanaşı təlabata uyğun keyfiyyətli məhsul istehsalının dəstəklənməsini və sair bu kimi zəruri tədbirləri qarşıya vəzifə kimi qoymuş və konktet icra mexanizmləri müəyyənləşdirilmişdir (2, s.39).

Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üçün əlverişli təbii şəraitin olması nəzərə alınaraq Şərur, Ordubad, Culfa, Şahbuz, Kəngərli və Babək rayonları üzrə sahibkarlara güzəştli kreditlər ayrılmış və müafiq texnikalar verilmişdir. Həyata keçirilən tədbirlər öz səmərəsini vermişdir. 2005-ci ildə əvvəlki 2004-cü illə müqayisədə 388 hektar çox, yəni 1990 hektar kartof əkilmiş, 26 min 318 ton kartof yığılmış, məhsuldarlıq hər hektardan 132 sentner olmuşdur. Məhsul istehsalı 2004-cü illə müqayisədə 9 min 260 ton, hər hektardan məhsuldarlıq isə 26 sentner artmışdır (9, s.65).

Göründüyü kimi son illərdə muxtar respublikada kartofçuluğun inkişafına diqqət və maraq xeyli artıb. Kartofçuluq həm intensiv, həm də ekstensiv yolla inkişaf etdirilir. Əldə olunan naliyyət ondan ibarətdir ki, muxtar respublika kartofçuları bir ildə sahələrdən iki dəfə məhsul toplamaq təcrübəsinə yiyələniblər. Akademik Həsən Əliyev adına "Araz" Elmi-istehsal birliyinin yardımçı təcrübə təsərrüfatında aparılan sınaqlar öz müsbət nəticəsini vermişdir. Artıq bir neçə ildir ki, kartof yay əkinləri Babək, Şərur, Kəngərli və Sədərək rayonlarında müvəffəqiyyətlə həyata keçirilir.

Son illərdə muxtar respublikada kartofçuluğa maraq artıb, kartof əkin sahələri xeyli genişləndirilib. Bu da ondan irəli gəlir ki, kartof əhali üçün ərzaq, istehsalçı üçün gəlir mənbəyidir. Demək olar ki, 1996-cı ildə muxtar respublikada 735 hektar sahədə kartof əkilmiş və cəmi 5 min ton məhsul istehsal olunmuşdur. 2008-ci ildə isə muxtar respublikada 2 min 513 hektar kartof əkilmişdi ki, bu da 2004-cü illə müqayisədə 1045 hektar, yaxud 71% çoxdur. (10, 4 sentyabr 2008).

Tədqiqat zamanı aydın olmuşdur ki, Dövlət Proqramına uyğun olaraq həyata keçirilən tədbirlər öz bəhrəsini verir. Təkcə bir faktı qeyd etmək olar ki, 2008-ci ildə Sahibkarlığa Kömək Fondunun xətti ilə 62 sahibkara 207 min 800 manat həcmində kredit verilmişdir. Bundan başqa, kartof istehsalı üçün "Naxçıvan Kredit" Bank Olmayan Kredit Təşkilatı Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 244 min 450 manat, kredit ittifaqları və birgə borc alan qrupları üzrə 110 min 800 manat, "Aqrarkredit" Səhmdar Kredit Təşkilatının Naxçıvan filalı tərəfindən 3 min manat həcmində kreditin verilməsi təmin edilmişdir (10, 4 sentyabr 2008).

Dövlət proqramına uyğun olaraq 2008-ci ilin iyul ayının 11-də akademik Həsən Əliyev adına "Araz" Elmi-istehsal Birliyində keçirilən səyyar müşavirədə bu məsələ gündəmə gətirilmişdir. Müşavirədə Ali Məclisin Sədri Vasif Talıbov demişdir: "Muxtar respublikamızda kənardan hər il 7-8 min ton kartof gətirilir. Əgər bunu vəsaitə çevirsək görərik ki, dövlətimiz tərəfindən muxtar respublika sakinlərinə verilmiş xeyli miqdarda vəsait xarici bazarlara axıb gedir. Bu məhsullar yerli şəraitdə istehsal olunub daxili bazarda satılarsa, həmin vəsait də muxtar respublika daxilində qalar. Yerli məhsulun daxili bazarda satışından isə hər iki tərəf bəhrə götürmüş olar" (10, 11 iyul 2008).

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 11 aprel tarixli sərəncamı ilə təsdiq olunmuş 2005-2010-cu illəri əhatə edən "Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı" nın icrası 2010-cu ildə uğurla başa çatdırılmışdır. Proqramda nəzərdə tutulan tədbirlərin icrasının nəticəsidir ki, son illər muxtar respublikada kartof istehsalı üzrə müsbət dinamikaya nail olunmuş və 2010-cu ildə 2740,5 hektar sahədə kartof əkilmişdir. Kartof əkin sahələrindən 37901 ton məhsul tədarük edilmişdir ki, bu da 2004-cü illə müqayisədə 2,2 dəfə və ya 20 min 843 ton, 1988-ci illə müqayisədə isə 38 dəfə və ya 36 min 896 ton artıq deməkdir (3, s.13).

Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üçün əlverişli şəraitin olması nəzərə alınaraq sahibkarlara güzəştli kreditlər ayrılmış və müafiq texnikalar verilmişdir. Təkcə bir faktı qeyd etmək olar ki, 1995-ci ildə muxtar respublikada kartof istehsalının adambaşına göstəricisi 1,2 kiloqram olduğu halda 2010-cu ilin yanvar avqust ayları ərzində bu göstərici 72 dəfə artaraq 86 kiloqrama çatmışdır (1, s.118).

Bu gün Dövlət proqramının qarşıya qoyduğu tələblərə ciddi əməl olunur və muxtar respublikada hər il kartof əkin sahələri genişləndirilir məhsuldarlıq hər hektardan orta hesabla 350-400 sentner məhsul götürülür və bu daxili bazarda xalqın tələbatını ödəyir.

2012-ci ildə muxtar respublikada əkinçiliyin digər sahələrində də yüksək nəticələrə nail olunmuşdur. Bu sahədən kartofçuluqda qazanılan nailiyyətlər də ilin uğurlu nəticəsi sayıla bilər.

Belə ki, 2013-cü təsərrüfat ilində 2957 hektar sahədə kartof əkilmişdir. Əkin sahələrindən 41 min tondan çox məhsul götürülmüş, kartof istehsalı keçən illə müqayisədə artırılmışdır (10, 29 dekabr 2013).

Bütün illərdə olduğu kimi 2014-cü ildə də tələbata uyğun olaraq kartofçuluğun inkişafında da müsbət dinamika saxlanılmışdır. 2014-cü ildə 2962 hektar sahədə kartof əkini aparılmış və sahələrdən 41405,5 ton kartof yığılmışdır ki, bu da bir il öncəki göstəricini 109 ton üstələyir (4, s.9).

Muxtar respublikada əhalinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi üzrə həyata keçirilən tədbirlər "Kənd təsərrüfatı ili" elan edilmiş 2015-ci ildə də diqqətdə saxlanılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədri tərəfindən təsdiq edilmiş 2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair və 2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə dövlət proqramlarının uğurlu icrası dinamik inkişafa təkan vermiş, məhsul istehsalının həcmi əhəmiyyətli dərəcədə artırılmışdır. Belə ki, 2015-ci ildə bitkiçilik məhsulları istehsalının həcmi 2008-ci ilə nisbətən 2,7 dəfə artaraq 256 milyon 82 min manata çatmışdır. Məhsul istehsalçılarının kənd təsərrüfatı maşın və mexanizmləri ilə təchizatı davamlı olaraq yaxşılaşdırılmaqdadır. Həyata keçirilən tədbirlərə uyğun olaraq "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 180 ədədi 2015-ci ildə olmaqla, cəmi 1685 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq muxtar respublikaya gətirilmişdir. 2015-ci ildə 187 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və avadanlıq güzəştli şərtlərlə lizinq yolu ilə məhsul istehsalçılarına verilmişdir. Bitkiçiliyin inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 15 aprel tarixli Sərəncamı ilə kənd təsərrüfatı məhsullarının istehsalçılarına hər hektar əkin sahəsinin becərilməsində və çoxillik əkmələrin aparılmasında istifadə etdikləri yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına verilən yardımın həcmi 25 faiz artırılaraq 50 manata çatdırılmışdır. 2015-ci ildə məhsul istehsalçıları 6024,7 ton mineral gübrə ilə təmin olunmuşlar. Tələbata uyğun olaraq kartofçuluğun inkişafında da müsbət dinamika saxlanılmışdır.

2015-ci ildə 2967 hektar sahədə kartof əkini aparılmış və 45 min 43 ton kartof yığılmışdır ki, bu da bir il öncəki göstəricini 8,8 faiz üstələyir (10, 17 dekabr 2015).

Statistik rəqəmlərdən və göstərilən tədbirlərin həyata keçirilməsi göstərir ki, muxtar respublikada yüksək məhsul verən kartof bitkisinin istehsalını daha da artırmaq olar. Bunun üçün Naxçıvan Muxtar Respublikasındada imkanlar vardır.

Muxtar respublikada bu sahəyə göstərilən dövlət dəstəyi və qayğı nəticəsində kartof əkin sahələri xeyli genişləndirilmiş bu sahələrdən alınan məhsuldarlıq yüksəlmişdir. Bu da nəticədə əhalinin kartof məhsullarına olan tələbatını ödəmişdir

## ƏDƏBİYYAT


**1.** Həbibbəyli İ., Hacıyev İ., İsmayılov B. İntibahın 15 ili. Naxçıvan, "Əcəmi" NPB, 2010, 279 s

**2.** 2000-2005-ci ildə Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişaf. Naxçıvan, "Əcəmi" NPB, 2006, 70 s

**3.** 2010-cu ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan, "Əcəmi" NPB, 2011, 96 s

**4.** 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının xülasəsi. Naxçıvan, "Əcəmi" NPB, 2015, 71 s

**5.** Qəhramanov R.C. Naxçıvan MSSR-də kənd təsərrüfatı və onun inkişaf etdirilməsi yolları. Bakı, Elimlər Akademiyası nəşriyyatı. 1957, 216 s

**6.** Qəhramanov R.C. Naxçıvan MSSR-də kənd təsərrüfatının yerləşdirilməsi və ixtisaslaşdırılması. Bakı, Azərnəşr, 1967, 194 s

**7.** Naxçıvan MSSR Xalq Təsərrüfatının inkişafı. Statistik məcmuə. Bakı, Birləşmiş nəşriyyat mətbəəsi. 1964. 142 s

**8.** Naxçıvan MSSR Xalq Təsərrüfatının inkişafı. Statistik məcmuə. Naxçıvan, Naxçıvan statistika idarəsi. 1981, 91 s

**9.** Şahverdiyev Z.Ə., Zeynalov İ.Ə. Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi və mədəni inkişaf (2001-2012-ci illər). Naxçıvan, "Əcəmi" NPB, 2014, 248 s
**10.** "Şərq qapısı" qəzeti

**ABSTRACT**

**Khazar Huseynov**

**The history of the development of the potato growing at Nakhchivan Autonomous Republic**

As this and other articles, the topic of development of potato growing at Nakhchivan Autonomous Republic create scientific interest. At the article the history of the development of the potato growing at Nakhchivan Autonomous Republic is researched. The research works prove that Nakhchivan land and climate is suitable for the development of the potato growing.

As is known, during the Soviet power years potato crops covered a very small area at the Autonomous Republic.

But in the years of independence in order to develop the potato growing at the autonomous republic, Chairman of the Supreme Majlis of the Nakhchivan Autonomous Republic gave order on April 11, 2005, and State Program (2005-2010) on development of potato growing at Nakhchivan Autonomous Republic identified suitable land areas for potato planting.

Taking into consideration the favorable natural conditions for the development of potato growing at Nakhchivan Autonomous Republic provided soft loans to entrepreneurs and given the proper techniques by Sharur, Ordubad, Julfa, Shahbuz, Kangarli and Babek regions.

At the article achievements and statistical yearbooks published which have in the development of potato growing at Nakhchivan Autonomous Republic, and has been included in the scientific revolution using different authors' works, articles and periodic press.

**РЕЗЮМЕ**

**Хазар Гусейнов**

**История развития картофелеводства в Нахчыванской Автономной Республике**

Как видно из этого и других статей, тема развития картофелеводства в Нахчыванской Автономной Республике создать научный интерес. В статье рассматривается история развития картофеля растет на НАР исследуется. Научно-исследовательские работы доказывают, что Нахчыван земля и климат подходит для развития выращивания картофеля. Как известно, во время советской власти лет картофельных культур покрыта очень небольшую площадь на Автономной Республике.

Но в годы независимости в целях развития выращивания картофеля в автономной республике, председатель Верховного Меджлиса Нахчыванской Автономной Республики отдал приказ 11 апреля 2005 г., а Государственной программы (2005-2010) по развитию картофелеводства в НАР определены подходящие земельные участки для посадки картофеля.

Учитывая благоприятные природные условия для развития картофелеводства в Нахчыванской Автономной Республике условии льготных кредитов предпринимателям и дали правильные методы по Шаруре, Ордубада, Джульфе, Шахбуз, Кенгерли и Бабек регионов.

В достижений статей и статистических сборниках, изданных которые имеют в развитии картофеля растет на НАР, и была включена в научный оборот с использованием работы различных авторов, статьи и периодические издания,.

---

NDU-nun Elmi Şurasının 30 mart 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

**ZEYNƏB QULİYEVA**
*AMEA Naxçıvan Bölməsi*
*zeyneb_guliyeva@yahoo.com.tr*

**UOT: 94 (479.242)**

# 2015-Cİ İLDƏ I KÜLTƏPƏ YAŞAYIŞ YERİNDƏN AŞKAR EDİLMİŞ SÜMÜK ALƏTLƏR

**Açar sözlər:** *I Kültəpə, Son Neolit, sümük alətlər, toxa, əkinçilik*
**Keywords:** *Kultepe I, Late Neolithic, bone artifacts, hoe agriculture*
**Ключевые слова:** *Кюльтепе I, Поздний Неолит, костяные орудие, мотыга, земледелие*

Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən fundamental arxeoloji abidələr içərisində xüsusi yeri olan I Kültəpə unikal arxitektonikası ilə diqqəti cəlb edir. Abidənin stratiqrafiyası Neolitdən başlayaraq Eneolit, Tunc və Erkən Dəmir dövrünə qədər davam edən böyük bir zaman kontekstini əhatə edir. Naxçıvançayın sol sahilində yerləşən bu abidədə XX əsrinortalarından başlayaraq sistematik arxeoloji qazıntılar nəticəsində 22,2 m qalınlığında olan 4 mədəni təbəqədən [5, 17-20] Şərq ölkələri üçün səciyyəvi olan çiy kərpic və möhrə memarlığını əks etdirən tikinti qalıqları, gil məmulatı, mədəni dənli bitki nümunələrinin üzə çıxarılması abidənin bütün Qafqazda ilkin istehsal təsərrüfatına aid ilk abidə kimi fövqəladə əhəmiyyətini [2, 21] ortaya qoymaqla yanaşı yerli tayfaların həyat tərzi və məşğuliyyəti haqqında da müəyyən təsəvvür yaratmışdır.

Son illərədək Naxçıvanın yeganə Neolit abidəsi hesab edilən I Kültəpənin alt qatlarının kifayət qədər öyrənilməməsi [8,135]abidənin yenidən tədqiqat obyekti olmasına zərurət yaratmışdır. 2013-2015-ci illərdə I Kültəpə yaşayış yeri və çevrəsində aparılan arxeoloji tədqiqatlar[1] zamanı götürülən kömür analizlərinin nəticəsi 6100-5200-cü illəri göstərməklə, abidəninNaxçıvan Neolitinin araşdırılmasında mükəmməl bir baza olduğunu təsdiq etdi.

Neolit dövrü tayfalarının həyat tərzi, sosial-iqtisadi vəziyyəti, məşğuliyyəti haqqında geniş təsəvvür yaratmaq iqtidarında olan bu tapıntılar içərisində müxtəlif heyvan sümüklərindən hazırlanmış alətlərin özünəməxsus rolu var.

2015-ci ildə I Kültəpə yaşayış yerinin Neolit təbəqəsindən üzə çıxarılan sümük məmulatları toxa, biz, iynə, sıyırğac və digər alətlərdən ibarətdir. Onları funksiyasına görə iki əsas qrupa bölmək olar.

1. Təsərrüfat alətləri
2. Məişət alətləri

Birinci qrupa daxil olan sümük alətlər içərisində toxalar xüsusi əhəmiyyət kəsb edir. Neolit və Eneolit dövrlərinin əsas əkinçilik alətlərindən olmaqla torpağın yumşaldılmasında, bəzən də bitki köklərinin qazılıb çıxarılmasında müstəsna əhəmiyyətə malik olmuşlar.

***Toxalar.*** Antropoloqlar tərəfindən maralın ön buynuzuna aid edilən bu alətlər iki nümunə ilə təmsil olunur. Onlardan biri 15.08.2015-ci il tarixdə E sahəsinin cənubunda aşkar edilən alətin fraqmentinə aid olub, ağ rəngli buynuzdan düzəldilmişdi (KT-15, E-74). Alətin uzunluğu 30 sm, eni isə 4-1 sm arasında idi. Uc hissəsi təqribən 5, 5 sm uzunluğunda itiləşdirilmiş və uzun müddətli istifadənin təsirindən cilalanmışdı. Digər hissəsi relyef ornamentə bənzər formada tilifli idi.

---

[1] 2013-2015-ci illərdə I Kültəpə və ətrfındakı abidələrdə arxeoloji tədqiqatlar AMEA NB-nin müxbir üzvü V.Baxşəliyevin rəhbərliyi altında AMEA NB-nin bir qrup əməkdaşı, o cümlədən bu sətirlərin müəllifinin də iştirak etdiyi ekspedisiyanın və Azərbaycan-Fransa arxeoloji ekspedisiyasının birgə layihəsi ilə həyata keçirilmişdir.

Bu əlamət yuxarıya doğru tədricən qalınlaşan hissədə daha aydın izlənilirdi. Belə ki, sınmış vəziyyətdə olan dəstək hissədən işlək tərəfə doğru uzanan paralel xətlər arasında yolka şəklində relyef naxışlar xüsusi çəkilmiş ornamentləri xatırladırdı. (Şəkil 1).




Şəkil 1. I Kültəpənin E sahəsindən tapılan ağ tilifli buynuz.

İkinci buynuz 26.08.2015-ci il tarixdə E sahəsinin cənub-şərqindəki E-117 nömrəli iri həcmliqabın altında qeydə alındı. 3 hissəyə parçalanmış buynuz birincidən fərqli olaraq, qırmızı rəngdə idi və bir qədər kiçik ölçülü idi (KT-15, E-137). Onun hamarlaşmış işlək tərəfi qurtaracaqda sınmış, digər tərəfinin xarici səthi hislənərək qara çillərlə örtülmüşdü. Bu alətin uzunluğu 20-25 sm, eni 3-1,5 sm arasında dəyişirdi(Şəkil 2).



Şəkil 2. I Kültəpənin E sahəsindən aşkar edilmiş II buynuz (2015).

Hər iki alətin aşkar edildiyi təbəqə əsasən Neolit dövrünə aid olduğundan həmin dövrdə qədim yerli sakinlərin onlardan torpağın yumşaldılmasında geniş istifadə etdiklərini göstərir. Qeyd etmək lazımdır ki, sümükdən və buynuzdan düzəldilmiş toxalar əvvəllər də I Kültəpədən aşkar edilmişdir [5, Tab. VII,1-2, 5]. Hazırda onların bir qismi Milli Azərbaycan Tarixi muzeyinin 6-7-ci vitrinlərində nümayiş etdirilən daş və sümük əmək alətləri içərisində mühafizə etdirilməkdədir [23]. Araşdırmalar göstərir ki, qədim əkinçilik mədəniyyətlərinin yayıldığı regionlarda buynuzdan düzəldilmiş müxtəlif tipli alətlər geniş yayılmışdır. Tovuz rayonunda yerləşən Göytəpə Neolit yaşayış yerindən üzə çıxarılan buynuzdan düzəldilmiş, üzərində bir və ya bir neçə oyuqları olan qazma alətləri və toxalar bu fikri təsdiq edir. Sümükdən hazırlanmış toxalara Qazax rayonundakı Şomutəpə və Qarğalartəpəsi abidələrində də rast gəlinir [1, 27]. Buynuzdan və sümükdən hazırlanmış alətlər, toxalar əkinçiliyin əsas vətəni sayılan Mesopotamiyanın Neolit abidələrindən də aşkar edilmişdir [13, Рис. 3. 1-3,5]. Maral buynuzundan hazırlanmış toxalara Ukraynanın Neolit dövrünə aid Nezvisko yaşayış yerində,Neolitin inkişaf etmiş və son mərhələsinə aid Sur-Dnepr mədəniyyətinə aid olan materiallar arasında [7, 132], həmçinin Uzaq Şərqin Son Neolit abidələrindən Xankay ətrafı abidələrdən aşkar edilən əmək alətləri içərisində rast gəlinir [10, 31]. Bu tapıntılar Son Neolit dövründə əkinçiliyin aparıcı mövqeyini və bu sahədəsümükvə buynuzdan hazırlanmış toxalardan istifadə edildiyini göstərir. Onlara Azərbaycanın digər abidələrindən Qarğalartəpəsi, dənli bitkilər istehsalının mühüm yer tutduğu Xantəpə yaşayış yerində [2, 16] rast gəlinməsi toxaların uzun bir zaman kontekstində öz mövqeyini qoruduğunu göstərir. Neolit dövrünün əsas əmək alətləri sayılan bu alətlər əkinçilik mədəniyyətinin inkişafı ilə bərabər bu

dövrdə əhalinin oturaq həyat sürdüyünü də nümayiş etdirir. Uzun müddət eyni yerdə yaşamaq zərurəti insanları torpağın məhsuldarlığını nizamlamaq metodlarını öyrənməyə vadar etmişdir [12, 45]. Torpağın səmərəliliyinin artırılması üçün ən mühüm vasitə məhz buynuzdan, sümükdən və daşdan düzəldilmiş toxalar ola bilərdi. I Kültəpədən aşkar edilən buynuz-toxanın Türkiyənin Neolit abidələrindən olan Körtik təpədə rast gəlinən bənzəri qədim dəfn adətləri haqqında təsəvvür yaratmaq baxımından diqqəti cəlb edir (Şəkil 3, 2). Buradakı alət bükülü halda dəfn edilmiş skeletlə birlikdə aşkar edilmişdir [18, Fig. 6]. Buynuzdan hazırlanmış toxaların Neolit və Eneolit dövründə geniş yayılmasını Türkmənistanın Yılqınlıtəpə yaşayış yerindənaşkar edilən alətlərin timsalında da görmək olar [9, Рис. 8]. Onlar əsasən ağac dəstəklərin köməyi ilə tətbiq edilmişdir (Şəkil 3, 4).




Şəkil 3. I Kültəpədən aşkar edilmiş buynuz toxanın(1)Körtiktəpə(2), Yılqınlıtəpədəki sinxronları (3) və onların tətbiq nümunəsi (3).

***Sıyırğac***. Bu alətin dəstək hissəsi enli, qəhvəyi rəngli və işlənmənin təsirindən parlaq cilalıdır. Alətin uzunluğu 14 sm, eni ağız hissədə 2 sm, yuxarı hissədə 3, 7 sm-dir (KT-15, E-156). Onun dəstəkdən qurtaracağa doğru olan hissəsi tədricən naziklәşərək qurtaracaqda 2 sm enində kəsilərək itilənmişdir.Bu əlaməti ondan heyvan dərisinin alt pərdəsinin qaşınaraq təmizlənməsində, yaxud ağacdan düzəldilən hər hansı bir alətin yonulma prosesində istifadə edildiyini göstərir (Şəkil 4).




Şəkil 4. I Kültəpənin D sahəsindən tapılan sıyırğac (2015).

Əsasən müxtəlif heyvanların dərisinin təmizlənməsində istifadə edilən bu tipli alətlər iribuynuzlu heyvanın sümüyündən, yaxud buynuzdan hazırlanmaqla, uc hissəsi əvvəlcə çəpinə, yaxud düz formada kəsilir, daha sonra itilənmə yolu ilə düzəldilirdi. Əsasən dəri və ağac işləmə prosesində istifadə edilən bu tipli alətlərə I Kültəpənin əvvəlki illərdə aşkar edilmiş materialları arasında [5, Tabl. VII, 4, 8], həmçinin Şomutəpə [14, 49], Töyrətəpənin sümük məmulatı arasında[15, 24],Kareliyanın Ladoqa yaşayış yerinin Neolit dövrü materialları arasında rast gəlinmişdir [11,табл. 12].Təsərrüfat alətləri Kültəpə, Şomutəpə, Leylatəpə ilkin əkinçilik mədəniyyətinin timsalında yerli oturaq tayfaların iqtisadi, ictimai və mədəni sahələrdəki tərəqqisinin təzahürü olmuşdur [2, 43].

İkinci qrupa daxil olan alətlər əsasən insanların məişətdə geniş istifadə etdikləri bizlər və iynələrlə təmsil olunur.

***Bizlər***. Bu alətlər bir qayda olaraq müxtəlif heyvanların lülə sümüyündən, bəzən də onların bir üzündən hazırlanmış və uzun müddətli işlənmənin təsirindən hər tərəfi cilalıdır. Xırda buynuzlu heyvan sümüyündən bizlərin hazırlanması zamanı sümüyün epifiz hissəsinin saxlanılmasına

çalışılmışdır. Həmin epifiz hissə, adətən biz deşmə üçün istifadə edildikdə onun əks tərəfinin ovucun içərisində rahat yerləşməsi üçün nəzərdə tutulmuşdur [4, 21]. I Kültəpədən 2015-ci ildə aşkar edilən bizlərdən bəzisində sümüyün epifiz hissəsi saxlansa da, digərlərində sınmışdır. Onlardan biri qırmızı rəngli olub, yuxarıdakı enli hissəsi sınmışdır. Alətin uc tərəfi yonulmaqla itilənmişdir. Salamat qalmış hissəsinin uzunluğu 4,5 sm, eni 0,2-1,5 sm arasında dəyişir (KT-15, E-134). İkinci biz ağ rəngli lülə sümüyündən hazırlanmışdır. Yarısı sınmış alətin səthi parıldayanadək cilalanmış, ucuitilənmişdir (KT-15, E-86). Üçüncü alət heyvanın lülə sümüyünün bir üzündən düzəldilərək itilənmişdir. Alətin üzərini qara çillər şəklində his tutmasına baxmayaraq çox işlənmənin təsirindən yaranan cilalanma itməmişdir. Onun uzunluğu 8,2 sm, eni 0,2-1,5 sm arasındadır (KT-15, E-89). Digər alət eyni materialdan və oxşar texnologiya ilə hazırlanmış, yalnız ölçüləri fərqlidir (KT-15, E-116,2). D sahəsindən aşkar olunan sarı-qəhvəyi rənglibiz digərləri ilə müqayisədə daha yaxşı qalması ilə diqqəti cəlb edir(KT-15, D-151). Heyvanın lülə sümüyündən hazırlanmış alətin uc hissəsi itilənmiş və işlənmənin təsirindən cilalanmışdır (Şəkil 5).




Şəkil 5. I Kültəpənin D sahəsindən aşkar edilmiş bizin (1) Türkmənistanın Ceytun mədəniyyətinə aid paraleli (2).

Bu alətin bənzərlərinə Azərbaycanaın digər regionlarındakı abidələrdən Şomutəpə [14,50], Töyrətəpə [15, 23], Göytəpə [16, 75], Mesopotamiyanın Təpə-Qavra [21, Tab.XCVIIIb, XCIXa], Türkiyənin Akarçay Təpə [19,Fig. 41] abidələrinin Neolit təbəqələrində rast gəlinmişdir.Sümük bizlərin Quruçay və Köndələnçaydan tapılan nümunələri nisbətən kiçik ölçülü olması və epifizin sağlam qalması ilə diqqəti cəlb edir [3, Tablo VII].

***İynələr***. Məişətdə istifadə edilən sümük məmulatı içərisində geniş yayılmış bu alətlər əsasən kiçik heyvanların, yaxud quşların sümüyündən hazırlanmışdır. Onlardan biri E kvadratının dördüncü tikinti mərhələsinə aid ovalşəkilli evdən tapılmışdır. Bir hissəsi sınmış alət uc hissəyə doğru tədricən nazilərək itilənmişdir (KT-15, E-66). Onun uzunluğu 5 sm, eni isə 0,3 sm-dir. Digər iynə birinci alətlə eyni formaya malik olmaqla, çox işlənmə nəticəsində cilalanmışdır. Onun uzunluğu 3 sm, eni isə 0,2-0,5 sm arasındadır (KT-15,E-160,3).

I Kültəpədən üzə çıxarılan sümük alətlərinbir qisminin yuxarı hissəsinin sınmış vəziyyətdə olması onların ölçüsünü dədiqləşdirməyə çətinlik törətsə də, uc hissələrinin yonularaq itilənməsi və bəzən də cilalı olması onlardan geniş istifadə edildiyini nümayiş etdirməkdədir. Onların İordan çayı sahilindəki Neolit abidələrindən aşkar edilən paralellərinin bəzisindən ornamentasiya məqsədi ilə istifadə edilmişdir [22, Fig. 13].I Kültəpədən üzə çıxarılar sümük alətlərin onlarla oxşarlığı Neolit dövründə onlardan paltar tikmə, ornamentasiya və digər məişət işlərində geniş istifadəsini nümayiş etdirir (Şəkil 6, I, II).




Şəkil 6. I Kültəpənin E sahəsindən tapılmış iynə və bizlərin (I) Ön Asiyanın Baja Neolit düşərgələrindəki paralelləri (II).

I Kültəpədən son illərdə tapılmış sümük alətlərin bənzərinə Azərbaycanın digər bölgələrindəki arxeoloji materiallar arasında rast gəlinmişdir. Neolit dövrünə aid Həsənsu[1, 20], Şomutəpə [6, 118], Türkiyə Cümhuriyyəti ərazisindəki Çayönü[17, Fig. 60], Körtik təpə [18, Fig. 34], Mezraa-Teleilat [20, Fig. 58, 7], həmçinin Kareliyanın Neolit abidələrindən olan Ladoqa yaşayış yerinin materialları arasında xeyli miqdarda rast gəlinməsi onlardan dəri emalında və paltar tikilməsində geniş istifadə edildiyini göstərir[11, 20-22]. Qeyd etmək lazımdır ki, sümükdən hazırlanmış iynə və bizlərin əvvəlki dövrlərdə I Kültəpədən üzə çıxarılmış nümunələri, həmçinin Şomutəpə, Qarğalartəpəsi, Xaçbulaq, Töyrətəpə abidələrindən tapılmış nümunələri hazırda Milli Azərbaycan Tarixi muzeyinin qədim əmək alətləri ekspozisiyasında (Vitrin-6-7) nümayiş etdirilməkdədir [22].

Sümük alətlərdən ikisi fərqli qurluşu ilə diqqəti cəlb edir. Onlardan birinin uzunluğu 12,5 sm, eni 0,7-1,5 sm arasında dəyişir (KT-15, F-076). Qaşığı xatırladan alət qırmızı rəngli sümükdən hazırlanmışdır. Cilalanmış səthinin bəzi hissələri ləkə və nöqtələr şəklində hislənmişdir. Alətin bir tərəfi qurtaracaqda ensizləşərək qismən itilənmiş, eyni zamanda qaralmışdır. Digər tərəfi yuvarlaq formada kütləşdirilmişdir. Onun üzərində mərkəzə doğru maili batıq xətt çəkilmişdir (Şəkil 7, 1). Alətin üzərində əzilmə olmaması və bütöv qalması onun xüsusi məqsədli olmasını göstərir. Bu cür xüsusi təyinatlı alətlər Qalayeri [4, Tablo II, 1], Təpə Qavranın materialları arasında rastlanmışdır. Tədqiqatçılar üzərində işlənmə izləri olmayan bu tipliəşyaları musiqi alətləri kimi də xarakterizə edirlər[21, p. 215, plates XCIX, CLXXXII].




Şəkil 7. I Kültəpənin F sahəsindən tapılan sümük alətlər.

Bu tip alətin bənzərinə Ukraynanın Neolit dövrü mədəniyyətinə aid Dnepr-Don materialları arasında rast gəlinir [7, Ris 44, 37,39]. Türkiyə Cümhuriyyətinin Neolit abidələrindən olan Mezraa-Teleilatın IV təbəqəsindən tapılan bənzərinin yalnız bir tərəfi sona doğru nazilməklə yuvarlaqlaşdırılmışdır [20, Fig. 58, 4]. İkinci alət heyvanın lülə sümüyündən hazırlanmış və sarı-

qırmızı rəngdədir. Tədricən ensizləşən işlək hissəsi qurtaracaqda sınmışdır. Uc hissəsindən təqribən 2 sm yuxarıda çəpinə kəsilmə izi aypara şəklindədir. Hər iki qurtaracağı sınmış olan alətin salamat qalan hissəsinin uzunluğu 7 sm-dir. Sümük alətlərdən bəzilərinin təyinatı bəlli olmasa da, digərlərinin paralellərinə əsasən onların funksiyasını müəyyənləşdirmək mümkün olur. I Kültəpə yaşayış yerindən aşkar edilən sümük alətlərin çoxluğu və müxtəlifliyi Naxçıvançay vadisinin Neolit dövrü tayfalarının təsərrüfatında onların mühüm yer tutduğunu göstərir**.** Bunu Türkmənistanın Neolit dövrünə aid Ceytun mədəniyyəti ilə Eneolit dövrünə aid Yılqınlı təpə mədəniyyətinin sümük məmulatlarının timsalında da görmək olar. Birinciyə aid sümük alətlərin sayı 69 olduğu halda, ikinciyə 31 alət aiddir [9, 104].Bu fikir I Kültəpənin əvvəlki tapıntılarında da təsdiqlənmişdir. Belə ki, 1951-1965-ci illərdə abidənin Ia[2] və Ib təbəqələrindən 177 ədəd sümükdən hazırlanmış iynə və biz qeydə alındığı halda, üst təbəqələr üçün bu rəqəm 36 olmuşdur [5, 62,118]. Sonrakı dövrlərdə sümük alətlərin sayının azalması ehtimal ki, metal emalı ilə əlaqədar olmuşdur. Son illərin arxeoloji qazıntılarında da bu fərq özünü biruzə vermişdir. Sümük alətlərin əsasən I Kültəpənin alt təbəqələrində üzə çıxması bu fikri təsdiq edir. Bunu 2015-ci il qazıntıları zamanı abidənin Son Neolit dövrünə aid olan D, E və F sahələrindən aşkar edilən 12 ədəd sümük alətin və onların fraqmentlərinin timsalında da izləmək mümkündür (Cədvəl 1).

| № | Alətin kodu | Funksiyası | Material növü | Əşyanın ölçüləri | Əsas parametrləri |
|---|---|---|---|---|---|
| 1 | KT-15, E-74 | Toxa | Buynuz | Uzunluğu 30, eni 4-1 sm | Ağ rəngli, aypara şəkilli formada əyilmiş və tiliflidir |
| 2 | KT-15, E-137 | Toxa | Buynuz | Uzunluğu 20-25 sm, eni 3-1 sm | Qırmızı rəngli, işlənmənin təsirindən cilalanmışdır |
| 3 | KT-15, D-156 | Sıyırğac | Sümük | Uzunluğu 14 sm, eni 2 - 3,7 sm | Qəhvəyi, qurtaracaqda itilənmiş, dəstək hissə cilalı |
| 4 | KT-15, D-151 | Biz | Lülə sümük | Uzunluğu 8,5, eni 4,2-1 sm | Uc hissəyə doğru yaxşı itilənərək cilalanmışdır |
| 5 | KT-15, E-134 | Biz | Sümük | Uzunluğu 4,5 sm, eni 0,2-1,5 sm | Qırmızı rəngli, uc hissəyə doğru tədricən nazilir |
| 6 | KT-15, E-86 | Biz | Lülə sümüyü | Uzunluğu 4,2 sm, diametri 0,2-1,5 sm | Yarısı sınmış ağ rəngli kiçik alətin üzəri cilalıdır |
| 7 | KT-15, E-89 | Biz | Sümük | Uzunluğu 8,2 sm, eni 0,2-1,5 sm | Üzəri qara çillər şəklində hislənmiş və cilalanmışdır |
| 8 | KT-15, F-076,2 | Biz | Sümük | Uzunu 7,8 sm, eni 0,8-2 sm | Qəhvəyi rənglidir, yarısı sınıb |
| 9 | KT-15, D116,2 | Biz | Sümük | Uzunluğu 4 sm, diametri 0,3 sm | Üzəri cilalanmış alətin yuxarı hissəsi sınmışdır |
| 10 | KT-15, E-66 | İynə | Sümük | Uzunluğu 5, eni 0,3 sm | Yuxarıdan uc hissəyə doğru nazilərək itilənmişdir |
| 11 | KT-15, E-160,3 | İynə | Sümük | Uzunluğu 3 sm, eni 0,2-0,5 sm | Uc hissəyə doğru tədricən nazikləşən alətin yarısı sınıb |
| 12 | KT-15, F-076,1 | Alət | Lülə sümüyü | Uzunluğu 12 sm, eni 0,5- 1,5 sm | Hər iki tərəfində işlənmə izləri var |

Cədvəl 1. Naxçıvanın I Kültəpə abidəsindən üzə çıxarılmış sümük alətlərin təsnifatı.

2015-ci il qazıntıları zamanı I Kültəpənin D, E və F sahələrindən aşkar edilən sümük alətlər digər regionların Neolit dövrünə aid maddi-mədəniyyət nümunələri içərisində geniş analogiyalar tapır. Azərbaycanın Şomutəpə, Dağıstanın Çox yaşayış yeri, Orta Asiyanın Ceytun mədəniyyət, həmçinin İordan çayı sahilindəki Neolit abidələrinin sümük materialları ilə oxşarlıq təşkil edən

[2]Bu təbəqə vaxtı ilə O.Həbibullayev tərəfindən Neolit dövrünə aid edilmişdir.

sümük alətlərin təhlilibu dövrdə Naxçıvanda yaşamış yerli tayfalarınməşğuliyyəti haqqında müəyyən təsəvvür yaradır. Abidənin E sahəsindən üzə çıxarılan buynuzların üzərindəki işlənmə əlamətləri torpağın yumşaldılmasında onlardan toxa kimi istifadə edildiyini göstərir. Bu isə yerli tayfaların məşğuliyyətində əkinçiliyin əsas yer tutduğunu nümayiş etdirir. Digər tərəfdən hələ Mezolit dövründən başlayaraq tətbiq edilən toxaların Son Neolit dövründə də öz əhəmiyyətini qoruyub saxlaması bu iki dövr arasında əlaqənin, izlənilməsi baxımından əhəmiyyətlidir.

Müxtəlif heyvan sümüklərindən hazırlanmış alətlərin sıyırğac, biz, iynə kimi çox çeşidli olması, həmçinin texnoloji və funksional xüsusiyyətləri bu dövrdə sümükişləmə sənətkarlığının da inkişaf səviyyəsini əks etdir. Neolit dövründə sümük alətlərə tələbatın daha çox olması sənətkarlığın yeni mərhələsinin inkişafına stimul vermişdir. Lakin Eneolit və Tunc dövrlərində metal emalının genişlənməsi sümükişləmə sənətkarlığının bir qədər arxa plana keçməsi ilə nəticələnmişdir.

Buradan tapılan sümük qalıqlarının çoxluğu iki mühüm nüansa da diqqət çəkməyi zəruri edir: inkişaf etməkdə olan ev heyvandarlığının və tədricən azalmaqda olan ovçuluğun mövcud olması. Müxtəlif heyvan sümüklərinin təyinatının müəyyənləşdirilməsi Naxçıvanın qədim faunasının üzə çıxarılması baxımından da xüsusi əhəmiyyət daşıyır.

## ƏDƏBİYYAT


1. Rəhimova M. Azərbaycanın erkən əkinçilik dövrü abidələri(son tədqiqatlar), Bakı, 2011, 70s
2. İsmayılzadə Q. Xantəpə qədim yaşayış yeri və Azərbaycanda istehsal təsərrüfatına keçid problemi. // Azərbaycan Arxeologiyası, 2012, №:1(21)
3. İsmayılov Q. Quruçay və Köndələnçay vadisində qədim mədəniyyətin izləri, Elm, Bakı,1981
4. Müseyibli N. Leylatəpə mədəniyyəti abidələrinin sümük məmulatı. // Azərbaycan Arxeologiyası .2012. 30 Vol.:15 Num.:1
5. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982, 316 с
6. Ахундов Т.И. У истоков Кавказской цивилизации. Неолит Азербайджана. Шомутепе. Баку, Наука, 2012, 386 с
7. Археология Украинской ССР. В трех томах, том первый. Киев, Наукова Думка, 1985, 564 стр
8. Бахшалиев В. Новые материалы эпохи Неолита на территории Нахчывана. // Российская Археология, 2015, №2, с. 135-144
9. Каспаров. А.К. Скотоводсво и охота эпохи Неолита-Палеометалла в южном Туркменистане. Развитие и использование животных ресурсов. Европейский Дом, Санкт-Петербург, 2006, 178 с
10. Крутых Е. Б. Финальный Неолит Приморя (по материалам памятников Приханкайской равнины).Автореферат диссертации на соискание ученой степени кандидата исторических наук. Владивосток, 2011, 27 с
11. ЛиневскийА.М.Очерки по истории древней Карелии. Орудия труда древней Карелии. 1940 год, с. 20-22
12. Массон В.М. Историческое место среднеазиатской цивилизации. // Советская археология, 1964, №1
13. Мерперт Н.Я. Очерки археологии библейских стран. 148 с. pdf
14. Нариманов И. Археологические исследования поселения Шомутепе в 1963 году. Сб.АИА. Баку, 1965. с. 49
15. Рустамов Дж. Разведочные раскопки в Тойретепе. МКА, Т. VI, Баку, 1965. с. 24
16. Brovvn T.B. Excavations in Azerbaijan 1948. London, 1951
17. Erim-Özdoğan A. Çayönü. // The Neolithic Turkey, Vol. 1. Archeolojy and Art Publications, İstanbul, 2011, pp. 185-269

18. Özkaya V., Coşkun A. Körtik Tepe. // The Neolithic Turkey, Vol. 1. Archeolojy and Art Publications, İstanbul, 2011, pp. 89-127
19. Özbaşaran M., Duru G. AkarçayTepe. // The Neolithic Turkey, Vol. 2. Archeolojy and Art Publications, İstanbul, 2011, pp. 165-202
20. Özdoğan M. Mezraa-Teleilat. // The Neolithic Turkey, Vol. 2. Archeolojy and Art Publications, İstanbul, 2011, pp. 203-260
21. Tobler A.Y. Excavations at TepeGavra, v. II. Piladelphta, 1950
22. Central Settlements in Neolithic Jordan. Proceedings of a Symposium held in. Wadi Musa, Jordan, 21st - 25th of July, 1997. Edited by Hans-Dieter Bienert, Hans Georg K. Gebel, and Reinder Neef. Berlin, 2004, s. 119-144
23. www.azhistorymuseum.168

**ABSTRACT**

**Zeyneb Guliyeva**

**Bone artifacts discovered in the 2015 from the settlement Kultepe I**

Archaeological excavations in the settlement Kultepe I began in the last century. In the 2013-2015-ies.a study of the monument gave new material for the study of life, the main activity Neolithic tribes of Nakhchivan. Among them attract attention pottery, tools made of animal bones and a variety of stone. Bone artifacts were presented with a hoe, punches, awls and other tools. Among the bone tools were found 12 copies in 2015. They make analogies with materials Shomutepe in Gazax, Chokh settlements in Dagestan, Ceytun culture in Turkmenistan, as well as the Baja settlement on the banks of the Jordan river, which belong to the Neolithic period. The study shows that bone tools, in the late Neolithic local population Nakhchivan spent sedentary, engaged in basic and agriculture, handicraft, home-herding, and partly of hunting.

**РЕЗЮМЕ**

**Зейнеб Кулиева**

**Костяные изделия, обнаруженных в 2015 году из поселения Кюльтепе I**

Археологические раскопки в поселении Кюльтепе I началось еще в прошлом веке. В 2013-2015-х гг. исследование памятника дали новые материалы дляизучение образ жизни, основные занятие Неолитические племени Нахчывана. Среди них привлекают вниманию керамика, орудия труда изготовленных из кости животных и различных камень. Костяные изделии были представлены с мотыгами, проколками, шильями и другими орудиями. Среди костяных орудий 12 экземпляр были обнаружены 2015 году. Они составляют аналогии с материалами Шомутепе в Газахе, поселения Чох в Дагестане, Джейтунской культуры в Туркменистане, а также поселения Бажа на берегу река Иордан, который относятся к периоду Неолиту. Исследование костяный орудии показывают что, в период позднего Неолита местные населения Нахчывана провели оседлый образ жизни, занимались основным с земледелием, ремесленничеством, домашным скотоводством, а частично охотничеством.

NDU-nun Elmi Şurasının 30 mart 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru, professor* M.Rzayev

**ZAMİN ƏLİYEV**
*Naxçıvan Dövlət Universiteti*
*zamin.az@hotmail.com*

**UOT: 94 (479)**

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ABŞ, İNGİLTƏRƏ, ALMANİYA VƏ RUSİYANIN AZƏRBAYCANDA MÖHKƏMLƏNMƏK UĞRUNDA MÜBARİZƏSİ

**Açar sözlər:** *İngiltərə, ABŞ, Osmanlı imperiyası, Rusiya, Almaniya, Standart Oyl, Bakı nefti*
**Key words**: *Britain, United States, Ottoman Empire, Russia, Germany, Standard Oil, Baku oil*
**Ключевые слова:** *Англия, США, , Османская империя, Россия, Германией, Стандарт Ойл, Бакинскую нефть*

Azərbaycan öz coğrafi mövqeyinə və strateji əhəmiyyətinə görə tarixin bütün dövrlərində diqqət mərkəzində olmuş, bu səbəbdən də böyük imperialist güclərin dağıdıcı yürüşləri Azərbaycandan yan keçməmişdir. Tarixin bütün mərhələlərində Azərbaycan hərbi-diplomatik mübarizə meydanı olmuşdur. Əgər quldarlıq və orta əsrlərə diqqət yetirmiş olsaq, imperialist qüvvələr Azərbaycan ərazisinin əlverişli mövqeyindən ötrü aramsız basqınlar edirdilər. Bəs Azərbaycan ərazisini əlverişli edən nə idi? Bunu müxtəlif dövrlər üçün fərqli izah etmək olar. Yəni qədim dövrlərdə Azərbaycan ərazisinin Mesopotamiya ilə yaxın olması və Mesopotamiya ilə iqtisadi, mədəni əlaqələr saxlayan yerli dövlətlərin zənginliyi, bu zənginlikləri ələ keçirməyə çalışan qonşu dövlətlər Azərbaycana maraq göstərmişdilər. Məsələn: İngiltərə kimi böyük müstəmləkələri olan ölkənin Azərbaycana maraq duymasını tarixi Azərbaycan ərazilərinin İngiltərənin ən zəngin müstəmləkəsi olan Hindistana gedən quru yolun üzərində olması və daim bu əraziləri öz nəzarəti altında saxlamaq istəyi ilə və nəhayət birinci dünya müharibəsindən sonra Misirdən Kəlküttəyə qədər olan ərazilərdə ingilislərə qarşı kütləvi üsyanlar qalxdı və buna görə Cənubi Qafqaza daha böyük maraq göstərməyə başladı. Rusiya isə son orta əsrlərdə Azərbaycanı tutaraq Xəzər dənizini daxili dənizinə çevirmək, buradan da daha cənuba irəliləyərək İran körfəzini tutub İngiltərənin Uzaq şərqlə və xüsusən də Hindistanla həm quru, həm də su yolunu bağlamaq və bütün Avropa ölkələrinin Şərqlə əlaqələrinə vasitəçilik etmək niyyətində idi.

XX əsrin əvvəllərində Böyük güclərin mübarizə obyekti tamamı ilə dəyişdi. Artıq yeni ərazilərdə zəngin neft yataqlarını ələ keçirmək və həmin neftin işlənməsi, satışı üzərində müəyyən haqlar qazanmaq uğrunda mübarizə gedirdi. Məhz buna görə də XX əsrin əvvəllərində, xüsən də I Dünya müharibəsindən əvvəl və bir qədər sonrakı dövrlərdə Bakı nefti uğrunda iri dövlətlər ölüm-dirim mübarizəsinə girmişdilər. Müttəfiqlər də neft üçün bir anda düşmənə dönə bilirdilər.

XX əsrin əvvəllərində Azərbaycanda beynəlxalq vəziyyət olduqca gərgin idi. Burada beş böyük dövlətin: Almaniya, İngiltərə, Fransa, Rusiya və ABŞ-ın siyasi və iqtisadi maraqları toqquşurdu. Özlərini dünyanın sahibi zənn edən bu imperiyalar dünyanı bölüşdürmək iddiasına düşmüşdülər. Onların maraqlarında müxtəlif cəhətlər olsa da, bir də bu dörd imperiyanın ortaq marağı var idi: neft Bakısı və Xəzər dənizində hökmranlıq etmək iddiası.

Birinci dünya müharibəsi başlayanda Almaniyanın ən mühüm planlarından biri qərb cəbhəsində İngiltərənin ən böyük müttəfiqi Fransanı işğal edərək müharibədən kənarlaşdırmaq idi. Digər planı isə şərq cəbhəsində Rusiyanı məğlub edərək müharibədən çıxmağa məcbur etmək idi. Almaniya ruslarla cəbhədə müharibə aparmaqla yanaşı, digər tərəfdən Rusiya çarlığının himayəsindəki Azərbaycan, Gürcüstan, Ermənistanı Rusiyaya qarşı üsyana təşviq edirdi. Almaniyanın məqsədləri aşağıdakı amilləri əhatə edirdi: (8, s. 4).

1. Azərbaycandakı yeraltı sərvətlər və neft ehtiyatları hesabına alman sənayesinin ehtiyacı olan xam malla təmin etmək, xüsusilə, Bakı nefti müharibə zamanı Almaniyanın daha çox ehtiyac hiss etdiyi yanacağın əhəmiyyətli bir hissəsini təmin etməli idi.

2. Qara dəniz və Xəzər dənizi arasında yerləşən Azərbaycan və Gürcüstan, Qara dəniz şimal yolu ilə Orta Asiya bazarını və xam malını əldə etmək üçün mühüm strateji mərkəz rolunu oynamalı idi.

3. Azərbaycan İngiltərənin müstəmləkəsi olan Hindistana gedən yolun üzərində idi, əgər İgiltərə məğlub edilsə, bu yol vasitəsi ilə Hindistanla əlaqələr saxlamalı idi. Göründüyü kimi, Almaniyanın Azərbaycana qarşı maraq duyması üçün səbəblər çox idi.

1918-ci il martın 3-də "Brest- Litovsk" sülhünə əsasən Osmanlı Hərbi Naziri Ənvər Paşa, müttəfiqi Almaniyanın İstanbuldakı Hərbi Attaşesindən sülh danışıqları zamanı Almaniyanın Osmanlı dövlətinin tələblərinə dəstək verməsini istədi. Osmanlı dövlətinin tələbi Qafqazdakı sərhədlərin, 1877-1878-ci illər Osmanlı-Rus müharibəsindən qabaqkı vəziyyətin bərpa edilməsi idi. Bu tələb Osmanlı dövlətinin Elviye-i Selasə (üç vilayət) deyə adlandırdığı və 1878-ci il Berlin müqaviləsi ilə döyüş təzminatı qarşılığı olaraq Rus çarlığına verilən Qars, Ərdahan və Batum bölgəsinin Osmanlı dövlətinə geri verilməsi mənasını verirdi. Osmanlı imperiyasının bu əraziləri təkidlə tələb etməsinin ən əsas səbəbləri (7, s. 139-144) Qafqazdakı müsəlmanlar (Azərbaycan xalqı) ilə əlaqələri bu yolla bərpa etmək istəyi, Osmanlıda meydana gələn Turançılıq ideyaları, son dövrlərdə Osmanlının çoxlu torpaq itirməsindən yaranan güvənsizliyini aradan qaldırmaq istəyi, baş komandan Nuru Paşanın öz şəxsi nüfuzunu yüksəltmək istəyi, gələcəkdə yaradılacaq Turan imperiyasına gedən yolun məhz burdan keçməsi idi.

Almaniya öz müttəfiqi olan Osmanlını bir tərəfdən dəstəkləyir, digər tərəfdən Osmanlının maraqlarına zidd olan əlaqələrə girirdi. Üçkilsə yaxınlığında Osmanlı qoşunları ilə erməni və gürcü qoşunları qarşı- qarşıya gəldiyi zaman erməni və gürcü qoşunlarının tərkibində Osmanlı qoşunlarına qarşı vuruşan alman zabitlər var idi.

Almanların Osmanlı ilə fikir ayrılığının olduğunu sübut edən digər bir fakt isə M.Ə.Rəsulzadənin M.H.Hacınskiyə yazdığı məktubda aydın olur. O yazırdı ki, Almaniya və Osmanlı Bakı məsələsinə müxtəlif cür yanaşır. Almanlar qorxurlar ki, bolşeviklər neft mədənlərini dağıdacaq, məhz buna görə də ruslarla saziş bağlamağa meyil edirdilər. (5, s. 120-121 )

Müharibədən yarımçıq çıxan və başı daxili çəkişmələrə qarışan Rusiya Almaniya ilə Brest-Litovsk sülhünü bağlayarkən müqaviləyə gizlin bir maddə əlavə etmişlər. Həmin müqavilənin gizli bəndində Almaniya Rusiyanın Vətəndaş müharibəsindən istifadə edib Rusiyaya təzyiq göstərməyəcək, Rusiya da Almaniyanın Bakını işğalına göz yumacaq və buradan çıxarılan neftdən istifadəsinə razılıq verəcəkdir. Almanlar da bu sülhün şərtlərinə əsasən Bakıdan çıxarılan neftin bir hissəsini Rusiyaya verəcəklərdi. Amma Brest- Litovsk sülhünün gizlin maddələri yalnız kağız üzərində qaldı.

Osmanlının Batumu tələb etdiyi zaman Rusiyanın razılıq verməsinə baxmayaraq, bu tələbin yerinə yetirilməsində almanlar maneəçilik törətdilər. Bunu almanlar müsəlmanların Qafqazda güclənəcəyini, guya yerli xristianların zərər çəkəcəyi şəklində izah edirdilər, əslində isə Almanlar yaxşı bilirdilər ki, Batum Osmanlıya verildiyi təqdirdə türklərin Transqafqaza yolu açılır. Batum Osmanlını öz müstəqil dövlətinin təşəkkülü üçün başlıca maneə kimi görən Gürcüstan və Ermənistan üçün də mühüm əhəmiyyət kəsb edirdi. Azərbaycanlılar isə üzərlərindəki rus və erməni təzyiqini qaldıracağına inandıqları üçün Osmanlını müdafiə edirdilər (3, s. 140.)

Bütün bunlardan belə qənaətə gəlmək olar ki, almanlar Osmanlıya qarşı səmimi deyildi, və yalnız Qafqazdakı türk-müsəlman xalqlarını Osmanlı vasitəsi ilə öz tərəfinə çəkmək niyyətində olmuşdular. Bu zaman ingilis dövlət xadimi və diplomatı, İngiltərə tarixində "təhlükəli baş nazir" kimi tanınan Henry Temple Palmerstonun: “Bizim sonsuzadək yanımızda olacaq dostlarımız yoxdur və bizim qalıcı düşmənlərimiz də yoxdur. Bizim davamlı və sonsuzadək var olacak mənafelərimiz vardır və bu mənafeləri qorumaq bizim borcumuzdur” sözləri ağıla gəlir. Bütün bunlara baxmayaraq, Almaniyanın Qafqazda Osmanlıya qarşı çıxa biləcək qüvvəsi yox idi.

Dünya müharibəsinin son mərhələsində Azərbaycan xalqının müstəqillik arzusu Osmanlı dövlətinin Qafqazdakı siyasətinə uyğun gəlirdi. Məhz bunun sübutudur ki, 1918-ci il 4 iyun-da

Türkiyə ilə bağlanan Batum müqaviləsinin 4-cü bəndində ehtiyac duyulduğu zaman Osmanlı Azərbaycana hərbi yardım göstərə biləcəyini qeyd edir, bu da düşünülmüş diplomatik bir addım idi. Çünki Azərbaycan öz torpaq bütövlüyünü bərpa etmək üçün mütləq Osmanlı qüvvələrinə ehtiyac duyacaqdı, digər tərəfdən dünya, Birinci Dünya müharibəsinə sürüklənərkən öndə gedən dövlətlərin arxivlərində tapılan sənədlər və XX əsrdə müxtəlif ölkələrdə aparılan elmi araşdırmalar Osmanlı dövlətinin Qafqaz və Türküstan siyasətində "iqtisadi mənfəət əldə etmə" düşüncəsinin olmadığını göstərir. (11. s 20)

Bu dövrdə Azərbaycanın ətrafında cərəyan edən hadisələr Bakının bolşeviklərin əlindən alınmasını zəruri edirdi. Çünki bu zaman Bakı Türkiyə, Almaniya, İngiltərə, Rusiyasının mübarizə meydanına çevrilmişdi. Almanlar Azərbaycanı Osmanlı nüfuzundan istifadə edərək öz təsirləri altına salmaq istəyirdilər, lakin onların düşündükləri kimi olmadı.

Almanlar 1918-ci ilin yayında İstanbulda Türkiyə ilə Azərbaycan arasındakı münasibətləri müşaiət edərək başa düşdülər ki, Osmanlı Azərbaycanı müdafiə edir və Bakını heç bir dövlətə güzəştə getmək niyyətində deyil. Buna görə də Birinci Dünya müharibəsinin ən böyük rəqibləri olan Rusiya və Almaniya Bakı uğrunda Osmanlıya qarşı birgə mübarizə aparmağa başladılar. Bütün bu çəkişmələrə baxmayaraq, 1918-ci illər və ondan qabaq Bakını tutmaq və onun zəngin neft yataqlarından yararlanmaq Almaniyaya nəsib olmadı, hətta Rusiya da müəyyən müddətdə Azərbaycan neftindən əl çəkməli oldu. Almaniya Azərbaycan neftindən ona görə məhrum oldu ki, müharibədə məğlub oldu. Eyni zamanda Almaniyanın Qafqaz macərası başa çatmış oldu. Artıq bölgədə qüvvələr balansı İngiltərənin xeyrinə dəyişmişdi.

Dünyanın ən böyük neft şirkəti Royal Dutch–Shell-in sahibi Sir William Augustus Detterding artıq, bəlkə də, dünya müharibəsinə səbəb olan neft hövzələrini bir-bir ələ keçirmiş, sırada Bakı neftini ələ keçirmək dayanırdı. Bunun üçün İngiltərənin Entelijans servisi və Royal Dutch–Shell şirkəti birlikdə hərəkət edirdilər. (6, s. 193)

"Entelijans servis" Rusiyanın daxilindəki Vətəndaş müharibəsini qızışdırır, Qızıl Orduya qarşı vuruşan mütləqiyyət tərəfdarları olan Denikini, Kolçakı və vrangelçiləri müdafiə edərək onları silah və ərzaqla təmin edirdi. İngilislərin məqsədi Rusiyanın başını Vətəndaş müharibəsinə qataraq, Bakı neftini istədikləri kimi istifadə etmək idi. İlk başlarda İngilislər müvəffəqiyyət qazansa da sonrakı dövrdə Qızıl Ordu İngiltərənin maliyyələşdirdiyi qüvvələri məhv edərək Rusiyada tək bir güc mərkəzi yarada bildi. Bununla da Azərbaycanda qüvvələr nisbəti yenidən Rusiyanın xeyrinə dəyişdi. Aleksandrın ailəsi ilə birlikdə bolşeviklər tərəfindən qətlə yetirilməsi artıq ingilislərin həmin qüvvələrə yardım etməsinin bir mənasının olmadığını göstərirdi. İngilislər Bakıda çox qala bilməyərək Azərbaycanı tərk etməyə məcbur oldular. Lakin onlar Azərbaycan neftindən əl çəkmək niyyətində deyildilər. Bunun üçün gələcəkdə addımlar atılacaqdı. Bu haqda "Times" qəzetinin tanınmış müxbiri Arthur Moore 1 iyul 1922 –ci ildə "Times" qəzetinə göndərdiyi məqalədə deyilirdi: «Müqavilədən sonra bir hissəsi Türk və müsəlman əhali ilə məskunlaşan Qafqaz biz İngilislər tərəfindən işğal edildi. Bizim oralarda, hətta Xəzər dənizi yanındakı məşhur Mərv şəhərində kifayət qədər hərbi qüvvəmiz var, bu ordu orada vəziyyətin sabitləşməsinə kömək edəcək şəkildə qurulub və biz artıq bolşevikləri uzaqdan durdurmağa müvəffəq olduğumuzu dünyaya göstərdik. Fəqət qısa bir dövrdən sonra biz bolşeviklərin qarşısından çəkilməyə məcbur olduq. Şübhəsiz ki, Bakı neftinə sahib olmaq üçün ora getmişdik. Ancaq bu uğurda daha bir müharibəni gözə almağa hazır deyildik». (6. s 194).

İngilislər Azərbaycandan çıxmış olsalar belə yenə də məsələni beynəlxalq səviyyəyə qaldıraraq ruslarla Bakı nefti haqqında razılığa gəlməyə cəhd edirdilər (6, s. 193). İngilislərin təzyiqi ilə Rusiya " Bakı nefti " nə beynəlxalq bir konfransda baxılmasına razılıq verir və Cenevrə konfransında tərəflər görüşür. İngiltərə və Rusiya konfransın əsl səbəbini gizlədərək yalnız siyasi məsələləri müzakirə edəcəklərini, müharibədən yeni çıxan Avropa xalqlarının iqtisadiyyatını canlandırmaq məqsədi ilə görüşdüklərini bəyan etdilər. Əslində isə hadisənin mahiyyəti tamamilə fərqli idi. Burada ən mühüm müzakirə mövzusu " Bakı nefti " məsələsi idi. Müharibədən əvvəl Azərbaycan nefti üzərində səhmlərə sahib olan İngiltərə, Fransa və ABŞ müharibə qurtardıqdan sonra özünün köhnə səhmlərinin bərpa edilməsinə çalışırdılar.

Müharibənin sonuna yaxın qarşı-qarşıya döyüşən bütün dövlətlərin Azərbaycana olan hədsiz marağı və bu marağı gerçəkləşdirmək yolunda atdıqları konkret addımlar da məhz Bakı neftindən qaynaqlanırdı. (9, s.425)

Neft uğrunda ən kəskin rəqabət Royal Dutch–Shell və Standart Oil arasında gedirdi. Görüntüdə bir-birinə ən yaxın müttəfiq olaraq görünən ABŞ və İngiltərə bu şirkətlərin timsalında kəskin mübarizə aparırdılar. (6, s. 187). Birinci Dünya müharibəsində əsas savaşan tərəflər dövlətlər deyil, onların təmsil etdiyi şirkətlər idi, yəni xanədanlar iri şirkətləri idarə edir, şirkətlər isə dövlətləri idarə edir.

Bu dövrdə "Bakı nefti" məsələsi tam həll edilmədiyi üçün ABŞ və İngiltərə yeni yaranan Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq səviyyədə tanınmasını ləngitmələri pərdə arxasında, hansısa gizli müqavilədən və ya razılaşmadan xəbər verirdi.

Bütün bunlar Azərbaycanın ayrılmaz parçası olan Naxçıvandan da yan keçmədi. Osmanlının Birinci Dünya müharibəsində məğlub olması, Azərbaycanla, o cümlədən Naxçıvanla bağlı olan planlarını təxirə salması ilə nəticələndi. Brest-Litovsk müqaviləsinə daxil olmayan sahələrdə fəalliyət göstərən Osmanlı qüvvələrinə 21 oktyabr 1918-ci ildə çıxma əmri verilmişdi. Bu Əmrin Naxçıvan əhalisindən gizli saxlanması nəzərdə tutulurdu, ancaq yerli əhali Osmanlıların Naxçıvandan çıxacağını eşidir və öz narazılıqlarını bildirirdilər. Naxçıvanlılar yaxşı başa düşürdülər ki, Osmanlı qoşunlarının buradan çıxması ermənilərin bu ərazilərə yenidən hücumları ilə nəticələnəcək, bura gələcək ingilis və amerikan qüvvələrinin isə Naxçıvan əhalisinin maraqlarına etinasız yanaşacağından qorxurdular. Naxçıvanlıların narahatlığı əbəs deyildi, çünki sonradan bölgəyə gələn ingilislər Naxçıvanı bir müddət yerli əhalinin maraqlarına uyğun idarə edir, amma sonradan Naxçıvanı Ermənistana vermək məsələsini ortaya atırdılar. Bu da göstərir ki, ingilislər həmin bölgənin etnik mənsubiyyətini və onların maraqlarını deyil, əsasən, İngilis hökumətinin "ali maraqları"nı və xristian təəssübkeşliyini ön plana çəkirlər.

Tarixçilər hər nə qədər I Dünya müharibəsinin səbəbini Avstriya-Macarıstan ilə Serbiya arasındakı münaqişə ilə izah etsələr də gəldiyimiz nəticə müharibənin başlanmasının bu münaqişə ilə heç bir əlaqəsi olmadığını göstərir. Fikrimizcə, müharibənin səbəbini neftlə zəngin olan, torpaqları ələ keçirmək istəyən ABŞ, İngiltərə, Almaniya və Rusiyanın maraqlarının toqquşması ilə izah edilsə daha doğru olar.

Azərbaycan torpaqlarının əlverişli strateji mövqedə yerləşməsi, neftlə zəngin olması, yuxarıda adını çəkdiyimiz ölkələrin diqqətini cəlb etməyə bilməzdi. Bu torpaqları ələ keçirmək və onun zəngin xam malından istifadə etmək o dövrün neft şirkətlərinin çoxdankı arzusu idi. Bu ölkələrin uğruna qan tökdükləri torpaqların zənginliklərindən istifadə etmək o dövrdə müharibə aparan qüvvələrin heç birinə qismət olmur.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi yeddi clddə V cild, Bakı, Elm, 2008, 488 s
2. Həsənov.Ə. Müasir benəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti, Bakı, Azərbaycan, 2005, 751 s
3. Arif. E Kafkasya jeopolitiğinde Rusya, İran, Türkiye rekabetleri ve ermeni faktörü, Ankara, Naturel yayınları, 2004, 378 s
4. Həsənli.C Azərbaycan Xalq Cümhuriyyətinin Xarici Siyasəti (1918-1920), Bakı, 2009, s 469
5. Nazim.R Neft Qlobal münaqişələr Mənbəyi, Bakı, 2009, 462 s
6. Çolak.M Osmanlı - Alman Rekabeti Çerçevesinde Kafkas Müslümanlarının Bağımsızlığı ve Bakü Meselesi (1917-1918) // international cournal of history, 2014, №6, 207 s
7. Qasımlı M, Hüseynova E. Azərbaycanın xarici işlər nazirləri, Bakı, Adiloğlu, 2003, 112 s
8. Karadağ. K Petrol Fırtınası, İstanbul, Emre yayınları, 2003, 239 s
9. Görüryılmaz.M Türk Qafqaz İslam Ordusu və Ermənilər (1918), Bakı, Qismət, 2008, s. 407
10. Rıhtım. M, Süleymanov. M, Azərbaycan Xalq Cumhuriyyəti və Qafqaz İslam Ordusu, Bakı, Nurlar, 2008, 783 s
11. Şahin. E Trabzon ve Batum Konfransları ve Anlaşmaları (1917-1918), Ankara, 2002, s.96

12. Tüysüzoğlu.G İkinci dünya savaşı sonrası ingiliz dış politikası: İmparatorluk yaşıyormu? // Akademik Bakış Dergisi, 2011, №24, 23 s
13. http://az.wikipedia.org.

## ABSTRACT


### STRUGGLE OF THE US, BRITAIN, GERMANY AND RUSSIA FOR AZERBAIJAN AT THE BEGINNING OF THE XX CENTURY

After Azerbaijan had been under the occupation of Imperial Russia for a long time, May 28, 1918 the country got independence. This independence was a logical result of the Azerbaijani people's desire for free life fixed in their genes during thousand years.

In the early XX century, especially during the First World War and after it, the Ottoman Empire, feeling isolated in the international environment, allied with Germany. There were special interests of Germany in this rapprochement. One of the main interests was to use of Ottoman impact for taking control of the Muslim-Turkic peoples living in the Caucasus, win the war with Britain and its allies at the expense of Baku oil.

The other powers also struggled for Azerbaijan oil: the United States, England and Russia which considered the Caucasus as a region of influence, these forces were represented by large oil companies such as Standard Oil, Royal Dutch Shell. According to the results of this struggle Russia and large oil groups of the mentioned countries negotiated about division of Azeri oil in Geneva and other conferences. Finally, great powers shut their eyes to re-occupation of Azerbaijan by Russia in April 1918.


## РЕЗЮМЕ


### БОРЬБА США, БРИТАНИИ, ГЕРМАНИЯ И РОССИИ ЗА АЗЕРБАЙДЖАН В НАЧАЛЕ XX ВЕКА

После того, как Азербайджан долгое время находился под оккупацией Царской России, 28 мая 1918 года он поучил свою независимость. Эта независимость стала логическим результатом стремления к свободной жизни азербайджанского народа, тысячелетиями закрепленной в его генах.

В начале XX века, особенно в период Первой Мировой войны и после нее, Османская империя, изолирующаяся в международной среде, сближается с Германией. В этом сближении были особые интересы Германии. Одним из основных интересов являлось использование османского влияния для взятия под контроль мусульманско-тюркских народов, проживавших на Кавказе, одержать победу в войне с Англией и ее союзниками, используя Бакинскую нефть.

Также борьба за азербайджанскую нефть велась и между другими силами: США, Англией и рассматривающей Кавказ в качестве области своего влияния Россией, данные силы были представлены такими крупными нефтяными компаниями, как Стандарт Ойл, Ройял Датч-Шелл. По результатам этой борьбы Россия и крупные нефтяные компании упомянутых стран вели переговоры по разделу азербайджанской нефти на Женевской и других конференциях. И, наконец, закрыли глаза на повторную оккупацию Россией Азербайджана в апреле 1918 года.


NDU-nun Elmi Şurasının 30 mart 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru, professor* M.Rzayev

**ARZU ABDULLAYEV**
*Naxçıvan Dövlət Universiteti*
*a.ordubadi@yahoo.com*

**UOT: 94 (479.242)**

# NAXÇIVANDA SƏNƏTKARLIQ VƏ SƏNAYENİN İNKİŞAFI (XIX ƏSR)

**Açar sözlər:** *Sənətkarlıq, mədəniyyət, duluzçuluq, istehsal, toxuculuq, sənaye, ipəkçilik*
**Key words:.** *Culture, industry, sericulture, weaving, crafts, production*
**Ключевые слова:** *Ремесла, текстильная, промышленность, производство, культура, шелководство*

Naxçıvanda əhalinin qədim zamanlardan bəri məşğuliyyət sahələrindən biri də sənətkarlıq olmuşdur. XIX-XX əsrin əvvəllərində də bu bölgədə əhalinin əsas məşğuliyyət sahələrindən biri sənətkarlıq olduğunun şahidi oluruq. Lakin xanlıq dövründə sənətkarlığın iqtisadiyyatda yerinə dair baxışlarda müəyyən fərq vardır. Naxçıvan xanlığına dair tədqiqatın müəllifləri yazırdı: «… kənd təsərrüfatı ilə müqayisədə **sənətkarlıq** və ticarət **xanlığın təsərrüfat həyatında cüzi yer tuturdu.** Təsadüfi deyildir ki, Naxçıvan xanlığında əhalinin məşğuliyyəti çox zaman bilavasitə əkinçiliklə bağlı idi. Belə vəziyyət əksər hallarda natural təsərüffatın çiçəklənməsi üçün şərait yaradırdı».[1] XVIII əsrin ikinci yarısı – XIX əsrin birinci qərinəsində Naxçıvan diyarının tarixi coğrafiyasına dair tədqiqatın müəllifi S.Budaqova da sənətkarlığın tarixi coğrafiyasından bəhs edərkən yuxarıda qeyd edilən fikrə şərik çıxır: «Öyrəndiyimiz dövrdə Naxçıvan diyarının əsas şəhərləri olan istər Naxçıvan, istərsə də Ordubadda **sənətkarlıq o qədər də yüksək səviyyədə olmamışdır».** [2] Xanlıqlar dövründə Azərbaycanda sənətkarlığa dair monoqrafiyanın müəllifi C.Mustafayev isə belə bir fikir söyləyir: «Mövcud materialların təhlili belə bir qənaətə gəlməyə əsas verir ki, **Naxçıvanın iqtisadi həyatında sənətkarlıq istehsalı həlledici rola malik idi** ».[3] Göründüyü kimi eyni problemə dair bir-birinə zidd olan mülahizələr bildirilir. Fikrimizcə hər iki halda ifrata varılmışdır. Naxçıvan xanlığında kənd təsərrüfatı ilə sənətkarlığın inkişafı bir vəhdət təşkil edirdi.

İstər xanlıq dövründə, istərsə də Rusiya tərkibində Naxçıvan bölgəsində əsas sənətkarlıq mərkəzləri Naxçıvan və Ordubad şəhərləri idi. Bu şəhərlərdə Rusiya işğalı ərəfəsi və işğaldan sonrakı ilk dövrdə sənətkarlığın vəziyyəti İ.Şopenin məlum əsərində və 1831-ci ilə dair kameral təsvir materiallarında əks olunmuşdur. İ.Şopenin məlumatına görə Naxçıvanda ticarət və sənətkarlıqla məşğul olanlar 715 nəfər idi. Onlardan 400 nəfərdən çoxu bilavasitə sənətkarlıqla məşğul olurdu. 1831-ci il kameral təsvirində Naxçıvan şəhərində olan sənətkarların sənət sahələri üzrə siyahısı da verilir. Buradan aydın olur ki, Naxçıvanda 50-dək sənət sahəsi var idi. Onların içərisində toxucular (126 nəfər), başmaqçılar (56 nəfər), xarratlar (38 nəfər), papaqçılar (35 nəfər) və b. üstünlük təşkil edirdi.

Sənətkarlar evlərdə işləməklə bərabər emalatxanalarda da birləşirdi. Sənətkarlıq emalatxanaları, əsasən karvansara və bazarlarda yerləşirdi. Naxçıvan şəhərindəki 279 sənətkar emalatxanasından 31-i karvansaralarda, 248-i isə bazarda yerləşmişdi. Emalatxanalardan üçü boyaqçılara, ikisi dabbaqlara, qırxı isə pambıq parça toxuyanlara və xalçaçılara aid idi. Naxçıvan şəhərində sənətkarlıq emalatxanalarının məhəllələr üzrə yerləşməsi vəziyyətinə də diqəti cəlb edən C.Mustafayev maraqlı nəticəyə gəlir. O yazır: «Sənətkarların ayrı-ayrı məhəllələr üzrə bölgüsü də müəyyən maraq doğurur. Bu bölgüdən aydın olur ki, sənətkarların böyük əksəriyyəti Naxçıvanın köklü sakinləri olub, əsasən onun qədim məhəllələrində məskunlaşmışdılar. Məsələn, Naxçıvan sənətkarlarının 97 nəfəri Əlixan məhəlləsində, 91 nəfəri Şahab məhəlləsində, 56 nəfəri isə Sarbanlar məhəlləsində yaşayırdılar».[4]

Naxçıvan xanlağına dair tədqiqatın müəlliflərinin haqlı olaraq qeyd etdiyi kimi, «sənətkarlığı təkcə şəhərə aid etmək düzgün olmazdı. Çünki kənd yerlərində əhalinin tələbatını kənd sənətkarları, xüsusilə dəmirçilər, dulusçular və s. təmin edirdilər. Kənd yerlərində sənətkarlığın və kustar sənayenin inkişafında aztorpaqlı kəndlilərin rolu daha böyük idi. Çünki son dərəcə az olan məhsulu yığdıqdan sonra bekar qalan kəndlilər istər-istəməz sənətkarlıq və kustarçılıqla məşğul olurdular».[5]

Naxçıvanda xanlıq dövrünün sonlarında sənətkarlığın vəziyyətini müəyyən etmək üçün sənətkarlığın şəhər və kəndlər üzrə yerləşməsinə dair məlumatlarla birgə ayrı-ayrı sənət sahələrinin səciyyəsinə də diqqət yetirmək zəruridir. Naxçıvan xanlığında əsas sənətkarlıq sahələrindən biri toxuculuq idi. Naxçıvanda pambıq, yun və barama istehsalı burada müvafiq parça toxuculuğuna şərait yaradırdı. Faktlardan aydın olur ki, pambıq-parça toxuculuğu daha geniş yayılmışdır. İ.Şopenin yazdığına görə burada sənətkarların əksəriyyətini toxucular təşkil edirdilər. Hər bir ailənin öz dəzgahı vardı ki, bu dəzgahlarda da qadınlar iplərdən bez toxuyur və pambıq parça hazırlayırdılar. Buradan aydın olur ki, Azərbaycanın digər xanlıqlarında olduğu kimi Naxçıvan xanlığında da toxucular emalatxanalardan çox evlərdə çalışırdılar.

Toxuculuq onunla sıx bağlı olan boyaqçılığın da inkişafına şərait yaradırdı. Rusiya işğalı ərəfəsində Naxçıvan şəhərində dörd boyaqxana (3-ü Naxçıvan, 1-i Ordubadda) var idi. C.Mustafayev yazır ki, «digər xanlıqlarda olduğu kimi Naxçıvan xanlığında da boyaqçılıqla bağlı olan vergi maddəsi icarəyə verilirdi. Xanlığın Rusiya tərəfindən işğalından 5 il əvvəl, daha doğrusu 1823-cü ildə boyaqçılıq maddəsi ancaq Naxçıvan mahalında 1480 manata icarəyə verilmişdi. Xanlıqda «heç kim icarədara müəyyən olunmuş vergini ödəmədən hər hansı məhsulu boyamaq hüququna» malik deyildi. Müəyyən edilmiş qaydalara görə nəinki şəhərlərdəki müstəqil boyaqxanalarda, eləcə də boyamanın ev şəraitində aparıldığı kənd yerlərində uzunluğu 10 arşın olan pambıq parçanı boyamaq üçün icarədara 32 qəpik, ipək və yun ipləri boyamaq üçün isə 20 qəpik məbləğində pul ödəmək tələb olunurdu».[6]

Naxçıvanda əhalinin maldarlıqla məşğul olması burada gön-dəri emalının təşəkkülünə, dabbaqçılıq sənətinin və onunla bağlı digər sənət sahələrinin (ayaqqabı istehsalı və b.) inkişafına səbəb olmuşdu. Yuxarıda qeyd etdiyimiz kimi Ordubadda dabbaqçılıq emalatxanaları fəaliyyəti göstərirdi.

Naxçıvanda sənətkarlıq sahələrinin strukturundan bəhs edərkən duz istehsalını da xüsusi qeyd etmək lazımdır.

Naxçıvan Abşeron ilə birlikdə Azərbaycanın duz istehsalı mərkəzlərindən biri idi. Bir sıra müəlliflər, o cümlədən İ.Şopen Naxçıvanda keçmiş zamanlardan duz çıxarılmasını qeyd edir. İ.Şopen yazırdı ki, dağda təsadüf edilən çoxlu yarğanlar burada hələ qədim zamanlardan duz çıxarıldığını sübut edir. [7] XVIII əsrin sonlarınadək Naxçıvanda duz istehsalı ilə istisnasız olaraq Cəhri kəndinin sakinləri məşğul olurdular. Lakin Kalbalı xanın vaxtında, XIX əsrin əvvəllərində cəhrililər bu işdən kənarlaşdırılmış, duz çıxarılması hüququ Şıxmahmud kəndinin sakinlərinə verilmişdi. Bu dövrdə duz çıxarılması kəndlilərin məcburi əməyinə əsaslanırdı.

Naxçıvan xanlığında əhali qeyd edilən sənətkarlıq sahələri ilə birgə metal emalı və metalişləmə, inşaat materialları istehsalı və tikinti sənətləri, ağac məmulatı istehslı, dulusçuluq və b. sənət sahələri ilə də məşğul olurdu. Naxçıvan xanlığında şüşə istehsalına dair fakt da maraq doğurur. S.Budaqova yazır ki, Naxçıvan şəhərində şüşəsazlıq inkişaf etmiş sənət sahələrindən biri idi. Burada hasil olunan adi şüşələrlə yanaşı şəbəkələrin hazırlanmasında istifadə olunan al-əlvan şüşələr də hazırlanırdı. «Mətndarən»da («Matenadaran») saxlanılan mənbələrin birindən məlum olur ki, İrəvan xanlığının hakimi Hüseyn Əli xan Naxçıvana məktub göndərərək Kəlbəli xandan xahiş edir ki, İrəvan şəhərində tikdirdiyi hamamın pəncərə şəbəkəsi üçün 400 ədəd müxtəlif rəngli şüşə göndərsin. **Yeri gəlmişkən qeyd etməliyik ki, son zamanlara kimi elə təsəvvür yaranmışdı ki, Azərbaycanda al-əlvan şəbəkə şüşələri yalnız Şəki xanlığında mövcud idi. Lakin yuxarıda gətirilən misaldan aydın olur ki, şəbəkənin coğrafiyası təkcə Şəki xanlığı ilə məhdudlaşmırdı.** Digər tərəfdən onu da qeyd etməliyik ki, şüşə hazırlamaq o qədər də asan peşə deyildi. Beləliklə, elə qənaətə gəlmək olar ki, Naxçıvanın şüşə istehsal edən sənətkarları öz məhsullarını xaricə göndərmək iqtidarında idilər. Bu isə həmin sənətkarların yüksək iş qabiliyyətinə malik olmalarına işarədir».[8]

Naxçıvan xanlığı Rusiya tərəfindən işğal olunduqdan sonra da sənətkarlıq iqtisadiyyatda özünəməxsus rolunu saxlamaqda idi. Şimali Azərbaycanın, o cümlədən Naxçıvan və İrəvan xanlıqlarının Rusiya imperiyası tərəfindən işğalını qəti şəkildə təsbit edən 1828-ci il Türkmənçay müqaviləsindən Rusiya müstəmləkəçiliyinin sonunadək olan dövrdə sənətkarlığın vəziyyətinin öyrənilməsinə müxtəlif aspektdən yanaşmaq mümkündür.

Burada sənətkarlığı kompleks şəkildə tədqiq edib, sonra sənaye istehsalına keçmək olar. Lakin fikrimizcə akademik Ə.Sumbatzadənin Azərbaycanın XIX əsr sənayesinə dair monoqrafiyasında tətbiq edilən üsul bəzi qeydlərlə səmərəli hesab edilə bilər. Burada qeyd edilən dövrdə Azərbaycan sənayesi aşağıdakı kimi nəzərdən keçirilir: 1) paltar, ayaqqabı və ev əşyaları istehsalı (buraya ipək parça müəssisələri, gön-dəri istehsalı, papaq və ayaqqabı hazırlanması aid edilir); 2) təsərrüfat – məişət və tikinti materialları istehsalı; 3) dağ-mədən və dağzavod sənayesi; 4) yeyinti sənayesi; 5) yüngül sənaye. Göründüyü kimi birinci qrupda verilən istehsal sahələri yüngül sənayedə də birləşdirilə bilər və s. Buna baxmayaraq qeyd olunan bölgünün saxlanması Naxçıvan bölgəsindəki müvafiq vəziyyətin dərindən öyrənilməsinə və digər yerlərlə müqayisələr aparılmasına imkan verir.

Paltar, ayaqqabı və ev əşyaları istehsalı ilə bağlı olan sənətkarlıq sahələri bütün Azərbaycanda olduğu kimi Naxçıvanda da geniş yayılmışdı. Akademik Ə.Sumbatzadə yazır ki, bizim sərəncamımızda olan məlumatlara görə XIX əsrdə Azərbaycanda şəhər əhalisnin artımı, bir qayda olaraq, şəhər sənətkarlarının sayının artması ilə müşahidə olunmuşdur.

Şimali Azərbaycanın şəhər əhalisi XIX əsrin 30-cu illəri ilə müqayisədə 90-cı illərin sonunda 354.498 nəfərə çatmış, yəni 255.138 nəfər artmışdır. Araşdırmamızla əlaqədar Naxçıvan və Ordubad şəhərlərinin əhalisi haqqında məlumat üzərində dayanmaq istərdik. Belə ki, müvafiq dövrdə Naxçıvan şəhərinin əhalisi 3.645, Ordubad şəhərinin əhalisi isə 639 nəfər çoxalmışdı. Naxçıvan və Ordubad şəhərlərinin əhalisinin say dinamikası ilə burada sənətkarların sayı arasında əlaqə özünü göstərmişdir. Şimali Azərbaycanın Bakı, Yelizavetpol, Şuşa kimi şəhərləri ilə müqayisədə Naxçıvan və Ordubad şəhərlərində sənətkarlıq istehsalının eyni səviyyədə qalması aydın olur. Ə.Sumbatzadə bu şəhərlərdə sənətkarlığın statik səviyyədə qalmasını şəhər əhalisinin sayında vəziyyətlə əlaqələndirir. Sonrakı dövrdə yalnız Naxçıvanda şəhər əhalisinin sayında dəyişiklik baş verir, 1902-ci ildə burada əhali 8845 nəfərə çatır.[9]

Naxçıvan və Ordubad şəhərlərində fəaliyyət göstərən sənətkarlıq sahələrinin dairəsi və hər bir sahə üzrə sənətkarların sayı ilə bağlıdır. Göründüyü kimi sənətkarların sayı haqqında qaynaqların vəziyyəti ilə əlaqədar yaranan ziddiyyətləri sərf nəzər etsək toxucular, başmaqçılar, dəmirçilər və dülgərlərin daha çoxsaylı olduğu aydın olar.

Naxçıvan bölgəsinin Naxçıvan və Ordubad şəhərlərində olduğu kimi kənd yerlərində də paltar və ev əşyaları istehsalı ilə məşğul olan sənətkarlıq sahələri üstün yer tuturdu. 1845-ci ilə aid olan bir məlumatda Naxçıvan qəzasında istehsal olunan yun və ipək məmulatları və onların satışından bəhs edilir. Buradan aydın olur ki, Naxçıvan qəzasında 1050 xalça istehsal olunmuş, onlardan 400-ü 2000 manata satılmışdı. Həmin dövrdə Naxçıvan bölgəsində müvafiq olaraq istehsal olunan 3000 çuldan 1500-ü 1500 manata, 2500 keçədən 1500-ü 700 manata, 5000 çuvaldan 2000-i 1.000 manata, 10.000 yun corabdan 5.000-i 250 manata və i.a. satılmışdı.[10]

XIX əsrin 80-ci illərində Naxçıvan qəzasında dövlət kəndlilərinin iqtisadi məişətinə dair aparılan tədqiqat zamanı kənddə ev əşyaları və ayaqqabı istehsalına aid sənətkarlıq sahələrinin yayıldığı aşkar edilmişdi. Naxçıvan qəzasının qərb hissəsinə dair tədqiqatda burada istisnasız olaraq ev üçün palaz və yerli kobud mahud toxunduğu bildirilirdi. Həmin materiallarda Ordubad sahəsinin Unus kəndi sakinlərinin satış üçün yundan palaz və çuval istehsal etdikləri qeyd olunur. Naxçıvan, Ordubad və Dərələyəzə aid tədqiqatda kənd yerlərində 910 bez toxucusu olduğu müəyyənləşdirilmişdi.

Təsərrüfat – məişət və tikinti materialları istehsalı da Naxçıvanın iqtisadi həyatının mühüm tərkib hissəsi idi. Bölgədə sabun bişirilməsi, piyəritmə – şam istehsalı, boyaqçılıq, dulusçuluq, ağac emalı, metalişləmə kimi sənət sahələri xanlıq dövründəki kimi varlığını davam etdirir, yeni şəraitə uyğun olaraq bəzi inkişaf meylləri özünü göstərirdi. Bunların içərisində elə istehsal sahələri var idi ki, yalnız Naxçıvanda qalırdı. XIX əsrin 70-ci illərində Bakıda bir tərəfdən parafin şamları

istehsalının başlanması, digər tərəfdən neftdən kerosin alınması işıqlandırmada ənənəvi vasitələrin rolunu azaltmışdı. Buna baxmayaraq şam istehsalı yalnız Bakıdan uzaq olan Naxçıvan qəzası və Ordubad şəhərində qalırdı. 1871-ci ildə Naxçıvan qəzasında 6, Ordubad şəhərində 4 belə müəssisə var idi. Burada müvafiq olaraq 12 və 8 fəhlə çalışırdı. İstehsal gücü 900 və 676 man. idi. 1876 və 1878-ci illərdə Naxçıvan qəzası və Ordubad şəhərlərində həmin müəssisələrin sayı 5 və 3 olduğu halda, fəhlələrin sayı azalmış, istehsal gücü isə artmışdı. 1878-ci ildə Naxçıvan qəzasındakı müəsisələrdə istehsal gücü 1.500, Ordubad müəssisələrində 900 man. idi. Sonrakı illərdə də Naxçıvan bölgəsində şam istehsalı müəssisələri azalır və tədricən belə informasiya da aradan çıxır.

Naxçıvan bölgəsində boyaqçılıq, xüsusilə dulusçuluq əsas istehsal sahələri olaraq qalırdı. Akademik Ə.Sumbatzadənin fikrincə Naxçıvan Azərbaycanın əsas dulusçuluq istehsalı mərkəzlərindən biri idi. [11]

Tikinti materialları ilə məşğul olan sahələrdən kərpic istehsalı, tikinti daşları hazırlanması Naxçıvanda da mühüm əhəmiyyət kəsb edirdi. XX əsrin əvvəllərinə aid olan məluumata görə Naxçıvanda 5 kərpic zavodu fəaliyyət göstərirdi. Lakin burada əhəng hazırlanması Azərbaycanın digər yerlərinə nisbətən geniş yayılmışdı. XIX əsrin sonlarında Naxçıvan qəzasında 4, Ordubadda 2 əhəng istehsalı müəssisəsi var idi. Onların istehsal gücü müvafiq olaraq 1500 və 800 manat təşkil edirdi.

Naxçıvanda dağ – mədən sənayesinin iki sahəsi – daş duz istehsalı və dəyirman daşları çıxarılması və emalı yayılmışdı. Burada daş duz istehsalı əsas yer tuturdu.

1828-ci il Türkmənçay müqaviləsindən sonra Naxçıvan xanlığının Rusiyaya ilhaqı ilə əlaqədar olaraq xanlığın duz mədənləri xəzinənin ixtiyarına keçdi. Naxçıvanda duz istehsalında xəzinə idarəsi ilə birgə iltizam sistemidə tətbiq edilirdi. Naxçıvanda duz istehsalından əldə olunan gəlirin artması istehsal olunan duzun miqdarının artmasının nəticəsi idi. 1840-ci illərin sonlarında Naxçıvan duz mədənlərində orta illik hasilat 126.406 pud təşkil edirdi. [12] Yuxarıda qeyd edildiyi kimi Naxçıvan duz mədənlərində Şıxmahmud kəndlilərinin məcburi əməyindən istifadə edilirdi. Bu hal 1868-ci ilə kimi davam etmişdi. Adətən Naxçıvanda duz istehsalından bəhs edən müəlliflər duz çıxarılmasına dair cədvəl tərtib edərkən illəri ardıcıllıqla verir. Biz isə Naxçıvanda duz istehsalına dair göstəriciləri iki yerə bölməyə üstünlük veririk. 1868-ci elədək, yəni kəndlilərin məcburi əməyindən istifadəyə qədər və sonrakı illər.

Naxçıvanda duz istehsalı 1854-1855-ci illərdə ən yüksək həddə çatmışdı. Bunun əsas səbəbi çar hökuməti tərəfindən 1852-ci il avqustun 26-da bütün Zaqafqaziya və Qara dəniz limanları üzrə xaricdən duz gətirilməsinin qadağan edilməsi haqqında əsasnamənin nəşri və Krım müharibəsi dövründə (1853-1856-cı illər) faktik olaraq onun həyata keçirilməsi olmuşdu. Lakin 1860-cı illərin əvvəllərindən duz istehsalı azalmağa başlamış, yalnız 1867-ci ildə yüksək həddə (313.000 pud) çatmışdı. Bu hal 1862-ci il may ayının 14-də dövlət duz gəlirlərinə aksiz sisteminin tətbiqi ilə izah edilir. Doğrudan da Naxçıvanda duz istehsalına belə bir təsir var idi. Lakin 1867-ci ildə duz istehsalının yüksək həddə çatması həmin vaxt bu təsirin dəf edildiyini göstərir. 1868-ci ildən, yəni məcburi əməyin ləğvindən sonra isə Naxçıvanda duz istehsalı getdikcə azalmağa başlayır, yalnız XIX əsrin 80-cı illərin ortalarından artım baş verir. Fikrimizcə burada 1868-ci ildə məcburi əməyin ləğvinin təsirini istisna etmək olmaz. Görünür 1868-ci ildə Naxçıvan duz mədənlərində məcburi əmək ləğv edildikdən sonra istehsalın yeni şəraitdə tənzimlənməsi müəyyən çətinliklərlə müşayət olunmuşdu. Lakin bununla birlikdə XIX əsrdə Naxçıvan bölgəsində duz istehsalı, əsasən artan xətlə inkişaf etmişdi.

Naxçıvan iqtisadiyyatının XX əsrdə vəziyyətinə həsr olunmuş tədqiqatda qeyd edildiyi kimi «Zaqafqaziyada ən böyük düz ehtiyatının Naxçıvan MR ərazisində olduğu çoxdan məlumdur və burada duz istehsalının çoxəsrlik tarixi vardır. Türkmənçay müqaviləsindən sonra yaranmış yeni əlverişli şəraitdə Naxçıvan duz ehtiyatlarının əvvəlkinə nisbətən daha geniş miqyasda istifadəsinə başlanmışdır. 1837-ci ildə Sust kəndi yaxınlığında ikinci duz mədəni işə salınmışdı. Əgər 1820-ci illərin əvvəllərində Naxçıvanda duz hasilatı 50-60 min puddan çox olmurdusa, XIX əsrin 40-cı illərində duz hasilatı 3 dəfəyə qədər, 80-cı illərdə isə 10 dəfədən çox artmışdır». [13]

Naxçıvan duz mədənlərində iltizam sistemi XIX əsrin sonlarınadək mövcud olmuşdu. Naxçıvanda duz sənayesindən bəhs edən müəllif yazır ki, «mənbələrdə XIX əsrin sonlarında

azərbaycanlı sahibkarların duz hasilatındakı mövqelərinin xeyli azaldığı haqqında məlumatlar vardır. Bu dövrdə rusların köməyi ilə Naxçıvan duz mədənləri Azərbaycan sahibkarlarının əlindən alınaraq erməni, yəhudi və b. əcnəbi sahibkarlara verilirdi». [14] Naxçıvan duz mədənlərində iltizam sisteminin ləğvi neft sənayesi ilə müqayisədə köklü dəyişikliyə səbəb olmasa da, bəzi yeni meyllər burada da özünü göstərdi. İmperializm dövründə Azərbaycan sənayesi və proletariatına dair fundamental monoqrafiyanın müəllifi T.Vəliyev burada duz istehsalına, o cümlədən Naxçıvan bölgəsində duz istehsalına dair dərin təhlil vermişdir. O, haqlı olaraq göstərmişdir ki, «Azərbaycanda duz istehsalı qədim tarixə malik olsa da, onun bir sənaye sahəsi kimi əsl inkişafı XIX əsrin sonu – XX əsrin əvvəllərinə təsadüf edir. Duz istehsalı miqyasının genişlənməsi ölkənin ictimai – iqtisadi həyatında yaranmış tələbatdan irəli gəlirdi».[15] Duz mədənlərinin çoxu xəzinəyə, Sustdakıdan isə yerli sahibkaralara məxsus idi. T.Vəliyev yazır ki, «Sustun duz mədənlərini 1907-ci ildən sahibkarlar özləri istismar etməyə başladılar. Hacı Xudat xan Kalbalıxanov qardaşları ilə birlikdə «Kəlbalıxanov qardaşları və K$^0$» ticarət evini yaratdılar. Lakin dağ-mədən departamenti ticarət evinin duz istehsalını 100 min pudla məhdudlaşdırdı. Hacı Xudadat xanın duz istehsalını 200 min puda çatdırmaq haqqında dağ-mədən departamentinə dəfələrlə yazdığı xahiş ərizələri heç bir nəticə vermədi. Burada əsas məqsəd ticarət evinin şəxsində xəzinəyə qarşı rəqibin meydana çıxmasına yol verməmək idi. Yalnız 1911-ci ildə Ticarət və Sənaye Nazirliyi duz istehsalındakı mövcud məhdudiyyəti ləğv etdi. 1912-ci ildə isə Cənnət kəndi yaxınlığında Əlixanov mədənlərində (bu üçüncü duz mədəni idi) duz çıxarılmasına başlandı. Digər tədqiqatlarda da 1911-1913-cü illərdə Naxçıvanda duz istehsalının yüksək səviyyəyə çatdığı, bununla birlikdə tələbata nisbətən az olduğu qeyd edilir: «Bütövlükdə duz istehsalı da özüün inqilaba qədərki ən yüksək inkişaf pilləsinə 1911-1913-cü illərdə çatmışdı. Lakin bu dövrdə duzun ümumi istehsal səviyyəsi mövcud tələbata nisbətən xeyli aşağı idi. Belə ki, Birinci dünya müharibəsi ərəfəsində Zaqafqaziyanın duza olan orta illik tələbatı 4 milyon pud hesab olunur. Halbuki 1903-1913-cü illərdə cəmi 2,7 milyon pud duz çxarılmışdı ki, bu da Zaqafqaziyanın duza olan bir illik orta tələbatından 1,5 dəfə az idi. İnqilabdan əvvəl ən məhsuldar il olan 1912-ci ildə Naxçıvan ərazisinin bütün mədənlərindən 9 min ton və ya Zaqafqaziyanın bir illik ümumi tələbatından 4,2 dəfə az duz çıxarılmışdı».[16]

Naxçıvan bölgəsində yeyinti sənayesi unüyütmə, düyütəmizləmə, yağ çalınması, qismən şərabçılıqla təmsil olunurdu. XIX əsrin birinci yarasına aid məlumatlar içərisində unüyütmə müəssisələrinin – dəyirmanların sayından daha çox dəyirmançıların sayından bəhs edilir. 1848-1849-cu illərdə Azərbaycanın beş şəhərində, Bakı, Şamaxı, Lənkəran, Nuxa və Naxçıvanda birlikdə 72-73 dəyirmançı olduğu qeydə alınmışdı. 1864-1865-ci illərdə, bilavasitə Naxçıvan və Ordubad şəhərlərində 20-21 dəyirmançı var idi.[17] Akademik Ə.Sumbatzadə XIX əsrin ikinci yarısında dəyirmançılardan bəhs edərkən göstərir ki, bir qayda olaraq xırda, xüsusən su dəyirmanları və çəltiyi təmizləmək üçün dinglər çar statistika orqanları tərəfindən qeydə alınmırdı. Lakin elə illər olurdu ki, onları unüyütmə müəssisələri kimi «fabrik və zavodlar»ın sırasına daxil edirdilər. Bunun nəticəsində bəzi qəzalarda elə illər olurdu ki, unüyütmə müəssisəsi göstərilmirdi, elə il də olurdu ki, onların sayı yüzlərlə qeyd edilirdi. Bu fikrin təsdiqi üçün göstərilən faktlar içərisində Naxçıvan bölgəsi də qeyd edilir. Belə ki, 1890-cı ilədək burada yalnız əsil dəyirmanlar qeydə alınmışdı. XIX əsrin 70-ci illərinin ikinci yarasında Naxçıvanda 30-dək fəhləsi və ildə 15 min man. istehsal göstəricisi olan 2-3 dəyirman qeydə alınmışdı.

Naxçıvan bölgəsində sənaye istehsalının digər bir mühüm sahəsi yüngül sənaye idi. Bölgədə yügül sənaye daha çox ipək sənayesi və pambıq təmizləmə ilə təmsil olunmuşdu.

Rusiya işğalı dövründə, XIX əsrin birinci qərinəsi – XX əsrin əvvəllərində Şimali Azərbaycanda, o cümlədən Naxçıvan bölgəsində ipək emalı sənayesinə dair müəyyən tədqiqatlar vardır.[18] Bu tədqiqatlar bəzi arxiv materialları ilə birlikdə Naxçıvan bölgəsinin ipək emalı sənayesini daha dərindən öyrənməyə imkan verir.

Naxçıvanda ipək emalı sənayesi, əsasən Ordubadda mərkəzləşmişdi. Ordubadda ilk ipəksarıma fabrikləri spesifik şəraitdə açılmışdı. Belə ki, XIX əsrin 60-cı illərində ipək qurdu xəstəliyilə əlaqədar Azərbaycanın əsas ipəkçilik mərkəzlərindən olan Nuxa və Şuşada ipəksarıma fabrikləri fəaliyyətini dayandırmış, Ordubadda isə iki belə fabrik açılmışdı. Onlardan biri Aşağı Əylis kəndində, digəri isə Ordubadın özündə isə başlamışdı. Əylis fabrikində XIX əsrin 60-cı

illərinin sonlarında Cənubi Qafqazda ilk dəfə olaraq 10 mexaniki ipəkəyirmə dəzgahı qurulmuşdu. 70-ci illərdə isə Ordubada daha bir baramaaçan fabrik fəaliyyətə başladı.[19] XIX əsrin 80-cı illərində Ordubada orta hesabla 131 fəhləsi və 18787 man. istehsal gücü olan 5 müəssisə, Naxçıvan qəzasında isə 183 fəhləsi, 38.872 man. istehsal gücü olan 9 müəssisə var idi.

XX əsrdə Naxçıvan iqtisadiyyatına dair tədqiqatda bölgədə ipək emalı sənayesi bəzi digər rakurslarda da nəzərdən keçirilir. Orada yazılır: «ümumiyyətlə, 1910-1912-ci illərdə Naxçıvan qəzası kəndlərinin 32 faizi barama istehsalı ilə məşğul olurdu. Baramaçılıq Ordubad rayonu ərazisində xüsusilə geniş yayılmışdı. Rayon ərazisində olan 46 kənddən 43-də baramaçılıq az-çox inkişaf etmişdi. Həmin dövrdə Naxçıvan qəzasında baramaçılıq başqa yerlərə nisbətən yüksək məhsul verirdi. 1911-1913-cü illərdə Naxçıvan şəraitində bir qutudan 4 pud barama alınması normal hadisə hesab olunurdu… İpəkçilik müəssisələri ən çox Ordubad (12 müəssisə), Naxçıvan şəhərlərində, Əbrəqunis və Cənnəb kəndlərində mərkəzləşmişdi».[20]

Naxçıvan bölgəsində pambıqtəmizləmə müəssisələri də yüngül sənaye sahəsində vacib yer tuturdu. Lakin ipək emalı sənayesindən fərqli olaraq pambıqtəmizləmə I Dünya müharibəsinədək kustar və yarımkustar xarakter daşıyırdı. 1912-ci il məlumatına görə Şərur və Naxçıvanda 85 pambıqtəmizləmə zavodu fəaliyyət göstərirdi ki, onlardan 53-ü su ilə hərəkətə gətirilirdi.

Beləliklə, bəhs etdiyimiz dövrdə Rusiyanın müstəmləkəçilik siyasətinə baxmayaraq Naxçıvan bölgəsində sənətkarlıq və sənayenin inkişaf etdiyini, ipək emalı sahəsində isə fabrik-zavod mərhələsinin təşəkkülünün şahidi oluruq.

## ƏDƏBİYYAT


1. Abdullayev M. Xanlıqlar və rus müstəmləkəçiliyi dövründə Şimali Azərbaycanda aqrar münasibətlər (XIX əsrin 40-cı illərinə qədər). Dərs vəsaiti. Bakı, Adiloğlu, 2005, 232 s
2. Ağamalı F.R. XVIII əsrin II yarısı – XIX əsrin əvvəllərində Quzey Azərbaycan xanlıqlarının sosial-iqtisadi vəziyyəti. Bakı, Azərbaycan Ensiklopediyası NPB, 1999, 304 s
3. Allahverdiyev M. Azərbaycan xalq teatrı tarixi. Bakı: Maarif, 1978, 236 s
4. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi. Bakı, Nurlan, 2005
5. Azərbaycan tarixi. Üç cilddə. 2-ci cild. Bakı, Azərb. EA nəşr., 1964, 1002 s
6. Azərbaycan tarixi (Uzaq keçmişdən 1870-ci illərə qədər). Bakı, Azərbaycan, 1996, 872 s
7. Azərbaycan tarixi. Yeddi cilddə. III cild (XIII-XVIII əsrlər). Bakı, Elm, 1999, 584 s
8. Azərbaycan tarixi. Yeddi cilddə. V cild. 1900-27 aprel 1920. Bakı, Elm, 2001, 672 s
9. Azərbaycan teatrının salnaməsi. Toplayanı, tərtib edəni və izahların müəllifi Q.Məmmədli. Bakı, Azərnəşr, 1975, 584 s
10. Azərbaycanın aşıq və şair qadınları. Tərtib edəni Ə.Cəfərzadə. Bakı, Gənclik, 1991, 288 s
11. Bayramov İ. Qərbi Azərbaycanın türk mənşəli toponimləri. Bakı, 2002
12. Bağırov İ.N. Kəngərli yurdunun generalları. Bakı, Yazıçı, 1994, 56 s
13. Budaqov B.Ə., Qeybullayev Q.Ə. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998
14. Budaqov B.Ə., Qeybullayev Q.Ə. Naxçıvan diyarının yer yaddaşı. Bakı: «Nafta Press», 2004, 120 s.
15. Budaqova S. Naxçıvan diyarının tarixi coğrafiyası (XVIII əsrin II yarısı – XIX əsrin I qərinəsi). Bakı, Elm, 1995, 96 s
16. Cəfərov N. Naxçıvan ədəbi mühitinə tarixi bir baxış // NDU. Elmi əsərlər, xüsusi buraxılış, 1999, №5, s.1719
17. Eminov Z.S. XIX-XX əsrin əvvəllərində Azərbaycanda səhiyyənin tarixi. NDA. Bakı, 2004, 25 s
18. Əliyev A., Qasımov Ə. Naxçıvan Muxtar Respublikası: nailiyyətlər və problemlər. I c., Bakı: Azərbaycan nəşr., 2001, 284 s
19. Əliyev F., Əliyev M. Naxçıvan xanlığı (1747-1828). Bakı: Azərnəşr, 1996, 108 s

## ABSTRACT

As part of the city of Nakhchivan and Ordubad were major art centers of khanates period, and in the Nakhichevan region of Russia. In these cities before and after the occupation of the state of the art works at a desk for 1831 reflected the materials describe in the first period and I.Şopenin known Russian occupation. Farms - household and production of construction materials, and was an important component of the economic life of Nakhchivan. For soap, candles, pottery, wood processing, metal production, as in the present, in accordance with the new conditions and some trends showed themselves masters of the field in the region - khanate period. Among them were such that only the manufacturing sector remained in Nakhchivan. Another important sphere of industrial production of light industry was in Nakhchivan region. More cotton and silk industry cleanup was represented by light industry in the region. Cotton cleaning enterprises of light industry and he was an important place in Nakhchivan.



## РЕЗЮМЕ

Как в России, так и в Нахчыванском регионе основными центрами ремесел и Ордубад были города Нахчыван в составе ханство. В этих городах Российской оккупации в преддверии и после оккупации в 1831 году камеральном описания в материалах отражены ремесла в первый период I. Шопена известно и о состоянии. - хозяйственного быта и производство строительных материалов и был важной составной частью экономической жизни Нахчывана. Мыла, свечей, гончарное производство, деревообрабатывающей отраслями ремесла ханство, также как в период существования продолжает, в соответствии с новым условиям, некоторые тенденции развития, проявил себя как салотопление - выпечкой в регионе. Среди них есть такие производственные отрасли было, оставалось только В Нахчыване. В нахчыванском регионе промышленного производства другая важная сфера была легкой промышленности. В регионе легкой промышленность была представлена промышленность и очистке хлопка больше ипек. В нахчыванском регионе хлопкоочистительные предприятия легкой промышленности занимала важное место в области.



NDU-nun Elmi Şurasının 30 mart 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru, professor* M.Rzayev

**GÜLŞƏN ƏLİYEVA**

**UOT: 94 (479)**

# "POMPEYİN QAFQAZ YÜRÜŞÜ"; TARİXDƏ XƏYANƏT YAXUD QAFQAZ BİRLİYİ İDEYASI

Azərbaycan ədəbiyyatında diqqəti cəlb edən mənzum tarixi dramlardan biri Xalq şairi Nəriman Həsənzadənin qələmindən çıxmış "Prometeyin Qafqaza yürüşü" dramıdır. Müəllif bizim eradan əvvəl I əsrin 66-62-ci illərində Roma sərkərdəsi Pompeyin Qafqaza hücumu ilə bağlı hadisələrdən bəhs edən bu əsəri "Dramatik xronika" adlandırıb. Əsər XX əsrin sonunda – istiqlal epoxasında – 1997-ci ildə yazılıb.

Məlumdur ki, coğrafi baxımdan dağların və dənizlərin əhatəsində gözəl bağlar və meşələrin çevrəsində yerləşən Qafqaz, xüsusən onun gözü olan, dünyadakı 11 iqlimin 9-una sahib olan qədim odlar yurdu Azərbaycan həmişə səyyahların və yadelli işğalçıların diqqətini cəlb edib. Təbii gözəlliyi və zəngin sərvətləri həmişə Azərbaycanın başına bəla olub.

Barəsində danışdığımız əsərdə də vətənpərvər şair, istedadlı sənətkar N.Həsənzadə belə olaylardan birini qələmə alıb, tarixi material əsasında bu gün üçün çox önəmli olan Qafqaz birliyi ideyasını əks etdirib. Müxtəlif xalqların yaşadığı Qafqazın hamının evi, vətəni, baba yurdu, əbədi məskən olduğunu təqdim və tərənnüm edən şair tarixdə də xəyanətkar erməni xislətinin törətdiyi fəlakətləri obyektiv tarixilik mövqeyindən açıb göstərir. Roma sərkədəsi Pompeyin Qafqaza yürüşünü burada yaşayan xalqlar üçün tarixi bir sınaq kimi mənalandırır.

Əsər Qafqaza gəlmə toplum olan ermənilərin xəyanətindən xəbər verən məlumatla başlanır. Cəngavər Çapar deyir:

Qazın bu torpağı, hər qatı qandı
Hər uçuq baş daşı bir qəhrəmandı
Hər qaya üstündə bir yazı qaldı
El köçdü... hər toyun bir yası qaldı
Roma hədələyir kürreyi ərzi
Dünyanın tutmadı qəsdi-qərəzi
Qafqaza göndərib Pompeyi Senat
Romaya düşməndi Pontda Mitridat
Tiqran şah əksinə, bir məqam güdür
Pompeylə görüşə hazırlıq görür.

N.Həsənzadə Qafqazda yaşayan üç xalqın – Azərbaycanlıların, gürcülərin və ermənilərin Roma sərkərdəsi Pompeyə münasibəti müstəvisində onların tarixi xüsusiyyətlərini təqdim edir. Verilən parçadan məlum olur ki, Roma Senatının qərarı ilə Pompey Qafqaza burada erməni qohumlarının yanında gizlənən Pont hökmdarı Mitridatı məğlub etməyə gəlir. Əslində bu bəhanədir, əsas məqsəd Qafqazı işğal etmək, Alban dövlətini və İber çarlığını özünə tabe etdirməkdir. Pompeyin ilk təəssüratı:

Ordumuz hünərlə keçdi Arazı
Roma fəth eləyir vəhşi Qafqazı
Qayada şimşək var, buludda tufan
Bizə bələdçidir şahzadə Tiqran

Pompey "Dünyanın ən uzaq nöqtəsi – dünyanın ən uca zirvəsi" olan Qafqaza vurulur, dincəlmək üçün çadırlar qurulur.

Elə bu vaxt Pompeyin zəfər yürüşlərini qələmə alan Roma tarixçisi Pompeyə deyir ki, Ermənistan şahı ikinci Tiqran onun görüşünə gəlib. Pompey və İkinci Tiqranın oğlu şahzadə Tiqran

belə təcili gəlişdən narazı qalırlar. Yaltaq dilini işə salan qul xislətli, şəxsiyyətsiz şah İkinci Tiqran çadıra girib Pompeyin ayaqlarına yıxılır.

Pompey:

Qalx qoca, bu qədər əyilməz insan
Böyük Ermənistan, İkinci Tiqran

İkinci Tiqran:

Sənin hüzuruna gəlib baş əymək
Başın ucalığı sayılsın gərək
Mənim qaynatamdı Pont hökmdarı
Gizli axtarıram mən o qəddarı
Bu tac hədiyyədir, Tiqran şah əsir
Sarayı günahkar, özü müqəssir
Sənə qul oluram bu gündən belə
Yanına şah gəlib qul xahişinıə
Qılınc gətirmişəm, mən hələ Pompey
Boynumu vursunlar, əmr elə Pompey
Mən taxt sahibiyəm, sən sahibimsən

N.Həsənzadə hiyləgər, xidmətkar, xəyanətkar, kəmfürsət, satqın və qul xislətli erməni varlığını İkinci Tiqranın, onun hakimiyyət üstündə atasının üzünə ağ olan, Qafqazı işğalı etmək üçün gələn Pompeyə bələdçilik edən Şahzadə Tiqranın simasında ustalıqla əks etdirir. İkinci Tiqran İberiya Knyazı Çar Artakın, Alban çarı Çar Uruzun yanına Pompeyin adından elçi gedir, onlardan Pompeyə təslim olmağı xahiş edir və hər ikisindən layiq olduğu rədd cavabını alır. İkinci Tiqran:

Pompey istəyir ki, gəlib o başdan
Keçsin Kolxidaya İberiyadan
Alban sarayına elçi göndərib
Pompey xahiş edib, Uruz yox deyib.

Artak:

Qoşun çəkə bilməz bizim torpağa
Albanlar, iberlər qalxıb ayağa
...Yox, Tiqran Qafqazlı bir ağsaqqalın
Adına yaraşmır sənin sualın
...Qoy getsin, Pompeydi onun arxası
Hələ talamayıb Roma Qafqazı
Qonub qayalara igid oğullar
Gözüaçıq yatır şir kimi onlar
Qartal yuvasıdır baxsan hər yana
Dağ-dağa söykənir, Pompey Tiqrana
Çiyin-çiyinədir Artakla Uruz.

“Zümrüd quşu” poemasından sonra bu N.Həsənzadənin Qafqazın həm əzəmətini, həm də gözəlliyini, burada yaşayan dağlı xalqların igidliyini tərənnüm edən ikinci böyük əsəridir.

Pompey **“Bəyəndim mən səni bu gündən belə // özün öz ölkənə hakimlik elə”**II Tiqranın deyə rəzil xidmətini mükafatlandırır. Gətirdiyi qızıl tacı İkinci Tiqranın başına qoyur. Onun oğlu bələdçi şahzadə bundan narazı qalır, ata Tiqranla oğul Tiqran arasında hakimiyyət üstündə konflikt yaranır. Əsərin əsil dramatik konflikti isə iki düşmən qütb arasında – bir tərəfdə vətənpərvərlər çar Uruz, çar Artak, Uruzun qəhrəman qardaşı Qasid, onun kişi kimi mərd, amazonkalar kimi gözəl nişanlısı İlkcan, əsl qafqazlı ailəyə məxsus səbr, təmkin, ağıl, tədbir sahibi Uruz və Qasidin anası Məlikə Aydan, cəngavər Çapar, düşmən tərəfdə isə Roma sərkərdəsi Pompey, erməni şahı İkinci Tiqran, onun oğlu, salnaməçi Feofan dayanır. Bu dramda güclü bir xəttdə atalar və oğullar arasında düşmənçilikdir. Pompey erməni ata oğul haqqında deyir:

Didir bir-birini atayla oğul
Hökmdar bir quldu, şahzadə bir qul
İnsanın çiynində baş özü tacdı
Niyə o xəbisdi, o gözü acdı?

Əsərdə Pompeyin Qafqaza yürüşünün səbəbi kimi verilən Mitridatın da oğlanları ona düşmən kəsilir. N.Həsənzadə tarixçi-salnaməçi Feofanın dili ilə Romanın düşməni Mitridatı ağıllı siyasətçı təqdim edir:

Belə bir insan erməni xəyanəti nəticəsində ağır vəziyyətə düşür. Əvvəl zəhər verib sədaqətli qızlarını öldürür, sonra da Pompeyin əlinə keçməmək üçün ona sədaqətli köməkçisi kelt zabiti onun öz əli ilə başını vurur. Mitrdatın oğlu Farnak qəhrəman atasının kəsilmiş başını da dəfnə yarpaqlaına bürüyüb məktubla bərabər Pompeyə göndərir. Məktubda yazılıb:

Mənim düşmənimdi atam Mitridat
burda Pompey bilsin, Romada senat
Atam Mitridatın meyidi, tacı,
Almazla bəzənmiş gürzü, qılıncı
Qalxanı, Daradan qalma qızıl taxt
Hədiyyə göndərir Pompeyə Fərnak.

Məktub hətta Pompey kimi bir fatehi, baş kəsib qan içən cəlladı da sarsıdır. O bu olaya heç də sevinmir. O Romadan Qafqaza Mitridatla şərəfli döyüşə gəlmişdi. Fəqət “Mən hərbi yürüşlə Qafqaza gəldim // demə... döyüşə yox, mən yasa gəldim” kimi təəssüf ifadə edən sözlər söyləməli olur. N.Həsənzadə tarixi həqiqətə sadiq qalaraq Pompeyi böyük sərkərdə kimi təqdim edir. Zəhər içib ölmədiyi üçün özü-öz zabitinə əmr edib boynunu vurdurmasını eşidəndə Pompey deyir:

Həyatın özüdür belə bir təzad
Mənim hüzruma gəldin, Mitridat
Sən başınla gəldin, ayağınla yox,
Baha başa gəldi o başa qürur
yox, başın başımdan yüksəkdə durur!

Albanlar da, İberlər də Pompeylə mərdi mərdanə döyüşür, vətənlərini, namuslarını yadelli işğalçıdan, yerli-Qafqazlı ermənilərin xəyanətindən qorumaq uğrunda amansız mübarizə aparırlar. Alban dövlətinin düşünən beyni Çar Uruz, Alban ordusunun vuran əli - baş komandanı onun qardaşı Qasiddir. Qasid bir döyüşçü kimi nə qədər mərd, istedadlı olsa da təcrübəsizliyi ucundan Pompeylə təkbətək döyüşdə məğlub olur. Onun ikicanlı xanımı İlkcan da Qasidin intiqamını alarkən namusunu qorumaq üçün özünü öldürür. Xalq onları birlikdə əbədi bir olan şəhidlər kimi dəfn edir. Xalqı şəhid vermiş xalq şairi N.Həsənzadənin qələmi bu yerdə qürur və kədərlə dilə gəlir:

Çar Uruz:

Alban şəhididir Qasidlə İlkcan
Alban Tarixidir indi danışan
Saraydan səngərə; bir yol keçdilər
Ölüm şərbətini qoşa içdilər
Şəhidlər ölmürlər dünyada heç vaxt
Bayraqlar qalxanda doğulur onlar
Qılınclar çıxanda doğulur onlar
...Sərhəd pozulanda doğulur onlar
Tarix yazılanda doğulur onlar.

Artak “Baş əyin önündə tabut heykəlin” deyir, ona görə şəhidlər dünyada məhəbbət qoyub gedirlər.

Şair əsərin əsas qayəsini – Qafqaz birliyi ideyasını müdrik ana Məlikə Aydanın dilindən verir. Əsərdə mərd ana təkcə Alban dövlətinin deyil, Qafqazın simvolu kimi diqqəti cəlb edir:

Güzəştə getməsin igid oğullar
Güzəştin sonunda məğlubiyyət var.
Bu, dünya borcudu, dünyada qalmaz
And için bu anda möhtacdır Qafqaz**.**

Qasid və İlkcan xətti əsərdə təkcə ülvi sevginin taixçəsi kimi verilmir. Xüsusən İlkcanın simasında şair əhdə sədaqətin, böyük sevginin, vətənpərvərliyin və qadın qəhrəmanlığının timsalını işləyir. Ümumiyyətlə, onun qadın qəhrəmanları, xüsusən də amazonkalar kimi gözəl gəlinlər – "Atabəylər" mənzum tarixi dramında Gülaçar, "Pompeyin Qafqaza yürüşü"ndə İlkcan gözəllik və qəhrəmanlığın, ülviyyət və rəşadətin təbii külçəsidir. Pompey əsgərləri tərəfindən paltarı cırılmış İlkcanı görür və ona heyran qalır:

Qadın namusuna toxunmaq olmaz
İti bıçaq olur o dəmdə Qafqaz
Gözəl Alban qızı, əsl zadəgan
Hüsnün qarşısında sarsılır insan
Açır səngərdə də zərif bir çiçək
Ona nə meh dəysin, nə də əsən külək
Troya şahzadəsi Kassandradan
Alban şahzadəsi zərifdir, inan.

Pompeyin Romaya getmək təklifinə İlkcan **"Romaya özüm yox, gedər cəsədim // Pompeyilə döyüşdü hələ məqsədim"** kimi mərd, qürurulu və qəhrəmanlıqla dolu çətin bir cavab verir.

N.Həsənzadənin mənzum tarixi dramlarını poetik baxımdan səciyyələndirən bir xüsusiyyət də var: Əsərdə hadisələrin əlaqəsi və dinamikası şairin adından danışan obrazlar – "Atabəylər"də Salnaməçi və Bağban, "Pompeyin Qafqaza yürüşü" dramında cəngavər Çapar həyata keçirir. Çapar təkcə hadisələrə kənar müşahidəçi kimi qiymət vermir, həm də hadisələrdə iştirak edir, birləşdirici rol oynayır. Məsələn, Çapar ermənilərə qiymət verir:

Pompey: Bəs Tiqran, bəs böyük bir Ermənistan?
Çapar: Bizə xain çıxıb o bina başdan
Qafqazda yer tapıb yaşasalar da
Qafqaz xasiyyəti yoxdur onlarda
Bizim yanımızda bizə dost deyər
Yadelli gələndə ona baş əyər.

N.Həsənzadə Çapara Pompeyin fikri ilə böyük qiymət verir. O, **"Adi bir albanın dediyi kəlam"// burda heyran qoydu məni, danmıram".**

Çapar adi obraz deyil. Bu igid alban cəngavəri həm də müdrik bir filosofdur. O Pompeyə cavabı özündə olan zidd suallar verir, Pompeyi həm səciyyələndirir, həm də bəşəri suallar qarşısında onu mat qoyur. **Çapar deyir:**

Yerdə bilmədilər, gələn gurultu
Göydə ildırımdı, ya vəhşi ordu?
...Niyə heyvanların dili yox ikən,
dil tapıb yaşayır belə qədimdən?
İnsan öz əslinə oxşaya bilmir
dili var, dil tapıb yaşaya bilmir?
Niyə bu yerdə də nüfuz olmasın
Niyə Pompey olsun, Uruz olmasın?
Yaşaya bilməzmi başqa ölkələr
Niyə bir başçıya baş əysin bəşər?

Bu fəlsəfi sualların poetik-dramatik gücü onların bəşəriyyətində və müasirliyindıə, bütün xalqlara və bütün zamanlara aid olmasındadır.

Çapar müəllifin əlində tarixə qiymət vermək üçün ideya ruporudur. Təsadüfi deyil ki, belə mürəkkəb bir tarixi pyesi N.Həsənzadə məhz Çaparın səhnəyə müraciətlə dediyi sözlərlə tamamlayır:

Qafqaz mənim əcdadımın vətənidi
Əzabımın, fəryadımın vətənidi
Ölənimin, itənimin vətənidi
Qafqaz mənim vətənimin vətənidi.

Şair doğru deyir, Qafqaz Azərbaycanın vətənidi, qədim və ulu Azərbaycan Qafqazda yerləşir, o Qafqazın tacıdır.

Qafqaz eyni zamanda gürcü Artekin və alban – azərbaycanlı Uruzun vətənidir. İber və Alban çarlarını birləşdirən təkcə şəxsi dostluq münasibətləri deyil, bəlkə daha çox Qafqaz təəssübüdür, vətənçilik hissidir. Onlar ölkə başçıları kimi yaxşı bilirdilər ki, Qafqazın əmin-amanlığı burada yaşayan hər bir xalqın əmin amanlığıdır. Ona görə də xain və satqın, rəzil bir toplum olan, böyük Ermənistan xülyası ilə xəstələnən, özündən güclülərə qul, özündən zəiflərin başına bəla olan erməniləri çıxmaq şərti ilə Qafqazda yaşayan bütün xalqlar dağ vüqarı ilə birləşərək işğalçı Qney Pompeyə müqavimət göstərdilər.

Artek:

İber çarlığıdır Kürün o tayı
Kürün bu tayında Alban sarayı
Taledir səsləyən üzü küləyə
Əl-ələ qardaşlar, kürək-kürəyə
Bütün İberiya, bütün Gürcüstan
Səfərbərlik edir günü sabahdan
Alban ordusuyla İber ordusu
Elə ki, birləşdi yoxdu qorxusu.

Lakin lovğa Pompey onları saymır. **"Bu çarlar Kir deyil, İskəndər deyil// Onlar teatrda çar ola bilər// çarların əksidir əsli deyildir"** deyə, fikrini onun yürüşlərinin tarixini işləyən salnaməçi Feofana müraciət edir.

Əsərdə konfliktin gərgin məqamlarından biri roma sərkərdəsi Qney Pompeylə Alban çarı Uruzun üz-üzə gəldiyi səhnədir. Müəllif Uruzu həm igid qəhrəman, həm də cəsarətli və tədbirli, ağıllı və siyasətçi dövlət başçısı kimi hərtərəfli tədim edir. Uruz Pompeyə cavab verərkən "Avesta"ya, Zərdüştün fəlsəfəsinə əsaslanır: **"İşıq qaranlıqla ... Pompey barışmaz // İşığa çağırır Qərbi də Qafqaz".** Bu işıq dramda təsvir olunan (erməni xaric!) bütün qafqazlılara güc, ümid və qürur bəxş edir. Həmən işıqdan güc alan, dövləti də, siyasəti də, parlaq şəxsiyyəti də bu işıqla nurlanan Alban hökmdarı Pompeyə tarixi bir vətənpərvərlik dərsi verir:

Vətən ululardan qalıb yadigar
burdan keçə bilməz özgə ordular
Buna nəsil-nəsil biz and içmişik
torpağa can verib candan keçmişik
Bizim hüququmuz eynidir, fəqət

Vətəni işğal olunmuş, yüzlərlə şəhid vermiş xalqın teatr səhnəsində bu sözləri demək olduqca zəruridir. Xalq şairi N.Həsənzadənin mənzum tarixi dramının müasirliyi də ilk növbədə məhz bundadır. Yad orduları vətənə buraxmamaq, yer altındakı şəhidləri tapdamaq deməkdir, bu isə sadəcə günah yox, eyni zamanda milli bir cinayətdir.

N.Həsənzadənin "Pompeyin Qafqaza yürüşü" mənzum tarixi dramında maraqlı bir epizod da var: Pompey Şərq müdrikliyinə, konkret olaraq Zərdüştün fəlsəfəsinə heyran qalır və öz salnaməçisi Feofana bu barədə eşitdiklərini qələmə almağa tapşırır.

Feofan: Xalqın tarixi var, tarixçisi yox
bu qədər yol gəlib, yolda izi yox.
Pompey: Necə? Afinadan, Romadan qabaq?!
Feofan: Bir Zərdüşt olubdu, fikirdən oyaq
Dünyada birinci alim, sənətkar
Ona səcdə qılır indi də xalqlar
Kainat oddur deyib böyük yunana alimi –
Bəlkə Heraklitin də Zərdüştdü müəllimi.
..."Dünya olandan bəri vuruşur Xeyirlə Şər
Yaxşı – pis, gecə-gündüz, mərd-namərd, iblis-bəşər"

Pompey: Yox,yox. O sözləri topla, Feofan
Mən qibtə elədim bu dinə inan
Qayıdıb Romada məşğul olarıq
Zərdüşt peyğəmbərdi, biz qul olarıq
Mən ki yer üzündə qalib əsgərəm
başqadır insanda daxili aləm
...Peyğəmbər Zərdüştün din fəlsəfəsi
Qafqaz yürüşümün son möcüzəsi.

Tarixçi Feofan öz dəftərindən Zərdüşt peyğəmbərin Zaman, İnsan və Cahan haqqında fikirlərini oxuduqdan sonra Qney Pompey belə qərara gəlir. Məhz Zərdüştün fəlsəfəsi dünya fatehinin qoşununu çəkib geri qayıtmağa, Qafqazdan getməyə sövq edir. Zərdüştün kəlamlarını dinlədikdən sonra o dünyaya başqa gözlə baxmağa başlayır, mənəviyyatı sərvətdən, mənəvi cəsarəti qəhrəmanlıqdan üstün tutmalı olur.

Beləliklə, Roma sərkərdəsi, böyük fateh Qney Pompey Qafqazın nə ərazisini, nə də mənəviyyatını fəth edə bilmir. Hikmət və məhəbbət ona qalib gəlir. N.Həsənzadənin qənaəti budur ki, qılınc və qələmin vəhdəti Qafqazın, Azərbaycanın basılmaz qüdrət simvoludur. Makedoniyalı İskəndər "Avetsa"nı yandırır, fəqət Zərdüştün hikmətləri yuva bağlamış yaddaşın kiçik ərazisini işğal edə bilmədi. Qney Pompey də nə qədər güclü ordusu xəyanətkar, satqın erməni əlaltıları olsa da Qafqaz birliyinə rəxnə sala bilmədi. N.Həsənzadənin "Pompeyin Qafqaza yürüşü" mənzum tarixi dramı yüksək niyyətlə müdrik hikmətin vəhdətindən yaranan, tarixdə fəlakət və xəyanətin rolunu aşkara çıxaran, qürur və məhəbbətin vətənpərvərlik və qəhrəmanlığın rəhni olduğunu təcəssüm etdirən mənalı sənət əsəridir.


## ABTSRACT

**Gulshan Aliyeva**

**"Pompey's Caucasian campaign"**
**Betrayal in history or the idea of Caucasian union**

One of the attracting historical verse drama is "Pompey's Caucasian campaign" written by Nariman Hasanzadeh, great Azerbaijan poet. The poem referred the events happened during roman commander pompey's campaing in 66-62 BC was named "Dramatical chronology" by the author himself. The poem was written at the end of 20th century, epoch of independence-in 1997.



NDU-nun Elmi Şurasının 30 mart 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *Tarix üzrə fəlsəfə doktoru, dosent* X.Hüseynov

**İLHAM ABBASOV**
*Ədliyyə Akademiyası*

**UOT: 94 (479)**

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ VƏ HACI ZEYNALABDİN TAĞIYEV

**Açar sözlər:** *Azərbaycan Xalq Cümhuriyyəti, Hacı Zeynalabdin Tağıyev, xeyriyyəçi, Nəriman Nərimanov*
**Keywords:** *Azerbaijan National Republic, Haji Zeynalabdin Tagiyev, Maecenas, Nariman Narimanov*
**Ключевые слова:** *Азербайджанской Народной Республике, Гаджи Зейналабдина Тагиева, филантропия*

**28 may 1918-ci il tarixdə Tiflisdə Qafqaz canişinin iqamətgahında doktor Həsən bəy Ağayevin sədrliyi ilə Azərbaycan Milli İslam Şurasının iclası keçirilir.**

Azərbaycan Milli İslam Şurası tərəfindən həmin iclasda 6 bənddən ibarət «İstiqlal bəyannaməsi» qəbul edilir və Fətəli Xan Xoyskinin sədrliyi ilə Azərbaycan Xalq Cümhuriyyətinin ilk müvəqqəti hökuməti təşkil edilir. Həmin hökumət Tiflisdə təşkil olunmaqla, 18 gün burada fəaliyyət göstərir və bu hökumət 16 iyun 1918-ci ildə Yelizavetpol ***(Gəncə-İ.A.)*** şəhərinə, Bakı şəhəri erməni daşnaklarından təmizləndikdən sonra, başqa sözlə, Bakı Qafqaz İslam ordusu tərəfindən azad edildikdən sonra isə 17 sentyabr 1918-ci il tarixdə Bakıya köçür.

Çox təəssüflər olsun ki, Şərqdə ilk demokratik respublikanın ömrü cəmi 23 ay davam edir və 27 aprel 1920-ci il tarixdən 28 aprel 1920-ci il tarixə keçən gecə bolşevik Rusiyasının XI Qızıl Ordusu tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti devrilir.

Azərbaycan xalqının fəxri, iri neft miliyonçusu, xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin həmin dövrdə, yəni Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakıda yaşayıb və fəaliyyət göstərir.

Görkəmli yazıçı M.F.Suleymanov «Neft miliyonçusu» sənədli romanında göstərmişdir: «Miliyonçu Hacı Zeynalabdin Tağıyevi Bakıdakı müsəlman, rus, erməni və yəhudi xeyriyyə cəmiyyətlərinin hamısı özlərinə fəxri sədr seçmişdilər. O, Rusiyada və bütün müsəlman aləmində tanınmış sərmayədar idi.

Atası içərişəhərli başmaqçı Tağı, anası Bilgəhli Anaxanım olub. Zeynalabdin uşaq ikən anası vəfat edib. Atası ikinci dəfə evlənib, təzə arvaddan beş qızı olub. Tağı çox kasıb imiş. Zeynalabdin hələ kiçik ikən atası deyir ki, bala, görürsən də güzəranımız necə ağır keçir, gəl əlimin altında işlə, mənə həyan ol, birtəhər gündəlik çörəkpulu qazanaq. Zeynalabdin cavab verir ki, mən başmaqçı yox, bənna olacağam. Qonşuluqdakı baqqal da Zeynalabdinə təklif edir ki, gəl dükanda mənə həyan ol, sənə muzd verərəm. Görürəm zirək, gözü açıq, çalışqan uşaqsan. Zeynalabdin onun da təklifini rədd edib, bənna olacağını söyləyir» [1, səh. 3].

Sovetlər dönəmində, çox təəssüflər olsun ki, Hacı Zeynalabdin Tağıyev yalnız iri kapitalist kimi təqdim edilirdi. Əslində isə H.Z.Tağıyev xeyriyyəçi olmuşdur. Onun bu xüsusiyyəti Azərbaycan Xalq Cümhuriyyətinin varlığı dövründə də özünü büruzə vermişdir. O, Azərbaycanda iri kapitalist olsa da, onun xeyriyyəçilik fəaliyyəti əvvəlki fəaliyyətindən heç də geri qalmamışdır. Bakıya ilk dəfə avtomobili H.Z.Tağıyev gətirmişdir [1, səh. 20].

Azərbaycan Xalq Cümhuriyyəti dövründə bu cümhuriyyətin başında duranlar H.Z.Tağıyevi özlərinin ağsaqqalı və himayədarı sayırdılar. Müstəqil Azərbaycan ictimai-siyasi həyatında elə bir hadisə yox idi ki, orada «millət atası» iştirak etməsin. 1919-cu ildə M.Ə.Rəsulzadənin təşəbbüsü ilə Azərbaycan Dövlət Darülfununun *(Bakı Dövlət Universitetinin-I.A.)* açılmasından hədsiz dərəcədə

sevinən maarifpərvər Hacı Zeynalabdin dövlətə maddi yardım əlini uzatmışdı.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti müstəqil respublikanın milli iqtisadiyyatının möhkəmləndirilməsində məhz H.Z.Tağıyevin məsləhətləri nəzərə alırdı. Bu cəhətdən onun 1919-cu il iyun ayının 29- da Nazirlər Şurasının Sədri Nəsibbəy Yusifbəyliyə göndərdiyi rəsmi məktub bu gün də öz əhəmiyyətini saxlamaqdadır. Məktubda deyilir: «Dövlətin həqiqi siyasi müstəqilliyi yalnız onun maliyyə və iqtisadi müstəqilliyi əsasında mümkündür, siyasi mənada azad vətəndaşlar bunsuz sənaye və ticarət baxımından özlərinin daha güclü qonşularının köləsi olacaqdır» [2, səh. 37].

İri neft sənayeçisi H.Z.Tağıyev xeyriyyəçilik işlərindən də kənarda qalmırdı. Hazırda Milli Akademiyanın Əlyazmalar İnstitutu yerləşən binada olarkən bir daha belə qənaətə gəlirsən ki, bu məktəb adi tədris ocağı deyil, dini və milli adət-ənənələrimiz əsasında müasir dünya mədəniyyətinə yiyələnmək üçün canlı körpü idi [2,səh. 41].

Həmin binanı H.Z.Tağıyev Azərbaycan Xalq Cümhuriyyəti dövründə Parlamentin təmannasız istifadəsinə vermişdir. Belə ki, Parlamentin iclasları həmin binada keçirilməklə, Parlamentin aparatı da orada yerləşirdi.

Sahibkar H.Z.Tağıyev nəinki Azərbaycanda, həmçinin, Çar Rusiyasında da tanınmış neft sənayeçisi və xeyriyyəçi kimi məhşur idi. O, həmçin, düşündüyünü birbaşa deyən, alicənab bir şəxsiyyət idi.

Azərbaycan Respublikasının Əməkdar jurnalisti M.Ə.Rəhimzadə H.Z.Tağıyevin həyat və fəaliyyətinə həsr etdiyi «Allahın eşqiylə» kitabında göstərir: «...lll Aleksandr taxta çıxıb tacgüzarlıq etdikdə Zaqafqaziya müsəlmanları tərəfindən Hacı Zeynalabdin Tağıyev Peterburqa nümayəndə göndərilmişdi. Mərasim zamanı baş nazir çarın sağ tərəfində dayanıb gələnləri ona bir-bir təqdim edirmiş. Hacı Zeynalabdin müsəlman libasında, başında buxara papaq, əynində arxalıq, üstündə çuxa, ayağında şirazi çarıq, əlində dəsmal, duz-çörək çara yaxınlaşanda baş nazir elə güman edir ki, Tağıyev Başa düşmür, deyir: «Ваше величество, это представитель дикого народа». Tağıyev deyir: “Мы не дикие мой народ не дикий, он имеет свою богатую историю» [2, səh.74].

Hələ Azərbaycan Xalq Cümhuriyyətindən əvvəl, Çar Rusiyası dövründə H.Z.Tağıyevlə nəinki Azərbaycanda, o cümlədən, sonralar bütün Şərqdə tanınmış N.N.Nərimanovla arasında belə bir hadisə baş verir. Görkəmli şəxsiyyət, tanınmış siyasətçi V.H.Məmmədov «Nəriman Nərimanov» kitabında belə bir hadisəni baş verdiyini təsvir edir: «1906-cı ilin avqustunda baş vermiş hadisə Nərimanovun həyatı üçün çox səciyyəvidir.

Həmin ilin avqust ayında Zaqafqaziya müsəlman müəllimlərinin I qurultayı oldu. Qurultayın gündəliyini və proqramını Nərimanovun rəhbərlik etdiyi komissiya hazırlamışdı. Qurultaya Həsənbəy Zərdabi və N.Nərimanov rəhbərlik edirdilər.Qurultayda xalq maarifinə aid bir sıra əhəmiyyətli məsələlər müzakirə edildi.

İclasların birində növbəti sədr Nərimanov idi. O, məktəblərdə Azərbaycan dili təlimi məsələsinin müzakirəsi zamanı «HeMOW MeTOfl» adlanan köhnə üsulun ləğv edilməsini hökumətdən tələb etməyi təklif etdi. Zərdabi bu üsulun dəyişdirilməsi barədə xahiş etməyi təklif edirdi. Nərimanov isə sübut edirdi ki, həmişə xahiş etmişik, bir nəticəsi olmayıb; nə vaxta qədər yalvaraq? Biz indi tələb etməliyik. Zərdabi dedi: «Nərimanov, sən cavansan, təcrübən yoxdur, güc ilə iş olmaz. Sənin topunmu var, tüfənginmi var, ya qoşununmu var ki, bu ürəklə danışırsan?» Yerdən doktor Seyidov adlı biri:-Ağıl yaşda deyil, başdadır!-deyə, Həsənbəy Zərdabiyə söz atdı.Zərdabi acıq edib qurultayı tərk etdi. Qurultay N.Nərimanovun təklifini qəbul etdi. H.Zərdabi onda H.Z.Tağıyevi qurultaya çağırdı. Təğıyev qəbul edilmiş qərarın geri götürülməsini tələb etdi. O, Nərimanovu göstərərək:

- Kimin dalınca getmək istəyirsiniz? Siz bilmirsinizmi bu adamın cibində bir qəpik parası yoxdur. Əgər o ağıllıdırsa öz başını dolandırsın, özgə puluna oxumasın...-deyə, Nərimanovu təhqir etdi.

Hamı bilirdi ki, Nərimanov Tağıyevin ayda 50 manat borc verdiyi pula oxuyur. Qurultay sükut içində Nərimanovun cavabını gözləyirdi. Nərimanov ayağa qalxıb dedi:

-Bəli, bir çoxları kimi mən də Hacının puluna oxuyuram. Lakin mən bilmirdim ki, bu pul mənim ixtiyarımı əlimdən almalı və dilimi bağlamalıdır. İndi ki, belədir, mən təşəkkür edir,bu «köməkdən» imtina edirəm, mən məsləkimdə və işlərimdə azad olmaq istəyirəm. Qızıl gücünə məni

susdurmağa heç kimə ixtiyar verməmişəm və verməyəcəyəm! Başqaları nəinki açıq danışırlar, hətta çar istibdadına qarşı azadlıq yolunda öz qanlarını tökürlər. Belə bir zamanda qışqırmaq, fəğan etmək lazım ikən mən susüb vicdanımı ləkələyə bilmərəm... Bütün qurultay qarşısında mən bundan sonra Hacının rədd edirəm. Qoy bilsinlər ki, kasıbların də öz əqidəsi və mənliyi vardır.

Qurultay iştirakçıları Nərimanovun sözlərini alqışla qarşıladılar. Lakin qızğın mübahisə başlanmışdı. Liberal ziyalılar Nərimanovu təqsirləndirirlər ki, hərçənd Nərimanov haqlı idi, amma gərək Hacının üzünə ağ olmayaydı. Hacı belə-belə şeyləri sevmir. Nərimanovu müdafiə edən olmadı. O, qurultayı tərk etdi. Yerli qəzetlər bu hadisənin üstündən sükutla keçdilər və tamamilə burjua sinifinə yaltaqcasına xidmət etdiklərini göstərdilər» [3, səh. 77-79].

Azərbaycan Xalq Cümhurlyyəti Parlamentinin 1 sentyabr 1919-cu il tarixli iclasında 1919/20-ci il dərs ilində 100 nəfər abituryent və tələbənin xarici ali məktəblərə göndərilməsi üçün vəsait ayırmasını qərara aldı. Qərarda göstərirdi ki, həmin 100 nəfər tələbə xarici ali məktəblərə göndərilməsi üçün dövlət vəsaitindən Xalq Maarif Nəriman Nərimanov H.Z.Tağıyevi yanına dəvət edib, yaşamaq üçün hansı müikünü seçməsini ona təklif edir. N.Nərimanov H.Z.Tağıyevi başa salır ki, Sovet hökuməti onsuz da sənin bütün əmlakını, o cümlədən mülklərini əlindən alacaq və səni güllələyəcəklər, ona görə də sən yaşamaq üçün bu mülklərdən birini seç, həmçinin, bütün fabrik və mədənlərdən imtina et, çünki sənin başqa çarən yoxdur.

Z.Tağıyev Nəriman Nərimanovun məsləhətinə qulaq asaraq, yaşamaq üçün Mərdəkandakı bağ evini seçir və ora köçür. H.Z.Tağıyev neft mədənlərini, fabrik və digər xüsusi mülkiyyətində olan obyektlərini və mülklərini Sovet hökumətinə bağışlayır. H.Z.Tağıyev ailə üzvləri ilə birlikdə Mərdəkandakı bağ evinə köçür və 1924-cü ildə 101 yaşında elə orada da dünyasını dəyişir...

## ƏDƏBİYYAT


**1.** Süleymanov M.F., «Neft milyonçusu» (sənədli roman), Bakı, Azərbaycan, 1996, 152 səh

**2.** Rəhimzadə M.Ə., «Allahın eşqiylə» kitabı, Azərbaycan, Bakı, 2007, 256 səh

**3.** Məmmədov V.H., «Nəriman Nərimanov» əsəri, Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı, Bakı, 1957, 133 səh

**4.** Atakişiyev A.M «M.Ə. Rəsulzadə adına Bakı Dövlət Universitetinin tarixi», I hissə, Bakı Universitetinin nəşriyyatı, 1991, 528 səh

**5.** Azərbaycan İnqilab Komitəsi və Xalq Komissarları Soveti iclaslarının protokolları (Rus və Azərbaycan dillərində), «Çaşıoğlu» nəşriyyatı, Bakı, 2009, 552 səh


## АБСТРАЖТ


**İlham Abbasov**

**Azerbaijan National Republic and Haji Zeynalabdin Tagiyev**

Author the article devoted to the actual topic - attitude of the Haji Zeynalabdin Tagiyev to the Azerbaijan National Republic.

I.K.Abbasov fairly concludes that H.Z.Tagiev, despite his advanced age, made intelligent and wise counsel to the appropriate officials of the development of the industry, on financial matters at Azerbaijan National Republic.

## РЕЗЮМЕ

**Ильгам Абасов**

**Азербайджанская Нараодная Республика**
**и Гаджи Зейналабдин Тагиев**

Автор статья посвятил актуальной теме –отнешению Гаджи Зейналабдина Тагиева к Азербайджанской Народной Республике.

И.К.Абасов справедливо приходит к выводу о том, что Г.З.Тагиев, несмотря на преклонный возраст, дал умные и мудрые советы соответствующшь должностным лицаь о развитии промышленности, по финансовым вопросом при Азербайджанской Народной Республике.



NDU-nun Elmi Şurasının 30 mart 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *Tarix üzrə fəlsəfə doktoru, dosent* X.Hüseynov

# SİYASİ ELMLƏR VƏ HÜQUQ

**ГАРИБ АЛЛАХВЕРДИЕВ**
*Нахчыванский Государственный Университет*
*g.allahverdiyev@yandex.com*

**УДК:342.5**

## ВЕЛИКИЙ ПОЛИТИЧЕСКИЙ ЛИДЕР СОВРЕМЕННОСТИ

**Açar sözlər:** *Lider, siyasi lider, Heydər Əliyev ümumimilli siyasi lider kimi, demokratiya, ictimai həyatın demokratikləşməsi, yeni ictimai-siyasi quruluşun legitimləşməsi, siyasi tarix*

**Keywords:** *Leader, political leader, Heydar Aliyev as a national political leader, democracy, democratization of social life, legitimization of new socio-political system, political history*

**Ключевые слова:** *Лидер, политический лидер, Гейдар Алиев как общенациональный политический лидер, демократизация общественной жизни, легитимизация общественно-политического строя, политическая история*

Как известно, основным вопросом политики является вопрос о власти. Поэтому здесь очень важным является ответ на вопрос, кто является носителем власти. В конституциях многих государств указывается, что источником власти является народ, в действительности же все не так просто. Политическая практика показывает, что в процессе разделения власти не все граждане участвуют в одинаковой мере. К власти в любом обществе причастен лишь определенный узкий круг людей. Это политическая элита. В составе политической элиты особое место занимают отдельные представители, отличающиеся особым приоритетом во влиянии на общество – политические лидеры. Именно политические лидеры служат воплощением власти.

Теперь, в контексте вышесказанного, проведем политологический анализ политической деятельности Гейдара Алиева как великого политического лидера современности. Для четкого понимания политической деятельности общенационального лидера Гейдара Алиева целесообразно рассмотреть взгляды некоторых мыслителей прошлого на лидерство.

Английский историк XIX века Томас Карлейль, рассматривавший великих личностей как создателей истории, подчеркивал: «Великие лидеры – вожди массы, следующей за ними, точно повинуясь велениям судьбы. И истинная сущность всех социальных процессов заключается в том, чтобы возвести на трон самого способного человека» [3, с.11].

По мысли американского философа Сидни Хук: «История есть творение великих людей, и только лидеры могут влиять на развитие человечества. Если капитализм сумеет выдвинуть «сильных» и «умелых» лидеров, то будет снят вопрос о замене его социализмом» [5, с.46].

Французский социальный психолог, живший в конце XIX – начале XX века, Габриэль Тард утверждал, что все достижения цивилизации – результат деятельности великих лидеров. Великий лидер – «высшая случайность, высший источник социального развития. Общественный прогресс обязан лидерам, преодолевающим косность толпы» [6, с.45].

З.Фрейд, оказавший большое влияние на современную западную концепцию лидерства писал: «Огромное большинство людей испытывают жгучую потребность в авторитетах, перед которыми они могли бы преклоняться. Из психологии мы узнаем, откуда идет эта потребность масс. Она идет от тоски по отцу, которая живет в каждом из нас с

детства… все черты характера, которыми мы наделяем великую личность, являются отцеподобными чертами, и в этом отцеподобии и заключается до сих пор ускользавшая от нас сущность великой личности» [7, с.36].

Авторитетные западные социологи второй половины XX века Г.Ласуэлл, Э.Эриксон, Р.Холмс, И.Никкербокер высказывались о лидерстве почти также как и З.Фрейд в своей концепции: «У каждого из нас был отец, фигура, обладавшая престижем, наделявшаяся магическими качествами. Многие из нас находили безопасность в этой фигуре. И поскольку мы продолжаем нуждаться в безопасности, продолжаем нести с собой с детства символ отца, лидера» [7, с.38].

Если обобщить вышеизложенное, то увидим, что вопросы лидерства и роли лидеров в развитии истории находились в центре внимания философов, историков и политологов. В современный период проблеме политического лидерства также уделяется большое внимание. Например, в политической науке существует много концепций о лидерстве. Содержание большинства этих концепций составляет мысль о том, что развитие общества происходит на основе импульсов, получаемых от великих личностей, история есть творение великих людей, и только лидеры могут влиять на развитие человечества.

Исходя из вышесказанного, в полной мере относящегося к личности Гейдара Алиева, можно утверждать, что он является общенациональным лидером, чувствовавшим политическое время, создавшим историю, способным остановить и изменить ход политической истории.

Известно, что на формирование и поведение личности большое влияние оказывает географический фактор. Еще в V веке до н.э. по этому поводу высказывались Геродот и Аристотель, и в последующие века мыслители продолжали развивать это учение. Особенно много внимания вопросу влияния географического фактора на формирование и поведение личности уделяли Жан Бонем (XVII век) и Монтескье (XVIII век). В связи с этой мыслью хочется обратить внимание на один момент в биографии Гейдара Алиева.

Гейдар Алиев родился на древней тюркской земле, подарившей истории много великих мыслителей и личностей – в Нахчыване. Нахчыван имеет сложную, напряженную, измеряющуюся тысячелетиями историю. На этой земле сталкивались интересы, эмоции, политики десятков тюркских правителей, шли кровопролитные бои, резня. В мировоззрении, в духовности, в морали современных нахчыванцев можно встретить культуру мышления древних времен.

Нахчыван очень суровый горный край, зима холодная, лето жаркое. Как говорят сами нахчыванцы, их хлеб выходит из камня. Видимо, суровый образ жизни играл немалую роль в формировании характера людей этого края. Нахчыванцы веками, даже тысячелетиями, отдавая жизни, защищали свою землю. Защищают и сейчас, встав лицом к лицу армянских агрессоров, стремящихся за счет исконных азербайджанских земель расширить свои территории.

Бесспорно, что несравнимые общественно-политические достижения Гейдара Алиева связаны с его личными качествами: отвагой, бесстрашием, смелостью, гранитной волей, способностью к преодолению трудностей. Именно эти качества сформировались у него в юные годы в Нахчыване.

В политической науке есть идея зависимости лидерства от определенной социальной ситуации. По этой идее, лидер – функция индивидуума в определенных условиях, а лидерство – это связь между людьми в некоторой социальной ситуации, и люди – лидеры в одной ситуации, в других условиях могут ими и не быть, а в ряде случаев даже могут стать пленниками ситуации (обстоятельств).

Своеобразие гения Гейдара Алиева и отличие его от лидеров, зависящих от исторических условий, состоит в том, что как историческая личность он лидер в двух политических системах, лидер и советского периода, и в современное политическое время в независимом Азербайджане. В связи с этим Президент Казахстана Н.Назарбаев пишет: «Он, человек, сформировавшийся еще в Советском Союзе, воспитанный на социалистических

идеях, но волей судьбы поставленный в кардинально новые условия, сумел соединить, казалось бы, несоединимое. Он взял из прошлой жизни целеустремленность, неистребимую веру в силы и разум народа, верность долгу, высочайшую ответственность за порученное дело и с юношеской энергией взялся строить принципиально новые общественные и экономические отношения. И ему это удалось.

Он сумел обеспечить совмещение успешных ответов на вызовы и угрозы века глобализации, порой отнюдь не гуманных, с сохранением и приумножением древней истории, богатой культуры и национальных традиций своей родной земли» [1, с. 474-475].

Сверхъестественные качества Гейдара Алиева, его способность без помощи власти вести массы за собой, высшая организованность и дальновидность, умение объединить народ вокруг общей цели, интеллектуальные способности, доходящие до гениальности, острый ум, крепкая воля, видение цели и кипучая энергия позволили ему сохранить целостность общественного организма в переходный период, вывести общество на новый путь развития. Гейдар Алиев, как политический лидер, стоявший у власти, относится к социоцентрическому образу. Да, история показала, что Гейдар Алиев, ставивший общественные интересы выше личных, всю свою жизнь посвятил любимому Азербайджану.

Таким образом, Гейдар Алиев как политический лидер в период своего пребывания у власти выполнял следующие важные функции:

- аналитическая;

глубоко и всесторонне анализировал сложную ситуацию, сложившуюся в первые годы независимости Азербайджана, изучал совокупность объективных и субъективных факторов в политической жизни общества, разработал программу действий, обосновал стратегические приоритеты и тактические способы их достижений.

- организаторская;

генерировал оптимизм и социальную энергию, защищал национальные духовные ценности азербайджанского народа, обеспечил прогресс общества, вселял веру в массах в социальные идеалы и ценности в новом обществе; мобилизовал массы на реализацию политических программ и целей, сплотил сторонников, объединил усилия различных слоев населения; сформировал команду помощников; планировал политические действия; регулировал и контролировал ход преобразования общества.

- интегративная;

Объединил и согласовал различные социальные интересы на основе общих целей, ценностей и идеалов; консолидировал разного рода общественные и политические силы. Он воплощал в себе и представлял во взаимоотношениях с другими государствами национальное единство, подавал пример служения народу и Отечеству. Гейдар Алиев умело управлял интересами различных политических сил и был мастером создания коалиций для конструктивного решения различных социальных и политических проблем.

- новаторская;

внес новые конструктивные идеи, инициировал обновление старого общества, вывел общество на новый общественно-экономический путь развития.

- коммуникативная функция;

обеспечил устойчивую связь между властью и различными социальными группами, что весьма актуально для независимого Азербайджана.

Гейдар Алиев как общенациональный политический лидер достойно выполнял функции гаранта справедливости, законности и правопорядка в обществе. Показательна в данном случае огромная работа Гейдара Алиева по устранению опасности гражданской войны в Азербайджане в период первых лет независимости, по предотвращению попыток государственных переворотов в октябре 1994г. и в марте 1995г. Он спас Азербайджан от хаоса, от потери независимости, создал государственность, создал мощную систему управления, которая обеспечивает поступательное развитие страны, обезвредил незаконные вооруженные формирования, группы террористов и провокаторов, этим был поставлен конец неразберихи в обществе.

Гейдар Алиев периодически посещал регионы Азербайджана, выступал перед различными слоями населения, объяснил сущность реформ для развития и процветания страны, сам ознакомлялся с проблемами региона и на месте давал указания для решения этих проблем. Конечно, это укрепляло его связи с массами и утверждало в общественном сознании мысль о незаменимом лидере.

Общенациональный лидер, большой стратег Гейдар Алиев в судьбоносных для Азербайджана вопросах всегда находил и принимал выгодные решения. Примером этого является следующее. В начала 90-х годов, когда вооруженные силы Армении, используя нестабильность внутри страны и политическое противостояние в Азербайджане, захватывал все новые земли и превращали живущих на этих землях людей в беженцев, Гейдар Алиев, проявив дальновидность, добился приостановления военных действий, и в мае 1994г было подписано соглашение с Арменией о прекращении огня. С помощью этого соглашения Гейдар Алиев, используя создавшееся выгодное положение, спас Азербайджан от разделения и уничтожения, вывел страну на путь развития.

Говоря, что наш путь – путь демократии, Гейдар Алиев вел и теоретическую, и практическую работу по демократизации общественной жизни республики, по формированию гражданского общества, присущего демократическому развитию страны, по созданию правового социального государства. Таким образом, в Азербайджане путем всеобщего голосования была принята первая Конституция, отвечающая мировым стандартам, отражающая в себе все права и свободы человека. Демократическим путем был создан институт парламентаризма, в стране утверждался плюрализм, провозглашались свобода личности, слова, печати, совести, защита прав человека, верховенство закона.

В результате проведения в жизнь демократической реформы приостановился экономический спад и рост инфляции, в экономическом развитии был создан фундамент для нового этапа, последовательно продолжались процессы приватизации, аграрная реформа и передача земель в частную собственность. Наряду с этим, проведение в Азербайджане политики «открытых дверей» способствовало привлечению в экономику страны иностранных инвестиций и увлечению их объема и ускорило интеграцию нашей страны в мировую экономическую систему. Это создало основу для роста материального благосостояния народа, защиты его социальных прав.

Одним из вопросов, занимавшим важное место в политической деятельности Гейдара Алиева, являлось легитимирование нового общественно – политического строя, не нашедшего своего признания ни в исторической традиции, и даже в национализме в период прихода к власти Партии Народного Фронта Азербайджана сразу после падения Советского Союза. И это важное событие в политической истории Азербайджана. Проведенные в Азербайджане реформы обеспечили бурный рост государства и решение практически всех экономических проблем, стоящих перед страной. В том, что сегодня Азербайджан динамично развивается, что это страна, где обеспечивается общественный порядок, сохраняется, укрепляется стабильность, куда идет огромный поток иностранных инвестиций – в этом роль Гейдара Алиева носит исключительный характер.

Гейдар Алиев обладал высокой нравственностью и интеллектом. Известно, что, чем ярче у человека выражены интеллектуально-нравственные и волевые качества, чем больше его жизненные ориентации совпадают с общечеловеческими ценностями, чем в большей степени он положительно влияет на развитие и утверждение этих ценностей, тем ярче и значительней сама личность. С этой точки зрения личность Гейдара Алиева возвышается над своей природной основой и в известном смысле даже преодолевает ее, оставляя свой след и плоды своей деятельности и после своей биологической смерти.

Отметим, что Гейдар Алиев очень любил свой народ, был великим азербайджанцем. Он не только умом, но и сердцем осознавал свою нацию особую целостность, отличающуюся от других национальных общностей, по тем или иным элементам быта, традиций. Его национальное самосознание и национальные чувства были взаимосвязаны. Еще в свое время австрийский философ Отто Бауэр (1882-1938гг.) так характеризовал

взаимосвязь национального самосознания и национального чувства: «Сознавая свою принадлежность к нации, я даю себе отчет в том, что я связан с нею тесной общностью характера, что ее судьба, ее культура влияла на меня, что сама она живет и действует в моем характере. Нация не чужда мне, она часть моего «я», возвращающаяся ко мне в характере других людей. Таким образом, представление о нации связывается с представлением о моем собственном «я». Кто хулит мою нацию, хулит тем самым и меня, если же нацию мою хвалят, то и на меня распространяется эта похвала» [2, с.165].

Гейдар Алиев был связан с судьбой, историей, культурой и характером нации, нация – часть его. Горя нации – его горя, счастье его нации – его счастье, потому, что нация в нем, в его душе. Поэтому он говорил: «…Я горжусь, что я азербайджанец».

В итоге можно сказать, что одним из отличительных признаков азербайджанского народа является его способность подниматься на ноги после падения. Как бы не было тяжко его унижение в связи с захватом исконных земель армянскими вооруженными силами, но пробил урочный час, народ собрал свои силы и воплотил их в одном большом человеке – личности Гейдара Алиева, а он, великий человек, вывел свой народ на путь, ведущий к освобождению временно потерянных земель и восстановлению территориальной целостности Азербайджана.

Здесь уместно вспомнить высказывание великого русского философа Н. Бердяева: «Когда личность вступает в мир, единственная и неповторимая личность, то мировой процесс прерывается и принужден изменить свой ход, хотя бы внешне это не было заметно» [4, с.252]. История подтверждает, что неповторимой и единственной личностью, одной из тех, о которых говорил Н. Бердяев, бесспорно, является общенациональный лидер Гейдар Алиев.

## ЛИТЕРАТУРА

1. Андриянов В., Мираламов Г. Гейдар Алиев. М.: Молодая гвардия, 2006, 502 с.
2. Бауэр О. Национальный вопрос и социал-демократия. М.: Ленанд, 2015, 658с.
3. Карлейль Т. Герои, почитание героев и героическое в истории. М.: Республика, 1994, 415с.
4. Неретина С. Человек в истории/Новый мир, 1989, №3, с. 252-256.
5. Политология. Выпуск второй. М.: ПМБ МВПШ, 1991, 156с.
6. Тард Г. Общественное мнение и толпа. М.: Ленанд, 2015, 208с.
7. Фрейд З. Массовая психология и анализ человеческого «Я». М.: Азбука, 2014, 192с.

## XÜLASƏ

**Qərib Allahverdiyev**

### Müasir dövrün böyük siyasi lideri

Məqalədə ümumimilli lider Heydər Əliyevin siyasi fəaliyyəti politoloji təhlil edilir. Bu məqsədlə əvvəl keçmişin bir neçə mütəfəkkirlərinin liderlik haqqında baxışlarına nəzər salınır və bu baxışları ümumiləşdirərək belə bir fikir irəli sürülür ki, liderlik məsələləri və tarixin inkişafında liderlərin rolu həmişə filosofların, tarixçilərin və politoloqların diqqət mərkəzində olunmuşdur. Göstərilir ki, siyasi elmdə liderlik haqqında çox saylı konsepsiyalar var və onların çoxunun məzmunu ondan ibarətdir ki, cəmiyyətin inkişafı böyük şəxsiyyətlərdən alınan impluslar əsasında baş verir. Tarixi böyük insanlar yaradır,ancaq liderlər bəşəriyyətin inkişafına təsir edə bilərlər.

Bu konsepsiyalara söykənərək məqalədə H.Əliyevin siyasi zamanı hiss edən,tarixi yaradan, siyasi tarixin gedişini dayandıra və dəyişə bilən siyasi lider olduğu isbat edilir, göstərilir ki, Heydər Əliyevin siyasi fəaliyyətinində mühüm yer tutan məsələlərdən biri SSRİ –i dağılandan sonra AXCP hakimiyyəti dövründə yeni ictimai siyasi quruluş,hətta tarixi ənənələrdə və millətçilikdə özünün bəraətini qazanmadığı halda ümummilli lider Heydər Əliyevin öz qeyri-adi şəxsi qabliyyəti ilə bu qurluşu legitimləşdirməsi, müasir Azərbaycan dövlətinin banisi kimi Azərbaycanı demokratik

inkişaf yoluna çıxarması əsaslandırılır, onun siyasi hakimiyyətdə olduğu dövürdə siyasi lider kimi yerinə yetirildiyi analitik, təşkilatçılıq, inteqrativ, novatorçuluq funksiyalarının məzmunu acıqlanır.


## ABSTRACT

**Qarib Allahverdiyev**

**The great political leader of modern times**

There is given political analysis of the national leader Heydar Aliyev's political activity in this article. For this purpose, first there is considered the views of several past thinkers about leadership, and generalizing these views such an idea is put forward that the leadership problem and the role of leaders in the development of history was always the focus of attention of philosophers, historians and political scientists. It shows that, there are concepts of leadership in political science, and the concept of many of them is that the development of society occurs on the basis of impulses of the great personalities. Great people create history, but the leaders are able to influence the development of mankind.

In this article based on these concepts, it is proved that Heydar Aliyev is political leader who felt political time, created history, could stop and change the course of political history. It is shown that, during the rule of the Popular Front Party of Azerbaijan immediately after the fall of the USSR, one of the main tasks in the political activity of Heydar Aliyev was a new socio-political system. Due to his extraordinary personal ability, Heydar Aliyev legitimized this system, not found its recognition in any historical tradition, and even in nationalism. The article substantiates that Heydar Aliyev as the founder of the modern state of Azerbaijan led the country to the path of democratic development. Heydar Aliyev as a political leader during his stay in power performs analytic, organizational, integrative, innovative functions. This article reveals the content of these functions.



NDU-nun Elmi Şurasının 30 mart 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

**SEVİNC ABBASOVA**

**UOT:314.1**

# AZƏRBAYCAN RESPUBLİKASININ SOSİAL-İQTİSADİ İNKİŞAFI VƏ QADINLAR

**Açar sözlər:** *sosial-iqtisadi inkişaf, məşğulluq, iqtisadi fəal əhali, qadınların sosial tərəqqisi*
**Key words:** *socio-economic development, employment, the economically active population, the social progress of women*
**Ключевые слова**: *социально-экономическое развитие, занятость, экономически активное население, социальный прогресс женщин*

Azərbaycan iqtisadiyyatında 1996-cı il böhranın son, sabitləşmənin isə ilk ili kimi yadda qalmışdı. Heydər Əliyev strategiyasının həyata keçirilməsi nəticəsində müstəqilliyin ilk illərində baş vermiş tənəzzülün qarşısı uğurla alındı və Azərbaycanda keçid dövrünün yeni mərhələsi – bərpa və dinamik inkişaf dövrü başlandı.

1993-1995-ci illərdə ölkədə ictimai-siyasi sabitliyin yaranması sayəsində həyata keçirilən islahatlar iqtisadiyyatda 80-ci illərin sonlarından davam edən geriliyin qarşısını almağa və 1996-cı ildən başlayaraq bir çox sahələrdə, xüsusilə də makroiqtisadi göstəricilərdə irəliləyişin əldə edilməsinə imkan vermişdir. 1996-2002-ci illərdə ümumi daxili məhsul bütövlükdə 71 faiz artmışdı [**1**, 111].

Heydər Əliyev rəhbərliyinin dirçəliş və inkişaf strategiyasının əsasında islahatların sadəcə islahatlar naminə deyil, Azərbaycanın sistem transformasiyalarını uğurla keçərək, müstəqil dövlət kimi dünya sosial-iqtisadi arxitekturasında özünütəsdiqləməsi və tərəqqisi naminə gerçəkləşdirilməsi vəzifəsi dururdu. Məhz geniş xalq kütlələrinin tərəqqi epopeyasından xaric edilməməsi müddəasının prioritetliyi islahatların mahiyyət xarakteristikasını təşkil etmiş və etməkdədir. Yürüdülən iqtisadi siyasətin ayrı-ayrı istiqamətlərinin işlənilib hazırlanması zamanı bu prinsipial yönəlişlik hər zaman nəzərə alınır.

Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi sosial-iqtisadi tərəqqi strategiyası onun layiqli varisi Prezidenti İlham Əliyev tərəfindən daha da inkişaf etdirildi. Akademik R.Ə. Mehdiyevin yazdığı kimi, 2003-2013-cü illərdə Azərbaycanın dövlət planlaşdırılması ölkə ərazisini, hər şeydən öncə sosial-iqtisadi cəhətdən yenidən qurulmalı olan vahid məkan qismində müəyyənləşdirmişdir [**2**, 34]. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurla davam etdirdiyi iqtisadi inkişaf strategiyasının gerçəkləşdirilməsi nəticəsində Azərbaycan Respublikası dünyanın sürətlə inkişaf edən ölkələrindən birinə çevrilmişdir.

Son 20 ildə real Ümumi Daxili Məhsul (ÜDM) istehsalı 20 dəfə artmış, dövlət büdcəsinin gəlirləri 78 dəfədən çox, xarici ticarət dövriyyəsinin həcmi isə 10 dəfədən çox yüksəlmişdir. 2003-2013-cü illər ərzində ölkə iqtisadiyyatı 3,4 dəfə artmış, qeyri-neft sektorunun dinamik inkişafı təmin edilmiş, 2003-cü ildə 1,5 milyard dollar olan dövlət büdcəsi 2013-cü ildə 25 milyard dollara çatdırılmışdır. 2005-2009-cu illərdə Azərbaycan iqtisadi inkişaf tempinə görə dünyada lider dövlət olmuş, 2009-cu ildə Azərbaycan iqtisadiyyatında 9 faiz artım qeydə alınmış, son 8 ildə isə qeyri-neft sektoru 2 dəfə artmışdır [**3**, 209]. Bu illərdə sənaye sahələri 3,8 dəfə, kənd təsərrüfatı 1,4 dəfə, tikinti sektoru 3,8 dəfə, nəqliyyat və İKT sektoru 3,2 dəfə, ticarət 2,9 dəfə artmışdır. Ümumi daxili məhsul 2000-2013-cü illərdə 12,25 dəfəlik artım nümayiş etdirmişdir [**1**, 273; **4**, 84-85; **5**, 49].

Keçən əsrin sonlarından başlayaraq sabit iqtisadi artım dövlətimizin sosialyönümlü proqramları daha fəal surətdə həyata keçirməyə, və beləliklə, əhalinin həyat səviyyəsini yüksəltməyə imkan verdi. 2004-2012-ci illərdə dövlət büdcəsindən əhalinin sosial müdafiəsi və

sosial təminatın çəkilən xərclər 8 dəfə, iqtisadiyyatın inkişafına yönəldilən vəsaitlər isə 28,7 dəfə artmışdır [**1**, 284].

Məşğulluq strategiyası çərçivəsində həyata keçirilən tədbirlər nəticəsində əhalinin iqtisadi fəallığının artması, işsizlərin sayının azalması müşahidə olunmaqdadır. Belə ki, iqtisadi fəal əhalinin sayı 2003-cü ildə 3,801 milyon nəfərdən 2008-ci ildə 4,477 milyon nəfərə, 2013-cü ildə isə 4,757 milyon nəfərə yüksəlmişdir. Ölkədə ümumi işsizlik səviyyəsi isə daim azalma meyli nümayiş etdirir: əgər 2003-cü ildə ölkədə işsizlik 9,2 fazi təşkil edirdisə, 2005-ci ildə bu rəqəm 7,3 faizə, 2013-cü ildə isə 5 faizə düşmüşdür [**6**, 95-96; **5**, 99-100].

Azərbaycanda iqtisadi inkişaf yüksək templəri yoxsulluğun səviyyəsinin azaldılması meyli ilə müşayiət olunur. Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, Azərbaycanda yoxsulluğun səviyyəsi 1990-cı illərin ortalarında 61%, 2001-ci ildə 49%, 2003-cü ildə 44,7 faiz, 2005-ci ildə 29,3 faiz, 2008-ci ildə 13,2 faiz, 2010-cu ildə 9,1 faiz, 2013-cü ildə isə 5,3 faiz təşkil etmişdir [**4**, 159; **7**, 151; **5**, 159].

1990-cı illərin sonu – 2013-cü illərdə Azərbaycan qadınının rifah parametrləri bilavasitə ölkənin sosial-iqtisadi inkişaf dinamikası ilə uzlaşır. Başqa sözlə, respublikanın keçid dövrünün ortaya çıxardığı sistem səciyyəli məsələlərin tədricən çözülməsi qadınların firavanlığına bilavasitə təsir göstərməkdədir; məhz ölkəmizin sabit və dayanıqlı inkişaf modeli yoxsulluğun azalmasını, və müvafiq olaraq, məşğulluğun yüksəlməsini, 1990-cı illərin kollaps şəraitində əhalinin üzləşdiyi əsaslı problemlərin qismən və ya tamamilə aradan qaldırılmasını şərtləndirir. Bu zaman belə bir məqama diqqət yetirmək lazımdır ki, ölkə rəhbərliyi özünün inkişaf strategiyasını müəyyənləşdirərkən, cari vəzifələrin populist qərarlara arxalanan, sadəcə konyunkturaya uyğun (və buna görə də müvəqqəti xarakter daşıyan) həlli ehtimalını istisna edirdi; o təməl problemlərinin çözümünü ölkənin uzunmüddətli perspektivlərinə hesablanmış tədrici, fəqət dərindən ölçülüb-biçilmiş və kompleks səciyyəli yanaşmada görmüş və görməkdədir. Məhz həlli vacib məsələlərə dair elmi əsaslara söykənən kompleks yanaşma inkişafın Azərbaycan modelinin sistem xüsusiyyətlərindən hesab oluna bilər; o, macəraçı və populist addımlara uymadan keçid dövrünü müvəffəqiyyətlə başa vurmağa və modernləşmənin keyfiyyətcə yeni mərhələsinə çıxmağa imkan vermişdir.

Bəhs etdiyimiz illərdə ölkəmizdə əmək resurslarının, o cümlədən əmək qabiliyyətli qadınların sayında müsbət dinamika izlənilməkdədir. İlk növbədə qeyd edərdik ki, əmək qabiliyyətli yaşda olan qadınların sayı 1991-ci ildə 1 milyon 987,2 min nəfərdən 2013-cü ildə 3 milyon 251,8 minə çatmışdır [**4**, 84-85; **5**, 38-39]. Başqa sözlə, 1991-2013-cü illər ərzində əmək qabiliyyətli qadınların sayı təqribən 63,64% artmışdır.

2000-ci illərdə iqtisadi fəal əhalinin cinsi strukturu da dəyişiklərə məruz qalırdı. Mahiyyətcə məşğulluq sahəsində gender bərabərliyi dedikdə ilk növbədə iqtisadi fəal əhalinin qadın və kişi hissəsinin bərabərliyi nəzərdə tutulur. Xatırladaq ki, iqtisadiyyatda məşğul olanlar və işsizlər birgə iqtisadi fəal əhalini təşkil edirlər. 2000-2013-cü illərdə respublikamızda iqtisadi fəal əhalinin dinamikası aşağıdakı cədvəldə əksini tapmışdır.

Cədvəl 1. İqtisadi fəal əhali [**8**, 22].

| | 2000 | 2003 | 2005 | 2008 | 2010 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|
| İqtisadi fəal əhalinin sayı – cəmi, min nəfər | 4370,2 | 4373,5 | 4380,1 | 4477,7 | 4587,4 | 4688,4 | 4757,8 |
| Kişilər | 2263,0 | 2272,9 | 2268,8 | 2315,8 | 2329,7 | 2395,3 | 2436,0 |
| Qadınlar | 2107,2 | 2100,6 | 2111,3 | 2161,9 | 2257,7 | 2293,1 | 2321,8 |
| İqtisadi fəal əhalinin ümumi sayından məşğul olanlar – cəmi, min nəfər | 3855,5 | 3972,6 | 4062,3 | 4215,5 | 4329,1 | 4445,3 | 4521,2 |
| Kişilər | 2016,5 | 2066,7 | 2104,7 | 2173,4 | 2227,4 | 2291,8 | 2337,5 |
| Qadınlar | 1839,0 | 1905,9 | 1957,6 | 2042,1 | 2101,7 | 2153,5 | 2183,7 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| İşsizlər - cəmi, min nəfər | 514,7 | 400,9 | 317,8 | 262,2 | 258,3 | 243,1 | 236,6 |
| Kişilər | 246,5 | 206,2 | 164,1 | 142,4 | 102,3 | 103,5 | 98,5 |
| Qadınlar | 268,2 | 194,7 | 153,7 | 119,8 | 156,0 | 139,6 | 138,1 |

Cədvəldən də bəlli olur ki, 2000-2013-cü illərdə iqtisadi fəal əhali kateqoriyasında qadınların sayında 214,6 min və ya 10,184% artım qeydə alınmışdır. Bu zaman qadınların iqtisadi fəal əhali tərkibində xüsusi çəkisi 1990-cı ildə 48,6%-dən [**9**, 20] 2000-ci ildə 48,2%-ə ensə də, son illərdə az da olsa artmış və 2013-cü ildə 48,8% göstəricisinə çatmışdır.

Nəzərdən keçirdiyimiz dövr ərzində həm qadınların sayının artımı (344,7 min nəfər və ya 18,74%), həm də kişilərin sayının artımı (321,0 min nəfər və ya 15,9%) hesabına məşğul əhalinin kəmiyyətcə artımı da baş vermişdir. Göründüyü kimi, məşğul qadınlar kateqoriyasının say artımı kişilərə nisbətən daha yüksək templə olmuşdur. Özü də məşğul əhali strukturunda əgər qadınlar 2000-ci ildə 47,7 % təşkil edirdisə, 2013-cü ildə bu rəqəm 48,3%-ə çatmışdır.

Yeri gəlmişkən, 2003-cü ildə İşçi Qüvvəsinin Müayinəsi (İQM) aşkar etmişdi ki, iş qabiliyyətli qadınların (16-56 yaş həddi) yalnız 59,5%-i iqtisadi cəhətdən fəaldır; müqayisə üçün qeyd edərdik ki, sözügedən müayinə kişilərdə bu rəqəmin 83,6% olduğunu üzə çıxarmışdı (16-61 yaş həddi) [**10**, 31]. Qadınların "qeyri-fəallıqlarının" yüksək səviyyədə olması qismən onların evdə qalıb uşaqlarını böyütmək istəkləri ilə izah edilsə də, əslində belə bir vəziyyət qadınların seçimi və imkanlarının olmaması və daha çox kişilərə iş imkanı verən formal əmək bazarında qadınların ciddi məhdudiyyətlərlə üzləşmələri ilə şərtlənirdi.

2009-cu ilin məlumatlarına əsasən, qadınların iqtisadi fəallığına görə Azərbaycan 134 ölkə arasında 32-ci, eyni işi görən qadınların kişilərə nisbətən aldığı maaş fərqinə görə 14-cü, adambaşına düşən milli gəlirdə qadınların payına görə 31-ci, qadınların vəzifə tutmaq imkanlarına görə isə 118-ci yerdədir. Amma xüsusi peşə biliyi və texniki hazırlıq tələb edən qadın işçilərin kişilərə nisbətində Azərbaycan dünyada ilk yeri tutur, hər 100 xüsusi peşəkarlıq tələb edən işçidən 53-ü qadındır [**11**, 31].

On illərdə əmək qabiliyyətli yaşda olan əhalinin iqtisadi fəallıq və məşğulluq səviyyəsində mühüm kəmiyyət dəyişikləri nəzərə çarpmaqdadır ki, aşağıda tərtib etdiyimiz cədvəllərdə bu proses özünün əksini tapmışdır.

Cədvəl 2. Əmək qabiliyyətli yaşda olan əhalinin iqtisadi fəallığının səviyyəsi (cins üzrə bölgü, faizlə) [**12**, 87; **13**, 96; **14**, 106; **15**, 112].

| Əhalinin iqtisadi fəallığının səviyyəsi | Şəhər və kənd yerləri | | Şəhər yerləri | | Kənd yerləri | |
|---|---|---|---|---|---|---|
| | Qadınlar | Kişilər | Qadınlar | Kişilər | Qadınlar | Kişilər |
| 2004 | 59,5 | 83,6 | 53,8 | 80,6 | 67,4 | 87,4 |
| 2006 | 66,0 | 81,0 | 63,2 | 78,4 | 69,1 | 83,8 |
| 2010 | 73,0 | 78,4 | 71,8 | 79,2 | 74,5 | 77,5 |
| 2012 | 74,9 | 79,5 | 72,7 | 80,1 | 77,4 | 78,9 |

Cədvəl 3. Əmək qabiliyyətli yaşda olan əhalinin məşğulluğunun səviyyəsi (cins üzrə bölgü, faizlə) [**12**, 87; **13**, 96; **14**, 106; **15**, 112].

| Məşğulluğun səviyyəsi | Şəhər və kənd yerləri | | Şəhər yerləri | | Kənd yerləri | |
|---|---|---|---|---|---|---|
| | Qadınlar | Kişilər | Qadınlar | Kişilər | Qadınlar | Kişilər |
| 2004 | 87,5 | 90,2 | 82,7 | 87,8 | 92,8 | 92,9 |
| 2006 | 92,5 | 92,8 | 88,9 | 90,8 | 96,1 | 94,8 |
| 2010 | 92,9 | 95,5 | 92,8 | 95,2 | 92,9 | 95,9 |
| 2012 | 93,7 | 95,3 | 93,1 | 94,7 | 94,3 | 95,9 |

Cədvəldən də göründüyü kimi, istər şəhər, istərsə də kənd yerlərində əhalinin iqtisadi fəallığının və məşğulluğunun səviyyəsi artmaqdadır. Qadınlarla müqayisədə kişilər üçün iqtisadi fəallıq həddi həm kənd yerlərində, həm də şəhərlərdə çox da fərqli deyil. 2013-cü ilə dair statistik bilgilərə görə, kənd yerlərində yaşayan əmək qabiliyyətli qadınlar iqtisadi fəallığın səviyyəsinə görə

şəhər yerlərində yaşayan qadınlara nisbətən 5,2 faiz yüksək olduğu halda, şəhər yerlərində yaşayan kişilərdə iqtisadi fəallığın səviyyəsi kənd yerlərində yaşayan kişilərə nisbətən 0,5 faiz yüksək olmuşdur [**16**, 114]. Şəhərlərdə qadınların iqtisadi fəallıq həddinin kənd yerlərində olduğundan bir qədər aşağı olması (bu fərq son illərdə azalmaqdadır) bir sıra amillərlə əlaqədardır. Bura kəndlərdə qadınların kiçik həyətyanı sahələrdə işləmələri, kənd yerlərində ailələrin çoxuşaqlı olması, məktəbəqədər müəssisələrin çatışmazlığı, iş yerlərinin azlığı və kişi əməyinin qadın əməyindən daha yüksək qiymətləndirilməsi daxildir. Kəndlərdən şəhərə, xüsusilə də Bakıya axın qadınları əmək bazarına gətirməklə bərabər, qeyri-formal sektorda, peşəkarlıq tələb etməyən işlərdə çalışan, küçə ticarəti ilə məşğul olan qadınların sayını da artırır.

Sevindirici haldır ki, göstərilən dövrdə işsizlərin sayı durmadan azalmaqdadır. DSK-nın bilgilərindən aydın olur ki, sözügedən illərdə işsiz qadınların sayında 130100 nəfər və ya 48,5%, işsiz kişilərin sayında isə 148000 nəfər və ya 60% azalma müşahidə olunur. Lakin bu zaman belə bir neqativ məqamı da qeyd etməliyik ki, ümumən işsizliyin azalması fonunda bu kateqoriya üzrə qadınların xüsusi çəkisi 2000-ci ildə 52,1%-dən 2013-cü ildə 58,3%-ə yüksəlmişdir. Bu, hökumətimizin yaxın gələcəkdə modernləşmənin yeni fazası kontekstində diqqət yetirməli olduğu problemlərdən biridir.

Tədqiqatlar göstərir ki, iqtisadiyyatın həm dövlət, həm özəl sektorunda gender bölgüsünün piramidavari strukturu saxlanılır, yəni qadınlar, bir qayda olaraq, idarəetmə piramidasının aşağı hissələrində cəmləşirlər, aşağı ödənişli vəzifələrdə çalışırlar. Yuxarı pillələrdə, qərarvermə və rəhbər vəzifələrdə və həmçinin nisbətən yüksək maaşlı sektorlarda kişilər mütləq əksəriyyət təşkil edir [**17**, 31; **10**, 24]. Gender bölgüsündə belə uyğunsuzluğun səbəbi kimi, məsələn, tikinti sahəsində əməyin mühafizə sisteminin pis inkişafı, nəqliyyat sahəsində yol hərəkətindəki yüksək təhlükəliliyi, eləcə də bir sıra sosial stereotipləri göstərmək olar [18, 6]. Yeri gəlmişkən, hələ keçid dövründə yaranmış belə bir vəziyyət indi də öz aktuallığını saxlamaqdadır. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova Azərbaycanda kişilər praktiki olaraq bütün sahələrdə üstünlük təşkil edirlər, qadınlarımızın qərar qəbul olunmasındakı iştirakı qaneedici səviyyədə olmadığını bildirmişdi. Onun fikrincə, Azərbaycan üçün qeyri-bərabərliyin yaratdığı problemlər xüsusən aktualdır, çünki ənənəvi olaraq burada müəyyən patriarxal münasibətlərə meyl var və qadınların işləməsi, siyasətə cəlb olunması əksər hallarda neqativ reaksiyaya səbəb olur [**19**].

Ölkəmizdə son illərdə məşğul əhalinin strukturunda baş verən dəyişikliklər bizim tərəfimizdən tərtib edilmiş aşağıdakı cədvəldə öz əksini tapmışdır.

Cədvəl 4. Məşğul əhalinin əsas iş yerlərinə görə cins üzrə bölgüsü, faizlə [**12**, 90; **13**, 100; **20**, 109; **14**, 110; **15**, 116; **16**, 118].

| Əsas iş yeri | 2004 | | 2006 | | 2008 | | 2010 | | 2012 | | 2013 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Qadınlar | Kişilər | Qadınlar | Kişilər | Qadınlar | Kişilər | Qadınlar | Kişilər | Qadınlar | Kişilər | Qadınlar | Kişilər |
| Dövlət müəssisələrində, idarə və təşkilatlarda | 45,8 | 54,2 | 47,3 | 52,7 | 46,5 | 53,5 | 55,3 | 44,7 | 46,8 | 53,2 | 47,2 | 52,8 |
| Qeyri-dövlət müəssisələrində, idarə və təşkilatlarda | 34,2 | 65,8 | 27,8 | 72,2 | 34,0 | 66,0 | 50,8 | 49,2 | 40,4 | 59,6 | 39,3 | 60,7 |
| Ailə kəndli | 47,3 | 52,7 | 54,7 | 45,3 | 60,8 | 39,2 | 51,5 | 48,5 | 53,7 | 46,3 | 54,5 | 45,5 |

| | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| təsərrüfatlarında | | | | | | | | | | | | |
| Hüquqi şəxs yaratmadan fiziki şəxs kimi sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar | 37,6 | 62,4 | 18,0 | 82,0 | 13,0 | 87,0 | 37,9 | 62,1 | 43,0 | 57,0 | 41,7 | 58,3 |
| Fiziki şəxslərdə muzdla işləyənlər | 32,1 | 67,9 | 22,0 | 78,0 | 18,8 | 81,2 | - | - | - | - | - | - |
| Fərdi əmək fəaliyyəti ilə məşğul olanlar | - | - | 53,7 | 46,3 | 62,8 | 37,2 | 43,5 | 56,5 | 75,2 | 24,8 | 75,8 | 24,2 |
| Cəmi, faizlə | 41,5 | 58,5 | 47,2 | 52,8 | 49,7 | 50,3 | 48,6 | 51,4 | 48,4 | 51,6 | 48,3 | 51,7 |

2013-cü ilə aid məlumatlara əsasən, iqtisadiyyatın ailə kəndli təsərrüfatlarında çalışanlar və fərdi əmək fəaliyyəti ilə məşğul olanlar arasında qadınların sayı kişilərə nisbətən müvafiq olaraq 7,4%, 50,4% çox olmuşdur. Bu meyl əvvəlki illər üçün də səciyyəvidir və demək olar ki, cüzi dəyişiklərlə davam etməkdədir.

Cədvəldə "hüquqi şəxs yaratmadan fiziki şəxs kimi sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar" kateqoriyası qeyri-formal əmək sektorunu nəzərdə tutur. Dünya miqyasında kişi və qadınlar iqtisadiyyatın qeyri-formal sektoruna muzdlu işin zəif imkanları ilə bağlı olaraq müraciət edirlər. İqtisadiyyatın rəsmi sektorundakı kimi burada da qadın və kişilər qeyri-bərabər iştirak əmsalına malik olaraq müxtəlif fəaliyyət növü ilə məşğuldur. Qadınların qeyri-formal sektorda iş tapmalarında maneələr daha azdır, lakin belə iş davamlı iş vaxtı, aşağı əmək haqqı, ağır şərait deməkdir. Ödənişli iş imkanının olmaması və ya digər maneələr ucbatından qadınlar qeyri-formal sektora kişilərdən daha çox müraciət edir [**21**, 345]. Evlə əlaqədar iş öz uşaqlarına baxmaq imkanı olmayan qadınlar üçün çıxış yolu olsa da, bu işlə məşğul olanların əməyinin müqabilində çox az mənfəət gətirir, çünki onlar uşağa baxmaqla yanaşı ev işləri ilə də məşğul olmalı olurlar və üçqat iş görürlər [**22**, 45].

Qadınların və kişilərin əsas iş yeri üzrə məşğulluq strukturuna dair statistik rəqəmlər də bu sahədə gender nisbətini daha səhih təsəvvür etmək baxımından maraq kəsb edir.

Cədvəl 7. 2006-2013-cü illərdə məşğul qadınların əsas işdə iqtisadi fəaliyyət növləri üzrə strukturu, faizlə, min nəfər [**13**, 99; **20**, 108; **14**, 109; **15**, 115; **16**, 117].

| Fəaliyyət növləri | 2006 | 2008 | 2010 | 2012 | 2013 |
|---|---|---|---|---|---|
| K/təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 43,2 | 40.6 | 47,2 | 43,9 | 43,6 |
| Mədənçıxarma sənayesi | 0,3 | 0,5 | 0,5 | 0,4 | 0,4 |
| Emal sənayesi | 2,6 | 4.0 | 2,9 | 2,8 | 2,9 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 0,3 | 0.6 | 0,2 | 0,2 | 0,2 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | - | - | 0,6 | 0,5 | 0,5 |
| Tikinti | 0,8 | 1.0 | 2,1 | 2,3 | 2,0 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 23,0 | 22,4 | 13,3 | 17,3 | 17,6 |
| Nəqliyyat və anbar təsərrüfatı | 0,9 | 1,2 | 0,6 | 0,5 | 0,5 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 0,8 | 0.6 | 0,8 | 0,9 | 0,8 |
| İnformasiya və rabitə | - | - | 2,1 | 2,1 | 2,0 |
| Maliyyə və sığorta fəaliyyəti | 1,2 | 1,2 | 1,3 | 0,5 | 0,5 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 0,3 | 5,0 | 1,3 | 1,6 | 1,7 |
| Peşə, elmi və texniki fəaliyyət | - | - | 1,4 | 1,6 | 1,7 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | - | - | 1,4 | 1,4 | 1,4 |
| Dövlət idarəetməsi və müdafiə, sosial təminat | 2,1 | 2,6 | 2,2 | 2,3 | 2,02 |
| Təhsil | 12,2 | 10.7 | 11,2 | 11,0 | 11,4 |
| Səhiyyə və sosial xidmətlərin göstərilməsi | 6,3 | 6,4 | 5,5 | 5,4 | 5,6 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | - | - | 1,8 | 1,7 | 1,7 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 3,8 | 3,2 | 3,6 | 3,6 | 3,5 |
| Cəmi, faizlə<br>min nəfər | 100<br>1 880,2 | 100<br>2 007,7 | 100<br>2 102,0 | 100<br>2 153,5 | 100<br>2 183,7 |

Tərtib etdiyimiz cədvəllərin ehtiva etdiyi məlumatlara əsasən, söyləyə bilərik ki, iqtisadi fəaliyyət növləri üzrə gender bölgüsündə məşğul qadınların sayı məşğul kişilərə nisbətən kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində, ticarət; nəqliyyat vasitələrinin təmiri sahəsində, informasiya və rabitə sahəsində, peşə, elmi və texniki fəaliyyət sahəsində, inzibati və yardımçı xidmətlərin göstərilməsində, təhsildə, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsində, istirahət, əyləncə və incəsənət sahəsində və digər sahələrdə çox olmuşdur. Bundan əlavə, mədənçıxarma sənayesində və tikintidə nəzərdən keçirdiyimiz dövrdə qadınların pay çəkisində artım müşahidə olunur. Qadınların məşğulluq strukturunda dəyişikliklərə gəldikdə isə, qeyd etməliyik ki, müxtəlif ixtisaslar üzrə faiz göstəriciləri elə bir ciddi təbəddülata uğramamışdır. 2013-cü ilin statistikasına əsasən, 2 milyon 183 min məşğul qadının 43,6%-i kənd və meşə təsərrüfatları və balıqçılıq sahəsində, 17,6%-i ticarətdə və nəqliyyat vasitələrinin təmiri sahəsində, 11,4%-i təhsildə, 5,6%-i əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsində çalışmışdır. Azərbaycan əhalisinin cinsə görə məşğulluq strukturunun sahələr üzrə təhlili təsərrüfatın "kişi" və "qadın" sahələrində cəmlənməsindəki əsaslı fərqlərə dəlalət edir. Əgər 2013-cü ildə mədənçıxarma sənayesində kişi və qadınların sayı müvafiq olaraq 79,7% və 20,3%, emal sənayesində 72,1% və 27,9%, tikintidə 86,3 % və 13,7%, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatında 88,9% və 11,1%, nəqliyyat və anbar təsərrüfatında 94,1% və

15,9%-dirsə, bu, respublika təsərrüfatında sırf “kişi” sahələrinin olmasına sübutdur. Sosial sahədə əsasən qadınların işləməsi isə qadın işçi qüvvəsinin ixtisaslı təbəqəsinin özünü tətbiq etdiyi sırf “qadın” istehsalat sahələrinin inkişafından xəbər verir. Lakin keçirilən sosioloji sorğular deməyə əsas verir ki, məşğulluq və ailənin dolandırılması məsələlərindəki ənənəvi gender fərqləri əvvəlki qədər kəskin hiss olunmur və get-gedə dəyişiklərə daha açıq hala gəlir. Bir kişi respondentin də dediyi kimi, “... qadınlar artıq kişi kimi güclü olublar. Onlar ailələrinə kömək etmək üçün hər cür ağır işi qəbul edirlər, çünki kişilər üçün ailəni saxlamaq xeyli çətinləşib” [**9**, 26].

Son illərdə yaşanan iqtisadi yüksəliş qadınların məvaciblərinin durmadan artmasını doğurmuşdur ki, bu, tərəfimizdən tərtib olunmuş aşağıdakı cədvəldə də öz bariz ifadəsini tapmışdır.

Cədvəl 8. 2007-2013-cü illərdə iqtisadi fəaliyyət növləri üzrə muzdla işləyənlərin orta aylıq nominal əmək haqqı [**23**, 92; **20**, 94; **14**, 92; **15**, 96; **16**, 98].

| | 2007 | | 2008 | | 2010 | | 2012 | | 2013 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Orta aylıq ə. h., manatla | | Orta aylıq ə. h., manatla | | Orta aylıq ə. h., manatla | | Orta aylıq ə. h., manatla | | Orta aylıq ə. h., manatla | |
| | Qadınlar | Kişilər | Qadınlar | Kişilər | Qadınlar | Kişilər | Qadınlar | Kişilər | Qadınlar | Kişilər |
| Cəmi | 140,0 | 277,1 | 184,5 | 324,6 | 226,6 | 413,2 | 243,6 | 519,8 | 259,9 | 546,9 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq | 69,1 | 92,1 | 93,0 | 114,9 | 127,3 | 168,5 | 207,2 | 199,2 | 208,2 | 220,9 |
| Mədənçıxarma sənayesi | 689,4 | 872,6 | 826,0 | 1029,0 | 846,3 | 1026,5 | 890,6 | 1477,0 | 983,2 | 1594,4 |
| Emal sənayesi | 128,1 | 212,7 | 151.4 | 253,9 | 191,1 | 360,1 | 240,9 | 458,2 | 280,3 | 494,6 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı və bölüşdürülməsi | 163,5 | 220,8 | 232,6 | 293,3 | 312,9 | 355,4 | 359,2 | 457,2 | 429,0 | 473,0 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | - | - | - | - | 127,1 | 236,6 | 191,1 | 317,6 | 199,9 | 383,9 |
| Tikinti | 197,8 | 401,2 | 220,7 | 371,9 | 259,7 | 526,0 | 425,4 | 600,9 | 427,4 | 641,1 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 164,0 | 177,9 | 199,1 | 214,3 | 217,1 | 313,7 | 226,0 | 400,7 | 255,1 | 415,8 |
| Nəqliyyat və anbar təsərrüfatı | 181,3 | 274,1 | 210,1 | 355.8 | 262,5 | 424,8 | 319,7 | 553,5 | 321,1 | 585,6 |
| Turistlərin yerləşdirilməsi və | 211,2 | 216,0 | 241,9 | 257,8 | 281,8 | 356,7 | 296,6 | 440,6 | 316,9 | 484,6 |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| ictimai iaşə | | | | | | | | | | |
| İnformasiya və rabitə | - | - | - | - | 467,9 | 560,2 | 508,2 | 677,0 | 547,7 | 739,0 |
| Maliyyə və sığorta fəaliyyəti | 483,4 | 831,0 | 573,8 | 877,5 | 591,3 | 1190,4 | 780,2 | 1203,1 | 782,1 | 1307,0 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 205,7 | 675,3 | 269,2 | 643,8 | 119,3 | 226,2 | 159,0 | 360,4 | 165,7 | 418,5 |
| Peşə, elmi və texniki fəaliyyət | - | - | - | - | 349,1 | 741,3 | 346,6 | 846,7 | 368,8 | 923,5 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | - | - | - | - | 431,6 | 566,4 | 337,2 | 629,5 | 337,4 | 664,0 |
| Dövlət idarəetməsi və müdafiə, sosial təminat | 180,4 | 223,4 | 231,1 | 296,4 | 304,2 | 404,8 | 329,0 | 502,5 | 331,0 | 492,8 |
| Təhsil | 129,8 | 185,7 | 186,0 | 257,0 | 247,7 | 327,3 | 244,9 | 405,3 | 254,9 | 390,9 |
| Səhiyyə və sosial xidmətlərin göstərilməsi | 80,4 | 146,0 | 112,6 | 167,8 | 115,8 | 281,3 | 129,2 | 346,6 | 135,5 | 364,4 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | - | - | - | - | 144,9 | 318,4 | 164,2 | 297,3 | 173,3 | 308,1 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 106,5 | 189,4 | 126,4 | 238,6 | 235,8 | 304,6 | 271,0 | 409,0 | 284,3 | 415,6 |

Son illərdə aparılan müayinə və tədqiqatlar göstərir ki, Azərbaycanda kişi və qadınlar arasında maddi rifah halı baxımından fərq minimum səviyyədədir. Kişilər və qadınlar arasında bərabərsizlik səviyyəsi müvafiq olaraq 31% və 30,8% Cini əmsalında olduğu kimidir. Bu onunla izah oluna bilər ki, ev təsərrüfatı üzvləri gəlirləri (və ya istehlakı) bərabər şəkildə bölüşdürürlər [**24**, 64].

Beləliklə, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və onun layiqli varisi Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası ölkə əhalisinin müxtəlif sosial kateqoriyalarının, o cümlədən qadınların rifah halının yüksəlməsinə gətirib çıxarmışdır. Gətirilən statistik rəqəmlərdən bəlli olur ki, bəhs olunan dövrdə iqtisadiyyatın müxtəlif sahələrində məşğulluğun qadın və kişilərin arasında bölünməsində dəyişiklər baş vermişdi. Əgər bu sahədə 1990-cı illərdəki prosesləri ümumən neqativ səciyyələndirmək mümkündürsə, 2000-ci illərdə vəziyyət tədricən,

amma durmadan müsbət dinamika nümayiş etdirməkdədir. Bütün bu söylənilənlər, şübhəsiz ki, ölkə iqtisadiyyatının sürətli inkişafının, habelə dövlət müxtəlif proqramların (məşğulluq, yoxsulluğun azaldılması, regionlarının sosial-iqtisadi inkişafı və s.) uğurla həyata keçirilməsinin nəticəsidir.

## ƏDƏBİYYAT


1. Xalqa həsr olunan illər. Bakı: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2013, 525 s.
2. Мехтиев Р.Десять лет, изменившие Азербайджан: 2003-2013. М.: Гриф и К, 2013, 248 с.
3. Əhmədov E. Azərbaycanın dinamik inkişafının mühüm mərhələsi: (2003-2013-cü illər) // Dövlət idarəçiliyi: Nəzəriyyə və təcrübə, 2014, №1, s. 209-218
4. Müstəqil Azərbaycan – 20. Bakı: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2011, 640 s.
5. Azərbaycanın statistik göstəriciləri 2014. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı: Səda, 2014, 812 s.
6. Azərbaycanın statistik göstəriciləri 2004. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı: Səda, 2004, 804 s.
7. Azərbaycanın statistik göstəriciləri 2008. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı: Səda, 2008, 774 s.
8. Əmək bazarı 2014. Statistik məcmuə. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 2014, 161 s.
9. Azərbaycanda gender münasibətləri: meyllər və cəhdlər. Bakı: BMTİP, 2007, 104 s.
10. Azərbaycan. Ölkə üzrə gender qiymətləndirilməsi. Bakı: Asiya İnkişaf Bankı, 2005, 130 s.
11. Gender Bərabərliyi və Qadın Təşəbbüsləri İctimai Birliyi. Rüblük Bülleten (1) № 2. Oktyabr, Noyabr, Dekabr 2009, 37 s.
12. Azərbaycanda qadınlar və kişilər 2005. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı: 2005, 240 s.
13. Azərbaycanda qadınlar və kişilər 2007. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı: 2007, 292 s.
14. Azərbaycanda qadınlar və kişilər 2011. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı: 2011, 316 s.
15. Azərbaycanda qadınlar və kişilər 2013. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı: 2013, 175 s.
16. Azərbaycanda qadınlar və kişilər 2014. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı: 2014, 181 s.
17. Azərbaycan Respublikasında qadınların vəziyyəti haqqında Hesabat. Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı. Bakı: Caspian Communicatins LTD, 1999, 80 s.
18. İbrahimbəyova R. İqtisadiyyatın gender aspektləri // "Genderşünaslıq", 2000, №2, s.6-8
19. Zərbalıyeva K. Azərbaycan mentaliteti qadınların rəhbər vəzifələrə irəli çəkilməsində problemlər yaradır // http://az.trend.az/news/politics/1436297.html
20. Azərbaycanda qadınlar və kişilər 2009. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı: 2009, 315 s.
21. Gender: tarix, cəmiyyət, mədəniyyət. Qərb Universiteti Gender Araşdırmaları Mərkəzi. Bakı: Qərb Universiteti NPM, 2002, 356 s.
22. Əhmədov İ., Mehtiyev A., Bağırzadə M., Aslanlı K. "Azərbaycanda gender büdcəsinin tətbiqi üçün iqtisadi, siyasi, sosial və institusional bazanın təhlili" üzrə tədqiqat. Bakı: ACİ-YF, 2008, 58 s.
23. Azərbaycanda qadınlar və kişilər 2008. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı: 2008, 309 s.
24. Azərbaycan. Yaşayış Səviyyəsinin Qiymətləndirilməsinə dair Hesabat. İnsan İnkişafı Sektoru. Avropa və Mərkəzi Asiya Regionu, 1/28/2010. Dünya Bankının Sənədi, 150 s. // http://siteresources.worldbank.org/AZERBAIJANEXTN/Resources/ALCAR_Azerbaijani.pdf


## ABSTRACT


**Abbasova S.Z.**


**Socio-economic development of the Republic of Azerbaijan and women**


On the basis of statistical data we studied some issues of economic status of women in the context of socio-economic development of the Republic of Azerbaijan. It was noted that over the past 20 years as a result of the strategic social and economic policy, the basic principles which have been

identified by national leader Heydar Aliyev, the country is experiencing increasing employment, and thus reducing unemployment and poverty. The benefits of economic growth and social progress and enjoy the women of Azerbaijan. Statistics show that the socio-economic situation has undergone both quantitative and qualitative change.

In the years 2000-2013 the number of economically active women increased by 214,600, or 10.18%. Also during this period there was an absolute (344.7 thous.) And relative (18.74%) increase in the number of women in the category of the employed population. At the same time the growth rate of employment of women exceeds that of the economically active population, which indicates a decrease in unemployment in the structure of the latter category. Tabulation based on statistical data indicates a significant increase in salaries and pensions.

On the basis of statistical data, we have concluded that in recent years there has been increasing the proportion of women in the private sector; Similar dynamics of growth reflects the trend of market mechanisms in the redistribution of labor.

The article also made an attempt to clarify some of the negative aspects in terms of gender, established in the labor market and in employment. Analyses of official documents suggest that the Azerbaijani authorities to fully take into account the problems and gradually solve them.


## РЕЗЮМЕ

**Аббасова С.З.**

**Социально-экономическое развитие Азербайджанской Республики и женщины**

В статье на основе статистических данных исследованы некоторые вопросы экономического положения женщин в контексте социально-экономического развития Азербайджанской Республики. Отмечено, что за последние 20 лет в результате стратегического социально-экономического курса, базовые принципы которого были определены Общенациональным лидером Азербайджана Гейдара Алиевым, в стране наблюдается повышения занятости, и, соответственно, сокращение безработицы и бедности. Благами экономического роста и социального прогресса пользовались и женщины Азербайджана. Статистические данные свидетельствуют, что социально-экономическое положение претерпело как количественное, так и качественное изменение.

В 2000-2013 годах численность экономических активных женщин выросла на 214,6 тысяч, или 10,18%. Также за указанный период произошло абсолютное (344,7 тыс.) и относительное (18,74%) увеличение численности женщин в категории занятого населения. При этом темп роста занятости женщин превышает аналогичные показатели по экономически активному население, что свидетельствует об уменьшении безработицы в структуре последней категории. Составленные таблицы на основе статистических данных указывают значительный рост зарплаты и пенсий.

На основе статистических сведений, мы заключили, что в последние годы происходит увеличения доли женщин в негосударственном секторе экономики; подобная динамика отражает тенденцию роста рыночных механизмов в перераспределении трудовых ресурсов.

В статье также сделано попытка разъяснить некоторые негативные в гендерном смысле моменты, сложившиеся на рынке труда и в сфере занятости. Анализ официальных документов позволяют утверждать, что власти Азербайджана учитывают в полной мере проблемы и постепенно решают их.


NDU-nun Elmi Şurasının 30 mart 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

**NOVRUZƏLİ RƏHİMOV**
*Naxçıvan Dövlət Universiteti*
Novruzrehimov62@mail.ru

**UOT:342.2**

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ HÜQUQİ DÖVLƏT QURUCULUĞUNDA MƏNƏVİ DƏYƏRLƏR VƏ SOSİAL MƏSULİYYƏT

**Açar sözlər:** *Qloballaşma, bəşəri dəyərlər. hüquqi dövlət, mənəvi dəyərlər, sosial məsuliyyət*
**Key words:** *Globalization, human values, legal state, mental values, social responsibility*
**Ключевые слова:** *глобализация, общечеловеческие ценности, прововое государство, моральные ценности, социальные ответственности*

Qloballaşma dünyada ictimai fəaliyyətin beynəlmiləlləşməsi, milli iqtisadiyyatların vahid sistemdə qovuşmasıdır. Bu da öz növbəsində kapitalın dünyada asanlıqla dövriyəsinə, dünyanın informasiya üçün açıq olmasına əsaslanır. Bəşəriyyətin inkişafı texniki tərəqqi, universal qanunlar və dəyərlərlə təzədən müəyyənləşdirilir, daha böyük iqtisadi, siyasi qurumların yaradılması istiqamətində hərəkət edir. Bu isə öz növbəsində inteqrasiya olunmuş qlobal məkana doğru irəliləyişi şərtləndirir (2.).

Qloballaşma milli dövlətlərə böyük təsir edərək qitələrarası və regionlararası münasibətlərdə qlobal qarşılıqlı asılılıq yaradır. Hər bir texnoloji dəyişiklik insanların fərdi həyat tərzində dərin dəyişikliklərə səbəb olur. Qloballaşma müasir dünyanın siyasət, iqtisadiyyat, mədəniyyət, elm, texnologiya və s. sahələrində yeni keyfiyyət dəyişiklikləri ilə şərtlənən mürəkkəb proseslərdə özünü göstərir. Hər bir milli-mədəniyyət, milli-mənəvi dəyər həm də qlobal mədəniyyətin, ümumbəşəri dəyərlərin bir hissəsi kimi çıxış edir.

Qloballaşmanın mərkəzində insan maraqları olduğundan onun ayrı - ayrı dövrlərdəki inkişaf meylləri də həmin maraqların reallaşdırılmasından asılı olmuşdur (3.s.3).

Qloballaşma şəraitində milli adət- ənənələrin, millli mentalitetin sıxışdırılması və milli şüurun kosmopolitləşdirməsi millətin özünüqoruma instinktini zəiflədə bilər. Ona görə də qloballaşma şəraitində milli-mənəvi dəyərlərimizin qorunub saxlanması üçün milli ideologiya və milli-sosial özünüqoruma şüurunun formalaşdırılması, milli və ümumbəşəri dəyərlərin müasirlik müstəvisində vəhdətinə nail olunması zəruridir.

Milli-mənəvi dəyərlər insan həyatına daxil olaraq fərdi mənsub olduğu xalqın ideallarına qovuşdurur. Milli-mənəvi dəyərləri xalq, cəmiyyət yaradır, şəxsiyyət isə onu mənimsəyərək formalaşır. Milli-mənəvi dəyərləri mənimsəyən insan onu özününküləşdirir.

Mənəvi dəyərlər insan həyatının mənası haqqındakı düzgün təsəvvürləri formalaşdırır. Elmin, ədəbiyyatın, incəsənətin, dinin və hətta siyasi-hüquqi fəaliyyətin əxlaqi-mənəvi aspektləri vardır. Əxlaqi-mənəvi mədəniyyət xalqın həyat tərzindən, insanların birgə yaşayışından doğan ümummilli və ayrılıqda hər bir fərdin baxışları sistemidir. Mənəviyyat kimi mənəvi mədəniyyət də mənəvi şüuru, əxlaqi münasibətləri və mənəvi fəaliyyəti əhatə edir. Əxlaqi-mənəvi mədəniyyət cəmiyyətin insanlar tərəfindən mənimsədiyi mənəvi təcrübənin bir hissəsini, əxlaqi-etik biliklərin yalnız praktik olaraq həyata keçirilən həcmini əhatə edir. Şəxsiyyət cəmiyyətin mənəvi mədəniyyətinin nailiyyətlərini öz şüurunda və davranışında bu və ya digər dərəcədə cəmləşdirir. Bu isə ona tez-tez təkrarlanan hallarda mənəvi cəhətdən düzgün hərəkət etmək imkanı yaradır, onun mənəvi şüurunun yaradıcı elementlərini fəallaşdırır, qeyri-standart vəziyyətlərdə düzgün mənəvi qərar verməsinə imkan yaradır. Cəmiyyətin mənəvi inkişaf səviyyəsi bir çox hallarda şəxsiyyətin

mənəvi mədəniyyətinin kamilliyi ilə müəyyən edilir. Digər tərəfdən vətəndaş cəmiyyətinin mənəvi mədəniyyəti nə qədər zəngin olsa, fərdin mənəvi mədəniyyətinin kamilləşməsi üçün bir o qədər çox şərait yaranır.

Siyasi plüralizm, demokratiya əsasən mənəvi dəyərlərin yüksək olduğu cəmiyyətlərdə mövcud olur. Siyasi plüralizm demokratik cəmiyyətin siyasi quruluş prinsiplərindən biridir. Bu prinsipə əsasən siyasi həyat özündə müxtəlif qarşılıqlı əlaqəli və eyni zamanda müstəqil siyasi qrupların, partiyaların və təşkilatların mövcud olmasını zəruri edir. Cəmiyyətdə siyasi baxışlar, əqidələr, dünyagörüşlər daim toqquşur, bir-biri ilə ziddiyyətdə və münaqişədə olur. Siyasi munaqişələrin həllində siyasi plüralizmin rolu çox böyükdür. Plüralizm ziddiyyətlərin sosial-siyasi inkişafın mənbəyi olmasını tanıyır və bu ziddiyyətlərin dinc yolla həllini mümkün edir. Siyasi plüralizm hakimiyyətdə istənilən inhisarı, hər hansı totalitar və avtoritar rejimi rədd edir. Plüralizmin əsas prinsipi hakimiyyətin xalq tərəfindən seçilməsi və hakimiyyətin bölünməsidir. Cəmiyyət əsasən insanlar arasında yaranan davranış qaydaları ilə idarə olunur. Davranış qaydalarının bir qismi dövlət tərəfindən müəyyən olunur və qanunlarda öz əksini tapır. “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununun üçüncü maddəsində göstərilir ki, dövlət qulluqçusunun xidməti davranışı qanunvericiliklə ona verilmiş hüquqların həyata keçirilməsi və vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar fəaliyyətidir. Dövlət qulluqçusunun xidməti davranışı bu qanunla müəyyən edilmiş etik davranış qaydalarına və prinsiplərinə əsaslanmalıdır.(1). Onların pozulmasına isə məsuliyyət nəzərdə tutulur. Davranış qaydalarının bir qismi isə əxlaq normalarına əsaslanır. İnsanların bərabərliyə əsaslanan yaşayış şəraitinin yaradılması üçün demokratik dəyərlərin və demokratik prinsiplərin mövcud olması vacibdir. Demokratiyanın əsas prinsipləri aşağıdakılardır:

1. İnsanların azadlıqlarının olması;
2. İnsanların hüquqlarının təmin olunması;
3. İctimai anlaşma-konsensusun mövcudluğu;
4. Tolerant mühitin olması;
5. Qanun qarşısında hamının bərabər olduğu şərait;
6. Sosial, iqtisadi və siyasi plüralizmin olması;
7. Xalq hakimiyyəti və xalq suverenliyinin tanınması;
8. Əsas dövlət orqanlarının seçkili olması;
9. Dövlət idarəetməsində vətəndaşların hüquq bərabərliyi;
10. Əsas qərarların çoxluq tərəfindən qəbul edilməsi.

Müasir dövrdə qarşıda duran əsas qlobal məsələlərdən biri demokratik hüquqi dövlətin inkişaf etdirilməsidir. Hüquqi dövlət- konstitusion idarəetmə rejiminin fəaliyyət göstərdiyi, inkişaf etmiş hüquq sisteminin və effektiv məhkəmə hakimiyyətinin mövcud olduğu dövlətdir. Hüquqi dövlət dövlət quruculuğunda və idarəetməsində xalqın suverenliyinin hüquq çərçivəsində həyata keçirilməsidir. Yəni, hakimiyyət səlahiyyətləri dövlətin əlində olsa da, bu səlahiyyətlər xalq tərəfindən qəbul edilmiş və qanuniləşdirilmiş hüquqi normalara əsaslanır.

Ədalətin bərqərar edilməsi, insanların rifah içində yaşaması dövlət tərəfindən müvafiq şəraitin yaradılması, ədalətli qanunlara əsaslanması problemi hələ qədim dövrlərdə insanları maraqlandıran ən mühüm məsələlərdən olmuşdur. Cəmiyyətin ictimai inkişafını ləngidən şərait və qaydalardan can qurtarmağa çalışdığı vaxt liberal siyasi-hüquqi ideyalar maddi gücə çevrilir. Dövlətin yaradılmasından sonra bu məsələ ilə bağlı hər bir cəmiyyətin özünün sosial- mədəni inkişaf xüsusiyyətlərinə uyğun fəlsəfi və siyasi-hüquqi ideyalar formalaşmış, hakimiyyət və fərd, dövlət və cəmiyyət arasındakı münasibətlərin necə olması barədə müxtəlif təlimlər meydana gəlmişdir. Qədim Yunanıstanda dövlət və hüquq haqqında nəzəri fikirlər dövlətin və qanunların obyektiv əsaslarının müəyyənləşməsi istiqamətində inkişaf etmiş və bu prosesin gedişində də təbii hüquq ideyası meydana gəlmişdir. Təbii hüquq ideyası qanunlarda şüurlu və təbii başlanğıcın olmasını ehtiva edən bir ideya idi. Qanunların ədalətliliyi də bununla müəyyənləşir, yəni qanunların ifadə etdiyi ədalətlilik ədalətin özünün dəyişilməz mənasına və mahiyyətinə uyğun olduqda onları ədalətli hesab etmək olar.

Qədim yunan filosofu Platon ədaləti hüququn əsas prinsipi hesab edirdi. O, qanuniliyi ədaləti

bərqərar edə bilən hüquq qaydası kimi təsvir edir. Onun fikrincə, hakimiyyət qanunların "himayəçisi" olmalı və qanunları müəyyənləşdirənlərin özləri də onları pozmamalıdır. O düşünürdü ki, hüquq, cəmiyyətdə insanların davranışlarının istiqamətləndirici əsası və insanlararası münasibətlərin universal tənzimləyicisi rolunu oynayır. Aristotelə görə, kim ki qanunun hökmranlığını istəyir, o şübhəsiz ki, tanrının və ağlın hökmdar olmasına üstünlük verir. Aristotel hesab edirdi ki, insanları zorakılıqla özünə tabe etdirmək istəyi hüquqi ideya ilə bir araya gələ bilməz. O deyirdi ki, qanunun özü tarazlaşmış ağıldır. Aristotel hüquq pozuntularının cəmiyyətdə adi hala çevrilməsini dövlətin sağlam əsaslarının məhv olması kimi qiymətləndirirdi. O deyirdi ki, hüquq pozuntuları dövlət həyatına hiss olunmadan yavaş-yavaş daxil olur. Onun fikrincə, dövlətin sağlam əsalarının qorunub saxlanılması və inkişafının təmin edilməsi üçün vətəndaşlardan bir qisminin başqalarının hesabına həddinən artıq varlanmasına yol verilməməlidir.

Dövlətin hüquqla əlaqəli şəkildə şərh edilməsinə Roma mütəfəkkirləri və hüquqşünasları da xüsusi maraq göstərirdilər. Onların bəzi maraqlı fikirləri vardır: "Azad olmaq üçün qanunların qulu olmaq lazımdır", "Xalqın rifahı ali qanundur", "Dövləti qanun idarə etməlidir". Məşhur Roma hüquqşünası Siseronun fikrincə, dövlət və qanun mahiyyət etibarı ilə vahid, ədalətli və şüurla dərk edilən başlanğıcın-təbii hüququn müxtəlif cür ifadə formalarıdır. Siseronun mülahizələrində dövlətin müəyyənləşdirdiyi qanunların təbii hüquqdan irəli gələn tələblərə uyğun olması zərurəti ortaya qoyulur. Onun fikrincə, vətəndaşın azadlığı onun hüququdur və bu azadlıq ümumi hüquq qaydasının, bütövlükdə dövlətçiliyin tərkib hissəsidir. Dövlət-hüquq insitutlarının inkişafı, onların nəzəri dərki nəticəsində hüquqi dövlətin başlıca, mahiyyət məsələsi hakimiyyətlə şəxsiyyətin qarşılıqlı münasibətləri problemi olur. Bu məsələnin həlli mahiyyətcə hüquqi dövlət nəzəriyyəsinin məzmununun başlıca bəndi olan xalq suverenliyi ideyasının yaranmasına gətirib çıxarır.

Məşhur fransız maarifçisi- Monteskye hüquqi dövlətin qurulmasını vətəndaş cəmiyyətində siyasi hakimiyyətin zəruriliyi ilə izah edirdi. Onun siyasi azadlıq ideyası dövlət və vətəndaşlarının təhlükəsizliyindən ibarət olan vətəndaş azadlığı ideyası ilə əlaqələndirilirdi. Monteskyenin siyasi azadlığı qanunçuluğun və təhlükəsizliyin bərqərar olması deməkdir. Monteskye hesab edirdi ki, insan azadlığı qanunlardan və hakimiyyətin müvafiq qaydada təşkilindən asılıdır. Monteskye hakimiyyətin bölgüsü konsepsiyasının yaradıcısıdır. Didronun fikrincə, dövlət hakimiyyəti cəmiyyətə mütəşəkkil siyasi forma verən ictimai müqavilənin məhsulu kimi yaranır. Dövlət hakimiyyəti suveren xalq iradəsinə əsaslanır. "Yalnız millət həqiqi suverendir." Dövlətin başlıca məqsədi vətəndaşların ayrılmaz hüquqlarını və onların xoşbəxtliklərini təmin etməkdir.

Hüquqi dövlət davamlı demokratik, hüquqi, siyasi, sosial, iqtisadi, mədəni əsalara malik cəmiyyətlərdə yaranır. Ümumiyyətlə, hüquqi dövlətin mövcud olması üçün dövlət insanın hüquqlarını tanımalı və onlara təminat verməlidir, hüququn və hüquqi qanunların aliliyi təmin edilməli- yəni hakimiyyətin bir şəxsin, yaxud orqanın əlində cəmləşməsinə mane olan siyasi demokratik institutlar yaradılmalı, konstitusion qanunun aliliyi olmalıdır.

Dövlətin möhkəm sosial əsası onun hüquqi dayaqlarının sabitliyini müəyyən edir. Hüquqi dövlətin diqqət mərkəzində insan, onun maraqları dayanır. Hüquqi dövlətin məqsədi fərdin azadlığını hüquqi qanunlar vasitəsilə məhdudlaşdırmamaq, azadlığının pozulmasına imkan verməmək, hüquqa əsaslanmayan zorakılıq tədbirlərinin tətbiqini qadağan etməkdən və insanların təbii, anadangəlmə hüquq və azadlıqlarının toxunulmazlığının təmin olunmasından ibarətdir. Hüquqi dövlət insanların hüquq və azadlıqları vasitəsi ilə hakimiyyətin məhdudlaşdırılması deməkdir.

Cəmiyyətdə insanlar öz azadlıqlarını başqa insanların azadlıqları ilə uyğunlaşdırmalıdırlar, yəni öz azadlıqlarından elə istifadə etməlidirlər ki, başqalarının azadlıqlarına mane olmasınlar. Dövlət də, insan da, şəxsiyyət də hüquqa malikdir. Dövlət şəxsiyyətin hüquq və azadlıqlarının təmin olunmasına və qorunmasına öz borcu kimi baxır. Dövlət bu hüquq və azadlıqlara görə insanların ona borclu olduğunu deyə bilməz. İnsanlar da öz azadlıqlarını dövlətin onlara hədiyyəsi kimi qiymətləndirmirlər. Əksinə, onlar dövlətdən öz anadangəlmə təbii hüquqlarının təmin olunmasını tələb edə bilərlər. Hüquqi dövlətdə şəxsiyyət dövlət üçün deyil, dövlət şəxsiyyət üçün yaşayır və fəaliyyət göstərir. Hüquqi dövlətin mühüm əlaməti yuxarıda qeyd olunduğu kimi, şəxsiyyətin hüquq və azadlıqlarının real təminatıdır. İnsan hüquqları dövlətin hüquqi cövhəridir, ümumən cəmiyyətin

inkişafının mühüm amilidir. Öz hüquq və azadlıqlarının qorunması və layiqli həyat və fəaliyyət şəraitinə zəmanət üçün ayrı-ayrı şəxslər də dövlət qarşısında öz borcunu yerinə yetirməyə razılaşır. Hüquqi dövlətin məqsədi insan hüquqlarını müdafiə etmək və şəxsiyyətin ləyaqətini təmin etməkdir

Hüquqi dövlət – mahiyyət etibarı ilə, "hüququn hər şeydən üstün olduğu dövlət", "hüquqa əsaslanan dövlət" mənalarını verir. Hüquqa əsaslanan dövlətdə hər şeydən üstün hüquq hesab edilir. Deməli, hüquqi dövlətin əsas şərtlərindən biri qanunun aliliyidir. Kimliyindən asılı olmayaraq hamı qanuna tabe olmalıdır və qanun qarşısında bərabərdir. Azərbaycan Respublikasının Konstitusiyasının 7-ci maddəsində göstərilir ki, Azərbaycan hüquqi dövlətdir. Burada dövlət hakimiyyəti orqanları yalnız öz səlahiyyətləri çərçivəsində fəaliyyət göstərə bilərlər. Bu çərçivə isə qanunlardır.

Demokratiyanın qloballaşması probleminin beynəlxalq əlaqələr sistemindən, demokratik dövlətlərlə demokratikləşməsi gözlənilən dövlətlər arasındakı qarşılıqlı maraqlara söykənən münasibətlərdən asılılığı problemin həlli istiqamətində ciddi məsələdir.

Hüququn obyekti hüquqlar strukturunun sonuncu elementini təşkil edir. Əgər hüquq obyekti yoxdursa onda subyektin hər hansı bir hüquqa malik olmaq iddiası öz mənasını itirir. Hüquq obyekti hüququn mənbəyi əsasında subyektin iddialarını qəbul etməli və subyektə, onun üçün zəruri olan nemətləri verməlidir.

İnsan hüquqlarına əməl olunması üzrə başlıca məsuliyyət dövlətin üzərinə düşür. Bu məsuliyyət insan hüquqlarına riayət etmək haqda dövlətin könüllü olaraq öz üzərinə götürdüyü öhdəlikdən irəli gəlir.

İnsan hüquqları üzrə əsas məsuliyyətin dövlətin üzərinə qoyulması qanunauyğundur. Çünki hər bir insanın hüquq və azadlıqlarının həyata keçirilməsi imkanı daha çox dövlətə məxsusdur. Belə ki, hər bir insanın ləyaqətlə və layiqincə yaşamaq imkanına təsir edə bilən bütün qaydaların formalaşdırılması məhz dövlətdən asılıdır.

Demokratiya vətəndaş cəmiyyətinin plüralizminə əsaslanır. Dövlətin fəaliyyətində rəhbər tutulan aşkarlıq prinsipi və kütləvi informasiya vasitələrinin müstəqilliyi də hüquqi dövlətin vacib elementlərindən biridir. Azad informasiya mübadiləsi və alınması imkanı siyasi strukturların müstəqil instituta çevrilməsi prosesini çətinləşdirir. Azad mətbuat, T. Peynin təbirincə desək, demokratik cəmiyyətin təməlidir. Kütləvi informasiya vasitələrinin azadlığı cəmiyyətdə dövlətin fəaliyyəti ilə bağlı məlumatların əldə edilə bilməsinin vacib şərtidir.

Təşkilatın nəyi edə və nəyi edə bilməyəcəyini müəyyən edən konkret qanunlar və dövlət tənzimlənməsi normaları hüquqi məsuliyyətdir. Hər bir məsələ üzrə çoxlu sayda qanunlar və normativlər mövcuddur. Bütün bu aktlara tabe olan təşkilatlar özlərini hüquqi cəhətdən məsuliyyətli aparırlar. İnsanların fəaliyyəti ölkə konstitusiyası və dövlətin qanunlarına zidd olmamalıdır. Qanunlara riayət edilməsi insanların vəzifəsidir . Buna görə də mülki qanunlarla yanaşı o təşkilatın fəaliyyətini tənzimləyən bir sıra spesifik qanunları da icra etməlidir.

Sosial məsuliyyət dedikdə təşkilat tərəfindən sosial problemə könüllü olaraq reaksiya verilməsinin müəyyən səviyyəsi başa düşülür.

İnsan cəmiyyətin bir üzvü olduğuna görə əxlaq normaları onun davranışını da idarə etməlidir. Cəmiyyətin fərdi üzvlərindən biri kimi müəssisə cəmiyyətin mənəvi əsaslarını möhkəmləndirməyə kömək edərək sosial cəhətdən məsuliyyətli hərəkət etməlidir. Sosial məsuliyyət probleminin mərkəzində şəxsi dəyərlər- xeyir və şərə münasibətdə ümumi mənafelər durur.

Dövlət rəhbərləri və sıravi işçilərin etik davranış xarakteristikalarını yüksəltmək məqsədilə müxtəlif tədbirlər nəzərdə tutur. Belə tədbirlərə etik normativlərin hazırlanmasını, etika üzrə komitələrin yaradılmasını sosial təftişlərin keçirilməsini və etik normativlərin hazırlanmasını, etika üzrə komitələrin yaradılmasını, sosial təftişlərin keçirilməsini və etika davranışlarının öyrənilməsini aid etmək olar.

Etik normativlər, etik dəyərlər və qaydaların məcmusu sistemini özündə birləşdirir. Təşkilat rəhbərinin fikrincə onun bütün işçiləri öz fəaliyyətlərində bunları rəhbər tutmalıdırlar. Onlar təşkilatın məqsədlərinin təsvir edilməsi, normal etik atmosferin yaradılması və qərarların qəbulu prosesində etik tövsiyyələrin müəyyən edilməsi məqsədilə işlənib hazırlanır.

Etika üzrə komitələr etika nöqteyi-nəzərindən gündəlik təcrübəni qiymətləndirmək üçün bir

sıra təşkilatlarda daimi əsasda yaradılır. Belə komitələrin bütün üzvləri yuxarı səviyyə rəhbərləridir. Bir sıra təşkilatlar belə komitələr yaratmırlar, bunun əvəzində muzdla etika üzrə vəkillər adlanan biznes etikası üzrə mütəxəssislərdən istifadə edirlər. Belə vəkillərin rolu təşkilatın fəaliyyəti ilə, həmçinin təşkilatın sosial – vicdanı funksiyasının yerinə yetirilməsi ilə bağlı olan etik məsələlər üzrə mühazirələr hazırlamaqdan ibarətdir. Təşkilatlar rəhbərlərin və sıravi əməkdaşların etik davranış göstəricilərini yüksəltmək üçün müxtəlif üsullardan istifadə edirlər. Bu məqsədlə işçiləri əmək etikası ilə tanış edirlər və qarşıya çıxa bilən etik problemlərin həllinə onların həssaslığını yüksəldirlər.

Nəzərə almaq lazımdır ki, hüquqi məsuliyyətin əmələ gəlməsinə əsas hüquq pozuntusunun törədilməsi faktıdır. Hüquqi məsuliyyət dövlətlə, hüquqla sıx əlaqədardır. Dövlət hüquq normalarını müəyyən edərək, həm də hüquqa zidd davranışa görə hüquqi məsuliyyəti də nəzərdə tutur. Hüquqi məsuliyyətin fərqli əlaməti- hüququ pozan şəxsin hüququn tələblərini icra etməsinə dövlət məcburiyyətidir. Burada söhbət vurulmuş ziyanın məcburi ödənilməsindən, başqa şəxslərin pozulmuş hüququnun bərpası üzrə vəzifələrin qoyulmasından, əmlak münasibətləri sahəsində tətbiq olunan hüququn bərpası tədbirlərindən gedir. Dövlət məcburetməsi cəza tədbirlərində ifadə oluna bilər, yəni hüquq pozuntusuna qarşı cinayət cəzası, inzibati cərimə, inzibati tənbeh də tətbiq edilə bilər.

Beləliklə, hüquqi məsuliyyət dövlət məcburiyyəti xarakteri daşıyır. Dövlət məcburetmə tədbirləri hüquq normalarında, onların sanksiyalarında müəyyən edilir. Sanksiya- müvafiq hüquq normalarında nəzərdə tutulan hüquq pozuntusunun arzuolunmaz nəticəsi, məhrumetmə vasitəsidir. Sanksiya səlahiyyətli dövlət orqanları tərəfindən tətbiq edilir.

Hüquqi məsuliyyətin dörd əsas növünü göstərmək olar:

1. Cinayət məsuliyyəti törədilmiş cinayətə görə yaranır və cinayət məsuliyyətinə o şəxs cəlb olunur ki, o konkret cinayət törətmiş olsun və ya cinayətin törədilməsində iştirakçı olsun.
2. İnzibati məsuliyyət səlahiyyətli dövlət orqanlarının qoyduğu inzibati tənbehlərin tətbiqində ifadə olunur.
3. İntizam məsuliyyəti intizam qaydalarının pozulması nəticəsində baş verir. İntizam xətaları məzəmmət, töhmət, şiddətli töhmət, işdən azadetmə və s. kimi sanksiyaların verilməsi ilə nəticələnə bilir.
4. Mülki-hüquqi məsuliyyət mülkiyyət, əmlak xarakteri daşıyır və mülki-hüquqi mülkiyyət münasibətlərini nizamlayır. O əvəzetmə xarakteri daşıyır, ona görə ki, məqsədi pozulmuş mülkiyyət hüququnun bərpasıdır. Mülkiyyətin ölçüsü, adətən vurulmuş ziyanın ölçüsünə uyğun gəlməlidir.

Şəxsiyyətin həyatda fəal mövqe tutması, hörmət və nüfuz qazanması üçün o, nəcib sifətlərə, yüksək mənəvi keyfiyyətlərə yiyələnməli, mənəviyyatca zəngin olmalı, əxlaqın saflaşması qayğısına qalmalıdır. O, mədəni davranış və adətlərə, ünsiyyət mədəniyyətinə, geniş dünyagörüşə yiyələnməli, vətənpərvər, humanist, ədalətli, xeyirxah, obyektiv, mərd, və təvazökar olmalıdır.

İnsanlar arasında yalan pislənir, düzlük isə mühüm mənəvi keyfiyyət kimi yüksək qiymətləndirilir və kiçik yaşlarından uşaqların düzlüyə öyrədilməsi valideynlərin və tərbiyəçilərin bu sahədə onlara nümunə olmaları vacib sayılır. Bu, həm də belə bir inamdan irəli gəlir ki, düzlük və doğruçuluğun hökm sürdüyü cəmiyyət ədalətli olar.

Zəhmətkeş insanlar, adətən təvazökar, özlərinə qarşı tələbkar olurlar. Onlar başqalarının tənqidini səmimi qarşılayır, qüsurlarını düzəltməyə çalışır, özünütənqidə, özünəhesabat, özünümüşahidəyə, özünütərbiyəyə üstünlük verirlər.

Sadəlik əxlaqi gözəlliyin mühüm şərti, insanlıq ləyaqətini anlamaq deməkdir. Sadə şəxslərin rəftarı təbiidir. Onlar xeyirxahlıq nümunəsi göstərirlər. Lovğa, özündən bədgüman, xudpəsənd adamlar xeyirxah ola bilmirlər.

Hüquqi mədəniyyət qüvvədə olan hüququn, qanunçuluğun, ədalət mühakiməsinin, hüquq düşüncəsinin səviyyəsi ilə, eləcə də, ictimai şüurun hüquqa münasibəti ilə müəyyən edilir. Mədəniyyətin yüksək səviyyəsi labüd şəkildə cəmiyyətin hüququ inkişafına, hüquqi qanuna və hüququ dövlətə gətirib çıxarır. Əgər kütləvi və fərdi mədəniyyət inkişaf etməyəcəksə, onda belə cəmiyyət istənilən digər uğursuzluğa məhkumdur. Dövlət həyatının mənəvi dolğunluğu əhəmiyyətli dərəcədə cəmiyyətin bütövlükdə əxlaqi yetkinliyini, onun mədəni səviyyəsini, sosial-

iqtisadi və siyasi münasibətlərdə humanizmi müəyyənləşdirir. Dövlətin nə dərəcədə demokratik olması, qanunvericiliyin keyfiyyəti və ədalətliliyi məhz bu dəyərlərin uzlaşması səviyyəsi ilə ölçülür.

Qanunverici müxtəlif dəyərləri uzlaşdırarkən onlardan birini başqalarından üstün tutmaq məcburiyyətində qalır. Bu zaman seçim əsaslı, cəmiyyət üçün mümkün qədər mübahisəsiz qəbul edilən olmalı və çeşidli mənafelərin cəmiyyət üçün daha önəmli olanına üstünlük verilməlidir. Qanunvericilik prosesi çeşidli mexanizmlərə əsaslana bilər. Bu mexanizmlər əxlaqi, dini, ideoloji, siyasi, hüquqi ola bilər. Bu mexanizmlərin hansının rəhbər tutulmasından və ölkədəki hüquq sistemindən asılı olaraq qanunvericilik və ondan doğan dəyərlər sistemi yaranır. Qanunvericilik prosesində, qanunların mətnində siyasi, iqtisadi, sosial, əxlaqi qanunlar nəzərə alınmalıdır. Cəmiyyət, onun tələbatının ödənilməsi üçün, onun idarəçiliyi üçün qəbul edilən qanunlar bu dayaqlara söykənməlidir. Hüquq əxlaqlı olmalıdır. Ancaq bu o demək deyil ki, hüquq hər bir halda əxlaqa müraciət etməli, onu əvəz etməlidir. Əxlaq da, hüquq da cəmiyyətdə avtonom fəaliyyət göstərən müstəqil sosial normalar sisitemidir.

Hüquq mədəniyyəti hüquqi cəmiyyətin ümumi mədəniyyəti ilə bağlı olmasını və bu mədəniyyətin həmin cəmiyyətin hüquq sistemində ifadə olunması səviyyəsini bildirir. Hüquqi dövlətin qurulması üçün cəmiyyətdə insanların bir-birinə və dövlət orqanlarına qarşılıqlı hörmət və inamı olmalıdır. Hüquq mədəniyyəti siyasi mədəniyyətlə sıx bağlıdır. Hüququn əxlaqi olması hüquqda ədalət prinsipinin əks olunmasıdır. Bu zaman söhbət əxlaqiliyin qabardılmasından deyil, hüququn mahiyyətində onun ifadə olunmasından gedir. Əxlaq hüququn təkcə məzmununda yox, həm də tətbiqi praktikasında özünü göstərməlidir.

Əxlaqla hüququ üç cəhət fərqləndirir:

- əxlaq daxili, hüquq isə xarici nizamlayıcıdır;
- əxlaq xarici obyektiv ifadəsi tələb olunmayan sırf şüur hadisəsidir, hüquq isə institusion nizamlayıcıdır;
- əxlaqın məzmunu insanların öz hərəkətlərinə görə borcu, vəzifəsi, məsuliyyətində cəmləşirsə, hüquq ayrı-ayrı şəxslərin subyektiv hüquqlarında formalaşır.

Çeşidli dəyərlərin uzlaşdırılması və bu dəyərlərin konfliktlərinin həlli din, əxlaq, siyasət və s. yanaşı həm də hüququn vəzifəsidir.

Dövlətdə hamı qanuna tabe olmalıdır. Hər kəs, o cümlədən dövlət də qanun çərçivəsində fəaliyyət göstərməlidir. Dövlət o zaman möhkəm olur ki, qanunlara əməl edilsin. Demokratik dövlətlərdə vətəndaşlar, bir qayda olaraq qanuna tabe olurlar, çünki başa düşürlər ki, dolayı yolla da olsa, onlar özləri qanunun yaranmasında iştirak edirlər. Qanunçuluq yalnız o halda mövcud olur ki, o, həyata keçirilsin. Bu o deməkdir ki, qanunçuluq, hər şeydən əvvəl, onun effektivliyidir.

Dövlətin idarə edilməsində hakimiyyətin bölgüsü vacib şərtlərdən biridir. Yəni, hakimiyyətin qanunverici, icraedici və məhkəmə hakimiyyətlərinə bölünməsidir. Qanunvericilik, icra və məhkəmə hakimiyyətləri Konustitusiyaya uyğun olaraq qarşılıqlı fəaliyyət göstərirlər. Onlardan heç biri öz səlahiyyətlərin çərçivəsini aşmır və digərinin səlahiyyətlərinə daxil olan fəaliyyətlə məşğul olmur. Onlar öz səlahiyyətləri çərçivəsində müstəqildir.

Hüququn daxili əxlaqiliyi onun effektivliyinin ən mühüm şərtlərindəndir. İnsan üçün qəbul etmədiyi dəyərlərlə yaşamaq çətindir. Qanun insanı ümumbəşəri dəyərlərə, məntiqli qaydalara zidd qaydalarla yaşamağa məcbur etməməlidir. Bu, son nəticədə hüququn inkar olunmasına, ölü normaların artmasına gətirib çıxarır.

Qeyd etmək lazımdır ki, hüququn mahiyyəti iki əxlaq mənafeyinin tarazlığından ibarətdir: şəxsi azadlıq və ümumi rifah. Əxlaq orientirlərini itirmiş qanunvericilik nəinki şəxsi azadlıqla ümumi rifah arasındakı tarazlığı, ümumiyyətlə hər hansı tarazlığı pozulmuş, müvazinətini itirmiş sərxoşu xatırladır.

Hüququn əsaslarının əxlaq komponentləri olmalıdır. Hüquq prinsipləri naminə əxlaq prinsiplərini pozmaq olmaz, lakin onları uzlaşdırmaq həmişə mümkün olmur. «Demək olmaz ki, bütün qanunlar əxlaqa söykənir. Ancaq ədalət mühakiməsinin həyata keçirilməsi o halda daha da çətinləşir ki, qanun, ümumiyyətlə, əxlaq orientasiyasını itirir. Belə olduqda məhkəmə hakimiyyətinin müstəqilliyi xüsusilə aktuallaşır».

Hüquqda dəyərlər şərti və instrumentaldır. Ancaq bu şərtilik əxlaqın və hüququn özünün dəyərlərinin gözdən salınması və ya inkarı demək deyil. Hüquqda dəyərlərin şərti və instrumental xarakter daşıması heç bir əxlaq prinsipinə söykənməyən hüquq dəyərləri yaratmağa xidmət etməməlidir.

Normativ qiymət baxımından məqbul olan sonuncu fikir əxlaqın ümumi xarakteristikası və hüquq nizamlamasında rolu baxımından mübahisəlidir. Subyektiv qavrayışın, əxlaqa fərdi baxışın istisna olunması əxlaqın mahiyyətini bəsitləşdirir. Əxlaq qaydalarını sanksiyalaşdıran qanunverici bu zaman onun pozulmasına görə məsuliyyət də müəyyən edir. Məsuliyyətin əsaslı olması üçün məsuliyyət daşıyan şəxsin əməlinə münasibəti əksər hallarda hüquq üçün önəmli olur.

Hüquq fəlsəfəsində də əxlaqla mənəviyyat fərqləndirilir; birinci halda fərdin daxili özünütənzimləmə qaydaları, ikinci halda isə xarici (cəmiyyətin) davranış qaydaları nəzərdə tutulur. Kant əxlaqı insanın daxili qanunvericiliyi adlandırırdı.

Hüquqdan daha geniş sferanı nizamlayan əxlaq normaları həm də hüququn əsasını təşkil edir. Cəmiyyət əsrlərcə yaranmış ümumbəşəri dəyərləri, o sıradan əxlaq normalarını hüquqla rəsmiləşdirir, əxlaq normaları isə hüququn gerçəkləşməsinə və müdafiəsinə xidmət edir.

Əxlaq və hüquq normaları həmişə mütləq mənada uzlaşmır. Onlar eyni hadisəyə bəzən fərqli yanaşa bilər. Ancaq hüquq əxlaqi olmağa çalışmalıdır. Əxlaqın hüquqda ifadəsi təkcə formal əxlaq kateqoriyaları kimi əks olunmur. Bəzən qanun hər hansı əxlaq kateqoriyasına müraciət etmədən davranış qaydasında əxlaq qayda və prinsiplərini əks etdirir. Başqasına zərər vurma, tapdığını sahibinə qaytar, üzərinə düşən və ya götürdüyün vəzifəni düzgün icra et, qonşu təsirinə döz, pis niyyətlə əqd bağlama, böhtan atma, başqasını ləkələyən məlumatlar yayma və s. çoxsaylı hallarda qanun məhz əxlaq prinsiplərinə söykənir.

## ƏDƏBİYYAT


1. "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu «Azərbaycan» qəzeti, 21 avqust 2007-ci il, № 185
2. Süleymanova E. Qloballaşan dünyada insan hüquqları. Qloballaşma və informasiya cəmiyyətinin problemləri. (elmi məqalələr toplusu). Bakı, 2011. 227 səh
3. Şükürov A. Qloballaşmış cəmiyyətlər: dünən, bu gün, sabah. Bakı, Azərbaycan Universiteti, 2006, 191s


## ABSTRACT


**Novruzali Rahimov**


**Moral values and social responsibility in the context of globalization in the construction of legal state**


İn the scientific article, moral values and the issue of social responsibility in the context of globalization in the construction of legal state have been analysed by philosophical aspect. The concept of legal state, its essence has been explored according to philosophers` thoughts and new content explanations have been given.

According to the authors research, legal state arises in the societies which have stable democratic, legal, political, social, economic, urbane principles. The strong social foundation of state defines its stability of legal supports. In the center of legal state human, its interests stands. State must recognize the integral rights of the people and guarantee to them for existence of the legal state, so there must be developed civil society, law and the rule of law must be provided. In the state based on law human rights are considered above all. The author has also analysed moral values in the construction of legal state, social responsibilty and the interaction of law in the scientific article. Moral values essentially become available in the society where have political pluralism democracy. Political pluralism is one of the political structure principles of democratic society.

## РЕЗЮМЕ

**Новрузали Рагимов**

**Моральные ценности и социальная ответственность в контексте глобализации в строительстве правового государства**

В научной статье, нравственные ценности и вопрос о социальной ответственности в контексте глобализации в построении правового государства были проанализированы в философском аспекте. Понятие правового государства, его сущность была изучена в соответствии мыслях философов и были даны объяснения в новом содержании.

Согласно исследованию автора, правовое государство возникает в обществах, которые имеют стабильные демократические, правовые, политические, социальные, экономические принципы. Сильная социальная основа государства определяет его устойчивость правовых опор. В центре внимания правового государства стоит человек и его интересы. Для существования правового государства, она должна признать права граждан и гарантировать их, там должно быть развитое гражданское общество, и должно быть обеспечено верховенство закона должно быть предусмотрены законом. В государстве, главным рассматриваются права человека основанные на законе .

Автор также в научной статье проанализировал взаимодействия моральных ценностей, социальной ответственности и права в построении правового государства. Моральные ценности в основном становятся доступными в обществе, где есть политический плюрализм, демократия и правовое государство. Политический плюрализм является одним из политических принципов структуры демократического общества.

NDU-nun Elmi Şurasının 30 mart 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *Hüquq üzrə fəlsəfə doktoru, dosent* Y.Hüseynov

**QƏHRƏMAN BEHBUDOV**
*Naxçıvan Dövlət Universitet*

**UOT:341**

# M.Ə.SABİR YARADICILIĞINDA BEYNƏLXALQ MÜNASİBƏTLƏR

**Açar sözlər:** *Xalq, beynəlxalq, münasibətlər, hüquq, azadlıq, mübarizə, insan hüquqları, uğrunda, Azərbaycan, sosial-siyasi*

**Key words:** *People, international, relations, right, freedom, struggle, human rights, for, Azerbaijan, socio-political*

**Ключевые слова:***Народ, международных, отношения, права, свобода, бой, права человека, для, Азербайджан, социальной и политической*

M.Ə.Sabirin əsərlərində təkcə Azərbaycan xalqının deyil, dünyanın bir çox başqa xalqlarının həyatına aid, məişət məsələlərindən tutmuş onların xarakterinin tarixən formalaşmasına qədər böyük inkişaf yolu keçməsi prosesini əhatə edən hadisələrə toxunulur. Tarixi proseslər, dünyanın müxtəlif guşələrində baş verən ictimai-siyasi hadisələr ardıcıllıqla, onların səbəb və nəticə əlaqələri dəqiq göstərilməklə təhlil olunur.

XIX əsrin axırlarına və XX əsrin sonlarına doğru maarifçilik hərəkatına yeni bir çalar - siyasi düşüncə də əlavə edilməyə başladı. Buna səbəb xalqların get-gedə ayılması, milli mənlik şüurunun oyanması idi. Çünki ölkədə artıq siyasi qüvvələr fəallaşmağa başlamışdı. Bu da sosial-mədəni və ictimai-ədəbi mühitdə yeni məzmunlu fikir və düşüncənin rəngin ifadəsinə stimul verirdi. Sabirin ayıq və həssas şair dühası bütün bu yeniliklərə fəal münasibət bəsləyirdi.

Sabir dünya xalqlarının tərəqqisi ilə ayaqlaşmağı milli özgünlüyün qorunub saxlanmasına qarşı qoymurdu. Əksinə, əsrlərdən bəri formalaşaraq stabilləşən və milli simamızın key-fiyyət göstəricisinə çevrilən mənəvi-əxlaqi dəyərlərin zamanın tələblərinə uyğun surətdə inkişaf etdirilməsi, milli və dini birliyin daha da möhkəmləndirilməsi tələbini irəli sürürdü. Bununla milli qeyrəti - simanı, eyni zamanda islami əxlaq normalarını itirmək və beləliklə də simasızlaşaraq parçalanıb digər dünya xalqları arasında əriyib tələf olmaq təhlükəsindən xilas olarıq. Şair firqə və təriqətlərə parçalanmanı milli mənlik şüurunun, "qeyrəti-milliyyəmizin" formalaşması yolunda ən böyük təhlükə sayırdı.

O, "Ləbbeyk icabət" məqaləsində xalqı "İrşad" qəzetinə abunə olmağa çağıraraq, sözlərini aşağıdakı misralarla tamamlayırdı:

*Milliyyəti yad eyləyin, ey milləti naci!*
*Pək təhlükəli xəstədir islam məzaci!* (1;246)

Buradan görünür ki, Sabiri təkcə Azərbaycan, öz həmvətənləri deyil, bütövlükdə İslam Şərqi narahat edirdi. Çünki o, Azərbaycanın tərəqqi və inkişafını dünyadan, İslam Şərqindən təcrid olunmuş şəkildə təsəvvür etmirdi. Odur ki, "İrşad" qəzetinin 13 oktyabr 1906-cı il tarixli nömrəsində çap etdirdiyi "Qeyrət" başlıqlı məqaləsində o dövrdə İslam xalqlarının, islamiyyətin tərəqqisi problemləri ilə bağlı mətbuatda xüsusən "Bizə hansı elmlər lazımdır?" ümumi başlığı ilə gedən mübahisə və fikir mübadilələrinə öz münasibətini bildirərək yazırdı:

"Zənni-acizanəmə görə bunca tərqib və təhrisdən murad islamın ancaq islamiyyət ilə bərabər edəcək olduğu tərəqqisidir ki, onun sayəsində hər cəhətlə qeyrəti-islam və namusi-millət mülahizə olunsun; nəinki daireyi-islamdan xaric tərəqqidir ki, onilə nə irzi-islam mühafizə və nə qeyrəti-milliyyət mülahizə oluna bilər". (2; 131)

Sabirə görə, İslama daxil olan xalqların milli-mənəvi tərəqqisi, onların hər birinin özgün əxlaqi keyfiyyətlərlə uğur qazanması islami dünyagörüşün qorunub saxlanması və inkişaf etdirilməsi şərtləri daxilində mümkündür. Əgər biz islami əxlaq və mənəvi dəyərlərə arxa çevirsək, tərəqqi əvəzinə mənəvi-əxlaqi aşınmalara məruz qalıb öz simamızı itirərik.

M.Ə.Sabir "Molla Nəsrəddin" jurnalının 26 avqust 1907-ci il tarixli 32-ci nömrəsində çap etdirdiyi "Fəxriyyə" şeirində yazır:

*Ol gün ki, Məlikşah Büzürk eylədi rihlət,*
*Etdik iki namərd vəzirə təbəiyyət,*
*Qırdıq o qədər bir-birimizdən ki, nəhayət,*
*Düşmən qatıb əl təxtimizi eylədi qarət*
*Öz həqqimizi gözləməyə bitrəfiz biz!*
*Turanlılarız, adiyi-şüğli-sələfiz biz"*

Şeirdə adı çəkilən Məlikşah Büzürk Səlcuq dövlətinin çox qüdrətli hökmdarlarındandır. Əsasını sultan Toğrul bəyin qoyduğu və onun varisi (qardaşı), bu dövləti daha da möhkəmləndirib genişləndirmiş sultan Alp Arslan oğlu Məlikşah Büzürkün zamanında Azərbaycan ərazisi tamamilə böyük Səlcuq səltənətinin tərkibinə daxil edilmişdi. Məlikşahın özünün bacarıqlı dövlət xadimi kimi yüksək keyfiyyətləri və vaxtilə atası Alp Arslana vəzirlik etmiş, sonra da Məlikşahın atabəyi və vəziri olmuş Nizam əl-Mülkün qabiliyyəti sayəsində Səlcuq sultanlığı dövrün həm siyasi, həm də iqtisadi cəhətdən çox güclü bir dövlətinə çevrilmişdi.

Lakin iş elə gətirdi ki, Məlikşah Büzürk və onun müdrik vəziri, hər ikisi demək olar ki, eyni vaxtda,1092-ci ildə dünyadan köçdülər və xalq M.Ə.Sabirin dediyi kimi, "iki namərd vəzirə təbiyyət" etməyə məcbur oldu.

Şair təəssüf hissi ilə qeyd edir ki, Məlikşah Büzürkün vəfatından sonra "qırdıq o qədər bir-birimizdən ki, nəhayət, düşmən qatıb əl taxtımızı eylədi qarət". Bəli, "öz haqqımızı gözləməyə bitərəf" olduğumuzdan bir-birimizlə düşmənçiliyə başımız elə qarışdı ki, düşmən taxtımıza əl qatıb onu qaərt etməyə fürsət tapdı. Şəxsiyyətləri hələ araşdırmalar aparıb aydınlaşdırılmalı olan "namərd vəzirlərin" fitnəkarlığı üzündən bir-birinə düşmən olan qardaşların arasında gedən mübarizə o vaxt Qərbi Avropada yenicə təşkil olunan Şərqə doğru səlib yürüşləri üçün əlverişli fürsət yaratdı, təzəcə formalaşmağa başlayan Səlcuq dövlətinin daha da möhkəmləndirilməsi qayğısına qalmaqdansa, qardaşların ataları dünyadan gedəndən sonra öz dövlətlərini əl-ələ verib daha da qüvvətləndirməyə çalışmaq əvəzinə törətdikləri daxili münaqişələr nəticəsində qısa müddət ərzində oğuz-səlcuq səltənəti parçalanıb dağıldı.

"Fəxriyyə" şeirində türk dünyası tarixində mühüm rolu və təsiri olmuş bir çox başqa dövlətlərin də adları çəkilir, vaxtilə onların da daxili və xarici münaqişələr üzündən süqut etməsi nəzərə çatdırılır. (3;9)

Sabir dövrün mühüm sosial-siyasi, milli-bəşəri hadisələrinə, bu proseslərin düzgün məcraya yönəldilməsinə fəal və ayıq vətəndaşlıq mövqeyindən müdaxilə etməyə çalışmışdır. Bunu onun "Mətbuat", "Qeyrət", "Ləbbeyk icabət", "Zaman nə istəyir? Amma biz…", "Cümə" və s. məqalələrində də qabarıq şəkildə görmək olur. Əgər "Mətbuat" və "Ləbbeyk icabət" məqalələrində, "Əlminnatü lillah ki, "Dəbistan" da qapandı", "Ay can!… Ay can…" satiralarında olduğu kimi, milli mətbuatın xalqın tərəqqi və inkişafındakı rolundan danışılıb, onun davamlılığının qorunmasının vacibliyi məsələsi qoyulursa, "Qeyrət" məqaləsində dünya xalqlarının mədəni və mənəvi irsindən bəhrələnmənin yollarından, dünyaya inteqrasiya zamanı həm də milli-bəşəri dəyərlərin dayanıqlığının diqqət mərkəzində saxlanması və bununla da milli mənliyin itirilməsinə deyil, əksinə milli özgünlüyün və koloritin daha sistemli bir şəkildə davam etməsinə nail olunmasının taleyüklü bir problem olduğunu diqqətə çatdırırdı. "Zaman nə istəyir? Amma biz…", "Cümə" məqalələrində cəmiyyətin normal inkişaf edib, xalqın və Vətənin parlaq istiqbala çatması və bu problemin həlli yolları araşdırılır. Sabirə görə, hər cəhətdən kamil bir cəmiyyətə və dövlətə nail olmağın başlıca yollarından biri də gənc nəslin maarifləndirilməsi, onların əsl vətəndaş kimi yetişdirilməsidir. Bunun üçünsə zamanla ayaqlaşa bilən məktəb və maarif ocaqlarının şəbəkəsinin mümkün qədər genişləndirilməsini həlli vacib bir məsələ kimi irəli sürürdü.

Sabir artıq ictimai-mədəni, sosial-siyasi həyatda baş verən proseslərə fəal münasibət göstərir, onlara müdaxilə edərək fikrini və vətəndaş mövqeyini ifadə edirdi. 1905-ci ildə çarizmin fitvası və

daşnaqsütun partiyasının təşkilatçılığı ilə ermənilər illərdən bəri köçürülərək əzəli Azərbaycan torpaqlarında qonşuluqda yaşadıqları azərbaycanlılara qarşı ərazi iddiaları ilə fitnəkarlıqlar edir, milli qırğın törədirdilər. Dövrün ayıq və qabaqcıl düşüncəli digər qələm sahibləri ilə yanaşı Sabir də hər iki xalq - həm ermənilər, həm də azərbaycanlılar üçün ancaq ziyan, dağıntı və fəlakətlərə gətirib çıxaran həmin qırğınlar pisləyib, müsəlman (Azərbaycan) və erməni vətəndaşlarını fitnələrə uymayıb, bir-birlərinə bəslədikləri kin-küdurəti kənara qoyaraq əvvəlki kimi sülh və əmin-amanlıq şəraitində yaşamağa səslədi. "Müsəlman və erməni vətəndaşlarımıza" adlandırdığı həmin şeir "Həyat" qəzetinin 1 iyun 1905-ci il tarixli nömrəsində çap edildi. Şeirdə oxuyuruq:

*Ey süxəndənan, bu günlər bir hidayət vəqtidir!*
*Ülfətü-ünsiyyətə dair xitabət vəqtidir!*

Sabir iki xalq arasında baş verən bu fitnəkarlıqların sosial-siyasi köklərini, onun niyə baş verdiyini hələ tam başa düşə bilməsə də, törədilən qırğınların, bəslənən kinlərin insanlıqdan kənar olduğunu və cahillikdən, qanmazlıq və zəlalətdən meydana çıxdığını bildirirdi:

*Fitnələr kim, faş olur, bilməm nə halətdən törər,*
*Bu müsibətlər bütün büğzü ədavətdən törər,*
*Bu ədavət mütləqa hali-zəlalətdən törər;*
*Ey süxəndanan, bu günlər bir hidayət vəqtidir!*
*Ülfətü-ünsiyyətə dair xitabət vəqtidir!* (6; 163)

Ona görə də şair həmkarlarını, cəmiyyətdəki mövqe və nüfuz sahiblərini həqiqəti, məsələnin kökünü xalqa açıb onların aralarında əvvəllər hökm sürən dinc yanaşı yaşayışın, sülh və əmin-amanlığın bərpası üçün səylər göstərməyə çağırırdı.

Şeirlə birlikdə redaksiyaya göndərdiyi məktubda Sabir yazırdı ki, "…təqazayi-zəmanəmizcə bərəks ittifaq düşən əraminə və müslimin zid-diyyətinin islahında fövqəzzikr bir neçə qitənin tənzimini ənsəb və əlzəm gördüm. Başqa dəfələr də həm əhvali-ümumə dair mətləbləri öz qabiliyyətim qədərincə nəzm etməyə müştaqəm. Və belə xidəmati-çakəranələri vətən qardaşlarımızın yolunda özümüzə vacib biliriz". (8; 166)

Göründüyü kimi, Sabir artıq Vətənin tərəqqisi və Vətən övladının səadəti, inkişafı yolunda öz qələmi, istedadı, ağlı, zəkası ilə xidmət göstərməyi özünün vətəndaşlıq borcu sayır, bu yolda bütün qabiliyyət və bacarığı ilə çalışacağını bəyan edirdi. O, sözünə, vədinə əməl etdi; hələ çox aktual və ağrılı məsələ kimi qarşıda duran erməni-müsəlman qırğınının dayandırılması üçün məqalələr də yazdı. "Vəfat xəbəri", "İslamiy-yətin insanpərvərliyi", "Bu gün Qafqaziya məmləkətində…", "Avqustun 3-də Salamovların evində…" və s. məqalələrdə zahirən Şamaxıda baş verən təziyə və ictimai-mədəni hadi-sələrdən danışılır. Ancaq Sabir həmin məqalələrdə Şamaxıda müsəlmanlarla (azərbaycanlılarla) ermənilərin dinc və əmin-amanlıq şəraitində yaşadıqlarına xüsusi diqqət cəlb edir, bununla digər qəsəbə, oba və şəhərlərdə yaşayan vətəndaşlara sanki bir nümunə göstərir, onlara da qarşılıqlı sülh və dinclik şəraitində yaşamağı təlqin etməyə çalışırdı.(9; 78)

Həmin məqalələrdə İslamın sülhpərvər bir din olduğunu diqqətə çatdırmaqla yanaşı şamaxılıların erməni-müsəlman qırğınında Qarabağda zərər çəkənlərə göstərdikləri maddi yardımdan söhbət açır, digər həmvətənlərini və vətəndaşları bu cür xeyriyyə işlərinə qoşulmağa çağırırdı…(4; 36)

Sabirin bu dövr yaradıcılığında duma seçkiləri, demokratik azadlılıq uğrunda gedən ağır mübarizə prosesləri, fəhlə və kəndli hərəkatı, sosial-siyasi oyanışdan narahat olan qüvvələri təşviş və vahimə dolu şikayətləri, gənc nəslin tərbiyəsi problemləri, milli mətbuatın taleyi, təriqətçiliyin ləğvi və milli birliyin yaradılması, türk xalqlarının tarixi taleyi və onların birlik və həmrəyliklərinin zəruriliyi və s. məsələlər bədi əksini tapmışdır. (5; 104)

Sabir dünyada, o cümlədən Avropa ölkələrində, Azərbaycanda, İranda və Osmanlıda gedən proseslərə də ayıq siyasi və elmi bir nəzərlə baxırdı. Ona görə də onun həmin hadisə və proseslər haqqında gəldiyi nəticələr, söylədiyi qə naətlər öz obyektivliyi və sərrastlığı ilə digər müasirlərindən, o cümlədən alovlu romantik şair Məhəmməd Hadindən seçilir. Əgər qeyd etdiyimiz kimi, M.Hadi çox zaman hadisə və proseslərin zahiri cazibəsinə aldanaraq, şövqə gəlib "İstiqbalımız parlaqdır!", "Bariqeyi-zəfər parlayır, istiqbal bizimdir", deyirdisə, Sabir dostunun bu

sadəlövhlüyünə gülərək, onu hadisələrin mahiyyətinə varmağa, obyektiv nəticələr çıxarmağa çağırırdı. Odur ki, M.Hadinin bu mövzuda yazdığı şerlərini və məqaləsini təhzil edərək, onlara cavab şəkilində qələmə aldığı "İstiqbalımız lağlağdır", "İstiqbal bizimdir" satiralarını çap etdirmişdir. Bu əsərlərdə Sabir, öz qələm dostundan fərqli olaraq, soydaşlarının fitri istedad və qabiliyyətinə, onların parlaq istiqbala layiq olub, bu nemətə gec-tez çatacaqlarına bütün varlığı ilə inandığını bildirirdi. Lakin o, bunun üçün qarşıda duran bir çox mühüm vəzifələrin - milli ətalət və cəhalətin maariflənmə yolu ilə aradan qaldırılmasının, milli mənlik şüurunun düzgün formalaşdırılaraq sosial-siyasi düşüncənin inkişafına, habelə beynəlxalq siyasi və diplomatik proseslərdən düzgün nəticələr çıxarıb onlara müvafiq hərəkət etmək qabiliyyət və vərdişlərinə yiyələnmək və s. kimi işlərin həyata keçirilməsinin vacibliyi məsələsini irəli sürürdü. Şair inanırdı ki, bütün bu işlər layiqincə görülərsə, xalqımız özünə layiq olan istiqlalı əldə edib parlaq, işıqlı istiqbala qovuşacaq.

Əlbəttə, soydaşlarının milli azadlıq və istiqlaliyyət uğrunda qəhrəmancasına döyüş meydanına atılmaları Sabirin ürəyini bir vətəndaş kimi cuşə gətirirdi. O, özünün bu hədsiz sevinc hissindən doğan sonsuz hissiyatlı, cezb olunmuş vəziyyətinə baxıb onu dəli hesab edə biləcək oxucusuna müraciətlə bildirirdi ki, bütün bunlar Səttarxanın mərdliklə atıldığı azadlıq mübarizəsində əldə etdiyi qələbələrdən, həmin qələbələrin doğurduğu fərəh və qürur hissindən irəli gəlir. Özü də bu işdə gənc türklər də Səttarxanla həmrəy olduqlarını bildirmişdilər.

M.Ə.Sabir Azərbaycan xalqının milli qəhrəmanı Səttərxanı "oddan qorx-mayan pərvanəyə" bənzədir. Şeirdə Səttərxan və onun möhkəm əqidəli cənublu silahdaşlarına böyük ümumxalq sevgisi və ehtiramı ifadə olunmuşdur. Şair Səttərxanın xidmətlərinin İslam dünyası, geniş mənada insanlıq üçün böyük əhəmiyyətə malik olduğunu xüsusi olaraq vurğulamışdır:

*Afərin təbriziyan, etdiz əcəb əhdə vəfa!*
*Düstü düşmən əl çalıb, eylər Sizə səd mərhaba!*
*Çox yaşa, dövlətli Səttərxan, əfəndim, çox yaşa!*
*Cənnəti - əlada peyğəmbər Sizə eylər dua.*
*Çün bu xidmətlər bütün islamədir, insanədir,*
*Afərinim himməti – halayi – Səttərxanədir.* (1; 239)

Sabir göstərir ki, kütləlləri ayağa qaldıran inqilabi hərəkat qarşısında hər hansı bir zorakılıq tədbiri aciz və mənasızdır:

*Durma, götür qaç başını, Mir Haşim!*
*Sabirin bu xitab ilə yazılan əsərində oxuyuruq:*
*Sən o deyildinmi edəndə qiyam,*
*Səcdə edərdi sənə yeksər əvam?*
*İndi olar da açılıb bittəmam,*
*Qılmadı heç yerdə sənə ehtiram.*
*Atdı camaat daşını, Mir Haşim!...*
*Durma, götür qaç başını, Mir Haşim!...*
*YardımıSəttar başını, Mir Haşim?* (1;241)

Bu şeir yalnız müəyyən məmura, siyasi rütbəli şəxsiyyətə qarşı həcv deyildir. Bu, ictimai intibahın parlaq mənzərələrindən birini verən nümunədir. Camaatın hiyləni açdığını, haqq divanının başlandığını, mürtəcelər üçün qaçmaqdan başqa əlac qalmadığını, deyən şair, Səttar xan hərəkatına işarə edərək inqilabi mübarizənin həm dairəsi, həm mənşəyi, həm də yenilməz qüdrəti haqqında fikir söyləyir. Burada gələcək qələbə, azadlıq təranələri lirika ilə yox, ictimai gülüşlə, qəhqəhələr vasitəsilə ifadə edilmişdir. Məscid, minbər ehkamının "libasına bürünən" oğruların iç üzünün açıldığı bir zamanın gələcəyini Sabir dərin bir inam və etiqadla bildirir:

*Bir vaxt olar tanır səni hər kəs!*

Bu dərin etiqad və inam şairin məhz böyük gələcək haaqındakı dşüncələrinin ifadəsidir. Ona ilham verən, qələmini itiləyən, istiqamətləndirən də məhz bu düşüncələrdir. Belə bir məzmunu şairin bir çox əsərlərində izləmək, görmək olar.

Qəhrəman Təbrizdə baş qaldıran və az bir zaman içərisində ölkənin hər tərəfini bürüyən azadlıq üsyanları tarix boyu qəhrəman, alicənab və müdrik bir xalq kimi tanınmış azərbaycanlıları şöhrətləndirmişdi.

1907-ci ildə İran məşrutəçiləri sədri - əzəm Ətabəyi qətl etdikdə, o zamanın bir sıra mümühərrirləri bu hadisəni İran inqilabının qəti qələbəsi kimi qiymətləndirərək, məşrutəçiləri təbrik edirdilər. Lakin Sabir həmin hadisəyə tamamilə başqa qiymət verirdi.

M.Ə.Sabir iritacının labüd sövdələşməsi barədə üsyan etmiş təbrizlilərə xəbərdarlıq edir, ilk müvəffəqiyyətlərdə aludə olmamağa, silahı yerə qoymamağa, son məqsədə qədər mübarizəni davam etdirməyə çağırırdı. Şair onlara yeni, daha şiddətli və həlledici döyüşlərə hazırlaşmağı məsləhət görürdü:

*Kirəm Ətabək öldü də, topu - tüfənginiz hanı?*
*Bəhri - əmiqi – hərbdə kəştiyi – cənginiz hanı?*
*Əski hamamdır, əski tas, pəs yeni rənginiz hanı?*
*Dinmə, danışma, yat balam, sən deyən olmayıb hələ!*
*Arxa su dolmayıb hələ!*
*Köhnə idarəniz durur,*
*Rəngi də solmayıb hələ!*

1909-cu ilin iyul ayında Məhəmmədəli şah Qacar öz əhdini pozub, birinci İran məclisini silah gücü ilə qovduğu vaxt Sabir onu sonsuz qəzəb və nifrətlə qamçılayırdı.

*Arslanlar boynuna saldırıdığın zəncirlər,*
*Namvərlər qətlinə çəkdirdiyin şəmşirlər.*
*Atəşi – qəhru qəzəblə yaxdığın təmirlər,*
*Vəsfə şayandır, həqiqət, etdiyin tədbirlər...*
*Ümumi – xaqan oğlu, bu qeyrət halal olsun sənə!*
*Verdiyin məşruteyi -millət halal olsun sənə!*(6; 93)

Lakin çox keçmədən məşrutəçilər öz sıralarını möhkəmlədib, əks – hücuma keçdilər. İrticanın quldur dəstələri məğlubiyyətə uğradı. Məhəmmədəli şah qaçıb, çar konsulxanasına sığındığı vaxt Sabirin bu münasibətlərlə yazdığı satirada artıq, kədərdən doğan kin, təlaş, nifrət yox, sevincdən doğan acı istehza və gülüş vardır:

*Yansın iranlıların arxası, yandı ciyərim,*
*O yetim Məmdəlidən var yenə bir pis xəbərim,*
*Belə derlər ki, qoyub taxtı, qaçıb tacı – sərim,*
*Sığınıb konsula xaqanları iranlıların!*
*Dərhəqiqətn pis imiş qanları iranlıların!* (6; 94)

1908-ci ildə Türkiyədə qanuni - əsasi verilməsi xəbərini bir çoxları vəcdlə qarşıladığı zaman, Sabir "Osmanlılar, aldanmayın, Allahı sevərsiz!" stirasını yazdı. Bu şeiri ilə o, respublika üsuli – idarəsi uğrunda mübarizə edən türk inqilabçılarına müraciətlə deyirdi:

*Ya liləcəb, osmanlılar, aya, nə qanırsız?*
*Qanuni - əsasi verilib ya inanırsız?*
*Mir Haşimü Fəzlullahınız yoxmu sanırsız?*
*Əksik deyil onlar, vəli sizlər nə tanırsız!*
*Bir gün tanıyıb onları labüd usanırsız*
*Ancaq usanırsızsa da, qanə boyanırsız!*
*Qansızları gic qanmayın, Allahı sevərsiz!*
*İranlı kii yanmayın, Allahı sevərsiz*!( 7; 101)

Osmanlıda (Türkiyədə) cərəyan edən siyasi proseslərə də münasibət bildirilir, gənc türklər siyasi ayıqlığa, fitnələr burulğanında "iranlı kimi yanmamağa" çağrılırdı. O, İran şahı Məhəmmədəli Mirzənin öz taxt-tacını xilas etmək üçün gah o, gah da bu dövlətə üz tutub kömək istəməsini və bu uğursuz cəhdlərin biabırçı sonluqlarını "Mürtəcelər, sevinin…", "Zilli Sultana amandır, verməyin Irana yol", "Şurə gəlib şad olun, iranlılar!", "Derlər İran günbəgün xar olur, əlbəttə ki!", "Almaniya imperatoru Vilhelm deyir ki", "Hatif-dən gələn bir nida deyir ki",

"Avropada Məmdəlinin eşqbazlığı", "Məmmədəli deyir ki" və s. satiralarda dönə-dönə, həm də hər dəfə bu beynəlxalq siyasi oyunların yeni bir səhifəsini işıqlandırıb ifşa etdiyi kimi, Osmanlı Sultanı Əbdülhəmidi, onun xalq və vətən mənafeyinə zidd hərəkətlərini yeri gəldikcə ifşa etmişdir. "Müxabirə", "Tərcümani-Həqiqət" deyir ki" və "Əbdülhəmid deyir ki" adlı

qoşalaşdırılmış taziyanələrdə Əbdülhəmidin qəddarlığı, hakimiyyəti dövründə sultana zidd hərəkətlərinin mahiyyəti və s. cəhətlər satirik bir şəkildə poetik dillə ifşa edilmiş, onun nəinki hökmdar, ümumiyyətlə bir insan kimi cəmiyyətə yararsızlığı açılıb göstərilmişdir.

Sabir müasirləri olan bəzi uzaqgörməyən şairlər kimi xam xəyallara, boş vədlərə aldanmırdı. O, mürəkkəb ictimai- siyasi hadisələrdən çox ustalıql baş çıxaran həssas bir sənətkardır. 1906-cı ildə Rusiyada birinci dövlət duması yarandığı vaxt liberal mətbuat dumanı "yeganə azadlıq ümidi" kimi qələmə verib az qala hürriyyət uğrunda gedən mübarizələrin bayrağına çevirmişdi. Sabir bu zaman dumanı "havada oynaşan qara" buludlara" , xalqın başının uydurulmuş yeni bir hiylə olduğunu açıb göstərirdi.

O zaman Rusiyada, İranda və Türkiyədə hadisələr Sabirin qabaqcadan xəbər verdiyi kimi inkişaf etdi. Sabirin uzaqgörən mütəfəkkir bir şair olduğunu sübuta yetirdi.

## ƏDƏBİYYAT


1. M.Ə.Sabir "Hophopnamə" I cild, Bakı,1992
2. M.Ağamirov "M.Ə Sabirin dünyagörüşü" Bakı,1962
3. Z.Bünyadov "Azərbaycan Atabəylər dövləti" Bakı,1978
4. M.Ə.Sabir "Seçilmiş əsərləri", Bakı,1976
5. M.Əlioğlu "Qəhrəmanlıq və məhəbbbət" , Bakı, 1979
6. "M.Ə.Sabir - 150" Bakı, 2012
7. A.Zamanov,"Sabir gülür". Bakı-1981
8. İ.Həbibbəyli "Ədəbi tarixi yaddaş və müasirlik", Bakı, 2007
9. M.Cəlal, F.Hüseynov "XX əsr Azərbaycan ədəbiyyatı" Bakı, 1982


## ABSTRACT


**International relations in M.A.Sabir's creativity**

International relations issue has never been out of the view of Azerbaijani thinkers. As well as The author have payed attention historical condition that country face with public political disaster and torture of our people suffering at the result of wars and revolution.

In the article enshrines the attitude of great thinker M.E.S to the conflicts and revolutions in the international arena.

The author of article have tried to realise the thoughts of thinker concerning international relations. Being right the aouthor have drawn main attention to public political developments taking place neighboring states.

M.A.Sabir neighboring Georgia , Dagestan, Iranian and Turkish people to appreciate cultural progress , and return affected their progressive ideas - stated repeatedly .

Sabir , as noted by the author , who was always against innocent bloodshed, wars and brought misery to the people but showed. The researcher analyzed to summarize his views on international relations of the poet .

Was far from feeling any national restrictions on the poet 's works . His creations were the basis of the ideas of humanism . As shown in the same position judgment was addressing the issue of international relations thinkers .

## РЕЗЮМЕ

### Международные отношения в творчестве М.А.Сабира

Вопросы международных отношений никогда не оставамисъ был полязрения азербайджанских миыслителей. Трудности народа, ставшими последетвиями войн и революций, экономические и общественмо – политические бедствия, с которыми приходилосъ сталкиватъся нашему народу нашли свое отражение в поэтическом мирово ззрении М.А.Сабира.

Именно этим обуславливается тот факт ,что в статье рассматривается проблема отношение азербайджанского сатирика столкноввениям и ревомоциям, происходившим на международной арене.

Исходя из етого автор статьи поставил себе целъю исследовать взгляды М.А.Сабира, о международных отнешениях, аналиризовать его отнощение к общественно-политическим событиям, происходящим в соседних государствах.

М. А. Сабир одобрял культурные продвижения грузинского, дагестанского, иранского и турецеского народов иседнократно родчеркивал влияние прогрессивных идей этих народов на его творчество.

Сатирик всегда выступал против кровоизляниия народа, внушал народу, что ватин приносят елу только боль и разрущение.

Исследователъ системно анализировал международные взгляады поета, обосновывыл мыслъ что азербайджанский сатирик в своем творчестве был далек от отграничения в националъном принадлежности, занимал неизменяемую позицию в решешим вопросов международных отношений.

Автор статьи говоря об отношении Сабири к вопросу о война и человечестве, выдвивает тезис, что взгляды поэта являются своеобразным оригиналъным явлением в истории политических и правовых учений нашего народа. Именно это доказывает такие черты нашего народа как миролюбие и вырапсает его ненавистъ всякаму захвату и разрушителъным войнам.



NDU-nun Elmi Şurasının 30 mart 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. ELMİ ƏSƏRLƏR, 2016, № 6(75)

NAKHCHIVAN STATE UNIVERSITY. SCIENTIFIC WORKS, 2016, № 6 (75)

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. НАУЧНЫЕ ТРУДЫ, 2016, № 6 (75)

**BAĞIR BABAYEV**
*Naxçıvan Dövlət Universiteti*
*Baqirbabayev59@mail.ru*

**UOT:141**

# XX ƏSR AZƏRBAYCAN DEMOKRATİK FİKRİNDƏ RUHANİLƏRƏ MÜNASİBƏT

**Açar sözlər**: *demokratik fikir, din xadimləri, maariflənmək*
**Key words**: *democratic idea, to imams, enlightenment*
**Ключевые слова**: *демократическая мысль, религиозные деятеляи, просвещенность*

XX əsr Azərbaycan demokratik fikri bugünümüz üçün çox aktual səslənən problem kimi, islamda təfriqəçiliyi, məzhəbçiliyi pisləyir, onun yolverilməz olduğunu əsaslandırırdı. Bütün islam dünyasını, o cümlədən, türk- müsəlman aləmini inkişaf və tərəqqidən birdəfəlik məhrum edə biləcək bu parçalanmaların, ayrılıqların millətimizin xeyrinə olmadığı göstərilirdi. Lakin bunu layiqincə dərk etməkdə çətinlik çəkənlər islamdakı ayrılıqları dərk edə bilməzdilər. Kənar qüvvələrin bəd niyyətlərinə xidmət edənlər yarıtmaz fəaliyyətləri ilə zaman- zaman bu parçalanmanı, təfriqəni getdikcə daha da gücləndirdilər və bunlar XX əsrin əvvəllərində millətimizin milli birliyinə mane olan başlıca səbəblərdən birinə çevrilmiş oldu.

Bu mənada XX əsr Azərbaycan demokratik fikri belə təfriqəçiliyin hansı bəlalara səbəb olacağını millətin diqqətinə çatdırırdı. Demokratik fikir özgə nəfəslə qidalanan, qəlblərini daşa çevirən, özgələrin önündə həvəslənən belə din xadimlərinin öz şəxsi rifahları naminə millətlərin, xalqların yollarına çıxardıqları maneələrə diqqəti yönəldərək, islamın müsbət, əvəzsiz rolu yüksək qiymətləndirərək, onların niyyətlərinin puçluğunu açıb ortaya qoyurdu ki, “budur...etdiyiniz xidmətlər. Bir tərəfdən təfriqə salıb, mənim bir olan vücudumu min parça edib, məni günbəgün sərnigün etdiniz”(1,48). Bununla da, tarixin dönəmlərində kimlərinsə günahlarının ucbatından belə parçalanma reallaşdı. Beləliklə, demokratik fikrin müasiri olduğu XX əsrə qədər gələn bu təfriqəçilik bütün müsəlmanlara, o cümlədən türk- müsəlmanların birliyinə vurulan ən böyük zərbə oldu. Halbuki milli mənsubiyyətindən asılı olmayaraq, islam dininin vahid olduğu vaxtlar olmuşdu: o zaman islamın səfalı vaxtı idisə, XX əsrdə onun cəfa çəkdiyi bir vaxta düşdü ki, bunu anlamaq çox da çətin deyildi:

Halbuki, hər kəscə Haq bir, Tanrı bir...
Ya bu sərsəmlik, bu azğınlıq nədir!? (2,IIc,186).
Xaliqi- Kainat halbuki bir
İştə Quran və Kəbə həp birdir (2,IIc,134).

İslamın ictimai- fəlsəfi məzmununu anlamayan, ümumbəşəri mənəvi- əxlaqi dəyərlərindən, sərvətlərindən xəbərsiz olan “müqəddəslər” onun pak ruhunu öldürmək, söndürmək məqsədilə onu parçalamaq, zəif salmaq yolunu tutmuşdular. Bu, XX əsrdə planetar miqyasda islamın ölgünləşməsinə zəmin yaradacaq başlıca amilə çevrilmişdi. Bələlərinə müraciət edən Azərbaycan demokratik fikri “müsəlmanlara nə fayda vermisiniz?”(1,47),- deyərək, bildirirdi ki, onlar islamın sosial- tarixi hadisə və fenomen olduğunu anlamayaraqdan, onun aparıcı istiqamətini dərk edə bilmədiklərindən belə İlahi buyruğu başqa yönə yönləndirdilər. Onlar “əslində sadə olan” fikirləri bəyan üçün uzun- uzun təfsil kitabları yazıb füruğatə bəst verdilər ”əql və hikmət” istinaddan artıq rəvayət və cəhalətə müstənəd ixtilafətə yol açdılar”(8,146).

Halbuki, qardaşlıq, demokratiya, ədalət, xeyirxahlıq, mərhəmət, sevgi kimi yüksək mənəvi- əxlaqi hisslər aşılayan, xalqlar- dövlətlər arasında qarşılıqlı hörmət və ehtirama səsləyən islam dini imansız xəyanətkarların üzündən bu kökə salınmış oldu, çünki onların məqsədi “əsil xalqı Qurandan uzaqlaşdırıb, cəhalətdə saxlayıb dinə rəxnə salmaqdır”(1,38). Məhz onlar- beləlləri

Bir sıra alimnüma xəyanətkar
Dini- islama rəxnə salmışlar (2,IIc,134).
Ayrılıb bir mürşidin peyrəvləri,
Ayrı məzhəblər çıqarmış; hər biri (2,Ic,86).

Demokratik fikir çox təəssüf edirdi ki, subyektiv mülahizələr üzündən belə sevgiylə dolu olan islam dini parçalandı. Onun dərin məzmununa, milyonlara fayda verəcək əxlaqına başqa cür yanaşmalar başlandı, "ol gündən islamın evi yıxılmağa başladı"(8,146). O, belə günahkarları xalqa tanıtdırırdı:

Bir yığın istinadi biməna
Qaldırır hər tərəfdə bir dəva (2,IIc,134).
Bir yığın böhtanlar icad eyləmiş,
Pirinə həzyanlar isnad eyləmiş (2,Ic,86).
Birsə həq, cümlə din də bir...naçar
Xəlqi yalnız ayırmış azğınlar (2,IIc,165).

Demokratik fikir haqlı və təbii olaraq göstərirdi ki, Allahın yolu ilə gedən müsəlmanlara məlumdur ki, "Qurani- Kərim"də, islamda təfriqəçilik, məzhəbçilik yoxdur. Belə parçalanma qərəzkar, şəxsi mənafelər baxımından həyata keçirilirdi:

Nə sünni- şiə var Quranımızda,
Üxuvvət ləfzi var furqanımızda (5,Ic,143).

Lakin qeyrətli, vicdanlı, vətənsevər demokratik fikir islamın həqiqi mahiyyətini dərk edərəkdən bildirirdi ki, həqiqi dini islamdan xəbərsiz, müqəddəs Quranı oxuyub öyrənə bilməyən beləəri "ol vaxtdan, şöhrət və mənfəət tamahına düşən alimnumalar öz fikir və təsəvvürlərinin büt və atəşpərəstlərin etiqadları ilə məzc edib qədim cəhalət adətlərini, rəvayati- batiləni, xurafatı təfsirlərə qədər daxil etdilər. Və bu vasitə ilə birər mömini zəhərlədilər"(8,146). Bununla da, islamın qüdrətinin sarsıdılması dövrünün başlanması ilə əleyhdarlarımızın islamla bağlı qarayaxmaları, iftiraları, böhtanları və azğın hədyan söyləmələri saysız- hesabsız oldu. Belə strateji əhəmiyyətli bir məsələ sonradan gələcək nəsillər üçün güclü təhlükə mənbəyinə çevrilə biləcəkdi. Bütün düşmən qüvvələr bu iş üçün səfərbər edildi və milyonlar, milyardlar xərclənməyə başlanıldı. Demokratik fikir ruhanilərə üz tutub bildirirdi ki, "insaf ediniz! Bu qədər qədr və bu qədər xəyanət, bu qədər ədəmi- dəyanət ki, sizlər izhar etmisiniz...Amma bainhəmə müsəlman cəmaəti sizə kəmali- ehtiram ilə itaət edir"(8,46).

Zaman və məkan baxımından yaranışından vahid olmuş islam dini dünyəvi din olub, mənəvi- əxlaqi dəyərlərə və sərvətlərə sahibdir. Tarixilik, dünyəvilik və məntiqilik baxımından bəşəriyyət ondan hər zaman, hər yerdə layiqincə və yetərincə faydalanmışdır. Lakin sonralar ondakı bütövlük pozulmuş, insan oğlu ona aşiq olmaq, üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlmək əvəzinə, ixtilaf yaratmış, təriqət, məzhəb icad etmiş və bir yığın insanları da başına toplaya bilmişdir. Konkret şəkildə də öz üzərinə düşən vəzifə kimi, o qisim insanları "haqq din" kimi öz təriqətinin ardınca aparmağa başlamışdır və onları buna inandırmağa çalışmışdır:

Anlamaz, kor xalqı qandırmış bütün,
Hər nə qusmuş, həp inandırmış bütün...
Hakim olmuşlar bütün izanlara
Hər kəs uymuşdur o bivicdanlara (2,Ic,86).

Bütün bunların hamısı dünyanın o zamankı mənzərəsində islamın vəziyyətini müəyyənləşdirirdi. Müqəddəs dinimizdən uzaqlaşmanı, mənəvi- əxlaqi sərvətimizin talandığını, yadlaşdırıldığını görən demokratik fikir göstərirdi ki, "Bir az ərəbcə bilməkdən savayı bir ləyaqətləri olmayan cahil müfəssirlər öz ağıllarının naqistliyindən ülumi- əqliyyəni dini- islamə müxalif və düşmən hesab etdilər və belə də kitablarında yazdılar"(8,146-147). "Bölük- bölük bölüb, cürbəcür məzhəblər qayırıb dindən çıxarırsınız. Cürbəcür sözlər və iftiralər ortaya salıb aşub və fitnə qaldırırsınız. Biçarə millət hamısına səbr edib"(1,46-47).

Müstəmləkə rejimi şəraitində yaşayan xalqımızın bu rejimdən qurtuluşu yolunda, şanlı mübarizə aparması uğrunda ona yardım etmək, doğru yolu göstərmək əvəzinə ruhanilər onun gözündə öz saxtakarlığını gizləyə bilmişdilər. Çünki onlar həm hökumətlə əlbir hərəkət edir, həm

də müstəmləkə hakimiyyəti ilə birlikdə istismarçı, mürtəce mahiyyəti daşıyırdılar. Elə rus hökuməti də az qala aşkarca bağırırdı ki, "hamınız ruhanilərsiniz, ruhanilərin də borcudur ki, həmişə sağ olub, hökumətə "əl mənim, ətək sənin" desinlər" (4,IIc,346). Halbuki ruhanilər xalqın nəzərində onların "başının ağaları", hər zaman onların yanlarında "uca yerdə oturanları" idilər. Əslində, bu sahibsiz, kimsəsiz müsəlmanların daha çox qanını soranlar da elə hökumətlə bərabər ruhanilər idilər. Onların xalqın xeyri, xoş, uğurlu sabahları üçün görülə biləcək işlərlə heç bir əlaqəsi yox idi. Halbuki hər zaman onları dolandıran, yaşadan, nəzir- niyaz verən elə xalqın özü idi. Onlar isə bu yaxşılıq əvəzinə hər zaman xalqın başına istədikləri oyunu açırdılar.

Deməli, ruhanilər, əslində, hər zaman xalqın yanında "üzüqara" idilər, çünki xalqın əsl dərd- səri ilə əlaqələri yox idi. Onlar zəif, gücsüz müsəlmanların qanını sorur, nəinki onun tərəfində dayanmır, hətta daim xoş məişətləri, "kefi kök dolanışıqları" xatirinə güclü, zor göstərən tərəfin mövqeyini dəstəkləməkdən yorulmaq bilmirdilər. Bununla da, xalqın onlara ola biləcək bütün ümidlərini puça çıxarırdılar. Halbuki onlar yetərincə müsəlman "qardaşlarının" hesabına, rahatlıqla, heç bir qorxu keçirmədən yeyib- içib ömürlərini başa vururdular. Beləliklə də, onlar həm "çörək pulu" çıxarır, həm də ruslara "quyruq buluyub, tərəfdar" çıxmaqla, hətta həmişə deyirdilər ki, "Sizə canım qurban"(4,IIc,342). Ona görə də millətin müstəmləkə əsarətindən, minillik qəflət yuxusundan, cəhalətdən xilası yolunda onun oyanışına, xilasına, xoş gələcəyinə daha möhkəm sədd olan ruhanilərdən xilas mühüm vəzifə kimi qarşıda dayanırdı.

Beləliklə, XX əsrin əvvəllərində "keyfi kök, damağı saz" olan ruhanilər xalq işi uğrunda heç vaxt rahatlıqlarını pozmaq istəməzdilər. Onlar müsəlmanları birləşməyə qoymayan, əksinə, onun içərisində təfriqə salıb parçalayan, bir tərəfi qızışdırıb o birisinin üstünə saldıranlar idilər. Bu, onların əsrlərlə paslanmış, kiflənmiş mənfur niyyətlərindən, məqsədlərindən doğurdu. Yuxuda belə onlar xalqa dost olmaq arzusunda, niyyətində ola bilməzdi. Xalqın qəflətdən, cəhalətdən oyana biləcəyi fikri onlara heç zaman dinclik, rahatlıq verməzdi. Özü də yeri gəldikcə bu dünyanı ikiəlli qucaqladıqlarından, onlar yalandan axirət- "o dünya" haqqında danışsalar da, yalnız bu dünya haqqında düşündüklərindən, müsəlman qardaşlarının yüz illərin "xabi– qəflətində" yatmağından çox məmnunluq duyur, hər cür ağır vəziyyəti xalqa rəva görürdülər. Xalqın aclıq çəkməyi, başına min cür fəlakətlər gəlməyi onları birmənalı şəkildə narahat eləyə bilməzdi. Əksinə, millətin cəhaləti onların xeyrinə idi və onları millətə münasibətdə sevindirən o idi ki, "balam, vallah, inanma, onlar hələ qoyun sürüsüdü. Hələ o məqamlar uzaqdır"(4,IIc,228).

Müsəlman ruhanilərinin xətalarının üstündən xətt çəkib, onlara dəstək verməyən, əksinə, yenilikçiliyə münasibətdə camaata, millətə gətirdiyi fürsəti düzgün dəyərləndirməyə çağıran XX əsr millətimizin o zamana qədərki keşməkeşli, acınacaqlı taleyinə biganə qalmadı, onun ah- naləsini eşidərək, dərdlərinə ortaq olmaqla xilas yollarının çarəsinin axtarışına çıxdı. Ümumilikdə, millətin zehninə də yeritməyə çalışdı ki, "bu günlərədək başı qapazlı müsəlman" sayılan türk millətimizin çəkdiyi bütün əzabların başlıca səbəbkarı "ailəmi– islamın və əz- cümlə Rusiya müsəlmanlarının xabi- qəflətdən bidar ola bilməmələrinə səbəb əvam və cahil mollalardır. Onların vəz və nəsihəti müsəlmanlar üçün ən təsirli bir xabigərdir. Ona görə bu cürə cahil mollalar nə qədər çox olsa...bunların vücudu ilə müsəlmanlar heç vaxt ayılmazlar"(4,IIc,158). "Mən belə görürəm ki, camaatımızın içində mollaları çıxandan sonra, tərəqqi və maarifimizi təxirə salan haman ağayi-möhtərəmlərdir ki..."nadirül- vücuda"oxşayırlar"(7,IIc,459). "Ən böyük və nüfuzlu hökumət adamı ağzından məşhur bir məruzədə: "Şükr Allaha müsəlmanlar avamlıqları bərəkətindən qəflət yuxusunda yatırlar"(8,217) məzmunundakı fikir söyləmişdi.

Dövrün, zamanın bütün ziddiyyətlərinin kəskinləşdiyi, millətlərin, xalqların gələcək həyatlarının inkişafı haqqında müxtəlif fikirlər irəli sürülən XX əsrdə Azərbaycan demokratik fikrini türk- islam dünyasında siyasi, sosial və iqtisadi həyat sahələrində əlaqəli şəkildə müsəlmanların cəmiyyətdəki mövqeyi çox düşündürürdü. Çünki müstəmləkəçi Rusiya hakim dairələri konkret olaraq, belə bir zərərli ideya təbliğ etməyə cəsarət edirdilər ki, "onu başa düşə bilmirlər ki, bu müsəlmanlar bir bədbəxt tayfadır ki, Allah həmişə bunları başı qapazlı yaradıbdır, çünki ona da laiqdirlər"(4,IIc,83). Demokratik fikir millət "ataları" olan ruhanilərin xalqa, millətə, Vətənə xidmətinin əsl mahiyyətini açıb ortaya qoymaqla onları tanıtdırırdı. Onların əsl çirkin, gizlin məqsədi açılıb göstərilirdi. Ruhanilər düşünürdülər ki, millət yolunda hər nə etsələr belə, onlara "bir

qara qəpik qiymət qoyan" olmayacaq. Halbuki işin pərdə arxası başqa bir mənanı anladırdı, çünki ruhanilər fikirləşirdilər ki, "mənim nə qədər ki, canım sağdır, hökumətə ixlas ilə qulluq edəcəyəm" (7,IIc,455),"bəzi üləma adlılarımızın, axundlarımızın, mollarımızın milləti xaki- əndraz və pərişanə doğru sürütdəyib götürdüklərini hər kəs qışqırır"(8,34).

Müstəmləkə dövlətinin xidmətində dayanan "müsəlman axundu" hesab edirdi ki, Rusiya dövlətinin "müsəlman tayfasına artıq hüsnü- təvəccöhü var(!?)(4,IIc,201). Belə təlatümlü bir məqamda, yeni bir əsrdə, "Rusiyada olan hər bir millət öz hüquq və ixtiyarati- milliyə, diniyyə, mülkiyyə və sairəsini hal- hazırda tələb etməkdədir və tələblərinə əncam almaq üçün çarələr aramaqda"(4,IIc,201) olduqları bir dövrdə bizim ruhanilərin millətimizə tövsiyəsi bu olmuşdur ki, "siz müsəlmanlar belə işlərə qarışmayın"(4,IIc,201). Belə mühüm addımları hökumət əvəzsiz qoymurdu, odur ki, "bir molla, məhərrəmdə minbərdə qaradovaya dua" eləyirdi"(7,IIc,460). Çünki bununla "idareyi- ruhaniyyələrimizin düzəlməsi "başlayırdı ki, onlar "Stanislav" və "Anna" nişanlarının (çar Rusiyasında təsis edilib, çar üsul idarəsinə yaxşı xidmət edənlərə, ona sadiq olanlara verilən ordendir- red.) çoxalmasına bağlıdır. Döşümüz nişanlarla təzyin edildikcə, idareyi-ruhaniyyələrimiz müzəyyən olub, düzələcəkdir"(4,IIc,202),

Burada müstəmləkə imperiyasının siyasətindən doğan çox incə bir məqam gizlənirdi ki, hökumətin müsəlman ruhanilərinə "atalıq" qayğısından əsas məqsəd mürtəce məna daşıyırdı. O da bu idi ki, "müsəlmanlar məlumatsız, biliksiz olsunlar, dünyadan xəbərləri olmasın, çarəsiz, dərmansız, əncamsız qalsınlar, ürəklərini deşən qəm və ələmdən xilas olub, təsəlliyab olmasınlar"(4,IIc,194). Halbuki "O kəslər ki, pisliyin qarşısını yaxşlıq etməklə alırlar– onları axirət yurdunun gözəl aqibəti gözləyir"( 3,13/22). "Allah– təala əmr edir ədl və ehsana və öz həmcinsin insana köməyə və cəmi pis işlərdən uzaq olmağa"(1,44).

Yəni gələcəyini düşünən millətlər keçmişdəki bütün təlaşlardan xilas olmaq məqsədilə özünün sabahına baxır, onun yolunda yorulmadan səy göstərməyə çalışırdılar. Cahil və qafil millət isə ətalət və kəsalət ilə dolanıb gələcəyin qeydinə qalmır, gələcək fikrində olmur. "Əgər bizdə də doğrudan dini– imanı, möminlik əsəri, millət qeyrəti, türklük hissi, ehtiyacın şiddəti, möhtac olanların, hal və mövqeləri qanılsaydı...millət balalarını, millət analarını öz başlarına buraxıb ölümə məhkum etməz, qurtarıb sağ qalan yarıcanlı biçarələri də yadların pəncəsinə buraxmazdıq"(8,232).

Yəni Rusiya müstəmləkə rejiminin müsəlman ruhanilərini dəstəkləməkdə güddüyü başlıca gizli məqsəd müsəlman türklərini öz içərisində əritmək, yox etmək idi. Rusiya imperiyasında çox millətlər yaşayırdı. O zamankı "Rusiya padişahlığını təşkil edən" həmin millətlərdən "ən böyük, əvvəl rus milləti olub, sonra müsəlman millətidir. Sair millətlər isə nüfuzca bu ikisindən azdır"(4,IIc,284). Rusiya müstəmləkəçiləri çalışırdılar ki, müsəlmanlara münasibətdə onları elə qorxutsunlar ki, başlarının üstündə onlara ağa olsunlar, onları ağaların əmrlərinə sözsüz, hərəkətsiz əməl etməyə öyrətsinlər. Rusiya padişahlığında "rus olmayan sair millətlərə çox pis baxırdılar"(4,IIc,209), "biz müsəlmanların halı hamıdan yaman idi ki, bizi ruslaşdırmaq və nəsrani etmək işi dəxi var idi. Bizim, hamı millətlərdən dala qalmağımızda ümdə səbəb bu yaman halımız olubdur"(4,IIc,209).

Millətimizin dərdlərinə şərik olan, bu dərdləri çəkməyə razı olan XX əsr Azərbaycan demokratik fikri fəal yaradıcı xarakterinə sadiq qalaraq, əminliklə bildirirdi ki, millətimizin dərdinin başlıca səbəbi onun qəflətdə, cəhalətdə saxlanılmasıdır. Çünki Rusiya çoxmilyonlu müsəlman türklərinin əsarətini məhz bu yolla- əziyyət çəkmədən davam etdirə bilərdi. Demokratik fikir əminliklə bildirirdi ki, "özgə millətlərin cavanları, elm və ədəb dalına düşüb millətə xidmət etmək yolunda can qurban edirlər"(4,IIc,47). Halbuki " müsəlman millətinin xar və zəlil olması barəsində"(4,IIc,48) düşünəndə fikir etməli olursan ki, "ayrı millətlər hamısı qabağa gedir, amma biz bədbəxtlər geriyə qalıb, hansı ki, gərək biz hamı millətlərdən qabaqda"(4,IIc,48) olmalı idik. Digər əsaslı, köklü səbəb isə yuxarıda deyildiyi kimi, millətimizin içərisində "fitnə və fəsad qovzayan"ların, ixtilaf salanların çoxluğu idi ki, onlar da "hacılarımız və qara və qırmızı və ağ saqqallılarımız"(4,IIc,44)-ruhanilərimiz idilər. Çünki "Cahil qövmün mühəqqəqdir zəralı!"(10,57),"Qanuni- həyatdır: yaşamaz cahil olan qövm"(10,64).

Ruhanilər, din "ataları", azacıq gəlirləri xatirinə ondan vaz keçməyərək, "islam ümməti" olan xalqının, millətinin birliyinə yönələcək işlərdən kənar dayanır, yeri gəldikcə də, bu işdə ixtilaf,

nifaq törədirlər. Allahu- Təalanın adından danışan belələri “bir qara qəpik” xatirinə Allahı və milləti qarşısında günahkarlara, xəyanətkarlara çevrilirdilər. XX əsr Azərbaycan demokratik fikri onlardan soruşurdu ki, ”bəs hanı sənin ittihad və ittihad barəsində odlu- odlu sözlərin? Onlardan heç kim ağlına gətirmək istəmirdi ki, millətimizin içərisində “ittihad və ittifaq” olmasa,- onda, sözün doğrusu, işlərimizin axırı pis olacaqdır. Yəni “əgər bu iş bir qədər vaxt belə getsə”(7,IIIc,50) özgələrin ayaqları altında olacağıq, bu məsələ haqqında “gərək indidən düşünək ki, axırda peşimanlıq üz verməsin”(7,IIIc,50). Yoxsa millətimizin halına yanmağa qeyrətimiz olmalıdır. Burada da millətimizin xeyrinə ittifaqın vacibliyi belə əsaslandırılır ki, “əgər sizdə şüur olsaydı və əqəllən bəzi heyvanlar tək ittifaqın mənasını bilsəydiniz, o vaxt hansı bir zalım cürət edə bilərdi ki, sizin insanlıq hüququnuza əl uzatsın?“(7,IIc,201). Onlar çox gözəl anlayırdılar ki, bütün dünyanı gəzsəniz- bir nəfər adam tapmazsınız ki, desin ittifaq və ittihad pisdir. ”İndiyədək qəzetlərimizdə çox yazmışıq: “ittihad“, “ittifaq”. Amma bir az diqqət eləsək, görərik ki, ”ittihad“ və “ittifaq” yolunda cibimizdən bir qəpik çıxmayıb”(7,IIc,299). Yəni heç bir iş ittifaq və ittihadsız başa gəlməzdi.

Elə XX əsr Azərbaycan demokratik fikri bu “milləti- biçarə”nin halına yanaraq, böyük ürək yanğısı ilə bütün vicdan sahiblərinə üz tutub deyirdilər ki, nə vaxta kimi öz hali pərişaninə bəsirət nəzəri salıb, nifaq və ziddiyətdən tökülən atəşi cövr və zülmi görməyəcəksən!? Ona görə də Azərbaycan demokratik fikri qəti əminliklə millətinə xilas yolunun irəliyə doğru yönələn istiqamətini müəyyənləşdirirdi ki, ”Ey şiə, ey babı, sünni türk qardaşlarım, diriliyinizin milli ittihadda olduğunu biləndən sonra daha rəva görməməliyiz ki, millətimiz...yalnız başlarına ac, çılpaq buraxılıb tələf olalar”(8,240). Bu dövrdə, bütün dünyanın silkələnib yerindən oynadığı belə bir dövrdə bütün millətlərin gözlərini açdığı, zamanın səsinə səs verdiyi bir zamanda, özgə millətlərin qəhrəmanlarının mübarizə meydanlarına səslədikləri xalqının başında dayanaraq, onları gələcək şanlı istiqbala doğru apardıqları bir zamanda təəccüblü görünən bu idi ki, ay camaat, bəs müsəlmanlardan da millət yolunda can qurban edə bilən bir adam yoxdurmu?

Millətlərin yaşamaq, gələcək azad, müstəqil, uğurlu həyat uğrunda mübarizəsi işində onların gözlənilən müvəffəqiyyətinin təminatı üçün, onları bu vaxtadək çəkdikləri zülmlərdən, əziyyətlərdən, müstəmləkə əsarətindən xilas edə biləcək mənəvi rəhbərləri sayılan din xadimlərinin onlara təklif etdikləri hər şey artıq xalqın gözündən düşmüşdü. Çünki xalq, millət onların söylədiklərinin, dediklərinin və göstərdikləri yolların haraya gedib çıxacağını bilmirdi. Xalqın qanlı müsibətləri, acı göz yaşları, ürəkləri dələn faciələri hər bir müqəddəs məslək sahibini dərindən düşündürüb, məşğul edirdi. Bu millətin sahib çıxa biləcəyi hər şeyin, onun bütün var- yoxunun ortaya qoyulduğu, belə gedərsə, onun həyat səhnəsində, mübarizələrdə yaşamağa qabil olmayacağı hamıya açıq- aşkar məlum idi. Bu həqiqət millətimizin heçliyinə aparıb çıxaracaqdı. Bunları anlamaq üçün dahi olmsğa gərək yox idi. Çünki zəngin sərvət sahiblərimizin çoxlarının imanlarının zəifliyi, “obrazovannı”larımızın zülmətləri işıqlandıra bilməyəcək qaranlıqlarda iliçib qalmış soyuq baxışları, milli ruhdan kənar olan ruhanilərimizin milli xəyanəti, yalnız “qarın dərdi” vardı. Millətimizin viruslara yoluxmuş, mikrobların qapdıqları sağalmaz xəstəliklərə yoluxdurulmuş xəstə, üzgün vücudları və yorğun ruhları bütünlüklə bu qədər ağır, çətin yükü sayı çox az olan, yuxarıda adları sadalananlarla nisbətdə isə azacıq görünən bir ovuc millətsevər, vətənpərvər demokratik fikir xadimlərinin üzərinə qoyurdu. “Yük ağır, yol da yoxuş”(10,94) olan yerdə, məmləkətdə onlar da xalqı indiyədək göz dikdiyi mənəvi “atalarının” özlərinin düçar etdiyi vəziyyətlə yaxından tanış edərək, qəti əminliklə bildirirdilər ki, daha “ruhanilərimizin bildikləri elm və tərbiyə milləti deyil, özlərini saxlamaqdan acizdir və bu acizlik ilə bu sinif böylə qalırsa özləri ilə bərabər bizi də sürükləyib cəhənnəmin dibinə atacaqdır”(8,191). Demokratik fikrə görə, axundların, mollaların “bu şərtlərdən məqsədi- əsli xalqı Qurandan uzaqlaşdırıb, cəhalətdə saxlayıb, dinə rəxnə salmaqdır”(1,38). Ona görə ki, “cahil Quran oxursa, deyər ki, ərz öküzün buynuzu üzərindədir. Alim oxursa, həqiqətin nədən ibarət olduğunu dərk edər”(6,128):

O yazır: Yer öküzün buynuzu üstündə durur,
Biz gərəkdir inanaq ki, kişi böylə buyurur (9,Ic,295).

Odur ki, XX əsr hökmünü oxumaqla, bütün keçmiş günlərinin həsrətini çəkənlərin nəfəsini sıxıb boğazlarında saxladı. Elə demokratik fikri fərəhləndirən də bu idi ki, “Bəli, buna iyirminci əsr

deyərlər"(7,IIc,472). Bu, elə bir böyük hünərin nümunəsi idi ki, necə deyərlər, "ruhani atalar"ın nüfuzunu azaltdı, onların "siyasi təbəddülat"ını(8,221), "ruhanilərin istidadını"(7,IIc,472) pozdu və "biçarə əhalinin boynundan keşişlərin zəncirlərini qopardıb"(7,IIc,472) atdı və tarix belə bir sübutunu meydana qoydu: "tarix bunu bizə göstərir ki, maarif artdıqca ruhanilik hörmətdən düşür"(7,IIc,473).

Rusiyanın müstəmləkəçi hakim şovinist dairələri, ruslaşdırmanı dəstəkləyən müstəmləkə hökuməti panslavizm ideyasından çıxış edərək, imperiya ərazisində yaşayan müsəlman- türk millətlərini, o cümlədən də bizləri pərişan halımızda saxlamaq məqəsədini dövlət siyasətinə çevirmişdilər. Bu yolda ona sədaqətli qulluq göstərənlər, dövlətin dayağı sayılan müsəlman ruhaniləri isə millətin tərəqqisinin düşmənlərinə çevrilmişdilər, çünki onları türk millətinin ayıla biləcəyi çox qorxudurdu. Rusiyadakı hökümət türklərin maariflənməsindən, yeni əsrin, yeni həyatın ehtiyacını anlamalarından ehtiyat edirdi. Buna görə hər cür hiylə və yollara əl atırdı. Bu xüsusda hökumətin ən möhkəmköməkçisi və ən nüfuzlu qulluqçusu, öz rəsmi rus məmurlarından artıq müsəlman ruhaniləri idi.

Halbuki din xadimləri bütün məqamlarda özlərini Allahu- Təalaya təslim etməklə, onun İlahi buyruqlarını doğru- dürüst camaat arasında təbliğ etməklə xalqının düşdüyü ağır vəziyyətinə görə ona dualar etməli, öz fəaliyyətlərində ona dəstək olmalı, onları müxtəlif yollarla sosial mühitin bütün çətinliklərinə sinə gərməyi, dözüb dayanmağı və gələcək azadlığı üçün ola biləcək çıxış yollarını göstərməli idilər. Onlar xalqını sevməli, ona yüksək dəyər verməli, özlərini ondan ayrıca tutmamalı, bütün ciddi çətinlikləri aşıb keçməkdə onun yanında olmalı idilər. Lakin yalnız çirkli, heyvani nəfslərini axtaran qara niyyətli, qaraürəkli belə ruhanilərin əksəriyyəti tutduqları mənsəbindən, mövqeyindən asılı olmayaraq, mənəviyyatı boş, hər cür əxlaqi dəyərlərdən məhrum olanlar idilər. XX əsr Azərbaycan demokratiuk fikri ülvi vətəndaşlıq mövqeyini ortaya qoymaqla, xalqa xidmətin bariz nümunəsi olmaqla yanaşı, nəhayət, aşkar şəkildə təşəbbüskarlıq göstərirdi, onları heç olmazsa, məhdud dairədə hərəkətə gətirmək məqsədilə bildirirdi ki, əgər sən əsl, həqiqi din xadimisənsə, "bəs hanı sənin vəzin? Bəs hanın sənin islama xidmətin? Bəs hanı sənin millətə ruhani köməyin? Bəs hansı sənin fəqir- füqarəyə inayətin? Bəs hanı sənin xəlqə əsərin?"(4,IIc,313).

XX əsrin gəlişi millətlərin qarşısında böyük fürsətlər açmış oldu. O günlərdə millətlər də belə qiymətli zamanda gərəkli fürsətlərdən istifadə etməyə çalışmalı oldular. Vətən, millət fədaisi olan hər bir şəxs bu yolda camaatın qayğısına qalaraq, onlar üçün xeyirli işlər görməyə çalışırdı. Belə bir gərəkli vaxtda təəccüblü görünən o idi ki, müsəlmanlar içərisində tərpəniş, hərəkət çox zəif nəzərə çarpırdı. Azərbaycan demokratik fikri millətsevərlik göstərərək, zamanəyə uyğun təəccübünü gizlədə bilmirdi ki, "hanı bu qədər müsəlman şəhərlərindən də bir xəbər, müsəlmanda da bir tərpəniş?..Qiyamətə qədərmi kor gəlib, kor gedəcəyiz? Qafil doğub, qafil öləcəyik? Boynumuzdakı bu ağır cəhalət zəncirlərini, qəflət yüklərini məhşərə qədərmi sürükləyib götürəcəyiz? Nə vaxt biz də zəmanəyə, təqazaya görə çalışacağız"(8,59). "Qardaş, gözün aç, bircə oyan, gör nə zəmandır"(10,64).

Yeni əsrdə, əksinə, ehtiyacı olub, lakin onunla ayaqlaşmayanları "zalım fələyin" gözləmədiyini qəflətdən, cəhalətdən baş qaldırmayıb, "çalışmayanları, öz millətinin dərdinə qalmayanları ayaqlar altında əzdirib geri"(8,61) buraxan XX əsr haqqında demokratik fikir sevinclə belə düşünürdü: "Əsrimiz özgə əsrdir...Biz də bu əsrdəyik, biz də dirilib, zamanın təqazasını, millətin bugünkü ehtiyacını, qonşu millətlərimizin səy və tərəqqi hallarını nəzəri– diqqətə alaq"(8,61-62). Odur ki, məzlum, sevgili millətinə üz tutan XX əsr Azərbaycan demokratik fikri onu ən uca, ən ülvi, ən müqəddəs şeylər xatirinə dərdlərinə çarə aramağa səsləyirdi: "Allah eşqinə, din naminə, millət xatirinə, övladi- ümmət adına bunca həqarətlər, təhəmmüllər bəsdir!..Bu qədər səbr və təhəmmül, bu qədər qəflət və cəhalət, bu qədər zillət və həqarət bəsdir"(8,60).
Bəsdir bu qədər qəflət ilə yatdın, əzizim,
Allahı sevərsən, bir ayıl, yatma, oyan, dur!(10,64).

Millətimizin, xalqımızın içərisinə təfriqə salınmışdı. Millət də bu parçalanmanın acılarını yaşamaqda idi. "Allah tərəfindən hər kəsin qəlbinə qoyulmuş bu azadlıq arzusu, əsrlərcə davam edən azadsızlıq əzabı millətin bir çox adamlarının qəlbində o qədər böyümüşdü ki,"(4,IIc,214). Bu arzunun hasilə gətirilməməsi üçün hökumət var qüvvə ilə millətimizi parçalayıb, zəif salmaq

məqsədini güdürdü. Millətin içərisində qəsdən hərc- mərclik, nizamsızlıq törədilirdi ki, hökumət üstün mövqelərini əhali üzərində qoruyub saxlaya bilsin. Rusiya hökuməti müsəlmanların içərisində belə bir təfriqə salmağı bacarmışdı. Rusiya hökuməti "ruhani qismi ilə bərabər iş gördü"(4,IIc,284) Ona görə ki, "biz Rusiya müsəlmanları, biz Qara dəniz sakinləri, biz qafqazlılar, yəni biz Qafqaz müsəlmanları, sözün doğrusu, nə hürriyyət qazanmışıq, nə də hökumət ilə güləşməyin təhrini bilirik"(4,IIc,305-306).

Ona görə də müstəmləkə işğallarında çox böyük təcrübələr əldə edən çar Rusiyası imperiya siyasətini işə salaraq, o qədər də zəhmət çəkmədən müsəlmanlar arasında, o cümlədən onun ərazisində yaşayan türk- müsəlman xalqları arasında islam dini daxilində təfriqə yarada bildi. O, əvvəlcə millətləri qəflətdə saxladı, maarifdən aralı tutdu, yəni "əvvəlcə bizim gözümüzü yumdu və ondan sonra başlayıb " şeyxülislam təyini, müfti nəsbi, "Ömər" şkolası güşadı, "Əli" şkolası təsisi, şiə zakonauçiteli, sünni zakonauçiteli təyini ilə bərabər, sair fəsadlar ilə bizim aramızda əvvəlcədən qazılmış şiə və sünni quyusunu daha gen və daha dərin bir qəri– nayab edib...rahət və arxayın olub oturdu " (4,IIc,285).

XX Azərbaycan demokratik fikri göstərirdi ki, millətin içərisində belə parçalanmanı salmaqla arxayınlığını təmin edən Rusiya müstəmləkə rejimi onu aradan qaldırmaq təşəbbüslərinə yerindəcə maneçilik törədərək, xalqı tabeliyindən buraxmaq istəmirdi. Belə ki, o vaxtlar ziyalılar aradakı ayrılıqları qaldırıb mədəniyyət cəbhəsində birləşdirmək, qardaşlaşmaq fikrinə düşdülər, lakin xalqın öz təşəbbüsləri ilə mədəniyyətcə yüksəlmək hərəkətini duyan hökumət sakit oturub xalqı özbaşına buraxmadı. Azərbaycan demokratik fikri o dövr üçün çox böyük istedad nümayiş etdirərək, belə bir həqiqəti ortaya qoydu ki, mollalar, "özünüz iqrar edirsiniz ki, camaat əvam və cahildir" (1,47), sizlər isə onları asanlıqla başa salıb, "zəmanəyə görə" insanların maddi və mənəvi xoşbəxt edəcəyi bir yolda müsəlmanlar xar və zəlil olmağa başladı, müsəlmanlar o qədər əxlaq cəhətinə tənəzzül ediblər, çünki sizlərin "bir ruhi- islamdan xəbəriniz yoxdur, şəriət və əsil islam ilə işiniz yoxdur"(6,47). Elə ona görə də sizlərin- ucbatındandır ki, bizim bugünkü əksər etiqadımız, bugünkü rəftarımız isə ədalətə müxalifdir. Həqiqəti- islamiyyətə ziddir. Belə müxalifətdə bir az dəvamımız milləti hər surətdə əsir və rəzil etməyə kifayətdir. "Bəs hanı sizin yazdığınız təsnifat və risail?"(1,47).

Qətiyyətlə bildirilirdi ki, millətimizin cahil, avam olmasının başlıca səbəbkarı yalnız cahilliklə, qafilliklə qarşılaşdıqları mollalardır. Onlar dinə, islama, millətə xidmət əvəzinə camaatı tərki- dünyalığa sövq edir, "uyma dünyaya, ey dili- qafil" əzbərçiliyi ilə hamını cahil saxlayırdılar, çünki özləri Allahu- Təalanın buyruqlarının, Qurani- Kərimin əvəzsiz elm xəzinəsinin mənalarını anlamaqda cahil olduqlarından söylədikləri və etdikləri də bu cahilliklərdən törəyib gəlirdi. Demokratik fikir sanki islamın dili ilə onları millətə tanıtdırırdı: "Sən bu iddiadasan ki, guya mənim xadimimsən. Amma həqiqət əmrdə heç bir düşmən, cani onu öz düşməninə etməyib ki, sən mənə etmisən və edirsən. Bu uzun zamanlarda sən məni hər anda odlara yaxıb batırmısan. Mənim canımı almısan" (1, 35).

## ƏDƏBİYYAT

1 . Ağaoğlu Əhməd bəy. Seçilmiş əsərləri. Ön sözün, izah və şərhlərin müəllifi Vilayət Quliyev. Bakı, Şərq-Qərb, 2007, 392 səh
2. Cavid Hüseyn. Əsərləri. Beş cilddə. I-V cildlər. (Tərtib edəni Turan Cavid, ön sözün müəllifi Yaşar Qarayev). Bakı, Lider, 2005
3. Qurani-Kərim. Tərcüməsi: Z.M.Bünyadovun və V.Məmmədəliyevin. Bakı, Azərbaycan, 1991
4. Hacıbəyli Üzeyir. Seçilmiş əsərləri. Iki cilddə, II cild. Tərtib edəni və lüğətin müəllifi Abdulla Abbasov. Bakı, Şərq-Qərb, 2005, 456 səh
5. Hadi Məhəmməd. Seçilmiş əsərləri (İzah və qeydlərin müəllifi Əziz Mirəhmədov). Bakı, Şərq-Qərb, 2005. 464 səh

6. Hüseynzadə Əli bəy. Seçilmiş əsərləri. Transliterasiya və tərtib edəni Ofelya Bayramlı. Bakı, Şərq- Qərb, 2007. 480səh
7. Məmmədquluzadə Cəlil. Əsərləri. Dörd cilddə (tərtib edəni, ön söz və izahların müəllifi İsa Həbibbəyli). Bakı, Öndər, 2004
8. Nemanzadə Ömər Faiq. Seçilmiş əsərləri. Tərtib edəni, ön sözün və izahların müəllifi Şamil Qurbanov. Bakı, Şərq-Qərb, 2006, 352 səh
9. Sabir Mirzə Ələkbər. Hophopnamə. İki cilddə (tərtib edəni, ön sözün, izahların və lüğətin müəllifi Məmməd Məmmədov). Bakı, Şərq- Qərb, 2004. 480 səh
10. Səhhət Abbas. Seçilmiş əsərləri. Tərtib edəni, ön söz və izahların müəllifi Kamal Talıbzadə). Bakı, Lider, 2005, 456 səh

**ABSTRACT**

**Bagir Babayev**

**The attitude to imams of Azerbaijan democratic idea in the beginning of XX century**.

Addressing Azerbaijan democratic ideas of the twentieth century as the problem is very urgent for nowadays, it was against separation of Islam and mentioned that, it was unacceptable. In this sense, it would cause trouble which this split briefly brought to the attention of the nation. Unfortunately, stone-hearted imams used their forces to separate Islam. In response, the XX century Azerbaijan democratic idea showing that even in a nation split into a Russian colony was providing its comfort. That spot and prevent initiatives to eliminate it, the people did not want to leave the jurisdiction.

Azerbaijan democratic idea demonstrated a great talent for the period and revealed all the enemies of the nation. It revealed the truth and firmly stated that such nation of ignorant, uneducated mullahs know that the main reason for their model. Instead of servicing people, they exposed people to ignorance and kept them ignorant. Because they did not understand Great God’s orders and the meanings of the Holy Koran irreplaceable treasure of knowledge. They are uneducated and they came upon the ignorance.

**РЕЗЮМЕ**

**Багир Бабаев**

**Отношение к религиозным деятелям в азербайджанской демократической мысли в начале XX века.**

Азербайджанский демократический мысль в начале XX века выступил против разделения ислама и отметил, что, это, как проблема очень актуальный в нашей времени, неприемлемо. В этом смысле, они подтверждали, что этот раскол на короткое время приведет для народа большие неприемлимые беды. Но к сожалению, религиозные деятели использовали все свои силы, направленные раскола ислама. А азербайджанский демократический мысль в начале XX века подтверждал, что Российский колониальный режим, в интересах своих корыстных целей, игнорировал раскол в стране среди народов тюрков- мусульманина. То есть, Российская империя консолидировал всех своих сил против сплощении- объединении тюркских народов, оставляло их под своей власти и поэтому обеспечивал комфорт мусульманских религиозным деятелям, как своего союзника в этом деле.

Азербайджанский демократический мысль продемонстрировала большой талант на этот период и показал- раскрывал всех врагов нации. Он откровенно и твердо заявил, что основной причиной невежественность и необразованность нации является религиозные деятели- муллы, которые народ считал их своим примером. Но вместо того, чтобы обслуживать людей, они держали людей невежества. Потому что они были необразованны, не понимали приказы Всевыщнего Аллаха и смыслов Священного Корана, незаменимого сокровища знаний.

NDU-nun Elmi Şurasının 30 mart 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *Hüquq üzrə fəlsəfə doktoru, dosent* Y.Hüseynov

**АНАР ЯЛИЙЕВ**
*Азярбайсан Дювлят Игтисад Университети*

**UOT:323**

# ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI ƏRAZİ İDDİALARI: ETNOSİYASI, MÜNAQİŞƏLƏR VƏ ATЯТ

**Açar sözlər:** *Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi, etnosiyasi münaqişələr, ATƏT*

**Keywords**: *problem of Armenia-Azerbaijan, Nagorny Karabak, of the etno conflicts, OSCE*

**Ключевые слова:** *Армяно-Азербайджанской, Нагорно-Карабахской проблемы, ОБСЕ, этнополитических конфликт*

Мцстягил Азярбайсан Республикасынын хариси сийасяти вя бейнялхалг мцнасибятляр сащясиндя фяалиййяти халгымызын цмуммилли вя мцстягил дювлятчилик мянафеляри нязяря алынмагла дцнйа реаллыгларына, бейнялхалг щцгуг нормаларына уйьун гурулмагда давам едир. Бу сийасятин ясасыны сцлщсевярлик, динс йанашы йашамаг, башга дювлятлярин дахили ишляриня гарышмамаг, гаршылыглы файдалы ямякдашлыг тяшкил едир.

Bir sıra бейнялхалг вя мящялли тяшкилатлар дювлятлярарасы мцбащисяли мясялляри, мцнагишяли щаллары динс васитялярля низамламаг вя щялл етмяк цчцн конкрет механизмляря малик олур. Онлар ейни заманда цзв юлкялярин суверенлийинин горунмасы вя мцстягиллийинин мющкямляндирилмясинин дя тяминатчысы кими чыхыш едирляр. Бейнялхалг истимаи ряйи дцзэцн формалашдырмаг вя истигамятляндирмяк бахымындан да бу тяшкилатларын ящямиййяти чох бюйцкдцр. Щелсинки мцшавирясиндян кечян bu müddət ərzində АТЯТ (АТЯМ) юз тяркибини Албанийа, кечмиш ССРИ вя Йугославийа республикалары щесабына 35-дян 54-я чатдырыб. Щазырда АТЯТ-ин тяшкилати структуру Конфликтлярин щялли Мяркязиндян, Инсан щцгуглары вя Демократик Сечки Институту идарясiндян вя Катибликдян ибарятдир. АТЯТ юз фялалиййятини, щямчинин она мяхсус 3 сийаси орган васитясиля щяйата кечирир. Бунлар АТЯТ-ин Назирляр Советиндян (цзв юлкяляринин хариси iшляр nазирляриндян ибарят), Али Дювлят Рящбярляри Комитясиндян вя юз эюрцшлярини мцтямади кечирян сийаси лидерлярин Саммитиндян ибарятдир. 1992-си илdə АТЯТ-ин тяркибиндя даща ики орган – Милли Азлыгларын иши цзря Али Комисарлыг, сцлщц горумаг, АТЯТ-ин миссийа вя ямялиййатларына нязарят, башга реэионал тяшкилатларла ямякдашлыг цзря Катиблик йарадылды. АТЯТ-ин ейни заманда Парламент Ассамблейасы вя онун бцтцн ишляриня рящбярлик едян сядри дя мювсуддур.

Азярбайсан 1992-си илин 30 йанварында бу гурумун цзвц гябул едилиб вя щямин илин ийул айынын 10-да онун сянядлярини имзалайыб. АТЯТ-ин Азярбайсан цчцн щазырки дюврдя ян ящямийятли вя васиб структуру 1992-си iлин мартында йарадылмыш Минск Qрупудур. Бу Qрупun ясас вязифяси Ермянистан – Азярбайсан конфликтини низама салмаг вя Даьлыг Гарабаь проблемини динс васитялярля щялл етмяк цчцн мцвафиг сяняд щазырламаг вя хцсуси Минск Конфрансы чаьырмагла бу конфликти бирдяфялик арадан галдырмаqдыр. Групун тяркибиня 11 дювлят – Алманийа, АБШ, Франса, Италийа, Исвеч, Чехийа, Тцркийя, Беларус, Русийа, Азярбайсан вя Ермянистан дахилдир. Онун щямсядрлик функсийасы 1994-сц илин декабрындан ики дювлятин – Русийа вя Финландийанын, 1997-си илдян исe цч – Русийа, АБШ вя Франсанын нцмайяндяси тяряфиндян щяйата кечирилир. 1992-си илин март айында АТЯТ-ин Хариси Ишляр Назирляри Шурасы Марио Рафаеллийя

Даьлыг Гарабаьла баьлы эюрцш кечирмяк вя мясяляни щялл етмяк барядя мандат вермишдир. М.Рафаелли юз фяалиййятиня уйьун олараг Минск Qрупуна дахил олан 11 дювлятин Рома эюрцшцнц тяшкил етди. Лакин демяк олар ки, бу эюрцшлярин яслиндя мцнагишянин мащиййяти щаггында щеч бир нятисяси олмамышдыр. Ермянистан silahlı qüvvələrinin Шуша вя Лачины ишьал етмяси 1992-си ил май айынын 21-дя Щелсинкидя АТЯТ-ин рясми шяхсляринин кечирдикляри эюрцшдя Тцркийя, Азярбайсан, Ермянистан, АБШ нцмайяндя щейятинин бяйанатлары сяслянмишдир.

1993-сц ил декабрын яввялляриндя Азярбайсан хариси iшляр назири Щ.Щясянов АТЯТ-ин Назирляр Шурасынын Ромада кечирилян исласында иштирак edərək, Ермянистанын Азярбайсана щярби тясавцзц вя онун нятисяляри щаггында мярузя etmişdir.[3]

Азярбайсан нцмайяндя щейяти 1994-сц илин ийулунда АТЯТ-ин Парламентлярарасы Ассамблейасынын Вйана сессийасында фяал иштирак етмишдир. Сессийада АТЯТ-ин Минск Qрупунун рящбяри Йан Elиассонун Даьлыг Гарабаь ятрафында эедян мцнагишядя сцлщ просесинин тяряггиси мювзусунда чыхышы хцсуси разылыгла гаршыланды. Сессисйада илк дяфя Йан Елиассонун дилиндян «Азярбайсанын ишьал едилмиш торпаглары» ифадяси ишлянмишдир.

Азярбайсан дипломатийасынын фяал сяйляри, мцнтязям тяблиьат вя изащat ишляри нятисясиндя 1993-сц илин йайындан кечян бир вахтда апарысы дцнйа дювлятляринин, онларын айыр-айры нцфузлу шяхсляринин мювгеляриндя, проблемя йанашмасында ясаслы дяйишикликляр баш верди. Америкалı конгресмен Ъозеф Кеннеди 1994-сц илин августунда Аь Евя цмрасият едяряк, Русийа вя АТЯМ-ин (АТƏТ) иряли сцрдцкляри чох цмидвериси тяклифляри Даьлыг Гарабаь ятрафында бющранлы вязиййяти арадан галдырмаьын реал йолу адландырмышды. Щямин тяклифлярдя атяшин щямишялик дайандырылмасы, вурушан тяряфлярин гцввяляринин аралашдырылмасы, дюйцшлярин эедишиндя гясб олунмуш яразилярин гайтарылмасы, щяр сцр блокададан имтина едилмяси вя mönaqişə районунun сийаси статусу щаггында данышыглар апарılмасы нязярдя тутулурду. Ъ.Кеннединин фикринся, Вашингтон Даьлыг Гарабаьда сцлщуаратма гцввяляринин йерляшдирилмясиня наил олмалыдыр. Бу гцввяляр тякся Русийа гошунларындан дейил, щям дя диэяр юлкялярин гошун щиссяляриндян тяшкил олунмалыдыр.[1]

Даьлыг Гарабаь проблеминин щяллиндя БМТ иля АТЯМ-ин (АТƏТ) сяйляринин ялагяляндирилмясиндя, бир сыра принсипиал мясяляляря айдынлыг эятирилмясiндя БМТ-нин о заманкы Баш Катиби Б.Бутрос-Галинин Азярбайсана сяфяри мцщцм рол ойнады. Бутрос-Гали иля эюрцшцндя ölkə rəhbəri Щеydər Ялийев билдирди ки, Азябайсан тяряфи Минск Qрупу иля, АТЯМ (АТƏТ) тяшкилаты иля даим ямякдашлыг едир вя Минск Qрупунун бу сащядя сидди фяалиййят эюстярмяси цчцн биз юз тяряфимиздян бу шяраити йаратмаьа чалышмышыг. Щейдяр Ялийев ону да гейд етди ки, юз йерляриня гайыда билян гачгынларын щамысы doğma yurdlarına гайытмалыдыр. Азярбайсан вятяндашларынын щамысынын тящлцкясизлийи тямин олунмалыдыр. Даьлыг Гарабаьда олан демографик мянзяря бярпа олунмалыдыр.

Беляликля, бир вахтлар Авропанын бу вя йа диэяр глобал проблемляри иля баьлы дювлятлярарасы мяслящятляшмя форуму щесаб олунан АТЯМ, дцнйанын сийаси вя тящлцкясизлик системиндя мцщцм рол ойнайан, йени Авропада сивил бирэяйашайыш гайдаларыны мцяййян едян, цмумавропа тящлцкясизлийи иля бцтцн дцнйада сцлщцн вя бейнялхалг тящлцкясизлийин горунмасы арасында гаршылыглы ялагя йарада биляэяк бир тяшкилата (АТЯТ) чеврилди.

Будапешт саммитиндя илк дяфя олараг, Даьлыг Гарабаь проблеми хцсуси бир мясяля кими эцндялийя салынды вя мцзакиря олунду. Даьлыг Гарабаь проблеми ятрафында мцзаикрялярдя дцнйанын апарысы дювлят башчылары вя сийаси хадимляри Б.Клинтон, Б.Бутрос-Гали, Т.Чилляр вя б. чыхыш етдиляр. Б.Клинтон юз чыхышында демишди ки, АТЯМ (АТƏТ) Даьлыг Гарабаьа сцлщмярамлы чохмилли гцввяляр эюндярмяк барядя

---

[3] «Азярбайжан» гязети. 03.12.1993.

[2] «Азярбайжан» гязети, 16.08.1994.

разылыьа эялмяк йолундадыр. О, беля бир сящяти хцсуси вурьуламышды ки, мцнагишя зонасында атяшин етибарлы бир шяиклдя дайандырылмасыны тямин етмяк цчцн щяр шейи етмяк лазымдыр.

Азярбайсан Президенти Щейдяр Ялийев АБШ-ын Азярбайсандакы сяфири Р.Козларичля эюрцшцндя Будапешт саммитинин ящямиййятини беля гиймятляндирмишди: «Индики зирвя топлантысы яввялки эюрцшлярдян даща йцксяк сявиййядя кечмишдир. АТЯМ-ин фяалиййяти дюврцндя, хцсусян 1992-си илин мартында Минск Qрупу йарадыландан индийя гядяр олан дюврдя бу тяшкилатын Азярбайсан цчцн ящямиййятли эюрцшц кечирилмямишди. Ермянистан-Азярбайсан мцнагишясиня сон гойулмасы цчцн Будапешт топлантысында хцсуси гятнамянин гябул едилмяси вя АТЯМ-ин бейнялхалг сцлщц мцщафизя гцввяляринин йарадылмасы барядя гярар бизим цчöн чох ящямийятлидир»[1].

Азярбайсан мцстягил дювлят статусу алдыгдан вя АТЯТ-я цзв олдугдан сонра бу гурумун бир нечя саммити кечирилмишдир. Биринси саммит 1992-си илдя Щелсинкидя олмушдур. Щямин вахт Даьлыг Гарабаь мясялясинин Азярбайсанын ян кяскин проблеми олмасына вя Ермянистанын республикамыза гаршы щярби тясавцзцнцн тцьйан етмясиня бахмайараг, саммитдя иштирак едян Азярбайсан рящбярлийи вя нцмайяндя щейяти бу мясялянин няинки ямяли мцзакирясини ачмаьа, щятта онун эцндялийя беля салынмасына наил ола билмямишдиляр. АТЯТ-ин Щелсинки саммитинин щеч бир сянядиндя Ермянистан-Азярбайъан мцнагишяси вя Даьлыг Гарабаь пробеми щаггында бир кялмя сюзя раст эялинмир. Даща доьрусу сянядлярдя бу мясялялярин щямин саммитдя мцзакиря олунуб-олунмамасы щаггында щеч бир мялумат якс олумайыб.

Лиссабон саммити Авропанын 52 дювлятинин, АБШ вя Канаданын, щабеля мцшащидячи сифяти иля иштирак едян 10 Асийа вя Африка дювлят башчыларынын иштирак етдийи бирэя форум иди. Декабр айынын 2 вя 3-дя бцтцн дцнйаны идаря едян 64 дювлятин рящбярляри планетимизин ХХ ясри щансы вязиййятдя баша вурмасы, бейнялхалг, реэионал вя дювлятлярарасы мцнасибятлярин эялясяк перспективляри, Авропада сивилизасийалы бирэяйашайыш вя гаршылыглы тящлцкясизлийиn ясас тенденсийалары вя перспективляри, ямякдашлыг, конфликлярин щялли вя саир иля баьлы юз дювлятляринин мювгейини вя тяклифлярини ачыгладылар.

АТЯТ цзвц олан дювлятляр Азярбайсанын ярази бцтювлцйцнцн позулмазлыьыны, Ермянистанын бейнялхалг принсипляря зидд ишьалчылыг сийасяти йеритмясини бир даща имзалары иля тясдиглямякля, Азярбайсана юз торпагларыны азад етмяк цчцн бцтцн васитялярдян истифадя етмяк щцгугу вердиклярини бяйан етдиляр.

Беляликля, АТЯТ-ин 54 дювлят башчысынын иштирак етдийи Лиссабон зирвя топлантысы цмумдцнйа вя цмумавропа мясяляляринин стратеъи, перспектив инкишаф тенденсийаларыны айдынлашдырмагла вя мцяйянляшдирмякля бярабяр, илк дяфя олараг Гафгазда эедян просеслярин, хцсусян Ермянистан-Азярбайсан мцнагишясинин вя Даьлыг Гарабаь проблеминин дя мащиййятинин, цмуми вя хцсуси сящятлярини, щялли йолларынын щцгуги-сийаси чярчивясини ачыглады.

Лиссабон зирвя топлантысынын йекун бяйаннамясинин вя ейни рущда тяртиб олунмуш АТЯТ сядринин Даьлыг Гарабаь мцнагишяси щаггында бяйанатынын гябул олунмасы Авропа Тящлцкясизлийи вя ямякдашлыьы нюгтейи-нязяриндян мцщцм ящямиййятя малик иди. АТЯТ сядринин чыхышында дейилдийи кими, «Лиссабонда еля бир просеся тяшяббцс эюстярилмишдир ки, бу просес Авропа Тящлцкясизлийи Хартийасыны АТЯТ чярчивясинdя ишляйиб щазырламаьа эятириб чыхарасаг вя Авропа тящлцкясизлийи моделинин ясасыны тяшкил едясякдир».[1]

Сон олараг гейд етмяйи лазым билирик ки, Ermənistan-Azərbaycan, Даьлыг Гарабаь мцнагишясинин щялл едилмясиндя вя Азярбайсан Республикасынын ярази бцтювлцйц мясялясiндя тярягги ялдя олунмайыб. Тяяссцф едирям ки, мясялянин щялли принсипляриня

[1]«Халг» гязети, 27.11.1994

[1] «Халг» гязети, 07.12.1996.

даир тяряфлярин фикирлярини бир-бириня йахынлашдырмаг цчцн едилян мцхтялиф сяйляр уьурсуз олуб. Даьлыг Гарабаь мцнагишясинин щяллинин бир щиссясини тяшкил етмяли олан цч принсип Минск Qрупунун щямсядляри тяряфиндян тювсийя едилиб. Щямин принсипляр Минск групунун цзвц олан бцтцн дювлятляр тяряфиндян дястяклянир. Онлар ашаьыдакылардыр:

1. Ермянистан Республикасынын вя Азярбайсан Республикасынын ярази бцтювлцйц;
2. Азярбайсанын тяркибиндя Даьлыг Гарабаьа юз мцгяддяратыны тяйин етмяйя ясасланан бир разылашмада мцяййян едилян, Даьлыг Гарабаь цчцн ян йцксяк юзцнц идаряетмя дярясясинин щцгуги статусу;
3. Мясялянин щяллинин мцддяаларына ямял олунмасыны тямин етмяк барядя бцтцн тяряфлярин гаршылыглы ющдяликляри дахил олмагла Даьлыг Гарабаьын вя онун бцтцн ящалисинин тящлцкясизлийиня тяминат.

Щесаб едирям ки, щяр ики мцнагишя едян тяряф – Азярбайсан вя Ермянистан цчцн йухарыда садаланан вариант ян оптимал чыхыш йолу кими гябул олунмалыдыр.

Qarabaь konflиktи Иstanbul sammиtиnиn dя (1999) mюvzusu olmuшdur. 1999-cu иl noyabrын 19-da ABШ prezиdentи Bиll Klиntonla konstruktиv dиplomatиk sюhbяtиndя Нейдяр Əlиyev Amerиka-Azяrbaycan dиaloqunun bundan sonra da davam edяcяyиnя цmиd etdиyиnи bиldиrmиш, hяr иkи dюvlяtи narahat edяn Daьlыq Qarabaь konflиktиnиn sцlh dиplomatиyasы sayяsиndя tezlиklя aradan qaldыrыlmasы иlя baьlы faydalы tяklиflяrи mцzakиrя etmишdиr. Prezиdent Heydər Яlиyev bиr daha яmиn olduьunu sюylяmишdиr kи, Ermяnиstan-Azяrbaycan konflиktиnиn sцlh yolu иlя hяllиndя АТЯТ-иn rolu xцsusи olmalыdыr. Нямиn mяsяlяdя tяrяflяrиn fиkиrlяrиnиn цst-цstя dцшdцyцnц bиldиrяn ABШ prezиdentи qeyd etmишdиr kи, Amerиka tяrяfи АТЯТ-иn fяalиyyяtиnи иntensиvlяшdиrmяk цчцn юz sяylяrиnи яsиrgяmяyяcяkdиr. Иstanbul zиrvя gюrцшцndя иштиrak edяn M.Olbraytla sюhbяtlяrdя dя Qarabaь konflиktи cиddи mцzakиrя obyektи olmuшdur.

Цmumиyyяtlя, Kи-Uest gюrцшlяrиndяn яvvяl Mиllи Mяclиsdя keчиrиlяn mцzakиrяlяr Prezиdent Heydяr Яlиyevиn onиllиklяrиn sынaьыndan чыхmыш dюvlяt иdarяetmя prиnsиplяrиnя uyьun olaraq, hяmиn taleyцklц mяsяlя haqqыnda xalqla, onun elчиlяrиlя mяslяhяtlяшmяsи, genиш иctиmaиyyяtиn rяyиnиn юyrяnиlmяsи kиmи qиymяtlяndиrиlmяlиdиr.

Bu иkиgцnlцk mцzakиrяlяrdяn sonrakы dюvrdя Mиllи Mяclиsя 131 tяklиf daxиl olmuшdur. Bunlardan 8 tяklиfи deputatlar, 13 tяklиfи sиyasи partиyalar, 4 tяklиfи qeyrи-hюkumяt tяшkиlatlarы, 96 tяklиfи иsя иctиmaиyyяtиn nцmayяndяlяrи tяqdиm etmишlяr. Цmumиyyяtlя, Mиllи Mяclиsя vя Prezиdent Aparatыna 204 tяklиf verиlmишdиr.

Qeyd edяk kи, ABШ-ын Florиda шtatыnыn Kи-Uest шяhяrиndя иkи юlkя prezиdentи yenи formatda gюrцшmцшlяr. Nяzяrdя tutulduьu kиmи prezиdentlяr H.Яlиyev vя R.Koчaryan tяkbяtяk danышыqlar aparmaqla kиfayяtlяnmяyяrяk, hяmчиnиn, АТЯТ-иn hяmsяdrlяrи иlя ayrыca gюrцшlяr keчиrmишlяr, Gюrцшlяr яrяfяsиndя hяtta mяtbuata sыzan mяlumata gюrя, ABШ-ын dюvlяt katиbи Colиn Pauell tяrяflяrя юzцnцn hяlяlиk aчыqlamaq иstяmяdиyи "praqmatиk tяklиflяrиnи" иrяlи sцrmяk fиkrиndя иdи. Юlkя prezиdentиnиn jurnalиstlяrя яyan etdиyи kиmи prezиdentlяr arasыnda razыlыьыn яldя edиlmяsи yalnыz bиrиncи mяrhяlяdиr. Bundan sonra ekspertlяrиn gюrцшlяrи, mцqavиlяlяrиn hazыrlanmasы mяrhяlяsиdиr. Həm dя hяmиn mцqavиlяlяrи konflиkt иштиrakчыlarыndan baшqa Mиnsk Qrupuna, BMT-yя, Avropa Шurasыna daxиl olan юlkяlяrиn nцmayяndяlяrи dя иmzalamalыdыrlar. Нямиn яrяfdя ABШ Dюvlяt Departamentи verdиyи bяyanatыnda иctиmaиyyяtи иnandыrmaьa чalышыrdы kи, hazыrda razыlыьa gяlmяk цчцn real иmkanlar mюvcuddur. Buna gюrя dя konflиkt tяrяflяrи buna maksиmum səy gюstяrmяlиdиrlяr. "Azadlыq" radиosunun (rus redaksиyasы) verdиyи mяlumata gюrя "ABШ-da hesab edиrlяr kи, яks halda hяrbи яmяlиyyatlar bяrpa oluna bиlяr". Maraqlыdыr kи, son vaxtlara kиmи Qarabaь konflиktи иlя baьlы sяnяdlяrdя чoxdan иdи kи, bu cцr иfadяlяr ишlяdиlmиrdи vя bu bиr daha gюstяrиr kи, okeanыn o tayыnda Сяnubи Qafqaz regиonunda mцharиbяnиn bяrpa olunmasы ehtиmalыna cиddи yanaшыrlar.

**ЯДЯБИЙЙАТ**

1. «Азярбайжан» гязети. 03.12.1993
2. «Азярбайжан» гязети, 16.08.1994
3. «Халг» гязети, 27.11.1994
4. «Халг» гязети, 07.12.1996
5. АТЯТ-ин иллик бцллетенляри. Бакı, 1992
6. Абдуллайев В. Азярбайъан йени дипломатийа мяканында. Бакы, Нурлан, 2000
7. Исмайылов Ф. Гарабаь конфликти АБШ-ын глобал сийасяти контекстиндя. Бакы, 2001

**ABSTRACT**

**Алийев Анар**

The Nagorny Kharabah conflict was discussed in OSCE for several times. But Armenian didn't pay attention to the standards of international law. This article assumes importance in investigating this problem. There is different approaches to typology of the etno of the international conflicts in the scientific literature. There is different Q.Lapidus, U.Yuri, Y.Etinger approaches to typology of the etno of the international conflicts in the scientific literature. Different etno of the international experiment of regulation of the conflicts is investigated in this season and applied opportunities of ways of solution of these conflicts are turned to solution of the problem of Armenia-Azerbaijan, Nagorny Karabak hto discussion object.

**РЕЗЮМЕ**

**Алиев Анар**

Нагорный Карабах конфликт была обсуждена в ОБСЕ в течение нескольких раз. Но армянин не обращал внимание на стандарты международного права. Эта статья принимает важность в исследовании этой проблемы. В научной литературе существуют различные подходы к типологии этнополитических конфликтов. Например, Г.Лапидус, У.Юри, Я.Етингер предоставили различные типологии этнополитических конфликтов. В данной статье исследуется опыт регулирования различных этнополитических конфликтов, и пути решения этих конфликтов превращаются в объект обсуждения применения возможностей к решению Армяно-Азербайджанской, Нагорно-Карабахской проблемы.

NDU-nun Elmi Şurasının 30 mart 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *Hüquq üzrə fəlsəfə doktoru, dosent* Y.Hüseynov

**SƏBİNƏ QARAŞOVA**
*Bakı Dövlət Universiteti*

**UOT:327;930.22**

## ABŞ-IN XARİCİ SİYASƏT STRATEGİYASININ KONSEPTUAL ƏSASLARI

**Açar sözlər:** *ABŞ, strategiya, xarici siyasət, beynəlxalq münasibətlər, qloballaşma, liderlik*
**Keywords:** *USA, strategy, foreign policy, international relations, globalization, leadership*
**Ключевые слова:** *США, стратегия, внешняя политика, международные отношения, глобализация, лидерство*

SSRİ-nin simasınada əsas rəqibin sıradan çıxmasından sonra ABŞ təkqütblü dünya sisteminin liderlik təşəbbüsünü davamlı olaraq əldə saxlamaq üçün xarici siyasi strategiyasında ciddi korrektələr etməli idi. Ümumilikdə qeyd etmək olar ki, ABŞ-ın xarici siyasi kursunda müəyyən kosmetik dəyişikliklər baş versə də, əsas xəttə sadiqlik müşahidə olunurdu. Bəzi dəyişikləri isə yeni aktorların meydana gəlməsi və onların beynəlxalq münasibətlər sistemində müəyyən fəallıq nümayiş etdirmələri zəruri etmişdir. ABŞ məhz yeni meydana çıxmış aktorlara yönələn xarici siyasi strategiyasında yeni istiqamətlər müəyyən etmişdir. Bu istiqamətlər birbaşa olaraq yeni aktorlara münasibətdə fəaliyyət taktikasını və geosiyasi hədəflərin vurulmasında onlardan maksimum səmərəli faydalanmaq elementlərini özündə ehtiva edirdi.

Sirr deyil ki, qloballaşma müasir dünya inkişafının başlıca siyasi dominantı rolunda çıxış etməkdədir. Dünya dövlətləri özlərinin xarici siyasi strategiyalarını müəyyənləşdirərkən və həyata keçirərkən qloballaşma amilini diqqətdən kənarda qoya bilmirlər. Ölkələr arasında iqtisadi əlaqələr şəbəkəsi genişlənməklə qloballaşma bir növ imperializm siyasətinin yeni və kifayət qədər səmərəli bir aləti rolunda çıxış etməyə başlamışdır. Qloballaşma prosesinin diqqəti cəlb edən məqamlarından biri də ondan ibarət olmuşdur ki, o, dünyanın bütün regionlarını eyni səviyyədə əhatə etməmişdir və bu hal bu gün də müşahidə olunmaqdadır. Qloballaşma prosesi dünyanın bu və ya digər regionlarını müxtəlif səviyyədə əhatə etmişdir.

Müasir dünyada cərayan edən proseslərə nəzər salsaq şahidi olarıq ki, qloballaşma bir sıra regionları mərkəzə qoymaqla, digərilərini kənara sıxışdırmışdır. [5, 8] Maraqlı məqam isə ondan ibarətdir ki, dünyanın əsas gücünün maraq dairəsinə daha yaxın olan regionlar məhz mərkəzdə qərarlaşmışlar. Belə bir vəziyyət təbii ki, dünyanın ayrı-ayrı regionları arasında müəyyən ziddiyyətlərə yol açmışdır. Ümumiyyətlə qeyd etmək olar ki, qloballaşma prosesi birmənalı olmamışdır. Artıq qeyd etdiyimiz kimi, dünyanın əksər regionlarını müxtəlif səviyyələrdə əhatə etməsi qloballaşmanın qeyri-bərabər, vahid xəttə malik olmayan bir proses kimi nəzərdən keçirilməsi üçün ciddi əsasdır. Bu cür xüsusiyyətləri özündə daşımaqla qloballaşma dünyada ahəng pozğunluğunun və sivilizasiyanın yeni çağrışlarının meydana gəlməsini şərtləndirmişdir.[6, 76-84]

Ümumiyyətlə, müasir mərhələdə ABŞ xarici siyasət strategiyasının xüsusiyyətlərini dəqiq müəyyən etmək və təhlillər aparmaq üçün bu dövlətin tarixən xarici siyasi fəaliyyətində diqqət mərkəzində saxladığı məqamlara nəzər yetirmək məqsədəuyğun olardı. Xüsusi olaraq qeyd etmək lazımdır ki, bu məqamlar elə ABŞ-ın yaranması ilə eyni vaxta təsadüf etmişdir. Hətta, onların kökünün bir az əvvələ gedib çıxdığını güman etmək üçün əsaslar da vardır. Belə ki, İngiltərənin Şimali Amerika ərazisində 1686-1689-cu illərdə mövcud olmuş “Yeni İngiltərə” adlı koloniyasının qanunverici məclisi bir sıra qətnamələr qəbul etmişdir ki, onların da mahiyyətinin əsasən üç tezisə söykəndiyini müəyyən etmək mümkündür:[2, 165]

-torpaq və onun üzərində olan hər bir şey Allaha məxsusdur;

- Allah torpağı və ya onun müəyyən bir hissəsini seçilmiş xalqa verə bilər;

-Biz seçilmiş xalqıq.

Yuxarıda qeyd etdiklərimiz bir daha ondan xəbər verir ki, Amerikanın seçilmiş olması, digər xalqların məhz onun arxasınca getməli olmaları haqqında yer tutmuş dini-messianist yanaşma kifayət qədər tarixə malikdir. Bu yanaşma bu gün də ABŞ xarici siyasətinin əsas ideya mənbəyi rolunda çıxış etməkdədir. Məhz bu ideyaya istinad edərək Şimali Amerikada respublika yaradıcıları ABŞ-ın, hazırda da tam aktuallığını saxlayan strateji xarici və hərbi prinsiplərini müəyyənləşdirmişlər. Bu prinsiplərin işlənib hazırlanmasında və oturuşmasında Tomas Ceffersonun, Corc Vaşinqtonun və Aleksandr Hamiltonun xüsusi töhfəsi olmuşdur.[4, 7]

Birinci prinsipə əsasən xarici siyasi mübahisələrin tənzimlənməsinin əsas və həlledici vasitəsi rolunda hərbi güc çıxış edir. Bu prinsipin əsas tərəfdarı olan C. Vaşinqton hesab edirdi ki, ABŞ-ın milli təhlükəsizliyi naminə hərbi gücdən istifadə etmək zəruridir. Bu fikirlərini silahdaşları da birmənalı olaraq dəstəkləyirdilər.[3, 19] ABŞ-ın sonrakı tarixinə nəzər salsaq əmin olarıq olarıq ki, bu prinsipə kifayət qədər həssaslıqla yanaşılmışdır. Belə ki, ABŞ, bu postulatı rəhbər tutaraq təkcə XIX yüzillik boyu 114 müharibədə iştirak etmişdir.[13, 68] Qeyd edək ki, bu müharibələrin böyük əksəriyyəti ABŞ üçün real nəticələrlə sona çatmışdır. Məsələn, 1846-1848-ci illərdə Meksika ilə apardığı müharibə ABŞ tərəfindən Meksika torpaqlarının 2/3-nin anneksiyası ilə nəticələnmişdir.[3, 21] XX əsrdə də ABŞ-ın hərbi tarixi kifayət qədər zəngin olmuşdur. 1890-2001-ci illər arasında ABŞ 134 dəfə hərbi müdaxilə həyata keçirilmişdir.[11, 47] Bütün bu faktlar ondan xəbər verir ki, amerikalıları heç də sülhsevər xalq adlandırmaq olmaz.

İkinci prinsip də ABŞ-ın xarici siyasi fəaliyyətinin əsaslandırılmasında mühüm amil kimi qəbul olunur. Bu prinsipin mahiyyəti ABŞ “mədəni eqoizmindədir”. Yəni, ABŞ öz maraqlarının əsaslandırmağı bacarmalıdır və həmçinin, bu maraqların təmin olunması naminə atdığı addımların beynəlxalq ictimaiyyət tərəfindən qəbul olunmasına nail olmalıdır. Qeyd edək ki, bu prinsipin əsas müddəaları Aleksandr Hamiltonun 1790-cı ilin sentyabrında Corc Vaşinqtona yazdığı tarixi məktubda ifadə edilmişdir. A.Hamiltonun C. Vaşinqtona yazdığı məktubda qeyd edilirdi ki, dünyanın bütün dövlətləri özlərinin xarici siyasətlərində eqoist maraqlarını rəhbər tuturlar. Bu reallıqdan nəticə çıxararaq, minnətdarlıq, sədaqətlilik, loyallıq kimi hisslərin ABŞ-ın xarici siyasətinə hər hansı bir formada təsir etməsinə imkan vermək olmaz. Yəni, A. Hamilton bununla qeyd etmək istəyirdi ki, ABŞ özünü heç bir halda kiməsə borclu bilməməlidir və hər hansı bir səbəbdən maraqlarından imtina etməməlidir. A. Hamilton qeyd edirdi ki, siyasət hisslərə əsaslanmamalıdır. Siyasət mövhumatdan tam azad xeyrə, səmərəyə əsaslanmalıdır. Bununla, ABŞ beynəlxalq arenada öz fəaliyyətinə tam sərbəstlik verməlidir, hər hansı bir hissdən çıxış edərək bu sərbəstliyini məhdudlaşdırmamalıdır.[3, 27]

ABŞ özünün xarici siyasətində ən çox gözlədiyi üçüncü mühüm prinsip ondan ibarətdir ki, o, ozünün müstəsna dövlət olduğunu daim önə çəkir. ABŞ dünyaya təlin edir ki, tanrı tərəfindən ona azadlıq və demokratiyanın yer üzündə yaymaq missiyası həvalə olunmuşdur. Dünya xalqlarına, özlərinin inkişaf yolunu müəyyən etməkdə kömək etmək Amerikanın müqəddəs borcudur. Digər prinsiplərlə yanaşı, bu prinsip də ABŞ-ın yarandığı vaxtdan müasir dövrümüzədək yüksək aktuallığını saxlamaqdadır.[1, 19]

Yuxarıda qeyd etdiyimiz prinsiplər, ABŞ-ın xarici siyasi fəaliyyətində özünü aşkar biruzə verən dördüncü prinsipi doğurur. Bu prinsipə görə, ekspansiya dünyanın demokratikləşdirilməsinin qanuni və mənəvi cəhətdən əsaslandırılmış vasitəsidir. Dünya tarixi qeyd etməyə əsas verir ki, ABŞ özünün xarici siyasətində dördüncü prinsipə kifayət qədər "sədaqətlilik" nümayiş etdirir. Bunu olduqca sadə bir faktla isbat etmək mümkündür. Belə ki, ABŞ konstitusiyasının qəbul olunmasından sonrakı iki əsr ərzində onun ərazisi dörd dəfədən artıq böyümüşdür. XX əsrin ikinci yarısında ABŞ-ın müdaxilə coğrafiyası daha intensiv genişlənməyə başlamışdır.[11, 71-80] Təkcə son dövrlərdə ABŞ-ın Balkanlara, Şərqi Avropaya, İraqa və Əfqanıstana hərbi müdaxilələrini xatırlamaq kifayətdir. Deməli, ABŞ özünün qarşısına qoyduğu "ali hədəfi" olan dünyanın hər bir nöqtəsində şəriksiz söz sahibinə çevrilmək məqsədinə çatmaq istiqamətində yarandığı bir gündən müəyyənləşdirilmiş strateji prinsiplərə söykənir. Yəni, özünün hansı şəkildə təqdim etməsinə baxmayaraq, ABŞ dünya hegemonluğuna can atır. Bunu respublikanın əsasını qoyanlar da sərbəst ifadə edirdilər. Məsələn, 1783-cü ildə C. Vaşinqton yeni yaranmış respublikanı "yüksələn imperiya" adlandırmışdır.[2, 159] Yaxud da, Corc Vaşinqtonun şəxsi katibi və ABŞ-ın ilk maliyyə naziri olmuş Aleksandr Hamilton 1795-ci ildə güclü və zəif dövlətlər haqqında mülahizələr irəli sürərkən ABŞ-ı zəif dövlətlət kateqoriyasına aid etmişdir. Bu haqda, o, belə demişdir: "Biz hələlik zəif dövlətdik, lakin buna baxmayaraq, qüdrətli imperiyanın rüşeymiyik". [4, 11] Göründüyü kimi, ABŞ lap başlanğıcdan özünü imperiya kimi görmüşdür. Sonradan imperiya anlayışına ABŞ-da münasibət kifayət qədər kəskin olmasının kökündə isə məlum səbəb dayanırdı. Belə ki, əsas rəqibi olan Sovet imperiyasının beynəlxalq nüfuzunu zədələmək üçün imperiya siyasətini birmənalı qəbul etməyini bəyan edirdi. Əslində isə, bildiyimiz kimi, SSRİ kimi ABŞ-ın da xarici siyasəti imperializm elementləri ilə zəngin olmuşdur.

ABŞ xarici siyasət strategiyasının xüsusiyyətlərinən bəhs edərkən bir vacib məqama diqqət çəkmək lazımdır. Bu məqam ondan ibarətdir ki, Soyuq müharibədən sonra ABŞ-da bipolyar dünya sistemi dövrünün ən mühüm hadisəsi kimi, SSRİ-nin süqutunu, məğlub edilməsini deyil, amerikan modelinin yayılması istiqamətində həyata keçirilən siyasətin qalib gəldiyi qeyd edilir. Artıq qeyd etdiyimiz kimi, ABŞ-ı bu qələbəyə aparan proseslərin başlanğıcında ilkin addımı prezident Trumen atmışdır. Belə ki, məhz onun prezidentliyi dövründə soyuq müharibə start götürmüşdür və hesab etmək olardı ki, Böyük Britaniyanın sabiq baş nazirinin Fulton nitqi təsadüfi və tək təxəyyülünün məhsulu deyildir. Təsadüfi deyildir ki, fəal qlobal siyasət tərəfdarları ABŞ-ın xarici siyasət tarixndə, antisovetizmi ABŞ-ın xarici siyasətinin rəsmi kursuna çevirən 33-cü prezident Trumenin irsini ən dəyərli hesab edirlər. Hesab edilir ki, H.Trumen tərəfindən başlanılmış strategiya, müəyyən edilmiş məqsədlər ABŞ-a mütləq qələbə gətirdi və bu kursu soyuq müharibə başa çatdıqdan sonra da davam etdirmək lazımdır.

Qeyd etmək lazımdır ki, amerikalı tədqiqatçıların və siyasətçilərin baxışları ABŞ xarici siyasətinin bazisində dayanan əsas ideyasının təbiəti haqqında ilkin və dolğun təsəvvürlər formalaşdırır. Yəni bu ideya Amerikanın qlobal missiyasının konsepsiyasının əsasını təşkil edir. Əslində bu ideyanın mahiyyətini çox qısa və sadə ifadə etmək mümkündür. Beləliklə, ABŞ-ın qlobal miqyasında həyata keçirdiyi fəaliyyətinin başlıca istinad nöqtəsini amerikalıların "seçilmiş" xalq olması ideyası təşkil edir. ABŞ-ın qlobal liderlik konsepsiyalarının meydana gəlməsinin və həyata keçirilməsinin nəzəri əsasını da məhz bu cür yanaşma tərzi təşkil edir. Həmçinin Amerika Birləşmiş Ştatları dünya əhalisnin "həsrətində" olduğu bir məkan, yer kimi təqdim olunur. Məhz yuxarıda ətrafında müəyyən təhlillər apardığımız "amerikan həyat tərzinin" qloballaşma dalğaları üzərində bütün dünyaya yayılması strategiyası da bu yanaşmadan qaynaqlanır. ABŞ-ın xarici siyasətinin, bütün qalan ideya və yanaşmaları əhatə etdiyi, meqatrendini də məhz Amerikanın və amrikalıların müvafiq olaraq dünyanın digər ərazilərindən və xalqlarından üstün, "seçilmiş" olması

fikirlərini təlqin etdirmək, bəşəriyyətə qəbul etdirmək istiqamətində fəaliyyət təşkil edir.[9, 53] ABŞ-da hesab edilir ki, qlobal səviyyədə bütün sahələrdə nəzarət təşəbbüslərinə yiyələnməyin ən etibarlı yolu budur. Məlum olduğu kimi, qloballaşmanın əsas xüsusiyyətlərindən biri də unifikasiyalaşmadan ibarətdir. Bu unifikasiyalaşma prosesi isə başlıca olaraq amerikan dəyərləri əsasında gedir. Bundan başqa, kommunikasiya ünsiyyətinin vahid məkanının formalaşması tendensiyasının da qloballaşmanın təzahür xüsusiyyətlərindən biri olmasını qeyd etmişdik. İlk baxışdan sadə, bəzən isə mütərəqqi hal kimi görünsə də, əslində təkcə bu iki məqam olduqca mürəkkəb, eyni zamanda mühüm məqsədlərə çatılmasına xidmət edir. Hər şeydən öncə qlobal unifikasiyalaşmanın əsasında amerikan dəyərlərinin dayanmasının təmin edilməsi, dünya əhalsinin amerikalılar kimi düşünməsini ciddi şəkildə şərtləndirə bilir. Artıq qeyd etdiyimiz kimi, amerikalıların düşüncə tərzinin ana xəttini özlərinin "seçilmiş" olmalarını qəbul etdirmək təşkil edir. Yəni, dünyanı seçilmiş xalq idarə etməlidir. Qlobal unifikasiya nəticəsində də müvafiq olaraq dünya xalqları ABŞ-ın və amerikalıların üstünlüyünü şüuraltı olaraq qəbul edirlər və bir növ bu istiqamətdə ABŞ təbliğat maşınının vacib elementlərinə çevrilirlər. Beləliklə, ABŞ xarici siyasətinin "qidalandığı" əsas konseptual əsasın nədən ibarət olması haqqında ilkin fikirlərimiz formalaşmış oldu. Bu istiqamətdə tədqiqatçı E. Batalovun qeydləri də maraqlıdır. E. Batalov yazır ki, Amerika arzusu mənəvi üstünlük, seçilmiş olmaq və buradan doğan missianizm ruhunda köklənmişdir. Fikirlərini davam etdirərək E. Batalov yazır: "amerikalılar əmindirlər ki, ABŞ bələdçi ulduzdur və dünyanın digər xalqları özlərinin tarixi inkişaf yollarını bu ulduza əsasən müəyyən etməlidirlər. Amerikanın isə, lazım gəldikdə, bu xalqları inkişaf yollarında korrektələr etməyə mənəvi haqqı vardır".[1, 19] Biz amerikalı tədqiqatçıların və siyasətçilərin fikirlərini tədqiq edən zaman şahidi oluruq ki, bu cür yanaşmaının konseptual bazasının yaradılması ABŞ-da tarixən diqqət mərkəzində olan əsas məsələlərdən olmuşdur. Məsələn Amerika Birləşmiş Ştatlarının 28-ci prezidenti V. Vilson qeyd etdiyimiz istiqamətdə fikirlərin inkişaf etdirilməsində xüsusi fəallıq nümayiş etdirmişdir. Prezident V. Vilson qeyd edirdi ki, ABŞ dünyanın istənilən nöqtəsində insanlara ədalətin, azadlığın, müstəqilliyin yolunu göstərir. ABŞ-ın buna hüququ vardır və o, bütün mənəvi, fiziki gücünün bu hüququnu təsdiq etmək üçün səfərbər etməlidir".[7, 93] V. Vilson demək olar ki, əksər çıxışlarında, nitqlərində dünyada sülhün və təhlükəsizliyin təmin olunmasının əsas məsuliyyətinin məhz Amerika Birləşmiş Ştatlarının üzərinə düşdüyünü vurğulayırdı. O, bəyan edirdi ki, ABŞ dünya xalqlarına müstəqillik və sülh gətirmək iqtidarındadır və onun əsas missiyası da bundan ibarətdir. Məsələn, V. Vilsonun ABŞ Konqressinə ünvanladığı məktubların birində xüsusi qeyd edir ki, ABŞ və şəxsən prezident kimi onun özünün əsas istəyi dünyanı demokratik və təhlükəsiz görməkdən ibarətdir.[14] Göründüyü kimi, lap əzəldən Amerikada ən müxtəlif kuluarlarda müzakirələr zamanı amerika modelinin dünyada təkrarsız, ən nümnəvi olması məsələsi əsas obyekt rolunda çıxış etmişdir. Təbii ki, bununla amerika cəmiyyətinin müsbət cəhətlərlə də zəngin olmasının inkar fikrindən uzağıq. Lakin, həqiqət bundan ibarətdir ki, ABŞ xarici siyasət strategiyasının hazırlanmasında və rellaşdırılmasında məhz qeyd etdiyimiz tərzdə yanaşma başlıca mayaq rolunu oynamışdır və bu ABŞ-ın yarandığı bir vaxtdan tendensiya halını alımışdır. Məhz bu yanaşma, yəni, ABŞ-ın dünyadakı vəziyyətə görə məsuliyyət daşıması, dünya xalqlarını öz arxasınca aparmaq üçün mənəvi haqqa sahib olması, xalqların inkişaf yollarında korrektələr etmək hüququna malik olması və s. yanaşmalar onun xarici siyasətinin bütövlükdə "hücumçu" və ekspansionist xarakterli olmasını şərtləndirmişdir. Tarixən ABŞ xarici siyasətində bu xüsusiyyət müşahidə olunmuşdur. Təbii ki, belə vəziyyət dünya tərəfindən birmənalı qarşılana bilməzdi və bu gün də qarşılanmır. Çünki, dünya xalqları və suveren dövlətlər onların tarixi inkişaf yollarının kənardan, yəni, ABŞ tərəfindən "müəyyən olunması" məsələsinə tolerant yanaşa bilməzlər. ABŞ-ın bu cəhdlərinə qarşı müasir mərhələdə kifayət qədər dirənişin olması ondan xəbər verir ki, ABŞ xarici siyasətinin konseptual əsasını təşkil edən başlıca ideyasını tam arzuladığı formada həyata keçirə bilməmişdir. Bu səbəbdəndir ki, Amerika Birləşmiş Ştatları könüllü şəkildə onun milli maraqlarını özlərinin milli maraqlarından üstün tutmayan dövlətlərə və xalqlara qarşı barışmaz mövqe tutmaqda bu gün də davam edir və artıq yuxarıda qeyd etdiyimiz kimi, bu məsələ bütün müstəvilərdə əsas müzakirə obyektidir. Hər bir amerikalı siyasətçinin düşüncəsini zəbt edən birinci məsələ dünyanın bütün nöqtələrində ABŞ nəzarətinin və ya yönləndirməsinin təmin edilməsi ilə

bağlıdır. Məsələn, 2012-ci ildə ABŞ-da keçirilən sonuncu prezident seçkiləri ərəfəsində namizədlər Obama və Romni arasında keçirilən üçüncü debatı xatırlamaqla, qeyd etdiklərimizi bir daha arqumentləşdirə bilərik. Bir saatdan artıq davam edən debat boyu əsas müzakirə olunan məsələ digər ölkələrin, xüsusilə də Yaxın Şərq ölkələrinin özlərini necə "aparmalı" olduqları və ABŞ-ın iradəsini qəbul etmələri ilə bağlı olmuşdur. ABŞ-da belə debatlar zamanı məhz qeyd edilən istiqamətdə müzakirələrin aparılması artıq adi bir haldır.

Qeyd edək ki, istənilən iqtidar dövründə xarici siyasi strategiyanın həyata keçirilməsinin kifayət qədər oxşar cəhətlərini müşahidə etmək mümkündür. Prezident B. Obama sələflərindən nisbətən fərqli davranış nümayiş etdirsə də, nəticədə strateji gedişlərin hədəfinin eyni olmasını sezmək mümkündür. ABŞ beynəlxalq müstəvidə başlıca "tələbi" onun qlobal liderliyinə bu və ya digər səviyyədə dəstəyin göstərilməsindən ibarət olmuşdur. Yuxarıda dünya dövlətlərinin özlərini necə aparması dedikdə məhz bu məqam başa düşülməlidir. Yəni, davranışların mahiyyəti ABŞ-ın siyasi kursunun dəstəklənməsindən ibarət olmalıdır. ABŞ-ın həmçinin postsovet məkanında həyata keçirdiyi geostrategiyanın əsas trendlərini də bu ərazidə onun yeganə güc mərkəzi kimi nəzərdən keçirilməsi təşkil edir. Həmçinin Qərbi Avropa dövlətlərinə münasibətdə də ABŞ eyni məntiqdən çıxış etməklə maraqlarının təmin olunmasına çalışır. Yəni, Avropa dövlətlərinin beynəlxalq münasibətlər müstəvisində davranışlarının koordinasiya edilməsi istiqamətində cəhdlər edir. Hətta, Avropanın ən cüzi dərəcədə belə müstəqil addımlar atmaq təşəbbüslərini ciddi təpki ilə qarşılayır və bütün prosesləri total nəzarətdə saxlamağa çalışır. Məsələn, Avropa dövlətlərinin liderlərinin telefon danışıqlarının ABŞ tərəfindən dinlənilməsi haqqında yayılan informasiyalar da bu istiqamətdəki fikirləri möhkəmləndirir. [15]

Əksər Qərb tədqiqatçılarının fikrincə, bipolyar dünya sisteminin çökməsindən sonra ABŞ özünü daha sərbəst və daha "eqoist" aparmağa başlamışdır. Bu da ondan xəbər verir ki, hətta Qərbdə belə ABŞ-ın xarici siyasətində üstünlük verdiyi "digərlərindən üstünlük" ideologiyası tənqidlə qarşılanır. Təhlillərimiz göstərir ki, "Amerika arzusu" özünün daxili və xarici aspektlərini günümüzdə də qoruyub saxlamaqdadır. Xüsusi qeyd etmək lazımdır ki, xarici –messianist aspekt həmişə olduğu kimi aktuallığını qoruyub saxlamaqdadır. Tədqiqatlar zamanı kifayət qədər maraq kəsb edən bir məqam da özünü biruzə vermişdir. Belə ki, XX əsrin son rübündə artıq "amerika əsrinin" sona çatması haqqında fikirlər formalaşmaqda idi. Yəni, ABŞ özünün daha üstün olmasını əvvəlki qədər səmərəli arqumentləşdirə bilmirdi. Bu məqamla bağlı taninmiş siyasi təhlilçi S. Bialer yazırdı ki, xarici siyasətin həyata keçirilməsi zamanı "amerikanın üstünlüyü" tezisindən istifadə əhəmiyyətli dərəcədə səngimişdir. Həqiqətən də, həmin dövrdə belə bir fikir formalaşmışdır ki, beynəlxalq arenada ABŞ-ın mütləq üstünlüyü tarixin arxivinə qovuşmuşdur.

Beləliklə, qısa təhlillərimiz qeyd etməyə əsas verir ki, ABŞ-ın xarici siyasi strategiyası zəngin konseptual əsaslara söykənir. Onun xarici siyasi strategiyasının əsasında duran konsepsiyalarda mərkəzi yeri ABŞ-ın qlobal liderliyinin təmin olunması mexanizmləri haqqında fikirlər tutur. ABŞ özünün xarici siyasi strategiyasını reallaşdıran zaman bu konsepsiyalara ciddi əməl edir.

Müasir mərhələdə dövlətlərin xarici siyasi strategiyasına ən ciddi təsir edən amillərdən biri rolunda qloballaşma çıxış edir. Başda ABŞ olmaqla, dünya dövlətləri özlərinin xarici siyasi strategiyalarını reallaşdırarkən qloballaşmanın təsiri altında yaranan reallıqları həmişə diqqət mərkəzində saxlamaq məcburiyyəti qarşısında qalırlar. Bundan başqa, müşahidə olunan reallıq ondan ibarətdir ki, qloballıq liderliyə can atan ABŞ qloballaşma amilindən ayrı-ayrı ölkələri nəzarətdə saxlamaq üçün istifadə etməkdədirlər.

ABŞ xarici siyasətinin konseptual əsaslarını təşkil edən bir neçə ciddi nəzəriyyələr mövcuddurlar ki, bu nəzəriyyələr bir sıra deklorativ fərqlərə malik olsalar da, mahiyyətcə eyni olmaqla, ümumilikdə, ABŞ-ın dünyanda cərəyan edən prosesləri tam nəzarətdə saxlamaq imkanları əldə etməsinə xidmət edirlər. Diqqəti çəkən əsas məqamlardan biri də ondan ibarətdir ki, Amerika Birləşmiş Ştatlarında xarici siyasi strategiya işlənib hazırlanarkən və həyata keçirilərkən mütləq mövcud nəzəriyyələrə istinad edilir. Sadəcə olaraq, demokratlar və respublikaçılar özlərinin xarici siyasi fəaliyyətlərində eyni nəticəyə hesablanmış, amma fərqli xarakterə malik davranış strategiyalarına üstünlük verirlər.

## ƏDƏBİYYAT


1. Баталов Э.Я. Русская идея и Американская мечта //США-Канада —экономика, политика, культура. 2000, № 11, с.19
2. Ваджра А. Путь зла. Запад: матрица глобальной гегемонии. М., 2007, с. 165
3. Глебов Г.И., Милаева О.В. Современные международные отношения. Учебное пособие. Пенза, Изд. Пенз.гос. ун-та, 2010, 98 с.
4. Лавренов С.Я. Война XXI века: Стратегия и вооружение США. – М., 2005, с.7
5. Лебедева М.М. Мировая политика и международные отношения на пороге нового тысячелетия.// Серия "Научные доклады", М., выпуск № 104, 2000, 156 с.
6. Лебедева М.М., Мельвиль А.Ю. "Переходный возраст" современного мира // Международная жизнь. 1999. № 10. С. 76-84.
7. Шаклеина Т.А. Россия и США в новом мировом порядке. Дискуссии в политико-академических сообществах России и США (1991-2002). М.: Институт США и Канады РАН, 2002, с.93
8. Основные противоречия внешней политики США// НАУЧНЫЙ АСПЕКТ, Самара, «Аспект», № 1, 2013, 228с.
9. Яковлева Н.Н. США: политическая мысль и история. М., 1976, с. 53
10. Bauer K. J. The Mexican War, 1846-1848. University of Nebraska Press, 1992, p.92-93
11. Jäger W. Die Geschichte der USA: Von der Kolonialzeit zu den Herausforderungen des 21. Cornelsen Verlag, 2005, S. 47.
12. Jäger W. Die Geschichte der USA: Von der Kolonialzeit zu den Herausforderungen des 21. Cornelsen Verlag, 2005, S.71-80
13. Nicole Schley. Die Kriege der USA: Chronik einer aggressiven Nation. Diederichs, 2003, S.68
14. Woodrow Wilson's "War Message to Congress". April 2, 1917


## ABSTRACT


**Sabina Garashova**

**Conceptual bases of foreign policy strategy of the USA**

This article explores the conceptual foundations of U.S. foreign policy. It is noted that in the context of the new realities in international relations the United States revised trends and principles of its foreign policy strategy. In the scientific article, first of all, it is proved that globalization is perceived at present as the dominant element of development. States of the world, including the United States, defining and implementing its foreign policy strategy, always keep a factor of globalization in the spotlight. It is also noted that globalization is used as an effective tool in the implementation of imperialist policy. The scientific article proves that all conceptual frameworks U.S. foreign policy strategy put forward the idea of global leadership. Analyzes the basic concept of a global U.S. leadership.


## РЕЗЮМЕ


**Сабина Гарашова**

**Концептуальные основы внешнеполитической стратегии США**

В данной статье рассматриваются концептуальные основы внешней политики США. Отмечается, что на фоне новых реалий в системе международных отношений США пересмотрели тренды и принципы своей внешнеполитической стратегии. В научной статье, прежде всего, обосновывается, что глобализация воспринимается на современном этапе в качестве доминирующего элемента развития. Государства мира, включая Соединенные Штаты, определяя и осуществляя свою внешнеполитическую стратегию, всегда держат фактор глобализации в центре внимания. Отмечается, также, что глобализация используется в качестве эффективного инструмента в процессе осуществления империалистической политики.

В научной статье обосновывается, что во всех концептуальных основах внешнеполитической стратегии США выдвигается идея глобального лидерства. Анализируются основные концепции глобального лидерства США.

NDU-nun Elmi Şurasının 30 mart 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. ELMİ ƏSƏRLƏR, 2016, № 6(75)

NAKHCHIVAN STATE UNIVERSITY. SCIENTIFIC WORKS, 2016, № 6 (75)

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. НАУЧНЫЕ ТРУДЫ, 2016, № 6 (75)

**TELMAN NİFTALIYEV**

*Azərbaycan Dövlət İqtisad Universiteti*

**UOT:355**

# AZƏRBAYCANDA ORDU QURUCULUĞU VƏ ZABİT HEYƏTİNİN TƏKMİLLƏŞMƏSİNDƏ HEYDƏR ƏLİYEVİN LİDERLİK XÜSUSİYYƏTLƏRİNİN TƏSİRİ

Azərbaycanın müasir tarixində əvəssiz rol oynamış Heydər Əliyev tam haqlı olaraq Milli Ordunun banisi sayılır. Onun milli-dövlət quruculuğunda həyata keçirdiyi çoxsaylı layihələr sırasında müasir Silahlı Qüvvələrinin qurulması layihəsi xüsusi yer tutur. H.Əliyevin quruculuq fəaliyyətini araşdırmaq üçün bir çox müasir yanaşmaların tətbiq edilməsinə zərurət vardır, çünki müasir dildə desək bu, çoxölçülü fəaliyyətə təkcə tarixçi kimi deyil, təkcə bioqraf və ya psixoloq kimi deyil, və ya tutaq ki, təkcə iqtisadçı və hüquqşünas kimi deyil həm də sosiologiya baxımından yanaşmanın fikrimizcə geniş elmi evristik potensialı vardır.

Bu ideyanın iki metodoloji əsasına diqqət yetirək. Birincisi, müasir sosiologiya elmi, son nəzəri böhran dövrünü aşaraq çoxparadiqmalı elmə çevrilmişdir. Bu baxımdan onun sistemlilik və inteqrativ funksiyaları daha da güclənmişdir. Hər hansı görkəmli bir tarixi hadisənin və ya prosesin araşdırılmasında bu elmin tədqiqat metodları və vasitələrinin çeşidi genişlənmişdir. Müasir biliyin sintezində sosiologiya kəmiyyət və keyfiyyət yanaşmalarının vahid metodologiyasından çıxış edərək tarixi, hüquqi, psixoloji, elmi-texniki və digər faktları integrasiya edə bilmişdir. Beləliklə, tarixi yaradan subyekt istər fərdi, istər kollektiv fəaliyyətin daşıyıcısı kimi real elmi-tədqiqat obyektinə çevrilə bilmişdir. Belə subyektin ictimai təyinatı və rolunun təhlili və qiymətləndirilməsi üçün sosial-hümanitar elmlərin metodologiyası kimi çıxış edən sosiologiyanın əsas təhlil alətləri kimi ictimai tələbat, sosial qüvvələrin səfərbərliyi, ictimai qrupların maraq münasibətləri, sosial fəaliyyət məqsədlərinin formalaşması, sosial dəyişiklərin ictimai şüurda inikası, onların reallaşma mexanizmləri və digərləri tətbiq edilir [ 11, səh. 1-11].

İkinci məqam bir başa Heydər Əliyev fenomeni ilə bağlıdır. Tarixi şəxsiyyət və lider keyfiyyətləri müasir zamanın ziddiyyətli bir durumunda da öz quruculuq potensialını geniş icitimai

rezonans və sanballı nəticələri ilə təsdiq etməkdə sadiq olmuşdur. H.Əliyev təkcə müəssisə, infrastruktur, binalar, yollar, müxtəlif obyektlərin baş konstruktoru kimi çıxış etmir. O, təkcə iqtisadiyatın, idarəçilik və sosial-mədəni sahənin, dövlətlərarası münasibətlərin qurucusu kimi çıxış etmir. O, bir strateq kimi, sosiologiya dilində desək, üzdə olan iqtisadi və sosial dəyişiklərlə yanaşı sosietal dəyişikləri planlaşdırır və həyata keçirir. Yəni onun yaratdığı təkcə maddi obyektlər deyil, onun yaratdığı sosial institutlar, sosial normalar və dəyərlər, elə sosial mexanizmlərdir ki insanların yeni münasibətlərini stabil olaraq, təkrar sosial istehsal mexanizm ilə təmin edir. Onun fəaliyyəti yeni sosial zümrələrin formalaşmasına gətirib çıxarır. Ordu quruculuğunda milli zabitlər zümrəsinin formalaşdırılması buna bariz nümunədir.

Bu dəyişiklərin idarəolunma səviyyəsi, onların əvvəlcədən düşünülmüş hədəflərə yönəldilməsi və həmin hədəflərə nail olmaq üçün bütün sosial enerjinin toplanması, bizim dərin inamımıza görə, Heydər Əliyevi səciyyələndirən tarixi yaradıcı subyekt və öndər qurucu keyfiyyətləridir.

Əsil mənada H.Əliyev strategiya banisi və elə onun da təntənəsini təmin edən sərkərdar kimi çıxış edir. H.Əliyevin hələ Sovetlər dövründən yaxşı məlum olan təşkilatçılıq, iqtisadi və siyasi səriştəsi, müstəqillik illərində onun əsil hərbi strateq, gələcək qələbələrin layihələndiricisi, uzaqgörən lider kimi təsdiqini tapmışdır [12, səh. 52]. Məhz sovet dövründə yaranmış kiçik bir imkandan istifadə etməklə o, ilk olaraq gələcək milli ordunun kadr bazasını formalaşdıran Naxçıvanski adına hərbi məktəbin təsis edilməsinə nail olmuşdu. Sonralar da H.Əliyev bu məktəbin fəaliyyətini daima diqqət və qayğı mərkəzində saxlamışdı.

Ümumiyyətlə, ordu quruculuğunda H.Əliyev insan amilinə əsas diqqət verirdi. 12 sentyabr 2002-ci il Gəncədəki "N" hərbi hissəsində keçirilən görüşdə Ali Baş Komandan Heydər Əliyev qeyd etmişdir: “ ... ordumuzda olan komandan heyətinin bilik səviyyəsini, döyüş qabiliyyətini daha da yüksəldə bilərik. Mən bunu bir vəzifə kimi sizin və Azərbaycan Silahlı Qüvvələrinin bütün komandan heyətinin qarşısında qoyuram. Tələb edirəm ki, yüksək rütbəli hər bir komandan onun tabeliyində olan zabitlərlə daha da sıx əlaqədə olsun. Bir də deyirəm, onlara qayğı göstərsin, onların hərbi mütəxəssis kimi, zabit kimi, döyüşçü kimi inkişaf etməsini təmin etsin” [ 2, səh. 451].

Ulu Öndər milli ordunun formalaşması, onun döyüş qabiliyyətinin və müasir silah-sürsat təminatının möhkəm və davamlı əsas üzərində qurulması barədə düşünürdü. Bu səpkidə onun qəbul etdiyi qərarlar strateji əhəmiyyətə malik idi [10, səh. 298]. Strategiya nəzəriyyəsinin dili ilə desək, onun seçimi əsil mənada sinergetik effektə malik olan diversifikasiya strategiyası idi. Belə ki, ordunun təminatının kənar mənbələrdən deyil, milli müdafiə sənayesinin qurulması və inkişafı hesabına təşkili bir neçə məqsədlərə nail olmağa imkan vermişdir. Birincisi, ölkənin maşınqayırma, yüngül və digər sənaye sahələrinin inkişafına təkan verildi, və eyni zamanda təcrübəli mühəndis-texniki heyət davamlı işlə təmin olundu. İkincisi, dövlətin maliyyə resursları daxili inkişafa yönəldi. Üçüncüsü, bu, ölkənin beynəlxalq aləmdə nüfuzunun və gələcək rəgabət qabiliyyətinin yüksəldilməsinə xidmət etdi, və nəhayət, cəmiyyətin müxtəlif sektorlarının inteqrasiyası daha bir istiqamət üzrə vüsat qazandı.

Azərbaycan əsrlər boy müstəmləkə zülmünə məruz qaldığı tarixi dövr ərzində zaman-zaman onun qəhrəmanları, sərkərdələri, dövlət başçıları olmuşdur. Lakin daxili və xarici müdaxilələr nəticəsində Azərbaycan öz dövlət bütövlüyünü qoruyub saxlaya bilməmişdir. Beləliklə, xalqımız həmişə hansısa yadelli dövlətin əsarətində olmuşdur [ 3, səh. 45]. XX əsrin əvvəllərində yaradılan ADR-ın də ömrü çox qısa olmuşdur. Rusiyada yaranan bolşevizim taunu hər tərəfə yayılaraq, Azərbaycanı da çuğlamışdır. Yerli satqın və xəyanətkarlarla əlbir olan erməni-rus separatçıları demokratik cumhuriyyəti süquta uğratdılar. Beləliklə Azərbaycanın müstəqilliyinə son qoyuldu. Bu bizim xalqın azadlıq uğrunda ilk mübarizəsi idi.

Dünya təcrübəsi göstərir ki, tarixin xalqlara verdiyi şansı, vətənin və xalqının taleyüklü problemlərini həll etmək kimi ağır missiyanı yalnız nadir və əvəzolunmaz şəxsiyyətlər reallaşdırmağa qadir olurlar. Onlar cəmiyyəti böyük çətinliklərdən xilas edən və öz əməli fəaliyyətlərində mövcud quruluşun qanunauyğun əlaqələrini düzgün müəyyən edən qüvvə kimi

fəaliyyət göstərirlər. Onlar həm də xalq və cəmiyyət qarşısında sosial məsuliyyəti dərindən dərk edərək özlərinin təşkilatçılığı, mübarizliyi, möhkəm iradəyə malik olması ilə səciyyələnir və mürəkkəb vəziyyətdən çıxış yolunu uzaqgörənliklə müəyyən edərək xalq kütlələrinin fəaliyyətini mütərəqqi istiqamətə yönəldirlər və bu da durmadan cəmiyyətin inkişafında öz müsbət nəticələrini verir. deməli cəmiyyətin inkişafı və tərəqqisi naminə və ümdə vəzifələrin görülməsini dahi şəxsiyyətlər irəli sürürlər və bününla da cəmiyətin inkişafına həlledici təsir göstərirlər. Həm də tarixi şəxsiyyəti yetişdirən cəmiyyət də öz növbəsində görkəmli tarixi şəxsiyyətlərin fəaliyyəti ilə inkişaf edir və möhkəmlənir [ 7, səh. 43].

Belə tarixi şəxsiyyətlərin biri Azərbaycan xalqının bəşəriyyət tarixi salnaməsinə XX əsrin ikinci yarısı və XXI əsrin əvvəlində bəxş etdiyi ən böyük dövlət xadimi Heydər Əliyev olmuşdur. Dünya şöhrətli siyasətçi və təcrübəli dövlət xadimi kimi bənzərsiz ömür yolu keçən Heydər Əliyevin siyasi sistemlərin dəyişməsindən asılı olmayaraq respublikaya rəhbərlik etdiyi 35 il ərzində həyata keçirdiyi çox sahəli işlər, ardıcıllıqla atdığı mütərəqqi addımlar, onun bir xilaskar, bir qəhrəman olmasını təsbit edir. Azərbaycana rəhbərlik etdiyi dövrdə Heydər Əliyevin dövlətçilikdə qazandığı böyük təcrübə, müdriklik və bacarıqlı təşkilatçı olması keyfiyyətlərinə görə, xalqın arzusu və tədəbi ilə yenidən Respublikaya hakimiyyətə dəvət olundu [ 9, səh. 55].

Heydər Əlirza oğlu Əliyev çox sahəli əmək fəaliyyətinin bütün dövrlərində olduqca ciddi, tələbkar, özünə və ətrafdakılara qarşı çox diqqətli olmaqla ən çətin anlarda cəsarətli, müdrik qərarlar çıxarmaq qabiliyyəti təşkilatçılıq bacarığı və çoxlarını heyrətə salan fenomen zəkası ilə fərqlənmişdir.

Azərbaycan prezidentinin diqqətini cəlb edən məsələlərdən biri də ayrı-ayrı qruplara mənsub odlu silahların yığılması və hərbi quruculuqda tam dönüş yaratmaq olmuşdu. Şübhəsiz, qanunsuz silahların saxlanılması, kriminal qrupların tüğyan etməsi nəinki əhalinin sakit həyat tərzini pozurdu, həm də əhali vahimə, qorxu içərisində yaşayırdı.

Hərbi quruculuq məsələsinə gəldikdə milli liderimizin apardığı məqsədyönlü iş nəticəsində səmərəli tədbirlər həyata keçirilmiş vıə burada nizam-intizam möhkəmləndirilmişdi. Hərbi quruculuq məsələsi ilə əlaqədar olaraq ölkə rəhbəri təkcə 1993-1998-ci illər arasında 109 iclas və görüş keçirmişdi. Bu ənənə sonrakı illərdə də davam etdirilmişdi.

Hər bir dövlət müstəqilliyini xarici hərbi müdaxilədən qorumaq üçün müdafiə sistemi yaradır. Müdafiə sisteminin yaradılmasında ordu qürücülüğü başlıca yer tutur. Əlverişli geosiyasi məkanda yerləşən, zəngin enerji resurslarına malik olan Azərbaycan dünyanın güclü dövlətlərinin maraq dairəsindədir [ 1, səh. 140]. Mənafelrin toqquşması ərazi bütövlüyü və suverenliyə təhlükə törədir. Məhz buna görə də ordu quruculuğu dövlətin başlıca strateji məqsədidir. Azərbaycanın güclü orduya malik olmasını ulu öndərimiz Heydər Əliyev milli mənafedə görürdü.

Ordu quruculuğunda başlıca cəhət aşağıdakıları əhatə edir:

- Milli müdafiə haqqında elmi konsepsiyanın hazırlanması;
- Milli Ordu haqqında qanunun qəbul edilməsi;
- Ordunun yüksək döyüş hazırlığına və nizam intizama malik olması;
- Ordunun müasir texniki vasitələrlə təmin olunması;
- Ordunun hərtərəfli təminatının təşkil olunması;
- Hərbi kadrların hazırlanması və təkmilləşdirilməsi;
- Müasir silah növləri ilə təchiz olunması;
- Ordunun maarifləşdirilməsi, hərbi vətənpərvərlik tərbiyəsi;

Müstəqilliyini elan edən hər bir suveren dövlət beynəlxalq hüquqi normalar və milli mənafe əsasında xarici siyasət strategiyasını müəyyən edir.

Ordu quruculuğu dövlətin xarici siyasəti ilə qarşılıqlı həyata keçirilən siyasətdir. Azərbaycanın xarici siyasəti sülh siyasətidir.

H. Əliyev həm də Azərbaycanı perspektivdə hərb sənəti müstəqil ordusu, hərbi texnikası olmayan ölkə taleyindən xilas edərək milli zabit kadrlara xüsusi qayğı göstərmiş şüurlarda, psixologiyada dəyişiklik yaratmışdır. O dövrdə C.Naxçivanski adına hərbi məktəbin açılması əvəzsiz tarixi hadisə idi. Bununlada respublikada dövrün müasir tələblərinə cavab verən hərbi tədris

bazası yarandı, gəncliyimizin hərb sənətinə marağı artdı, rus dilini bilməyən azərbaycanlılar hərbi məktəbdə qəbulda güzəşt qazandılar. Təsadüfi deyil ki, H.Əliyev hakimiyyətə gəldikdən sonra sovet rejimində azərbaycanlı hərbiçilərə yüksək rütbələr və məsul vəzifələr verilməyə başladı [ 5, səh. 14]. Keçmiş SSRI-nin hansı ərazisində xidmət etməyindən asılı olmayaraq, hər bir azərbaycanlı əsgər, zabit H.Əliyev simasında özünün karyerasına bacarıq və istedadına qiymətləndirilməsinə qərant görürdü. Məhz bu işlərin nəticəsi idi ki, respublikamız Ermənistan tərəfindən təcavüzə məruz qalanda ölkəmiz peşəkar zabit kadrların qıtlığını keçirmədi. SSRI-nin müxtəlif ərazilərində xidmət edən azərbaycanlı zabitlərin Azərbaycana könüllü axını başladı.

H.Ə.Əliyevin müstəqil dövlətimizin varlığında, taleyində mühüm rol oynayan Milli ordumuzun, Sərhəd Qoşunlarımızın yaradılmasında böyük xidmətləri vardır. Əvvəllər yox dərəcəsində olan Milli ordumuz böyük uğurlarını məhz H. Əliyevin uğurlu məqsədyönlü siyasətinin sayəsində qazanmışdır. H. Əliyev xalqı döyüşkənliyə inandırdı, heç bir böyük qardaşa ümid bağlamadan torpağını və taleyini özünün qoruya biləcəyinə inam yaratdı. Bu inam yaranandan sonra xalqın formalaşmaqda olan orduya sərhəd qoşunlarına münasibəti də əsaslı şəkildə dəyişdi. Bu gün artıq nizamı ordumuz, peşəkarlardan ibarət sərhəd qoşunlarımız mövcuddur. Böyük tarixi dövlətçilik ənənələrinə malik ölkələrin ordusundan geri qalmayan Silahlı Qüvvələrimizin yaradılması, nizamı ordu kimi fəaliyyət göstərməsi, mövcudluğu, peşəkarlıqda H. Əliyevin adı ilə bağlıdır. Qüdrətli sərkərdəmizin rəhbərliyi altında Milli Ordumuz düşmənə ağır zərbələr endirərək, onu hərbi əməliyyatları dayandırmağa, danışıqlar aparmağa vadar etdi.

Heydər Əliyev dövlət aparatında özünün əsas rolunu təmin edərək, ilk öncə, ordu üzərində nəzarəti möhkəmləndirərək onu güclü nizam-intizamlı bir təşkilata çevirdi [ 8, səh. 62]. Fitri sərkərdəlik istedadı, hərbi işin incəliklərinə peşəkar yanaşma müdrik Ali Baş Komandana qısa vaxt ərzində ordu quruculuğu kimi mürəkkəb bir problemi uğurla həll etməyə, Azərbaycan Ordusunu yenidən elmi-nəzəri əsaslar üzərində qürmağa imkan verdi. Çünki H.Əliyevin hərbi quruculuq siyasəti tarixi təcrübəyə əsaslanan real və əməli siyasət idi. 1993-cü ilin dekabrında Beyləqan istiqamətində hücuma keçən erməni işğalçı ordusu artıq yeniləşmə mərhələsinə qədəm qoymuş Azərbaycan Silahlı Qüvvələrinin güclü müqavimətinə rast gələrək məğlubiyyətə uğradı. Dekabrın sonunda işğalçıların Goranboy Tərtər və Ağdam istiqamətlərində də hücumlarının qarşısı alındı. Bütün bunlar qısa vaxt, ərzində ordunun yenidən möhkəmləndirilməsi sahəsində həyata keçirilən H.Əliyev siyasətinin təntənəsi idi.

Heydər Əliyevin Ordunun möhkəmləndirilməsi siyasətinin təməl prinsiplərindən biri və bəlkə də ən başlıcası xalqla ordunun vəhdəti, yekdilliyi prinsipidir.

2 noyabr 1993-cü ildə onun radio və televiziya ilə xalqa müraciətini ictimai şüurda yeni bir mərhələnin başlanğıcı kimi qiymətləndiririk. Ulu öndərimiz həmin müraciəti ilə xalqımıza hava və su kimi lazım olan milli birliyin, həmrəyliyin əsasını qoydu və hamı bir nəfər kimi öz xilaskarının ətrafında birləşməyə başladı. Xalqın milli mənlik şüurunun oynamasında, orduya itirilmiş inamın bərpa olunmasında H.Əliyev fenomeninin müstəsna xidmətləri olmuşdur. O, hərbi quruculuq sahəsində də həmişə xalqın daxili enerjisinə, milli-tarixi ənənələrinə istinad edirdi.

Heydər Əliyevin noyabr ayının 2-də televiziya və radio vasitəsi ilə xalqa müraciəti, Respublikanın bütün vətəndaşlarını həmrəyliyə, birliyə dəvəti Vətənin müdafiəsi işində iştirak etməyə çağırışından sonra buna cavab olaraq Vətənin, torpağımızın müdafiəsində iştirak etmək istəyən keçmiş beynəlmiləlçi döyüşçülər vətənpərvərlik təşəbbüsü göstərərək ulu öndərimizə müraciət etmişlər. Onlar Vətən, torpaq uğrunda canlarından keçməyə hazır olduqdarını bir daha birdirərək döyüş bölgələrinə yollanırdılar. Cəbhəyani bölgələrdə görüşlər zamanı müstəqil Azərbaycan ın Milli Ordusu çətin bir zamanda yaradılır deyən ölkə prezidenti H.Əliyev bu çətinlikləri onunla bağlıyırdı ki, ordu quruculuğu işi onun bölmələrinin erməni təcavüzkarlara qarşı döyüşlərdə iştirakı ilə eyni zamanda həyata keçirilir.

Milli Ordunun problemlərinin əksəriyyətinə səbəb olan son illər bir sıra rəhbər işçilərin öz vəzifələrinə məsuliyyətsiz münasibəti olmuşdur. Hərbi quruculuğa mane olan nöqsanların aradan qaldırılması üçün H.Əliyevin məqsədyönlü fəaliyyəti var qüvvəsi ilə hər şey edirdi. Onun cəbhəyani bölgələrə səfərinin əsas məqsədi, yerlərdə vəziyyətlə tanış olmaq, respublikamız üçün mühüm problemlərin həlli ilə əlaqədar bəzi tədbirlər görmək idi.

Ilk növbədə respublikanın müdafiəsi ilə bağlı məsələlər, erməni silahlı qüvvələri tərəfindən işğal olunmuş rayonlardan qaçqın düşmüş vətəndaşlarımızın yaşayışının təmin edilməsi və bir neçə başqa məsələ ilə əlaqədar müzakirə keçirmək niyyətindəydi.

Respublikanın müdafiə qabiliyyətini möhkəmləndirmək sahəsində H.Əliyevin gördüyü işlər danılmazdır. O, hesab edirdi ki, güclü orduya malik olmağımız müharibə vəziyyətindən sülh yolu ilə çıxmağımız üçün də böyük zəmin yaradacaqdır [ 6, səh. 360].

Milli öndərimizin cəbhəyani bölgələrdə insanlarla görüşü zamanı yekun çıxışından bir neçə sitat gətirmək olar: «Səfərbərlik zamanı qarşıya çıxan hər kəsi orduya göndərmək lazım deyildir. Bizim imkanlarımız genişdir. Səfərbərliyə alınaraq orduya göndərilənlər layiqli adamlar olmalıdırlar. Onlar yaxşı seçilməli, hərbi xidmət keçmiş adamlar, mütəxəssislər olmalıdırlar. Indi ordumuza hərbi peşələrin sirlərinə bələd olan adamlar lazımdır. Beləlləri qısa müddətdə ordu sıralarında öz yerlərini tapa, layiqli xidmət edə, ordunu gücləndirə bilərlər. Adamlar məcburi surətdə, zorla tutub orduya göndərmək lazım deyil. Çünki indi bizim öz Xalqına, Vətəninə həqiqəqətən sədaqətli olan, torpağını can-başla ürəkdən müdafiə etmək istəyən adamlarımız çoxdur, onları cəlb etməliyik. O, adamlar ki, hələ öz vətəndaşlıq borcunu başa düşmürlər, qoy bir qədər də gözləsinlər»[ 4, səh. 92].

Bu dəhşətli müharibənin Azərbaycan xalqı üçün, onun suverenliyi və ərazi bütövlüyü üçün daha ağır nəticələr verdiyini bir daha xatırladan respublika prezidenti dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara BMT-yə, BMT-nin Təhlükəsizlik Şurasına, Təhlükəsizlik Şurasının daimi üzvləri olan ABŞ-ın, İngiltərənin, Fransanın, Rusiyanın, Çinin rəhbərlərinə etdiyi müraciətdə bildirmişdi ki, onlar Ermənistanın təcavüzkarlığının qarşısını almaq üçün təsirli tədbirlər görməlidir.

Beləliklə, gördüyümüz kimi H.Əliyevin qurucu lider-strateq keyfiyyətləri milli ordunun bir dövlət və sosial təsisat kimi formalaşmasında öz tətbiqini tapmışdı. Ordunun dolğun bir sosial təsisat kimi fəaliyyətini təmin etmək üçün bütün tələb olunan atributlara diqqət yetirildi, norma və dəyərlərlərlə yanaşı növləri üzrə silahlı qüvəllərinin rəsmi qününün təsis edilməsi, hərbiçilərin ailələrinin qayğılarının diqqətdə saxlanılması, bu və digər tədbirlərin davamlı olması Prezident İlham Əliyevin yürütdüyü siyasətdə də öz parlaq təsdiqini tapmışdır.

## ƏDƏBİYYAT

1.Abbas Piriyev. Siyasi strategiya və milli təhlükəsizlik. Bakı, BDU-2005. səh 544
2.Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı, 1997, k.2 səh 604
3.Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. (doqquzuncu kitab) B., Azərnəşr, 2000, səh. 466
4.Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. (onuncu kitab) B., Azərnəşr, 2002, səh. 472
5.Heydər Əliyev.Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. XXI yeni nəşrlər evi, Bakı-2001, səh. 55
6.Xanlar Vəliyev. Heydər Əliyev və ordu quruculuğu. Bakı, Adiloğlu, 2006, səh. 480
7.Xəlilov S. S. Lider. Dövlət. Cəmiyyət. B., 2001, səh. 358
8.Mehdiyev R. Azərbaycna inkişaf dialektikası. Bakı-2000, səh. 286
9.Mehdiyev R.XXI əsrdə milli dövlətçilik. Bakı, "XXI-yeni nəşrlər evi"2003, səh 248
10. Musa Qasımlı "Heydər Əliyev – istiqlala gedən yol" (1969-1987-ci illər) Bakı, Bakı Universiteti nəşriyyatı, 2006, səh. 608
11. Stoyanov T., Leadership Development Programs in the Canadian Armed Forces Sofia, 2001, pp 1-11
12. С.И,Чернявский. Новый пут Азербайджана. М. Азер-Медиа 2002. 352 стр

## ABSTRACT

### The influence of the leadership phenomena of Heydar Aliyev in improvement of Azerbaijan Army.

Heydar Aliyev had the great role in the existence of our independent state, national army, front army. Our National Army got its great success according the appropriate policy of Heydar Aliyev. Heydar Aliyev convinced the people to the fighting ability and how to defend their homeland. And so that we have our own regular army.

## РЕЗЮМЕ

**Роль Гейдара Алиева как феномена в создании армии и совершенствовании офицерского состава в Азербайджане**

Большая заслуга принадлежит Г.А.Алиеву в создании национальной армии, пограничных войск, которые играют важную роль в жизни нашего независимого государства. Наша национальная армия, которая раньше не существовала, достигла больших успехов благодаря целенаправленной политике общенационального лидера Г.Алиева. Г.Алиев убедил народ в воинственности, умении защитить свою землю и себя, не надеясь не на какого старшего брата. После такой веры полностью изменилось отношение народа к формирующейся армии, пограничным войскам. Уже сегодня у нас есть строевая армия, пограничные войска.



NDU-nun Elmi Şurasının 30 mart 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru, professor* M.Rzayev



NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. ELMİ ƏSƏRLƏR, 2016, № 6(75)

NAKHCHIVAN STATE UNIVERSITY. SCIENTIFIC WORKS, 2016, № 6 (75)

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. НАУЧНЫЕ ТРУДЫ, 2016, № 6 (75)



**МУСА ИСМАИЛОВ**

*главного редактора журнала «IRS-Наследие»*



**УДК:94(4)**


# КАК ВОСПРИНИМАЮТ АРМЯНЕ СЕБЯ САМИ?


**Açar sözlər:** *ermənilik, "müxtəlif xalqlar", "xəyanət və satqınlıq ermənilərin qanındadır", ermənilərin miqrasiyası, erməni xalqının tarixi*

**Key words:** *armenianity, "different people", betrayal and treachery run in the armenians blood, the immigration of the armenians, history of the Armenian nation*

**Ключевые слова:** *армянства, «разные народы», «измена и предательство – в крови армян, миграциях армян, история армянского народа*


## Введение

Перекочевки предков армян с их исторической родины в области Фракия на Балканском полуострове (3, стлб. 601; 18, с. 27) в Малую Азию и далее на Кавказ, как и сопровождавшие этот процесс пертурбации, отразились на истории и судьбе армянского народа. В течение этого периода он находился под влиянием древних греков и римлян, персов и сирийцев, от которых перенял очень многое, вплоть до лексики, различных элементов культурной, социально-политической, торгово-экономической, конфессиональной жизни, материальной и духовной культуры (1, с. 12-14, 25-26; 30, с. 5 ). С XIX века берет начало история русского влияния на армянский этнос.

Как для армянской, так и русской коллективной памяти характерна опора на сложившиеся историографические шаблоны: «У русских и армян были в свое время сформированы повествовательные шаблоны, которые перманентно сами просачивались, а также целенаправленно внедрялись в коллективную память этих народов... Если русские исторические нарративы акцентировали «богоизбранность русского народа», то армянские нарративы ориентировали на воссоздание «великой Армении» и память о «былом могуществе» (16, с. 7-8). Однако имеются нюансы, позволяющие говорить о специфических

особенностях армянской памяти.

В геополитике существуют понятия «потребитель безопасности» и «производитель безопасности». Ко вторым принадлежат крупные державы, к первым - средние, мелкие и карликовые государства. Кроме того, существует понятие «источников опасности», каковыми могут быть любые государства и различные организации, своей деятельностью не вписывающиеся в общепринятые нормы мирового сообщества. На Кавказе «потребителями безопасности» и одновременно «источником опасности» служат несколько политических и административных субъектов. В связи с этим полезно обратить внимание на армянский этнос-аллохтон в этом регионе и на то, как его характеризуют. Это тем более важно, что имидж армян неоднозначен, ибо они обладают незаурядной способностью адаптироваться и приспосабливаться к среде обитания, куда их забросит судьба, а точнее – военно-политические реалии. Так было в прошлом, так остается сегодня. Вместе с тем армяне столь разнородны, что, даже проживая в одной и той же стране, придерживаются традиций и правил исходной «стартовой площадки». Как следствие, армяне «западные» не понимают, даже не приемлют «восточных», «российские» – «кавказских», «европейские» – «американских», и наоборот.

**Армяне об армянах**

Самая ранняя известная характеристика армян принадлежит «отцу армянской истории» Моисею Хоренскому (Мосесу Хоренаци), жившему в V веке. Касаясь нежелания армян принять христианство, он писал: «Я хочу указать на жестокосердие, как и высокомерие нашего народа с самого начала до наших времен: неукротимый в благе, неверный истине, надменный от природы и упрямый, он противится царской воле относительно Христианской веры, следуя желаниям жен и наложниц. Царь (Трдат III, правил в 298-330 годы. – М.М.) не мог снести этого, и потому, бросив земной венец, пошел за небесным: поспешил достигнуть бывшего жилища святого отшельника Христова и уединиться в горной пещере. При этом стыдно становится мне высказать истину, а в особенности беззакония и нечестие нашего народа и действия его, достойные многих слез и оплакивания. Посылают к царю, обещаясь поступать согласно его воле, если он снова примет царство. Но, получив отказ святого мужа, дают ему напиток, как некогда в древности афиняне Сократу предложили цикуту (то есть отравили его. – М.М.)… Мужи армянские! Доколе пребудете жестокосердными? Зачем полюбили суету и безбожие?... Вы согрешили, прогневленные, и в ложах ваших не принесли раскаяния: вы заклали заклание беззакония и уповающих на Господа презрели. Поэтому найдут на вас сети Того, Которого вы не прознали, и добыча, за которой вы гонялись, сделает вас своей добычей, и вы попадете в те же сети» (17, с. 160-161). Завершает Моисей Хоренский пассаж об армянском царе словами: «Впрочем, повествование о святом Трдате верно: давши царю смертоносный напиток, они лишили себя лучей света благодати Трдата» (17, с. 162).

«Отец армянской истории» еще в начале своего труда отмечает: «Не хочу оставить также без порицания нелюбознательность наших предков: и здесь, в начале нашего повествования, да падут на них слова моей укоризны… Нам же всем хорошо известны царей и предков наших нерадение о мудрости и несовершенстве их разума. И хотя мы народ не великий, и весьма ограниченный числом, и не могущественный силою, и часто находившийся под чужим владычеством (это написано в V веке! – М.М.), однако и в нашем Отечестве много совершено подвигов мужества, достойных воспоминания, которые ни один из наших государей не позаботился предать письму» (17, с. 31). И заключает: «Мне кажется, что в прежние времена, как и теперь, армяне отличались нелюбовью к мудрости и сборникам устных песен. И поэтому не станем говорить более о людях бессмысленных, слабоумных и диких» (17, с. 32). Вспоминая родоначальника христианства у армян, Моисей Хоренский пишет: «Говорят, что св. Григорий происходит от Сурэна Пахлава… Св. Григорий, как

известно всем, был родом парфянин» (17, с. 103, 159).

В свою очередь, Н.Эмин, переводчик сочинения Моисея Хоренского на русский язык, говоря о миграциях армян и их языке, подвергавшемся изменениям, отмечает: «По мере того, как армяне, удаляясь от Арарата, искали себе новых обитаний в странах, прежде не принадлежавших им, язык их изменялся и в отношении звуковом, и в отношении пуризма» (18, с. 20).

Самая же ранняя известная развернутая характеристика армян принадлежит армянскому автору XVII века Симеону Лехаци, который имел возможность подробно знакомиться с жизнью своих соплеменников в Османской империи. Его свидетельства важны по ряду причин. Во-первых, потому, что под властью султана находилась в ту пору, вплоть до XIX века подавляющая часть армянского народа. Во-вторых, потому, что Османская империя, занимавшая обширные территории в Передней Азии, Северной Африке и Юго-Восточной Европе, имела в своем составе десятки национальных меньшинств, которые испытывали одинаковые с армянами тяготы жизни в составе тюркского мусульманского государства. Симеон Лехаци многое увидел сам и услышал от своих соплеменников в Стамбуле, Бурсе, Измире, Иерусалиме, Каире, Дамаске и Анкаре. При этом «Симеона, естественно, интересовали в первую очередь армяне, их численность, занятия и положение во всех городах и селах, где ему пришлось побывать» (24, с. 22). Автор-путешественник на многих страницах своего сочинения подробно рассказывает о тех благоприятных условиях, в которых армяне-христиане находились под властью османских султанов-мусульман. Так, он отметил, что почти во всех городах и многих селениях Малой Азии живут армяне, имеются их церкви, монастыри, священники, иноки (20, с. 37-35, 148-151, 156-161, 168, 178, 190-192, 201, 235-239). Свои сообщения Симеон Лехаци завершает примечательной фразой: «Не знаю, чем мы заслужили, что за исключением греков, все народы, и верующие, и неверующие, любят нас, хотя у народа нашего нет единодушия и (армяне) не любят друг друга, чем даже сделались известны» (20, с. 145). Современный армянский писатель-публицист С.С.Мамулов приводит слова некоего Р.Самсонова, которые дополняют эту последнюю черту армян: «У армян – историческая склонность к раздорам и ссорам, которые мешают им жить» (22, с. 19). У него же приведены слова В.Петросяна о том, что «самая главная причина бед армянского народа – агрессивность по отношению друг к другу» (22, с. 24). Не менее интересно заключение К.Заряна: «Армяне выживают, пожирая друг друга» (22, с. 25). С.Айвазян считает, что «злейшими врагами армян являются сами же армяне» (22, с. 25). Широко известный в 30-40-е годы XX века Г.Нжде, один из лидеров армянского националистического движения (2, с. 33), говорил: «Грехи армянства более способствовали крушению Армении, чем периодически вторгавшиеся на нашу землю враги. Армяне пожинают плоды своего недружного прошлого» (22, с. 23). Мамулов С.С. цитирует выдающегося армянского писателя, автора исторических романов Раффи, который говорил: «Измена и предательство – в крови армян» (22, с. 23).

Ряд современных армянских авторов также делает не самые оптимистичные для их соплеменников констатации. «Сегодня каждый четвертый армянин подвержен стрессу, различным психическим расстройствам и умственной недостаточности той и иной степени тяжести. На улицах можно встретить десятки тысяч душевнобольных, ни один из которых не состоит на специальном учете», - такое сенсационное заявление сделал главный психиатр Министерства здравоохранения Республики Армения Самвел Торосян (11). В отчете, подготовленном по итогам исследований, проведенных ереванским представительством ООН, подчеркивается, что «катастрофический рост числа психически больных граждан республики объясняется главным образом следующим: крайне низким жизненным уровнем, неразрешенностью нагорно-карабахской проблемы, а также псевдонациональными императивами» (11). С этими характеристиками психологического здоровья армян стыкуются слова выдающегося американского писателя армянского происхождения У.Сарояна, который отмечал: «Армяне – народ сумасшедший, или, может, кажется таким иногда» (22, с. 18). Ему вторит М.Арлен-младший: «Армяне – народ помешанный» (22, с.

18). Возможно, этим объясняется отмеченная С.С.Мамуловым привычка армян «вредить друг другу», они «не любят прощать», «страдают болезненной самовлюбленностью, вечно всем недовольны, вечно все усложняют» (22, с. 18). Возможно, от этого же корня черта, на которую обратил внимание Э.Чахоян: «Все беды, которые валятся на армянский народ, происходят оттого, что армяне не умеют любить, любить прежде всего ближнего своего и, главное, уважать друг друга» (22, с. 23-24). Заключим раздел словами А.И.Микояна, который играл ключевую роль в армяно-азербайджанском противостоянии. В 1919 году в статье «Армянский империализм» он писал: «Факт наличия армянского империализма является для армянского народа удивительным и комичным, даже трагикомичным, во всяком случае, выделяется своей специфичностью, реакционным характером и содержанием. Ныне Армения фактически занимает территорию Эриванской губернии, мусульманское население которой чуть меньше армянского. Но это единственная территория, где армяне живут сравнительно компактно и составляют большинство населения. В результате реакционно-шовинистской политики армянского правительства мусульмане, составляющие две пятых всего населения, не только отстранены от каких-либо форм участия во власти и управлении страной, но и наряду с иностранцами попали в бесправное положение» (10, с. 376-377).

**И еще армяне об армянах: «разные народы»**

Арменисты считают, что армянский этнос сложился на рубеже II-I тыс. лет до н.э. (18, с. 27). При этом в армянской литературе принято выделять различные группы армян по местам расселения и по другим признакам, вплоть до языковых и конфессиональных. Так, выделяются амшенские, карабахские, западные армяне, зоки, ахперы, а также – черкесогаи. Одновременно с этим относительно армян бытует дефиниция «разные народы»: таким понятием сама армянская интеллигенция подчеркивает различия между армянами диаспоры и Республики Армения. Об этом парадоксе весьма часто рассуждают сами арменисты: имеется в виду двойственность армянского этноса. Например, как считает Ерванд Азатян, «мы разные народы. Армения – кавказская страна. Диаспора со своими константинопольскими корнями и различными воздействиями – совершенно другой мир. Независимо от нас, сформировались две разные нации. Кровью схожие, языком почти схожие, однако мировоззрением – почти антиподы» (31).

Приведенные выше мнения подтверждают, что взаимоотношения армян Республики Армения и диаспоры не столь просты. Длительная «разлука» способствовала появлению между ними синдрома «китайской стены». Такая ситуация напоминает недавние проблемы «весси» и «осси», то есть западных и восточных немцев в объединенной Германии. Известно, что после того, как миновала эйфория, и те, и другие начали на собственном опыте постигать, что такое «совковый менталитет» и как неузнаваемо он способен изменить национальную психологию, вызвав отчуждение между представителями одного народа. Так что рассуждения писателя и языковеда Ерванда Азатяна, что приведены выше, далеко не беспочвенны. Суть в том, что собственно армянская диаспора начала складываться еще в IV веке (30, с. 4). Уже упоминавшийся С.С.Мамулов цитирует в связи с этим высказывания русского писателя В.Гроссмана: «Армяне – это народ-стоик и народ-путешественник» - и А.Волкова: «У армян давно нет отечества; их не привязывает ни родная сторона, ни дом, ни далекий путь, ни другой климат, ни народ негостеприимный; они едут и селятся везде» (22, с. 20-21). Ибо, как отметил Т.Амбарцумян, «Большинство армян предпочитают жить в изгнании, а не на собственной родине, потому что они стали воспринимать понятие Родины как то место на земле, где им позволяют выжить» (22, с. 24). Стоит также привести мнение С.Арутюняна: «Армяне постоянно откуда-то и куда-то мигрируют… Для них мир тесен всегда» (22, с. 24).

Естественно, что в условиях такого дисперсного расселения если и удавалось сохранить сознание религиозной, языковой, культурной и этнической общности, этого оказывалось недостаточно для единства менталитета, а порой и самоидентификации. Это

легко понять: живя столетиями в разных странах с различными реалиями, volens-nolens, армяне вряд ли могли сохранить первоначальную однородность. Вот почему К.Зарян отмечает: «Армяне вне своей родины перестают быть армянами, потому что мы по преимуществу нация, связанная со своей природой и страной, собирательное целое (подчеркнуто нами. – М.М.). В чуждой стране армяне сохраняют свой национальный облик до тех пор, пока помнят свою родную деревню и ореховое дерево у них во дворе и протекавший мимо их дома ручей» (22, с. 24). Аналогично мнение А.Айвазяна: «Армянин, как только ступает за пределы Армении, уже не армянин. Фамилия у него еще армянская, внешность тоже, язык еще не успел забыть, но уже считает себя кем угодно, только не армянином. Евреи меняются внешне, но внутренне остаются евреями. Армянин же, внешне оставаясь прежним, разрушается внутренне. Со временем он и внешне приспосабливается к своей новой стране и исчезает…» (22, с. 24). Поэтому можно согласиться с мнением известного французского шансона армянского происхождения, главы французского «Комитета помощи Карабаху» Шарля Азнавура, который знает, что говорит: «Армяне – самый ярко выраженный в мире народ-хамелеон» (22, с. 18).

Из вышеизложенного следует, что армянскому этносу, перманентно меняющему место обитания с VIII века до н.э. и до сих пор, как нельзя более подходит латинская поговорка «Ubi bene – ibi patria» («Где хорошо, там родина»). Ибо, как отметил М.Нейман, «армяне – космополиты по натуре. Они приспосабливаются к любому климату и к любому правительству» (22, с. 26). Когда же части армян удавалось собраться вместе, вступал в силу закон «притяжения- отталкивания». Вот одна из причин того, почему они не могут «усидеть» на одном месте. Однако не исключено, что «влечение к перемене мест» вызывают и другие причины – политические и социальные, военные и экономические. Поэтому, как заметил тот же С.С.Мамулов, «Армения занимает одно из первых мест в мире по темпам сокращения численности населения» (22, с. 38). Неясно лишь, сказано ли это с тем, чтобы подчеркнуть уникальность армянского этноса, или забить тревогу.

Но главная причина «двойственности» армян – многовековое отсутствие армянской государственности, которая была трижды ими утрачена в Малой Азии (в IV, VI, XI веках), и связанные с этим неоднократные миграционные передвижения и дисперсное расселение по миру. В результате сложилась широкая армянская диаспора – спюрк, охватывающая большинство армянского народа. Скажем, в сегодняшней Республике Армения живут 2.250 тыс. армян, тогда как в мире их по самым скромным подсчетам насчитывается более 7 млн. Ниже приведены данные о времени расселения и приблизительной численности армян в различных странах:

США – XIX век – 1 млн.
Россия – XIX век – 1 млн. 100 тыс.
Украина – XIII век – 54 тыс.
Грузия – XIX век – 391 тыс.
Канада – XIX век – 70 тыс.
Аргентина – XIX век – 85 тыс.
Бразилия – XIX век – 22 тыс.
Уругвай – XIX век – 32 тыс.
Западная Европа – V-XX века – 500 тыс.
Ближний и Средний Восток – IV-IX века – 500 тыс. (32).

Таким образом, дефиниция «разные народы» применительно к армянам имеет многовековую историю, что подмечено самими арменистами, которые пишут и говорят о трениях в армянских общинах. Так, на Северном Кавказе сегодняшнее внутриобщинное напряжение связано с залповой миграцией на Ставрополье из Армении: «В результате ускоренного пополнения возникло напряжение внутри армянской диаспоры между представителями «старых» и «новых» слоев, а также между представителями разных регионов исхода. Такие явления наблюдаются в различных городах Ставропольского края – Буденновске, Пятигорске, Кисловодске, Георгиевске, населенных пунктах Курского и

Предгорного районов» (7).

Таким образом, то, о чем писал еще в XVII веке армянский путешественник Симеон Лехаци, сохранило актуальность в наши дни – неприязнь друг к другу (20, с. 145). Эту черту характера армяне принесли с собой и на Кавказ. Вот почему, спустя 200 лет после Симеона Лехаци, на рубеже XIX-XX веков было отмечено: «армяне тифлисские, акулисские, елизаветпольские, карабахские, ахалцихские и ахалкалакские почти не понимают друг друга, и браки между ними редки» (26, с. 145). По другому свидетельству, «армяне-католики, люди одной расы с армянами-григорианами, неизмеримо выше последних: умнее, нравственнее, меньше нелюбимы соседями» (9, с. 126). По наблюдениям А.С.Грибоедова, принимавшего живейшие участие в переселении армян на Южный Кавказ в первой трети XIX века, иранские армяне «гораздо полезнее наших грузинских армян, вообще торгашей, не приносящих никакой пользы казне: а перешедшие из Персии большею частью – ремесленники и хлебопашцы» (13, с. 341). Его современник С.Н.Глинка приводит мнение российских офицеров Анненкова и Искрицкого, участников русско-иранской войны 1826-1828 годов: «Относительно переселения армян нужным считается присовокупить: между армянами - подданными турецкими и армянами - подданными персидскими, как известно из разных источников, существует ощутительная разница» (12, с. 140-141). Российский генерал И.Дубровин заметил: «Находясь в подданстве различных государств и разбросанное, можно сказать, по всему земному шару, армянское племя, подвергаясь вследствие того различному климату, образу жизни и занятий, утратило свою общую типичность» (15, с. 406).

Исследование современного армениста К.Э.Григорьян, посвященное разнородности армянского народа, подтверждает его дифференциацию на различные субэтнические группы как по религиозным, так и по языковым признакам. При этом автор делает акцент на «социо-культурном пограничье как факторе формирования этнического самосознания». Тем самым К.Э.Григорьян свидетельствует в пользу тезиса о разнородности армянского этноса, существовании «разных народов», объединяемых собирательным термином «армяне». Автор пишет, что у армян «монолитная культура состоит из различных этнокультурных образований» (14, с. 7). Отталкиваясь от этого постулата, К.Э.Григорьян описала 11 субэтнических подразделений армян (14, с. 32-159).

1. Хемшилы, самоназвание хемшин, хемшил, хемшинли, хемшильцы, турки – «исламизированная и ассимилированная турками часть амшенских армян Понта». Этноним происходит от топонима Хемшин в восточной части Малой Азии. Исламизация этой группы армян «постепенно привела к ориентации их на культуру турецкого мусульманского мира и вследствие этого к полной перемене прежнего этнокультурного облика, вплоть до потери этнического самосознания». Известны также армяне-хемшины (23, с. 21; 19, с. 373) - выходцы из Трабзона, османского вилайета в Малой Азии. Это – субэтническая группа, близкая к местным курдам-хемшинам. Еще в начале XX века в восточной части Малой Азии были зафиксированы хемшилы – армяно-мусульманское племя, состоящее из двух групп, резко разнящихся между собой: баш-хемшилы и хопе-хемшилы. Причем хопе-хемшилы говорили также по-армянски и в прошлом были христианами, а в начале XX века, когда их описали, исповедовали ислам и говорили по-турецки (21, с. 168).

2. Цыгане-армяне, или боша, самоназвание лом, приверженцы армяно-григорианской церкви, но есть также мусульмане. Говорят по-армянски.

3. Тумбульцы или «армяне-дервиши», прозваны так по топониму Тумбул, говорят по-армянски, живут подаянием: «Под именем дервишей они обходили города, священные для мусульман: Мекку, Медину, Кербелу, где, переодевшись в правоверных странников, просили милостыню и молились Магомету. Следующим пунктом их путешествия был Иерусалим. Там дервиши переодевались в православных монахов и также просили подаяния».

4. Донские армяне или новонахичеванцы, периферийная субкультурная группа, переселившаяся в Ростовскую область в XVIII веке из Крыма. Сохранили язык, веру и самосознание.

5. Амшенские армяне – до сего дня они «в силу исторически сложившихся причин живут в изоляции от основного этнического ядра» (21, с. 79). Обитают в Малой Азии. Для них характерен амшенский диалект армянского языка, который наиболее отклонился от литературной нормы.

6. Эдессийцы названы по селу Эдессия Курского района Ставропольского края, где армяне появились в XVIII веке. Хотя они являются прихожанами армяно-григорианской церкви, «одна из особенностей их культуры – тюркский этнолект».[4] Тюркизация эдессийцев, которые называют себя бизымча («по-своему говорящие»), могла произойти, когда они жили в Азербайджане, или раньше.

7. Армяне-католики – используют западный вариант армянского языка, однако в Грузии в обиходе говорят на грузинском, а часть – на турецком. Эта субэтническая группа сложилась во время крестовых походов в XI-XII веках. Особое влияние католицизм имел на армян на рубеже XIX-XX веков. В конце XIX века в Тбилиси имелось 35 армяно-католических храмов. До сегодняшнего дня местом компактного расселения армян-католиков в Грузии остается губерния Самцхе-Джавахети.

8. Армяне-греки исповедуют православие греко-халкидонитского толка. До начала XX века жили преимущественно в Самцхе-Джавахети. Говорят по-армянски и по-грузински.

9. Армяне-черкесогаи – самоназвание эрмелы, в этнографической литературе именуются черкесскими или горскими армянами. Живут на Северном Кавказе, где «утратили свою первоначальную традиционную культуру и армянский язык, полностью заимствовав местные обычаи и даже языковые диалекты адыгов». Однако они остались адептами армяно-григорианской церкви. Вместе с тем «для черкесогаев была характерна противоречивость в определении своей этнической идентичности». Они именовали себя то черкесогаями, то черкесами, то армянами. Возможно, поэтому соседи также именовали их по-разному: армяне, черкесогаи, черкесские армяне, черкесы. Сегодня они забыли армянский язык и общаются на русском.

10. Армяне-зоки - хотя по традиционной культуре в целом принадлежат к общеармянскому массиву, «устойчивые представления зоков и остального армянского населения об их еврейском происхождении дают право считать зоков стигматизированной (отдельной. – М.М.) группой».

11. Ираноязычные армяне считаются частью татов, дисперсно расселенных в Иране, Азербайджане, России. Владеют персидским, русским, армянским языками.

Еще в конце XIX века на Северном Кавказе, в Армавире были известны армяне, жившие среди горцев-шапсугов и усвоившие их нравы, обычаи и говорящие по-шапсугски (язык кавказской семьи) (27). В начале XX века на Северном Кавказе были отмечены также армяне, говорившие на адыгейском языке (23, с. 21; 19, с. 373).

В конфессиональном отношении армяне также давно не однородны. Среди них есть не только григориане, но и халкидониты, католики, протестанты, православные (4, с. 355; 5, с. 326-329; 8, с. 329-340). Даже в самой армяно-григорианской церкви функционируют четыре католикосата: Эчмиадзинский, Константинопольский, Киликийский, Иерусалимский. Армянское католичество зародилось в XIV веке. Лютеранство среди армян распространилось в XIX веке в связи с деятельностью на Кавказе базельских миссионеров; православие среди них стало распространяться в 40-е годы XIX века, в частности в Нахчыванском и Эчмиадзинском уездах Эриванской губернии.

**Заключение**

Уже цитировавшаяся выше армянский исследователь К.Э.Григорьян права, отмечая, что «появление субэтнических групп армянского народа связано непосредственно с его историко-политическими судьбами» (28, с.43-44, 46-47, 265-266). Остается только добавить,

---

[4]**Этнолект**, или **региональный вариант** – региональная разновидность языка, используемого определенной этнической группой (ср. «дагестанский этнолект русского языка» - вариант русского языка, бытующий в Дагестане). – М.М.

что в итоге появилась широкая армянская диаспора, привнесшая в обиход дефиницию «разные народы».

Таким образом, до сего дня среди армян существует разница в наречиях и конфессиях, и их можно разделить на несколько историко-культурных и территориальных общностей. О том, что армяне – «разные народы», свидетельствует также ономастика: армянские фамилии в подавляющем своем большинстве – тюркского, персидского, арабского происхождения. Это еще один результат многовекового дисперсного расселения армян на различных землях, преимущественно в мусульманских странах Ближнего и Среднего Востока. Суть в том, что в результате миграции из Европы в Азию армяне утратили свои европейские корни, но не стали вполне азиатским народом. Возможно, потому, что, во-первых, армяне – «разные народы»; во-вторых, весьма мобильны; в-третьих, имеют в своей истории множество «армений»; в-четвертых, восприимчивы к заимствованиям; в-пятых, легко приспосабливаются к условиям страны пребывания. Иначе говоря, смена ареалов и стран мешает выработке единого определения конкретной армянской родины, отечества, родной земли. Поэтому по умолчанию решено, говоря об Армении, никогда не уточнять, о какой именно идет речь; излагая историю армянской государственности, писать о политической системе определенной территории. Вследствие сказанного историки пишут не историю Армении, а историю армянского народа.

## ЛИТЕРАТУРА


1. Абегян М. История древнеармянской литературы. Ереван, 1975
2. Абрамян Э. Кавказцы в Абвере. Москва, 2006
3. Адонц Н. Армения // Новый энциклопедический словарь (НЭС) Брокгауза – Ефрона, том 3. С.-Петербург, 1912
4. Армянская католическая церковь // Православная энциклопедия (ПЭ), том III, Москва, 2001
5. Арутюнова-Фиданян В.А. Армяне-халкедониты // Православная энциклопедия (ПЭ), том III, Москва, 2001
6. Арутюнова-Фиданян В.А. Повествование о делах армянских. VII век. Москва, 2004
7. Аствацатурова М.А. Этнические меньшинства Ставропольского края: этносоциальная и этнополитическая динамика // www.iatp.am/economics/migr/obd.htm
8. Бозоян А.А., Юзбашян К.Н. Армянская апостольская церковь // Православная энциклопедия (ПЭ), том III, Москва, 2001
9. Величко В.Л. Кавказ. Русское дело и междуплеменные вопросы. С.-Петербург, 1904
10. Гасанлы Дж.П. СССР-Турция: полигон холодной войны. Баку, 2005
11. Газ. «Право выбора», 2005, №1
12. Глинка С.А. Описание переселения армян аддербиджанских в пределы России. Москва, 1831
13. Грибоедов А.С. Записка о переселении армян из Персии в наши области, сочинения в двух томах. Том 2. Москва, 1971
14. Григорьян К.Э. Социо-культурное пограничье как фактор формирования этнического самосознания (на примере субэтнических групп армян). Москва, 2006
15. Дубровин Н. История войны и владычества русских на Кавказе, том I, кн.2. С.-Петербург, 1871
16. Исмаилов Э.М. Предисловие научного редактора / В кн.: Карагезов Р. Метаморфозы коллективной памяти в России и на Центральном Кавказе. Баку, 2005
17. История Армении Моисея Хоренского. Перевел с армянского и объяснил Н.Эмин. Москва, 1858
18. История армянского народа. С древнейших времен до наших дней. Под ред. проф. М.Г.Нерсисяна. Ереван, 1980
19. История народов Северного Кавказа. С древнейших времен до XVIII века. Москва, 1988.
20. Лехаци Симеон. Путевые заметки. Пер. с арм. Москва, 1965
21. Лиозен Э.К. Берег Русского Лазистана // Известия КОИРГО, том XVIII, 1905-1906 годы. Тифлис, 1906

22. Мамулов С.С. Удивительный народ из страны чудес (Армения и армяне – уникальный феномен цивилизованного мира) / Книга четвертая. Москва, 2005
23. Народы Кавказа. Том I. Москва, 1960
24. Предисловие переводчика М.О.Дарбинян / В кн.: Симеон Лехаци. Путевые заметки. Пер. с арм. Москва, 1965
25. Русская и армянская средневековые литературы. Ленинград, 1982
26.Справка прокурора Эчмиадзинского синода А.Френкеля, представленная в 1907 году св. Синоду // Известия АН Азерб. ССР, СИФП, 1989, №2
27.Чурсин Г.Ф. Кавказский край / Энциклопедический словарь Брокгауза-Ефрона, том.26
28.Шпажников Г.А. Религии Западной Азии. Москва, 1976
29.Эмин Н. Предисловие / История Армении Моисея Хоренского. Москва, 1858
30.Юзбашян К.Н. Армянские государства эпохи Багратидов и Византия IX-XI веков. Москва, 1988
31. www.armenia.ru
32. www.iatp.am/economics/migr/obd.htm.
33. www.alanianet.ru/neokavkaz/n5/5-9htm

## XÜLASƏ

**Musa İsmayılov**

**Ermənilər özlərini necə dərk edirlər?**

Əsrlər öncə Balkan yarımadasından Qafqaza doğru miqrasiya edərək bir sıra xalqların təsirinə məruz qalan erməni xalqı yeni mühit və şəraitə qısa müddətdə uyğunlaşmaq vərdişini qazanmışdır. Nəticədə əksər ermənilər ənənəvi olaraq bütün dünyaya səpələnərək diaspor şəklində yaşamağa başlamışlar. Bununla yanaşı erməni xarakterində bəzi mənfi xüsusiyyətlər, ilk növbədə qarşılıqlı çəkişmə və antipatiyaya meyllilik, həmrəyliyin olmaması, dözümsüzlük və s. meydana gəlmişdir. Bir çox erməni müəllifləri bu barədə çoxlu məlumatlar vermişlər. Məqalədə erməni müəllifləri tərəfindən öz həmvətənlərinə verilən xoşagəlməz təsvirlər öz əksini tapmışdır. Erməni xalqının köçəri tarixinin, müxtəlif dövlət və xalqların hakimiyyəti altında yaşamasının digər bir nəticəsi etnik-dini müxtəliflik olmuşdur.

## ABSTRACT

**Musa Ismailov**

**How the Armenians perceive themselves?**

Starting migration to Caucasus from the Balkans and assimilated by a number of peoples, Armenians had developed adaptability to new conditions. This enabled Armenians' settling all over the world, as traditionally their majority live abroad from Armenia. Along with this, Armenian a number of negative features impacted their mentality, such as disposition for strife and aversion, illiteracy and lack of cohesion, as Armenian authors say themselves. Several statements by Armenian authors about these features are gathered in this article. Another consequence of Armenians nomadic life and their stay under the rule of other peoples caused ethnic and confessional heterogeneity.

NDU-nun Elmi Şurasının 30 mart 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru, professor* M.Rzayev

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. ELMİ ƏSƏRLƏR, 2016, № 6(75)

NAKHCHIVAN STATE UNIVERSITY. SCIENTIFIC WORKS, 2016, № 6 (75)

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. НАУЧНЫЕ ТРУДЫ, 2016, № 6 (75)

# İQTİSAD ELMLƏRİ

**AĞARZA RÜSTƏMOV**
*Naxçıvan Dövlət Universiteti*
**TALIBOVA.H**
*Azərbaycan Texniki Universiteti*

**UOT:332.1**

## MÜASİR İQTİSADİ ŞƏRAİTDƏ İNNOVASİYALI SAHİBKARLIQ FƏALİYYƏTİNİN İNKİŞAFI MƏSƏLƏLƏRİ

**Açar sözlər:** *milli iqtisadiyyat, iqtisadi inkişaf, iqtisadi tənzimləmə, iqtisadi islahatlar, iqtisadi model, sahibkarlıq, bazar iqtisadiyyatı, innovasiya*

**Key words:** *entrepreneurship, market economy, monopoly, national economy, economic development, economic regulation, economic reforms, economic model, innovation*

**Ключевые слова:** *национальная экономика, экономическое развитие, экономическое регулирование, экономическое реформы, экономическия модель, предпринимательство, рыночная экономика, инновация*

Müasir qloballaşan dünyada iqtisadi sahələr üzrə texnika və texnologiyaların tətbiqi prosesi sürətlə dəyişməkdədir. Müvafiq şəraitdə yeni məhsul və texnoloji prosesləri yerli şəraitə uyğunlaşdırmaq, eləcə də, məhsuldarlığı və xərcləri azaltmaq üçün onların təkmilləşdirilməsinə tələb vardır. Azərbaycan iqtisadiyyatında məhsul və proseslərdə həyata keçirilən kiçik dəyişikliklərin ümumi təsiri bir çox hallarda yeni iri texnologiyanın təsirindən böyük ola bilər. Məhz buna görə də mövcud texnologiyaların yerli şəraitə uyğunlaşdırılması ilkin innovasiyalar qədər məhsuldar və effektiv ola bilər. İqtisadi baxımdan inkişaf etmiş ölkələr əsasən diqqətlərini elmi-tədqiqat və təcrübi konstruktor işlərində ümumiləşdirirlər. Göstərilən halda dövlət əsasən digər ölkələrdən alınmış texnologiyanın əldə edilməsi, mənimsənilməsi, yerli şəraitə uyğunlaşdırılması və təkmilləşdirilməsi üzrə vasitəçilik funksiyalarını da üzərinə götürür .

Son 20 il ərzində Azərbaycanın sosial-iqtisadi inkişafında əhəmiyyətli nəticələr əldə olunmuşdur. Bunun da əsas səbəbi Azərbaycanda davamlı inkişafın təmini üzrə böyük iqtisadi layihələrin həyata keçirilməsidir. İqtisadiyyatın innovasiya yolu ilə inkişafı, innovasiyaların təşviqi probleminin həlli, innovativ sahibkarlığın formalaşdırılması və inkişafı, bu sahədə kadr çatışmamazlığının aradan qaldırılması ilə bağlıdır. Bundan başqa müasir tələblərə cavab verən peşəkar menecerlərin yetişdirilməsi, bu istiqamətdə qanunvericilik bazasının beynəlxalq tələblərə uyğun təkmilləşdirilməsi zəruridir.

Azərbaycanda ayrı-ayrı iqtisadi sahələr üzrə sahibkarlıq fəaliyyəti sürətlə inkişaf etməkdədir. Təəssüf ki, innovativ sahibkarlıq fəaliyyəti ölkəmizdə hələ də geniş yayılmamışdır. Bu sahədə ümumi maarifləndirilmənin aparılması, beynəlxalq təcrübədən yararlanma mütləqdir.

İnnovasiya və sahibkarlığın biliklə vəhdətinin , eləcə də , elmin yeniliklərin istehsal və xidmət sahələrində tətbiqi vacibdir. Azərbaycan dövləti bütün elm sahələri üzrə güclü elmi potensiala malik oldugundan yaxın gələcəkdə bu sahədə ciddi dəyişikliklərin olacağı qaçılmazdır.

Son illər üzrə aparılmış tədqiqatlar göstərir ki, ölkəmizdə alimlər və ixtisaslı mütəxəssislərlə xarici və yerli şirkət nümayəndələri arasında işgüzar əməkdaşlıq əlaqələri lazımi səviyyədə formalaşdırılmamışdır. Azərbaycanda innovasiya sahibkarlığının inkişaf etdirilməsi məqsədi ilə (mərkəz və regionlar üzrə) davamlı olaraq bir sıra tədbirlər həyata keçirilməkdədir.

Son illərin sahibkarlıq fəaliyyəti göstərən kiçik müəssisələrin işini səciyyələndirən statistik göstəricilərin təhlilinə baxsaq görərik ki, əgər 2005-ci ildə Azərbaycan Respublikasında 11982 müəssisə və bu müəssisələrin məhsulunun (işin və xidmətin) həcmi 657480,1 min manat olmuşdursa, 2014-cü ildə bu göstərici 20% artaraq 14398 müəssisə olmuş, onların məhsulunun (işin və xidmətin) həcmi 2547200,8 min manat olmuşdur.

Azərbaycanda 2014-cü ildə sahibkarlıq fəaliyyəti ilə məşğul olan xarici və birgə müəssisələrin fəaliyyətinin təhlili göstərir ki, bu sahədə fəaliyyət göstərən müəssisələrin sayı 2014-cü ildə 1218, onların məhsulunun (işin və xidmətin) həcmi isə 27590096,1 min manat olmuşdur. Son illər üzrə mövcud statistik göstəricilərin təhlili göstərir ki, ölkəmizdə mülkiyyət formasından asılı olmayaraq tətbiq olunan innovasiya layihələrinin miqyası hər il artmaqdadır .

Təhlil olunan dövrdə texnoloji innovasiyalara çəkilən xərclərin 76,5% müəssisənin öz vəsaiti, 14,5%-i dövlət büdcəsi, 9%-i sair fondlar hesabına maliyyələşdirilmişdir . Bütün sənaye sahəsi üzrə texnoloji innovasiyalara çəkilən xərclər əgər 2012-ci ildə 9326 min manat olmuşdursa, 2014-cü il yanvar ayına bu göstərici 1,4 dəfə artaraq 13877 min manat olmuşdur. Müəssisələrin öz vəsaiti hesabına texnoloji innovasiyalara çəkilən xərclər 2014-cü il yanvar ayına 12377 min manat, dövlət büdcəsi hesabına 551 min manat olmuşdur.

Azərbaycan Respublkasının Prezidenti cənab İlham Əliyevin 2012-ci il 29 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş “Azərbaycan 2020: Gələcəyə baxış” inkişaf konsepsiyasında qeyd olunur ki, uzunmüddətli davamlı iqtisadi inkişafı təmin etmək, “bilik iqtisadiyyatı”nı formalaşdırmaq, elmitutumlu texnologiya, məhsul (işlər, xidmətlər) yaradılmasını sürətləndirmək məqsədi ilə innovasiya fəaliyyətinin genişləndirilməsi əsas prioritetlərdən olmalıdır.

Məhz buna görə elmin inkişafına yerli xüsusiyyətlər və qlobal meyllər nəzərə alınmaqla önəm verilməli və onun mütərəqqi dünya elminə səmərəli inteqrasiya prosesi təmin olunmalıdır.

Azərbaycanda innovasiya fəallığının yüksəldilməsi yolu ilə rəqabətqabiliyyətli məhsul istehsalının stimullaşdırılması, innovasiya fəaliyyətinin həyata keçirilməsi üçün zəruri mexanizmlərin formalaşdırılması, innovasiya potensialının səmərəli istifadə və inkişafının təmin edilməsi məqsədi ilə dövlət dəstəyi tədbirlərinin reallaşdırılması üçün müvafiq qanunvericilik bazasının yaradılmasına zərurət vardır.

2020-ci ilə qədər olan dövrdə Azərbaycan Respublikasında polad istehsalı, neft-qaz emalı və neft-kimya kompleksləri, gübrə, gəmiqayırma və sement zavodlarının inşası, alüminium sənayesinin inkişafı, ilkin alüminium istehsalının artırılması, özəl sektorun iştirakı ilə son məhsulun istehsalına qədər texnoloji zəncirin qurulması, bu sahənin ixrac potensialının genişləndirilməsi nəzərdə tutulur.

Eyni zamanda iqtisadi rayonlar üzrə sənaye şəhərciyi infrastrukturunun formalaşdırılması, qeyri-neft emalı sənayesinin inkişafı ilə bağlı dövlət investisiya siyasətində əsas

prioritetlərdəndir. Son illər Azərbaycanda innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şərait yaratmaq məqsədi ilə imzalanmış “Sumqayıt Kimya Sənaye Parkının yaradılması haqqında” Fərmanın və 2011-ci il 28 dekabr tarixli “Bakı şəhərində Balaxanı Sənaye Parkının yaradılması haqqında” Sərəncamının icrası istiqamətində ciddi işlər görülmüşdür.

Qeyd etmək lazımdır ki, ölkə regionlarının çoxunda elmi təşkilatların potensialından hələ də kifayət qədər istifadə olunmur. Əsas səbəblərdən biri də ondan ibarətdir ki, elmi işləmələrin məhsulları heç də həmişə rəqabətqabiliyyətli əmtəələr kimi çıxış etmirlər. Elmi təşkilatların müəssisələrlə əvvəllər mövcud olan əlaqələrinin pozulması elm və istehsal istiqamətlərinin ayrılmasına səbəb olmuşdur. Çatışmamazlıqların aradan qaldırılması və regional səviyyədə innovasiya fəaliyyətini genişləndirmək üçün regional innovasiya strategiyasının işlənib hazırlanması mütləqdir.

Milli iqtisadi sahələrin xammal yönümlü inkişafı texnoloji baxımdan geridə qalmaya səbəb olmaqla innovasiyaların tətbiqini ləngidir. Ölkəmizi iqtisadi cəhətdən inkişaf etmiş ölkələr sırasına çıxarmağa qadir olan makrostrategiyanın əsasında innovasiyalı informasiya texnologiyalarının tətbiqi dayanır. Bu aspektdən yanaşıldıqda respublikada, xüsusilə də onun regionlarında innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılmasına və inkişafına zərurət yaranmışdır. Beynəlxalq təcrübədə aparıcı mövqeyə malik bazar iqtisadiyyatlı hər bir ölkənin rəqabətqabiliyyətliliyinin və yüksək həyat səviyyəsinin təminində fasiləsiz innovasiya axtarışı təşəkkül tapır.

Müasir neft strategiyasının uğurla reallaşdırılması iqtisadi regionların inkişafının maliyyələşdirilməsi üçün zəruri vəsaitlərin toplanmasına səbəb olmuşdur.

Müair iqtisadi şəraitdə insan kapitalına yönəldilən investisiyalar milli iqtisadiyyatın dayanıqlı inkişafının təmin edilməsində mühüm rol oynayır. Qeyd edək ki, insan kapitalının keyfiyyətinin artması həm vətəndaşların gəlirlərinin, həm də əmək məhsuldarlığının yüksəldilməsinə, innovativ fəaliyyətin inkişafına şərait yaradır. Azərbaycanın regional şəhərlərinin hüdudlarında innovativ ərazi-sənaye zonalarının yaradılmasının stimullaşdırılmasına böyük ehtiyac vardır .

Məhz bu məqsədlə qeyd olunan istiqamətdə xüsusi proqramların işlənib hazırlanmasına ehtiyac vardır. Aparılmış təhlillər göstərir ki, innovasiyalı ərazi-sənaye zonalarının Şirvan, Gəncə, Sumqayıt, və Mingəçevir şəhərlərində yaradılması bu şəhərlərdə innovasiyalı sahibkarlıq fəaliyyətinin güclü inkişafına səbəb ola bilər. Bu istiqamətdə aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

- istehsal müəssisələri üzrə maliyyə-kredit dəstəyi hesabına yüksək texnoloji məmulatların hazırlanması və yaradılması üçün şəraitin təmin edilməsi;
- innovasiyalı sahibkarlıq fəaliyyəti ilə məşğul olanlara istehsal və xdmət sahələri üzrə vergi və gömrük sahəsində imtiyazlarının verilməsi, enerji resurslarının tariflərinin aşağı salınması, büdcəyə borcların və enerji resursları ödənişi üzrə öhdəliklərin restrukturizasiyasının aparılması hesabına yerli məhsul istehsalçıları üçün daha geniş əlverişli rejimin təmin edilməsi;
- regional müəssisələrin boş istehsal və torpaq sahələrinin effektiv istifadəsi, yüksək ixtisaslı kadrların elmi-texniki potensialının qorunub saxlanması, ixtisaslaşmış sənaye müəssisələrində yeni iş yerlərinin yaradılması;
- sifariş üzrə müəyyən nomeklaturalı ixtisaslaşmış məhsulların zəmanətli satışı üçün şəraitin yaradılması və s.

Yaxın perspektiv dövr ərzində Azərbaycanın innovasiya sisteminin inkişafının regionlar üzrə nəzərə alınmaqla həyata keçirilməsi məqsədəuyğun sayılır. Bunun üçün aşağıdakı tədbirlərin işlənib hazırlanması və yerinə yetirilməsi məqsədəuyğunhesab olunur:

-regionlarda , onların iqtisadi və sosial inkişafa effektiv inteqrasiyası üzrə innovativ inkişaf proqramlarının işlənib hazırlanması və reallaşdırılması;

- Azərbaycanın ayrı-ayrı regionları üzrə innovasiyalı elm mərkəzlərinin yaradılmasına dövlət köməyi artırılmalı , eləcə də iqtisadi rayonlar üzrə yeni texnologiyaların transferti mərkəzlərinin yaradılması;

- regionlarda elm və texnikanın dövlət üçün prioritet sayılan inkişaf istiqamətlərində fundamental tədqiqatlar aparan elm və təhsil müəssisələrinin fəaliyyətinin inteqrasiyasını təmin edən, tədqiqat institutlarının funksiyasını yerinə yetirən ali təhsil məktəblərini düzgün yerləşdirmək üçün yerlərin müəyyən edilməsi, onların digər regionlara daha çox multiplikativ təsir göstərən regionlarda yerləşdirilməsinə üstünlük verilməsi;

- ölkə regionlarının investisiya-innovasiya inkişaf proqramına uyğun innovasiya fəaliyyətinin istehsal-texnoloji infrastrukturunun, innovasiya-texnoloji mərkəzlərinin, biznes-inkubatorlarının inkişafının sürətləndirilməsi;

- Ölkə ərazisində xüsusi iqtisadi zonaların ( innovasiyalı sənaye istehsalı və xidmət sahələri üzrə ) yaradılmasının stimullaşdırılması.

Respublikamızın regionlarında innovasiyalarin idarə edilməsi sisteminin təhlili göstərir ki, onlar üçün mövcud olan əsas ənənəvi problem regional innovasiya potensialının reallaşdırılması üçün zəruri olan dəqiq müəyyənləşdirilmiş innovasiya strategiyasının təkmil olmamasıdır. Bunun üçün Azərbaycan Respublikasının regionları üçün regional planlaşdırmanın analitik üsullarından , eləcə də Avropanın TACİS EES ekspert xidmətinin tədqiqat qrupu tərəfindən işlənib hazırlanmış metodikadan istifadə etməklə postsovet məkanı ölkələrinin təcrübəsi nəzərə alınmaqla innovasiya strategiyasının yeni layihələndirilməsi mexanizminin tətbiqi məqsədəuyğundur .

## ƏDƏBİYYAT

1. Qasımov F.H., Əliyev T.N., Nəcəfov Z.M. Milli innovasiya sisteminin təşkili və idarə edilməsi, Dərs vəsaiti. Bakı: Elm və təhsil, 2013, s. 678

2. Qasımov F.H., Hüseynova A. N. **innovasiya sistemi və onun informasiya təminatı,** Dərs vəsaiti. Samara: «Ас Гард» nəşriyyatı MSC, 2013. s.382

3. www.stat.gov.az

4. Инновационный менеджмент. Под ред. С.Д.Ильенковой. М., ЮНИТИ, 2014, s.269

5. Иванова, Н.; Малый инновационный бизнес в странах развитой рыночной экономики // Рос. экон. журн. - М., 2010. - N 12. - С. 76-81

## ABSTRACT

**Rustamov A.A**

**Talibov A.H**

**The problems of development of innovative entrepreneurship activity under the modern economic condition**

The article was dedicated to the problems of development of innovative entrepreneurship activity under the modern economic condition. İn the article focuses basic properties of innovasion biznes activity, indetifying him regional and country properties. The increasing innovative entrepreneurship activity is considering important under the modern market economy condition.

The article on the base of investigation to detect omission and deficiency and definition direction its elimination on the nearest perspective period, also scientific proved and related with experience suggestions and recommendations are given.

Suweys of business activity in this direction is the development of innovative aspects of the modern period studied,the determination of the issues have been considered on an individual bazis.

The article dealt with on the basis of investigations carried out at the same time significant shortcomings observed in the specifed direction , the criteria for the period in the near future trends and systematically remove them appointed also indenfiying suggest and scientific proved connect advice with connect and experience.

## РЕЗЮМЕ

**Рустамов.А.А.**

**Талыбов. А.Г.**

**Вопросы развитие инновационной предпринимательскый деятельности в современной экономическый стадии.**

Подготовленная статья повествует о вопросах развития инновационнный предпринимательскый деятельности на современном этапе развития. В работе основное внимание уделятся первоочередным свойствам этой деятельности , просясняются его особенности на уровне стране и регионов. При проведенных в этом направлении исследованиях на основе изучения инновационнный предпринимательскый деятельности были в индиви-дуальный форме рассмотрены ее вопросы назначения.

Так же в подвергнутом исследованию обьекте в статье были прояснены отри-цательные стороны и недостатки по теме, в системном порядке определены их направ-ления и факторы по устранению в перспективном периоде , были высказаны основанные и взаимосвязанные с практикой выводы.

NDU-nun Elmi Şurasının 30 mart 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. ELMİ ƏSƏRLƏR, 2016, № 6(75)

NAKHCHIVAN STATE UNIVERSITY. SCIENTIFIC WORKS, 2016, № 6 (75)

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. НАУЧНЫЕ ТРУДЫ, 2016, № 6 (75)

**AKİF MƏDƏTOV**
**ASƏF QƏRİBOV**
*Naxçıvan Dövlət Universiteti*
*Email: asafqaribov@yahoo.com*

**UOT:332.1**

# NAXÇIVAN ƏRAZİ-İSTEHSAL KOMPLEKSİ: FORMALAŞMASI VƏ İNKİŞAFININ MÜASİR MƏRHƏLƏSİ

**Açar sözlər:** *istehsal kompleksi, regional siyasət, blokada, iqtisadi mexanizmlər, xarici əlaqələr*

**Ключевые слова:** *производственный комплекс, региональная политика, блокады, экономические механизмы, внешние связи*

Müasir mərhələdə ölkə ərazisində məhsuldar qüvvələrin səmərəli inkişafı və yerləşdirilməsi, ərazi istehsal komplekslərinin formalaşması və inkişafının uzun müddətli strategiya və taktikasının düzgün müəyyən edilməsindən asılıdır. Bu baxımdan, ölkədə davamlı iqtisadi inkişafı təmin etmək üçün hər bir regionun malik olduğu təbii resurs potensialının qiymətləndirilməsi, onun təsərrüfat dövriyyəsinə cəlb olunması və səmərəli istifadə edilməsi qarşıda duran mühüm problemlərdəndir. Məlum həqiqətdir ki, respublikamız üçün məhsuldar qüvvələrin ərazicə qeyri-bərabər yerləşməsi xarakterikdir. Ölkənin məhsuldar qüvvələrinnin çox hissəsi Bakı şəhəri və onun ətrafında cəmləşmişdir ki, bu meyl indi də davam edir. Belə ki, 2014-cü ildə ümumi məhsul buraxılışında Bakı-Sumqayıt iqtisadi rayonun xüsusi çəkisi 70,0%-ə bərabər olmuşdur. Bu baxımdan müasir dövrdə ölkənin qarşısında duran mühüm vəzifələrdən biri regionların sosial-iqtisadi inkişaf səviyyələri arasındakı fərqi azaltmaq, bütün iqtisadi rayonlarda, ərazi –istehsal komplekslərində məhsuldar qüvvələrin səmərəli inkişafı və yerləşdirilməsini təmin etməkdən ibarətdir. Qeyd etmək lazımdır ki, ölkə neft və qaz ehtiyatları ilə yanaşı, digər təbii resurslarla da zəngindir və bu ehtiyatların əsas hissəsi regionlarda yerləşir. Buna görə də regionların təbii resurs potensialından istifadə etməklə, ölkənin qeyri-neft sektorunun inkişafı ilə yanaşı, regionlarda da sosial-iqtisadi

inkişafı təmin edəcək irimiqyaslı təbii və əmək resurslarının təsərrüfat dövriyyəsinə cəlb edilməsi zəruridir.

Ölkənin iri regionlarından biri olan Naxçıvan Muxtar Respublikası iqtisadi regionunda təbii şəraitin əlverişliliyi və təbii resursların rəngarəng olması burada iqtisadi inkişafın təmin edilməsi üçün əlverişli şərait yaratmışdır. Belə ki, bu region dəmir filizi, qızıl, əhəng daşı, tikinti material-ları və s. mineral ehtiyatlarla zəngindir. Burada kənd təsərrüfatının və turizmin inkişafı üçün böyük imkanlar vardır. Böyük razılıq hissilə qeyd edilməlidir ki, bu potensialdan sovet hakimiyyəti illərində müəyyən dərəcədə istifadə edilmiş, Naxçıvan Muxtar Respublikasında sənaye və kənd təsərrüfatı istehsalının çox sahəli strukturunun yaradılmasında xeyli irəliləyişə malik olmuşdur. Belə ki, XX əsrin ikinci yarısından başlayaraq muxtar respublikada yeni istehsal sahələri yaradılmış, zəngin təbii ehtiyatlar aşkara çıxarılaraq istismara cəlb olunmuş, sə-naye müasir texnika və texnologiya ilə təhciz edilmişdir(1,s.142).

Müasir şəraitdə isə Naxçıvan Muxtar Respublikası inkişafda olan çoxsahəli sənaye və aqrar-sənaye respubkasıdır. Naxçıvan Muxtar Respublikasının sənaye-sində məhsullarının emalı və faydalı qazıntı hasilatı xüsusi yer tutur. Elektronika, metal emalı, tikinti materialları, yeyinti və yüngül sənayesi var. Kənd təsərrüfatı əsasən taxılçılıq, heyvandarlıq, tərəvəzçilik və bağçılıq sahəsində ixtisaslaşmışdır.

XX əsrin 90-cı illərinin əvvəllərindən mənfur ermənilərın Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində Naxçıvan Muxtar Respublikası ətraf aləmdən tamamilə təcrid olunmuşdur. 25 ildən artıq bir dövr ərzində blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasının iqtisadi həyatında müşahidə olunan tənəzzül həyata keçirilən proqram xarakterli, sistemli tədbirlər nəticəsində qısa müddətdən sonra iqtisadi tərəqqi ilə əvəzlənmişdir. Bu bir həqiqətdir ki,bu gün Naxçıvan Muxtar Respublikası iqtisadi inkişaf səviyyəsinə görə Azərbaycan Respublikasının regionları arasında ilk yerlərdən birini tutur. İndiki şəraitdə Naxçıvan Muxtar Respublikası öz iqtisadi və sosial inkişafının yeni mərhələsinə qədəm qoymuşdur.

Son 20 il müddətində ümumi daxili məhsulun həcmi 1995-ci ilə nisbətən 54,7 dəfə artaraq 2 milyard 391 milyon manat təşkil etmişdir. Hər bir nəfərə düşən ÜDM-un həcmi 41,4 dəfə artaraq 5465 milyon manat olmuşdur. 1995-ci ilin sonuna muxtar respublikada 56 sənaye müəssisəsi fəaliyyət göstərirdisə, ötən dövr ərzində bu müəssisələrin sayı 7,8 dəfə artmış, sənaye məhsulu-nun həcmi 97,6 dəfə artaraq 891 milyon manatdan çox olmuşdur. Sevindirici haldır ondan ibarətdir ki, bi dövrdə yeni yaradılmış müəssisələrdə istehsal olunan məhsulların növü 361-ə çatmış, 343 növdə məhsul istehsalı əhalinin yerli tələbatının ödənilməsinə sərf edilmişdir. Müasir şəraitdə kənd təsərrüfatı məhsullarının istehsal həcminin yüksəldilməsində də böyük irəliləyişlərə nail olunmuşdur(6,s.35).“2008-2015 “-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair “Dövlət Proqramı” və 2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin inkişafı üzrə “Dövlət proqramı“nın müvəf-fəqiyyətlə həyata keçirilməsi nəticəsində aqrar sektorun sabit və dayanıqlı inkişafında böyük dəyişikliklər əldə edilmişdir.

Son 20 il müddətində əkin sahəsi 25,5 min hektardan 61,4 hektara çatdırılmış, 230 heyvan-darlıq, 64 ətlik və yumurtalıq istiqamətlərində quşçuluq, 95 arıçılıq, 72 balıqçılıq təsərrüfatı yaradılmışdır. 1995-ci ildə muxtar respublika iqtisadiyyatına yönəldilmiş investisiyaların həcmi 3 milyon 49 min manat idisə, bu göstərici ötən müddət ərzində 303,3 dəfə artaraq 925 milyon manat təşkil edilmişdir. Son 20 ildə muxtar respublika iqtisadiyyatına 6 milyard 276 milyon manat investisiya yönəlmişdir(7,s.12).

Son 20 ildə Naxçıvan Muxtar Respublikasında məhsuldar qüvvələrin inkişafının təhlilindən bu nəticəyə gəlirik ki, bu dövrdə sənayenin ixtisaslaşmış sahələrinin inkişafına (maşınqayırma, tikinti materiallları , yeyinti və yüngül) o cümlədən əhalinin yerli tələbatını ödəmək məqsədilə müxtəlif tərkibli yerli tələbatı ödəyən müəssisələrin yaradılması, həmçinin aqrar sektorun inkişafına əsaslı vəsait qoyuluşunun artırılması ilə diqqəti cəlb edir. Tam cəsarətlə qeyd edə bilərik ki, 70 illik Sovet dövrü ərzində qeyd etdiyimiz sahələrdə həyata keçirilməsi zəruri olan lakin həyata keçirilməyən olduqca böyük iqtisadi problemlər son 20 ildə böyük müvəffəqiyyətlə həyata keçirilmişdir. Bu problemlərə biz muxtar respublikada maşınqayırma, tikinti materialları, yeyinti sənayesinin

strukturunun təkmilləşdirilməsini və həmin sahələrdə istehsalın həcminin artırılmasını nəzərdə tuturuq. Respublikamızın Prezidenti cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasının 90 illik yubleyinə həsr olunmuş təntənəli mərasimdə qeyd etmişdir " Mən Naxçıvanda görülən işlərlə tanış olarkən gördüm ki, nə qədər böyük işlər görülür, Naxçıvan rəhbərliyi muxtar respublikanın inkişafı üçün nə qədər böyük sevgi ilə, diqqətlə səylər göstərir. Bütün bu uğurlar münasibətilə naxçıvanlıları ürəkdən təbrik edirəm."(7,s.31).

Muxtar respublikamızın son 20 ildə davamlı sosial -iqtisadi yüksəliş və ictimai həyatdakı nailiyyətləri fonunda iqtisadiyyatın inkişafında çox böyük rol oynayan ictimai -siyasi sabitliyin qorunub saxlanmasını da qeyd etməliyik. Məhz bu sabitliyin qorunub saxlanmasının nəticəsidir ki, iqtisadi fəaliyyət sahələrində sürətli inkişafa rəvac verən səmərəli iqtisadi siyasət muxtar respublikamızda tarazlı və davamlı inkişaf üçün başlıca amil olmuş, şəhər və rayonlarımızda canlanma yaranmış, iş adamlarının normal fəaliyyəti üçün əlverişli biznes mühiti formalaşmış, yeni təsərrüfat subyektləri yaradılmış və işsizliyin səviyyəsi xeyli dərəcədə azalmışdır. Muxtar respublikamızın mərkəzində olduğu kimi rayonlarımızda hətta ən ucqar kəndlərimizdə belə nəqliyyat -kommunikasiya sisteminin bərpası, elektrik enerjisi, rabitə, qaz, su təminatı kimi sosial məsələlərin həlli, müasir informasiya texnologiyalarının tətbiqi mədəni-intellektual yüksəlişə əsaslı zəmin yaratmışdır. Muxtar respublikada mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsinə, ixrac yönümlü məhsul istehsalının stimullaşdırılmasına yerli sahibkarlığın inkişafı yolu ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına, məşğulluq səviyyəsinin, xüsusilə gənclərin faydalı əmək məşğulluğunun artırılmasına və ümumilikdə muxtar respublika iqtisadiyyatının dinamik inkişafına nail olunmuşdur.

Muxtar respublikada son illərdə həyata keçirilən iqtisadi və sosial təmayüllü islahatlar qısa tarixi dövr ərzində makroiqtisadi sabitliyin bərqərar olunmasını təmin etmiş, iqtisadiyyatın dinamik inkişafına təkan vermiş və əhalinin həyat səviyyəsinə əhəmiyyətli dərəcədə yaxşılaş-masına səbəb olmuşdur. Azərbaycanın ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi iqtisadi inkişaf strategiyasının ölkə prezidenti cənab İlham Əliyev tərəfindən müvəffəqiyyətlə təmin edilməsi nəticəsində qazanılmış uğurların miqyası və əhatə dairəsi muxtar respublika iqtisadiyyatında da xeyli genişləndirilmişdir. Müasir Azərbaycan iqtisadiyyatının istər artım dinamikasında, istərsə də surət və proporsiyalarının təkmilləşdirilməsində Naxçıvan Muxtar Respublikasının iqtisadi göstəriciləri daha ürəkaçandır. Qeyd olunan ümumi inkişaf fonunda Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı və sosial həyatı özünə məxsusluğu ilə fərqlənir. Azərbaycan respublikasının iqtisadi-coğrafi rayonlaşdırılmasında Naxçıvan Muxtar Respub-likasının ərazisi bütövlükdə ölkədaxili iqtisadi rayonlardan biri kimi qeyd olunmuşdur. Lakin o özünün çoxsahəli strukturu ilə fərqlənir. Bu muxtar respublikanın Azərbaycan Respublikasının Azərbaycan ərazisindən təcrid edilmiş coğrafi məkanda yerləşməsi və bununla əlaqədar burada yerli tələbatı müvafiq istehsal sahələri yaratmaq hesabına təmin etmək zərurəti meydana çıxarmışdır(6,s.19).

Muxtar respublika iqtisadiyyatının müasir mərhələdə səmərəli strukturunun formalaşması məqsədilə elmi əsaslara söykənən idxal-ixrac siyasətinin həyata keçirilməsi nəticəsində istehsal yönümlü sahibkarlığın inkişafına, son məhsul istehsalının artırılmasına, daxili bazarın əsasən yerli xammal və materiallardan istifadə əsassında istehsal potensialının genişləndirilməsinə iqtisadi stimul yaradılmışdır. Sosial-iqtisadi inkişafa bu cür kombinə edilmiş yanaşma, elmi nəzəriyyəyə və təcrübəyə söykənən konsepsiya əsasında həyata keçirilən köklü islahatlar, iri miqyaslı quruculuq proseslərinin nəticələri muxrtar respublika iqtisadiyyatında və sosial sahədə əldə edilmiş yüksək inkişaf templərinin qorunub saxlanılmasına və daha da yüksəldilməsinə təmi-nat verir.

Muxtar respublikada pozitiv meyllərlə səciyyələnən bu sosial-iqtisadi fəallığın təməlində iqtisadi inkişafın sosial yönümlü olması, hər bir vətəndaşın iqtisadi və sosial inkişafda iştira-kından asılı olaraq maddi rifahın artırılması, iqtisadiyyatın dövlət tənzimləmə mexanizmlərinin liberallaşdırılması, iqtisadi tərəqqinin əsas meyarlarından olan azad rəqabət, sahibkarlıq və inves-tisiya mühitinin daha da yaxşılaşdırılması, əsassız məhdudiyyətlərin aradan qaldırılması, investisiyaların və sahibkarlığın inkişafının təşviqi üsullarından geniş istifadə olunması və mux-tar respublikanın iqtisadi təhlükəsizliyinin təminatı üçün aparılmış kompleks işlər dayanır.

Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın bazar münasibətləri istiqamətində inkişafı insanların işə olan münasibətini dəyişmiş, onların sahibkarlıqla bağlı maraqlarını daha da gücləndirilmişdir. Artıq muxtar respublikada iqtisadiyyatın formalaşmasında özəl sektor, xüsusi ilə də kiçik və orta sahibkarlıq mühüm rol oynayır. İqtisadiyyat sahəsində aparılan islahatlar muxtar respublikada bazar iqtisadiyyatı mexanizmlərinin bərqərar olmasına şərait yaratmış, investisiyalar, müasir texnolojiyalar və idarəetmə təcrübəsi cəlb etməklə rəqabət qabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılmasına. yeni iş yerlərinin açılmasına və nəticə etibarilə xalqın maddi rifahının yüksəldilməsinə yönəldilmişdir. Muxtar Respublikada sahibkarlığın inkişafının stimullaşdırılması və bu sahəyə dövlət dəstəyinin göstərilməsi, sahibkarların hüquqi cəhətdən maarifləndirilməsi, haqsız rəqabətin qarşısının alınması, xarici iş adamları ilə qarşılıqlı iqtisadi münasibətlərin yaradılması biznes forumlarda, konfranslarda, beynəlxalq və yerli sərgilərdə sahibkarların iştirakının təmin edilməsi və sahibkarlara diqqət və qayğının nəticəsi olaraq fəaliyyətlərinin əlaqələndirilməsi və genişləndirilməsi məqsədilə onlar arasında mütəmadi olaraq görüşlərin təşkil edilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Böyük razılıq hissi ilə qeyd edilməlidir ki, sahibkarlığın inkişafı istiqamətində Naxçıvan Muxtar Respublikası rəhbərliyi tərəfindən həyat keçirilən məqsədyönlü tədbirlərin nəticəsi olaraq bu sahədə ciddi nailiyyətlər əldə olunmuş, yerli istehsal və emal müəssisələri yaradılmışdır. Mövcud istehsal müəssisələrinin fəaliyyətinin bərpa edilməsi, yenidən qurulması emal sahələrinin yaradılması nəticəsində muxtar respublikada 150 növdə ərzaq, 250 növdə qeyri ərzaq olmaqla 360 növdə məhsul istehsal edilir(7,s.14).

Aparılan iqtisadi təhlil bir daha sübut edir ki, son 20 ildə Muxtar Respublika iqtisadiyyatında əldə olunan böyük naliyyətdə sənaye istehsalının inkişaf səviyyəsinin yüksəldilməsi böyük rol oynamışdır. Son dövrlərdə yardılan əlavə dəyərin tərkibində sənaye məhsulunun xüsusi çəkisi artmaqdadır. Sənaye məhsullarının ixracında emal sənayesi məhsullarının xüsusi çəkisi artmaqdadır. Sənaye məhsullarının ixracında emal sənayesi məhsullarının xüsusi çəkisinin artırılmasının stimullaşdırılması yüksək əmək məhsuldarlığına malik müasir müəssisələr şəbəkəsinin yaradılması, mövcüd sənaye müəssisələrinin yenidən qurulması, analoji xarici şirkətlərdə iqtisadi əlaqələrin yeni müstəvidə formalaşması ilə bağlı əsaslı tədbirlər aparılmaqdadır. İlkin mərhələ üzrə bu sektorda özəlləşdirmə prosesinin sürətləndirilməsi və iqtisadi cəhətdən məqsədəuyğun sayılan sənaye müəssisələrinin fəaliyyətinin bərpası nəticəsində nəzərə çarpacaq irəliləyişlər əldə olunmuşdur. Artıq Naxçıvan Muxtar Respublikası sənaye məhsulunun istehsalının artım tempinə görə sənayenin ümumi məhsulunun tərkibində qeyri dövlət sektorunun xüsusi çəkisinə və hazır məhsul qalığının minumum həddə olmasına görə Azərbaycan Respublikasının 10 iqtisadi rayonu arasında ilk yerdədir(8,s.32).

Bütün bu nailiyyətlərlə bərabər Muxtar Respublikada sənaye istehsalının gələcək inkişaf istiqamətlərinin müəyyən edilməsində qeyd edəcəyimiz məsələlərində nəzərə alınması məqsədə uyğun olar. Məlum həqiqətdir istər bütövlükdə Sovet dövründə istərsə də Sovet dövründən sonrakı bir neçə il ərzində muxtar respublikada ət-süd sənayesi yalnız Naxçıvan şəhər ət kombinatı ilə təmsil olunurdu. Bu kombinatda istehsal olunan məhsullar istər həcminə, istərsə də keyfiyyətinə görə əhalinin tələbatının ödənilməsindən çox aşağı səviyyədə idi.

Hazırda Naxçıvan şəhərində ət-süd sənayesinin müxtəlif tərkibli hazır məhsulları nəinki muxtar respublika əhalisinin, hətta paytaxtda yaşayan əhalinin istehlakında mühüm rol oynayır. Nəzərə alsaq ki, yaxın zamanlarda muxtar respublika əhalisinin sayı yarım milyona çataçaq , deməli muxtar respublikada mövcud yeyinti sənaye sahələrinin bir tərəfdən maddi texniki bazası möhkəmləndirilməli, istehsal olunan ət–süd məhsullarının həcmi nəinki əhalisinin yerli tələbatının ödənilməsində, həm də həmin məhsulların ixracatda mühüm rol oynamasına şərait yaradılmalıdır. Muxtar respublika sənayesinin gələcək inkişaf istiqamətində bu amilin nəzərə alınması qonşu dövlətlərdən muxtar respublikaya idxal olunan yeyinti məhsullarının qarşısını alar. Həm də yerli təbii və əmək ehtiyatlarından səmərəli istifadə olunmasına şərait yaradır.

Fikrimizcə, muxtar respublikada sənaye istehsalının gələcək inkişaf istiqamətində yüngül sənayenin hazır məhsullar istehsalına da xüsusi diqqət verilməlidir. Hazırda muxtar respublika əhalisinin hazır kişi və qadın paltralarına olan tələbatı əsasən xaricdən gətirilən malların hesabına

ödənilir. Artıq muxtar respublikanın paytaxtı Naxçıvan şəhərində və yaxud rayon mərkəzlərində hazır məhsullar istehsalı ilə məşğul olan tikiş fabrikalarının yaradılması nəzərə alınmalıdır.

Artıq bir neçə ildir ki, muxtar respublikanın ümumi daxili məhsulun həcmində kənd təsərrüfatı ikinci yerdən üçüncü yerə keçibdir. Məlum olduğu kimi region iqtisadiyyatının inkişafında aqrar sektorun rolu inkar edilməzdir. Bununla bərabər MR-da kənd təsərrüfat məhsullarının əkilib becərilməsində çox böyük imkanlar və ehtiyat mənbələri mövcuddur. Bu da həqiqətdir ki, müasir mərhələdə bazar münasibətlərinə uyğun olaraq kənd təsərrüfatının inkişaf problemləri Naxçıvan Muxtar Respublika rəhbərliyinin diqqət mərkəzindədir. Bununla belə, kənd təsərrüfatı məhsullarının əksəriyyətinin istehsal həcminin miqdarı ilə əhalinin həmin məhsullara olan tələbatın həcmi arasında müəyyən proporsiyalar müəyyən edilməli və bu məhsulların istehsal həcmi əhalinin tələbatının tam ödənilməsini təmin etməlidir. Belə olduqda əhalinin istehlakında çox mühüm rol oynayan un məhsullarının meyvə-tərəvəzin, bostan bitkilərinin qonşu dövlətlərdən gətirilməsinə ehtiyac qalmaz. Muxtar respublikada kənd təsərrüfatına yararlı 100 min hektardan artıq torpaq sahələri mövcüddur. Bu torpaq sahələrinin demək olar ki, üçdə bir hissəsi təsərrüfat dövriyyəsinə cəlb edilibdir. Qalan hissəsi isə əsasən torpaq sahələrinin şoran torpaqlar olduğuna görə bunlardan hələlik istifadə edilmir. Artıq kənd təsərrüfatının intensiv əsaslar üzərində inkişaf etdirilməsinin vaxtı çatmışdır. Bu məqsədlə aqrar sektorun istər haliyədə, istərsə də gələcək inkişaf istiqamətlərinin nəzərə alınmasında intensivləşmənin əsasını təşkil edən kənd təsər-rüfatının tamamilə mexanikləşdirilməsi, kimyalaşdırılması və melorasiaysı əsaslı problem kimi qiymətləndirilməlidir. Muxtar Respublikada aqrar siyasətdə inkişafımızın müxtəlif dövrlərində mühüm rol oynayan əkinçilik (taxılçılıq) üzümçülük, meyvə-tərəvəz və tütünçülük kimi sahələrin inkişafına xüsusi diqqət verilməli və bu sahələrin hasilatı gücləndirilməklə həmin sahələrin emal imkanları da genişlənməlidir. Bu baxımdan Ordubad konserv zavodunun fəaliy-yəti bərpa olunmaqla Şərur şəhərində də yeni konserv zavodunun tikilməsi fikrimizcə özünü doğruldar.

Son nəticədə onu qeyd etmək lazımdır ki, geniş ictimai rəydə "Naxçıvan möcüzəsi" adlandırılan iqtisadi inkişafın Naxçıvan modeli haqda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov belə xarakteristika vermişdir: "Yol düzgün seçiləndə, milli maraqlara və dövlətçiliyə sədaqətli olanda, adamların qayğısı və ehtiyacıları hədəfə alınanda istənilən möcüzəni yaratmaq olar." Ötən 25 il ərzində əldə olunmuş uğurlar və nailiyyətlər dəqiq düşünül-müş icra intizamının və Heydər Əliyev yoluna sədaqətin nəyə qadir olduğunun əsas göstəricisinə çevrilmiş muxtar respublikamızda makro və mikro iqtisadiyyatın ildən-ilə yüksələn xətlə inkişa-fını təmin etmişdir.

## ƏDƏBİYYAT


1. Nuriyev Ə.X. Regional inkişafın dövlət tənzimlənməsinin aktual məsələləri. Bakı, Elm, 2004, 224 s
2. Nağıyev V.N, Məmmədov İ.Ə. Naxçıvan MR-nın faydalı qazıntıları. Bakı, Elm, 2010, 240 s
3. Məmmədov Z.S. Regionların iqtisadi inkişaf problemləri.Bakı, Elm, 2007.469 s
4. Şahverdiyev Z.Ə.Naxçıvan bölgəsi XIX – XX əsrin əvvələrində. Bakı: Elm, 2008, 264 s
5. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası
6. Azərbaycan Respublikasının Statistik göstəriciləri 2013, Bakı, 2014
7. 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının xülasəsi. Naxçıvan, Əcəmi, 2015, 87 s
8. Azərbaycanın regionları. Statistik məcmuə. Bakı, Səda, 2012, 604 s


## ABSTRACT


**Akif Medetov**
**Asaf Qaribov**


**Nakhchivan forming and development of production complex teritory in the modern stage**

Development in the Nakhchivan Autonomous Republic of the productive forces in the modern condition and big changes have happened in placing. These and is of from production complex namely result of the changes Nakhchivan territory forming the most quickly and developing. Modern development have been of the economy of autonomous republic and basic changes where which have has happened in some areas problems of raising in the degree must be striking of makro playing the important part development from investments which have has been directed development of the industry of the efficient usage, economy and micro in the article widely. Autonomy Republic that where will reach the million in the near future of approximately half and is are expected as it's known of the population the number of the, on the other hand too with by purpose of the development of the economy of autonomous republic living in the blockade condition natural and comprehensively using from labour resources, isare one of quite necessary important social public economic problems determining correctly of the directions of the future development. This have been put forward proposed for definite offers in the article in the area, too.

## РЕЗЮМЕ

**Акиф Медетов**
**Асаф Гарибов**

**Формирование и развитие нахчыванского териториально-производственного комплекса на современном этапе**

В современных условиях Нахчыванской Автономной Республике в области развитие производительных сил и их размещении произошли большие перемены. Именно эти изме-нения влияло на результаты Нахчыванского территориального производственного комплексов которое считается наиболее быстро формирующихся и развивающихся территориальных производственных комплексов Азербайджана. В статье расматривается история развитии экономики Автономной Республики и в отдельных сферах, произошедшие основные изменения, в частности, территориальные и отраслевые проблемы которое влияло на развитию промышленности, инвестиций, направленных на рациональное использование, экономики, играющих важную роль в развитии макро и микро показателей, заметно повышение проблемы широко были проанализированы. Как известно, ближайшем будущем ожидается что в Автономной Республике численности населения будет около полутора миллионов человек, с другой стороны в изолированном от Азербайджанской Республики в условиях блокады экономики автономной республики с целью развития природных и трудовых ресурсов, всестороннее использование отдельных отраслей промышленности, дальнейшего развития направлений и правильное определение очень важно общественно-экономических проблемов. В статье и в этой области были выдвинуты определенные предложения

NDU-nun Elmi Şurasının 30 mart 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. ELMİ ƏSƏRLƏR, 2016, № 6(75)

NAKHCHIVAN STATE UNIVERSITY. SCIENTIFIC WORKS, 2016, № 6 (75)

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. НАУЧНЫЕ ТРУДЫ, 2016, № 6 (75)

**OKTAY RZAYEV**
*Naxçıvan Dövlət Universiteti*
*oktay_rzayev@mail.ru*

**UOT:331.4**

# İSTEHSALAT QƏZALARI VƏ FƏLAKƏTLƏR ZAMANI QƏZA-XİLASETMƏ VƏ DİGƏR TƏXİRƏSALINMAZ İŞLƏRİN TƏŞKİLİ VƏ YERİNƏ YETİRİLMƏ METODLARI

**Açar sözlər:** *İstehsalat qəzaları, mülki müdafiə, xilasetmə, fəlakət, zədələnmə, qəza, uçqun*

**Key words:** *industrial accidents, civil defense, firefighters disaster, injury, accident, landslide, collapse*

**Ключевые слова:** *несчастные случаи на производстве, гражданская оборона, пожарные, катастрофа, травма, авария, оползень*

İstehsalat qəzaları (fəlakətləri) baş verdikdə obyektin mülki müdafiə rəisi yaranmış təklükə barədə dərhal müəssisənin fəhlə və qulluqçularına xəbər verilməsini təşkil edir. Qəza vaxtı müəssisədə güclü təsirli zəhərli maddələr ətrafa axmışsa, bu barədə obyektin bilavasitə yaxınlığında və zəhərli qazların yayıla biləcəyi tərəfdə yaşayan əhaliyə də xəbər verilir.

Obyektin mülki müdafiə rəisi qəza haqqında və görülən tədbirlər barədə mülki müdafiənin yuxarı rəisinə məlumat verir və şəxsən özü kəşfiyyat göndərir, yaranmış vəziyyəti aydınlaşdırır, qərar qəbul edir, tapşırıqlar verir, QXDTİ-nin aparılmasını təşkil edir və bunlara rəhbərlik edir.

Xilasetmə və təxirəsalınmaz qəza-bərpa işlərinin həcmi bina və qurğuların, avadanlığın və aqreqatların zədələnməsi və ya dağılması dərəcəsindən, habelə komunnal-energetika sistemlərinin vəziyyətindən asılıdır.

Mülki müdafiə rəisi dərhal xilasetmə işlərini və zərərçəkmiş adamlara yardım göstərilməsini təşkil edir. Zərərçəkmiş adamlara ilk tibbi yardımı obyektin tibb işçiləri və sanitar növbətçiləri, bundan sonrakı yardımı isə səhiyyə sisteminin müalicə müəssisələri və ya mülki müdafiənin tibbi xidməti göstərir.

Qəza-bərpa işlərinə başlamaq üçün qərar qəbul etməzdən əvvəl qəza və fəlakət yerlərində kəşfiyyat (rekoqnossirovka) aparılmalıdır. Kəşfiyyatın əsas vəzifəsi dağıntıların xarakterini və qəza bərpa işlərinin həcmini, nəqliyyat yollarının, texnoloji avadanlığın və inşaat konstruksiyalarının vəziyyətinin müəyyən etməkdir. Bu vaxt qurğuların zədələnmiş elementlərini bərkitmək və ya uçurma qaydasını, işlərin nə cür görülməsini və vasitələrini tətbiq etməyin mümkün olub-olmamasını təyin edirlər.

Qəza-bərpa işlərinin aparılması üçün qərar qəbul edəndə nəzərə almaq lazımdır ki, bunlardan sonra labüd olaraq, qəza-bərpa işlərinin davamı kimi, zərərçəkmiş obyekti işə salmaq üçün tikinti quraşdırma işləri başlana bilər. Qəza-bərpa işləri aparmaq üçün mülki müdafiə rəisinin qəbul etdiyi qərarda bu işlərin həcmi və növləri, bunların yerine yetrilməsi müddətləri və üsulları, lazım olan qüvvə və vəsait göstərilir. Bundan başqa ərazidəki tikililərin, onların planlaşdırılmasının xarakterindən, obyektin içərisindəki yollardan və şəhərin küçələrindən, keçid yerlərindən, nəqliyyat yollarından və başqa amillərdən asılı olaraq iş sahələri təyin edilir.

Qəza-bərpa işlərinə rəbərlik etmək üçün obyektin məsul vəzifəli şəxslərindən və ya mülki müdafiə qərargahının rəhbər işçilərindən, mülki müdafiə xidmətlərinin mütəxəssislərindən hər iş sahəsinə rəhbər şəxs təyin edilir. Dəstələrin vəzifələrini iş sahələrinin rəhbərləri təyin edirlər. Həmçinin onlar obyektin mülki müdafiə rəisinin göstərişi ilə dəstələrin şəxsi heyətinin qidalanmasını, növbəli işini və istirahətini təşkil edirlər.

Divarların və başqa konstruksiyaların sökülməsi və ya uçurulması üsulları həmin konstruksiyaların strukturundan, materialından və xarakterindən, ərazidəki tikililərin sıxlığından, mövcud qüvvələrdən, vasitələrdən və s. asılıdır. Konstruksiyaları sökmək və uçurmaq üçün aşağıdakı üsulları vardır: əl üsulu, mexanikləşdirilmiş üsul, partlayış üsulu və qarışıq üsul.

Əl üsulunu maşınlardan, mexanizmlərdən istifadə etmək və ya partlayış işləri aparmaq mümkün olmadıqda tətbiq edilir. Kiçik uçqunların altında adamlar qalmışsa, belə uçqunları əllə açırlar. Bunu üçün mexanikləşdirilmiş alətdən və sadə mexanikləşdirmə vasitələrindən istifadə edirlər.

Konstruksiyaların sökülməsi və uçurulmasında mexanikləşdirilmiş üsul daha çox tətbiq olunur. Bu zaman çoxlu mühəndis maşınlarından və mexanizmlərindən istifadə edilir. Divarın uçurulacaq hissəsini qabaqcadan tağları yarmaq və divarları aşağıdan çapmaqla qovuşuq divarlardan ayırırlar. Əgər divar çapılacaq tərəfə əyilməmişsə, onun qalınlığının ən çoxu 1/3 hisssəsi qədər uçurulacaq tərəfdən çapırlar. Sonra bir ucu konstruksiyaya, o biri ucu traktora və ya bucurqada bağlanmış tros və ya kanatla çəkib divarı uçurdurlar. Trosu konstruksiyalara bağlamaq üçün avtoqüllələrdən, səyyar nərdivanlardan istifadə edirlər.

Qurğuların zədələnmiş elementlərini uçurmaq və ya uçqunlarda iri daş kəsəkləri parçalamaq üçün ekskvatorda və ya avtomobil kranında quraşdırılmış 1-2 ton ağırlığında polad şarlardan istifadə etmək çox sərfəlidir.

Daha möhkəm qurğuları və konstruksiyaları partlayış üsulu ilə uçurur və ya parçalayırlar. Partlayış vaxtı partlayış dalğası və sarsıntı qonşuluqdakı salamat qurğulara zərər yetirməsin deyə, adətən partlayışı az miqdarda partlayıcı maddələrlə aparırlar: partlayıcı maddələri şpurlara doldurur, şpurun (oyuqların) ağzını qum və ya torpaqla tuturlar. Üstdən qoyulan açıq partlayıcı maddələri o zaman işlətməyə icazə verilir ki, konstruksiyalar əyildiyinə görə və ya çatlar olduğuna görə divarlarda, qüllələrdə, borularda oyuq (şpur) açmaq, yaxud bunları əllə sökmək və ya mexaniki üsulla yıxmaq mümkün deyil. Təcrübə göstərir ki, üstdən qoyulan partlayıcı maddələrlə aparılan partlayış üsulu həmçinin dəmir-beton konstruksiyaları (tirləri, sütunları, çatıları) uçurmaq üçün də geniş tətbiq edilə bilər. 60 x 40 sm enində dəmir-beton dirəkləri 600-800 qram, sütunları 1-1.5 kq ağırlığında üstdən qoyulan partlayıcı maddələrlə uçururlar.

Qalın divarları olan zədələnmiş tikililər lazım gəldikdə partlayış üsulu ilə hissə-hissə uçurmaq olar. Bu vaxt işləri elə ardıcıllıqla aparırlar ki, hissələrin bir qismini uçurduqda sonrakı partlayış işləri, şəraiti mürəkkəbləşdirməsin. Uçqun əmələ gəlməsin və qonşuluqdakı mühəndis şəbəkələri zədələnməsin deyə, divarları, qüllələri, zavod borularını elə partladırlar ki, onlar öz bünövrəsi üzərində çöksün, qabaqcadan müəyyən edilmiş istiqamətə uçub tökülsün. Qurğunu dağıdanda onun öz bünövrəsinə çökməsi nəzərdə tutularsa partlayıcı maddə qoyulacaq oyuqları

divarların içəri tərəfindən onun bütün parametri üzrə iki cərgə açmaq lazımdır; oyuqları birinci mərtəbənin pəncərə yerlərinin aşağı hissəsi ilə bir səviyyədə, bütöv (pəncərə, qapı olmayan) divarlarda isə yer səthindən 0,5 m aralı açırlar.

Zədələnmiş konstruksiyaları manqa və qrup üsulu ilə uçururlar.

Manqa üsulunu dayaq sütunlarını, ayrı-ayrı tirləri, çatıları və s. uçurduqda tətbiq edirlər. İşlərin manqa üsulu ilə təşkilinə misal olaraq ayrı-ayrı sütunların uçurulmasını, dəmir-beton konstruksiyalardan partlayışla betonun qoparılmasını göstərmək olar. Bu işi görmək üçün manqanı, hər birində 2-3 adam olan heyətə bölürlər. Birinci heyət alışdırıcı piltələr hazırlayır və bunları partlayıcı maddələrə qoyur. İkinci heyət konstruksiyaları partlatmaq üçün lazım olan partlayıcı maddələrin çəkisini və paylarını müəyyən edir, habelə bu payları dağıdılacaq hissəyə bərkidir. Üçüncü heyət odlama üsulu ilə partlayış aparır.

Qrup üsulu davamsız divarları, arakəsmə və çatıları uçurmaq üçün tətbiq edilir. Bu üsulla işin təşkil edilməsinə misal olaraq mərtəbəarası örtük hissələrinin uçurulmasını göstərmək olar. Bu vaxt manqaların biri damın bütün sahələrində hidroizolyasiya qatını qoparır, ikinci manqa tirlər arasında oyuqlardan betonu qoparır, üçüncü manqa kanatlar, troslar, bucurqadlar, kranlar vasitəsilə metal konstruksiyaları aşağı salır.

İstehsalat qəzaları və fəlakətləri nəticələrinin aradan qaldırılmasında ən ağır iş uçqunların sökülüb açılmasıdır.

Uçqunu açmağa başlayanda son dərəcə ehtiyatlı olmaq lazımdır ki, konstruksiyalar yenidən uçub tökülərək sonrakı işləri çətinləşdirməsin.

Qarşıya qoyulan vəsifələrdən asılı olaraq uçqunu ya qismən, ya da tamamilə açırlar. Uçmuş binaların hissələri altında qalmış adamları xilas edəndə, habelə nəqliyyat üçün yol düzəldəndə və qiymətli sənayə avadanlığını uçqunun altından çıxaranda uçqunu qismən açırlar. Ərazidə yeni tikinti aparıldıqda və ya zədələnmiş binaları və qurğuları bərpa etdikdə ərazini uçqundan təmizləyirlər.

Ərazini uçqundan təmizliyəndə birinci növbədə binanın laxlamış elementlərini sökür və ya binanın uça biləcək hissələrini bərkidirlər. Sonra isə nəqliyyat yollarını, keçidləri, binalara və birinci dərəcəli istehsalat əhəmiyyətli qurğulara giriş yollarını təmizləyirlər. Bundan sonra tirləri, sütunları, iri daş kəsəkləri və qırıntıları çıxarırlar ki, ekskavatorların yükləyicilərin işləməsinə şərait yaradılsın. İri daş kəsəklərin altında qalmış tirlərin başlarını buradan çıxarır və daş kəsəkləri xırda hissələrə doğrayırlar: bu hissələrin ölçüsü istifadə olunan maşınların gücündən asılıdır. Daş kəsəkləri kömür sındıran çəkiclərlə, ekskavatora bərkidilmiş polad şarla, partalayış üsulu ilə, bəzən də gürz və pazlardan istifadə edib əllə doğrayırlar.

Dəmir-beton elementlərin sökülməsinə metal armaturu kəsməkdən başlayırlar. Uçqunları axın üsulu ilə sökmək yaxşıdır: bu zaman mövcud qüvvə və vasitələrdən bütün iş müddətində daha tam və bir bərabərdə istifadə etmək, habelə geniş miqyasda kompleks mexanikləşdirmə tətbiq etmək mümkün olur. Mexanizasiya dəstəsi ilə gücləndirilmiş ümumi məqsədli yığma dəstə işi eni 300 m-dən çox olan iki-üç iş sahəsində iki-üç növbədə aparıla bilər.

İşləri növbə ilə gördükdə gündüz növbəsinə uçqunları açmaq və konstruksiyaları daşıyıb aparmaq, gecə növbəsində isə gündüz növbəsi üçün iş cəbhəsi yaratmaq tapşırılır.

Təcrübə göstərir ki, ayrı-ayrı istiqamətlərdə uçqunları açarkən müvəfəqiyyətlə müstəqil iş görmək 1-2 buldozerdən, 1-2 avtokrandan, kompressor stansiyasından, 2-3 kəsici cihazdan və müvafiq şəxsi heyətindən ibarət kompleks qəza-texniki qruplar yaratmaq məqsədə uyğundur.

Zədələnmiş metal konstruksiyaları, dəmir qırıntılarını, inşaat zibilini və s.-ni obyektdən kənara çıxarmaq üçün avtomobillərdən, dəmiryol su nəqliyyatından istifadə etmək lazımdır.

## ƏDƏBİYYAT


1. İ.M.Mazanov. Mülki müdafiə
2. H.O.Ocaqov. Fövqəladə hallarda həyat fəaliyyətinin təhlükəsizliyi
3. H.O.Ocaqov. Fövqəladə halların nəticələrinin aradan qaldırılması
4. A.Məmmədov. Fövqəladə hallarda Mülki müdafiə tibb xidmətinin təşkili

**ABSTRACT**

**O.Rzayev**

**Methods of organization and fulfillment of rescue and other urgent works during industrial accidents and disasters**

The article deals with the causes of industrial accidents and ways of their elimination. It also focuses on methods of organization and fulfillment and other urgent works during industrial accidents and disasters.

Moreover, the article deals with the civil defense and rescue operations and assistance to the people who suffered.

The article also focuses on the size of the rescue and urgent accident-reconstruction works, buildings and facilities, the extent of damage to or destruction of equipment, as well as the state of the utility power system are mentioned.

**РЕЗЮМЕ**

**О.Рзаев**

**Организация и методы выролнения аварийно-срасательных и иних неотложных работ,при производственных авариях и бедсвиях.**

В статье говорится о причинах возникновения преодоления, оборганизации  аварийно –спасательных и иных неотложных работ, о методах их выролнения.

Кроме того ,в статье гражданского права говорится,что Минобороны и оказать помощь пострадавшим людям.

В статье так-же  говорится о размерах спасательныхи неотложных аварийно-востановитедьных равот,зданий и сооружений ,щ степени повреждения и уничтожения оворудований ,а также состояния коммунальных енергесистем были  тоже упомянуты.

NDU-nun Elmi Şurasının 30 mart 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru* A.Rüstəmov

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. ELMİ ƏSƏRLƏR, 2016, № 6(75)
NAKHCHIVAN STATE UNIVERSITY. SCIENTIFIC WORKS, 2016, № 6 (75)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. НАУЧНЫЕ ТРУДЫ, 2016, № 6 (75)

**MEHDİ BAĞIROV**
*Naxçıvan Dövlət Universiteti*
*e-mail: dr.Mehdi_Bagirov@mail.ru*

**UOT:332**

# ÖLKƏNİN SOSİAL-İQTİSADİ İNKİŞAFI: "BAKI – TİFLİS – CEYHAN" FAKTORU VƏ FİSKAL SİYASƏTİN PERSPEKTİVLƏRİ

**Açar sözlər:** *ölkə iqtisadiyyatı, sosial və iqtisadi inkişaf, fiskal siyasət, nəhəng layihələr, BTC*
**Key wood:** *economy, social and economic development, fiscal policy, major project, BTC*
**Ключевые слова:***экономика страны, социальное и экономическое развитие, фискальная*

Azərbaycan Respublikası özünün inkişafında çoxsaylı hərtərəfli düşünülmüş və cəsarətli şəkildə atılmış addımların sahibi, şanlı səhifələr yaradan bir məkandır. Vahid ölkə ifadəsinin tarixə gömülməsi, ikinci dəfə müstəqilliyin əldə olunması və xalqın təkidi ilə hakimiyyətə səriştəli dövlət xadimi Ülu Öndərin gəlişi Vətənimizin sonrakı sistemli yüksəlişindən xəbər verirdi.

Araşdırma istiqamətinin adından da göründüyü kimi, ən azı 3 sistem, "fəaliyyət mərkəzi" qar-şılıqlı əlaqəli şəkildə araşdırılmalı və təhlil edilməlidir.

Bunlardan ilk yerdə ölkənin sosial-iqtisadi inkişafının müasir vəziyyəti və perspektiv təkamül isti-qamətləridir. Müstəqilliyin əldə edilməsi Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı üçün yeni üfüqlərin açılması, strateji məqsədlərin müəyyənləşdirilməsi ilə nəticələndi. Düşünülmüş və sistemli şəkildə atılan addımların nəticəsi idi ki, qısa dövrdə Vətənimiz dünya ölkələri sırasında öz layiqli yerini tutdu və günü-gündən onu möhkəmlətməkdədir. Hal-hazırda "Azərbaycanın fikirləri" yüksək beynəlxalq tribunalardan səslənməkdədir. İyirmi ildən artıq bir müddətdə "ölkəmizin həm kəmiyyət, həm də keyfiyyət siması" dəyişmiş, ardıcıl olaraq yeni zirvələrin aşılması mümkün olmuşdur.

Güclü, çoxşahəli və daim inkişafda olan sənayesi, hər il daha yüksək nəticələrə imza atan kənd təsər-rüfatı, göz oxşayan, qədimiliklə müasirliyin vəhdəti hesab olunan arxitektura əsərləri ilə

bizləri sevin-dirən tikinti, günü-gündən yeniləşən və təkmilləşən xidmət və sosial sferaları - Azərbaycan iqtisadiy-yatının müasir dövrdə inkişafı haqda fikir formalaşdırmağa imkan verir. Borcalan ölkədən kredit verən ölkəyə çevrilməsinin, öz fəaliyyəti ilə böyük həcmdə valyuta ehtiyatlarına sahiblənməsinin bünövrəsi əsaslı qoyuluş və düzgün həyata keçirilən maliyyə və bank-kredit siyasətinin nəticəsidir.

Sadalanan bütün müsbət məqamlar belə fikir söyləməyə imkan verir ki, müstəqilliyimizin sistemli iqtisadi bazası bir tərəfdən beynəlxalq təcrübəyə əsaslanmış, digər tərəfdən yerli xüsusiyyətləri, milli, istehsal və sair ənənələri nəzərə almışdır. Eyni zamanda qeyd olunmalıdır ki, inkişaf yolumuz son həd-lərə malik olmayan, daim yeni mərhələləri fəth etmək iqtidadırda olan strategiya əsasında formalaşmış və uyğun taktikalarla silahlanmışdır.

Məqalənin adından da göründüyü kimi, burada “iştirakçı” sifətilə 3 əsas tərəfin mövcudluğuna fərdi və qarşılıqlı əlaqələndirilmiş diqqət yetirilməlidir:

1. Ölkədə həyata keçirilən iqtisadi siyasət;
2. Bakı – Tiflis – Ceyhan boru kəməri, onun istifadəyə verilməsindən sonra yaranan iqtisadi situasiyalar;
3. Ölkəmizin iqtisadi siyasətinin tərkib hissəsi olan fiskal siyasət və onun perspektiv mərhələdə istiqamətləri;
4. Növbəti nəqliyyat və digər növlərdən olan irihəcmli layihələr.

Araşdırmaların birinci “obyekti” kimi nəzərdən keçirilən iqtisadi siyasət, təməlləşmə və artım öz növbəsində nələrin (hansı metod və yollardan istifadənin) hesabına baş verdiyi haqda təsəvvür yarat-malıdır. Qeyd olunan məsələ müxtəlif aparıcı (inkişaf etmiş və etməkdə olan) ölkələrdə fərqli amillərin balanslaşdırılmış qaydada istifadəsini tərənnüm etdirir.

Araşdırmada ikinci komponenti təşkil edən və müdrik siyasətçi Heydər Əliyevin adını daşıyan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri "Əsrin müqaviləsi" çərçivəsində Xəzər dənizinin Azərbaycan sektorunda hasil olunacaq xam neftin dünya bazarına çıxışını təmin etmək üçün inşa edilmiş boru nəqliyyat vasitəsidir. Əsaslı texniki, maliyyə, icra və digər təməlləri İstanbul və Hyustondakı görüşlərdə formalaşdırılan kəmər üzrə real icraata 20 sentyabr 1994-cü ildə bağlanan və 12 dekabr 1994-cü ildə Ölkəmizin Milli Məclisi tərəfindən təsdiq olunan “Əsrin müqaviləsi” ilə start verilir. Məsələ üzrə hazırlıq işləri çoxsaylı istiqamətlərdə həyata keçirilməsi mərhələsi imkan verir ki, 18 sentyabr 2002-ci il tarixdə Bakıda yerləşən Səngəçal terminalında təməl daşını qoymaqla neft kəmərinin real tikintisinə başlanılsın.

Uzunluğu 1768 km təşkil edən, iqtisadi ilə yanaşı kifayət qədər böyük siyasi əhəmiyyətə malik kəmərin (onun 443 km-i Azərbaycan ərazisindən keçir) istismar müddəti 40 il, orta ötürücülük qabiliyyəti ildə 10 milyon barel nəzərdə tutulmuşdur. Səkkiz ölkənin (Azərbaycan, Rusiya, Türkiyə, ABŞ, Böyük Britaniya, Yaponiya, Səudiyyə Ərəbistanı və Norveç) 13 şirkətinin iştirakı ilə (12 iştirakçı tərəf) icrası mümkün olmuş bu layihədə ölkəmizin (Azərbaycan BTC.Co. vasitəsilə) və digər tərəfdaşların maliyyələşdirəcəyi pay bölgüləri aşağıdakı kəmiyyət ifadələrini əks etdirmişdir:

***Sxem 1. BTC-də səmdar tərəflər və onların pay ifadələri.***



Sxem 1-dən də göründüyü kimi, layihənin operatoru sifətilə çıxış edən BP şirkəti ən böyük sər-mayə qoyuluşu həcminə (30,1%) malikdir. Maliyyə sənədlərinin ilkin hazırlanmasında 2,95 mlrd. ABŞ dolları məbləğində xərclə yekunlaşdırılması nəzərdə tutulan müvafiq kəmərin ümumi dəyəri, məbləğlə bağlı edilən korrektə ilə (təbii-iqlim şəraiti, yolun keçəcəyi ərazilərdəki suxur quruluşu, bank %-ləri və s.) 5 mlrd. dollara qədər yüksəlmişdir.

Həmin kəmərlə yanaşı Qərb (Bakı-Supsa boru kəməri) və Şimal (Bakı-Novorossiysk boru kəməri) marşrutları üzrə də paralel işlər aparılaraq 1999-cu ilin sonuna neftin nəqlində nisbi irəliləyişlərə nail olunmuşdur ki, bu da Ölkəmizin maliyyə resursları təminatına, onların ehtiyatlarının artırılmasına və istifadə imkanlarının yüksəldilməsinə şərait yaratmışdır.

Hqqında bəhs olunan müqavilənin icraatı və kəmərin tikintisi üzrə işlərin başa çatması nəticəsində 2 iyul 2006-cı il tarixdə sınaq variantında ilk tankerin yüklənərək yola salınması baş tutur. Həmin ayın 13-ndə Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirilir.

Bakı-Tiflis-Ceyhan əsas ixrac boru kəməri üzrə işlərin başa çatması və onun istismara verilməsi digər məsələlərlə yanaşı onun mövqeyini dəyişdi. Bu kəmər fiskal siyasətdə əsas iştirakçı tərəf olmaqda davam etdi, lakin investisiya qoyulan tərəfdən, sonrakı layihələrin maliyyələşdirilməsində mənbə rolunda oynayan tərəfə çevrildi. Heç də təsadüfi deyil ki, bu kəmərin ardınca irihəcmli layihələr üzrə qısa müddət kimi qəbul olunan vaxtda Bakı-Tiflis-Erzurum qaz kəməri, Bakı-Tiflis-Axalkalaki-Qars dəmir yolu, Oğuz-Qəbələ-Bakı su kəməri və digər layihələrinin hazırlanması və icrasına başlanıldı ki, bunlardan da əksəriyyəti başa çatmış və estafeti növbəti kifayət qədər yüksək maliyyətutumlu işlərə təqdim etmişdir. Ölkəmizin prezidenti İlham Əliyev müvafiq məsələ ilə bağlı qeyd edirdi ki, "... Bizim məqsədimiz təkcə neft hasil etmək, onu nəql etmək, bundan vəsait əldə etməkdən ibarət deyildir. Bizim məqsədimiz neftdən gələn bütün mənfəətləri həm siyasi, həm iqtisadi, həm də başqa mənfəətləri Azərbaycan xalqının gələcək mənafeyinə, rifahına yönəltməkdən ibarətdir"

Üçüncü (yaxud birincinin törəməsi olan) "mərkəz" hesab olunan fiskal siyasət mahiyyət etibarı ilə respublikada mövcud olan aparıcı (gəlir gətirən) sahələr hesabına digər sahə və istiqamətlərin inkişaf etdirilməsi ilə bağlı məsələləri özündə əks etdirir. Heç kimə sirr deyil ki, ölkəmizdə həyata keçirilən əksər iqtisadi və sosial layihələrin (xüsusilə də maliyyətutulululuğu yüksək olan) investisiyalaşdırılma mənbəyini neftdən gələr gəlirlər təşkil edir. Cari dövrdə rabitə, turizm, idman və digər sahələrdə aparılan kompleks şəkilli işlər özünün məqsədyönlülüyü ilə fərqlənir və gələcəyə hesablanmışdır.

Fiskal siyasətin maliyyə bazasının möhkəmləndirilməsi məqsədilə ölkəmizdə xüsusi təyinatlı fondun (Neft Fondunun) yaradılması bu sahəyə ayrılan diqqətin nə qədər mühüm olduğunu göstərir. Ulu Öndər, Təcrübəli Rəhbər hesab olunan Heydər Əliyev özünün iqtisadi düşüncələrində bu fondun yaran-masının əsas məqsədlərindən biri kimi müvafiq siyasətin planauyğun reallaşdırılmasını görürdü. Belə ki, onun fikrincə, yaradılan maliyyə fondu istehsalla yanaşı sosial sferanı da öz vəsaitləri ilə təmin etməli, müxtəlif təyinatlı transfertlər kifayət qədər geniş (dövlət büdcəsindən başlayaraq qaçqın və köçkünlərə yardımların edilməsinədək, müxtəlif layihələrin investisiyalaşdırılmasınadək olan və s.) arealı əhatə etməli idi.

Azərbaycan Respublikasında istifadəsi nəzərdə tutulmuş iqtisadi alət və vasitələr məcmusunun tərkibində digərləri ilə yanaşı fiskal siyasət özünün mühümlüyü ilə seçilməkdədir. Daha dərin fikir və düşüncələrimizi ifadə etməzdən qabaq aşağıdakı sxemə müraciət edək.(sxem 2)

Sxem 2-dən ilk növbədə aşağıdakı mühüm nəticələr çıxarıla bilər:

1. Cari dövrdə ölkəmizdə həyata keçirilən iqtisadi siyasətin əsas istiqamətlərindəndir;
2. Fiskal siyasət kifayət qədər geniş tərkibə malikdir, mürəkkəb, lakin məntiqəuyğun sistemin
məcmusudur;
3. O, heç də bütün hallarda (xüsusilə də maddi istehsal və xidmət təyinatlı layihələrdə) birtərəfli təsirlə yekunlaşmır: fiskal siyasət nəticəsində formalaşan obyektlər (iri

sahibkarlıq subyektləri, nəqliyyat kəmərləri, magistralları və s.) sonradan onun özünə təsiretmə imkanları yaradır və s.

İlk növbədə qeyd etmək yerinə düşər ki, həyata keçirilməsi nəzərdə tutulan fiskal siyasət tərkib hissələr kimi ümumi qanunvericilik, idarəetmə, tənzimləmə, maliyyə, təminat və digər növ və formalara aid siyasəti özündə cəmləyir. Bu ilk növbədə qeyd olunan siyasətin sistemliliyi və kompleks şəkildə tətbiqi haqda fikir söyləməyə imkan verir. Belə ki, haqqında bəhs olunan bu və digər analoji iri layihələrdə faktiki tətbiq, icra kimi məsələlərin hüquqi-normativ təminatı, fəaliyyət mexanizmlərinin dəqiqləşdirilməsi (layihənin icrası ilə bağlı bütün şərtlər: istifadə olunacaq mal-material siyahıları, baş podratçılar və subpodratçılar, fəaliyyət mərhələləri üzrə plan-proqnoz işlərinin hazırlanması, icra müddətlərinə aydınlıq gətirilməsi və s.) kimi məqamlara aydınlıq gətirilməlidir.

***Sxem 2. Fiskal siyasət və BTC.***




Məzmun etibarı ilə fiskal siyasət ölkənin iqtisadi fəaliyyətinin (imkanlarının) prioritet istiqamətləri əsasında digər sahə və yönlərin inkişafı və təkamülünü nəzərdə tutur. Yəni aparıcı, gəlir gətirən sahələrin inkişafı ilə bərabər digər istehsal, xidmət və sosial sferalarının yeniləşməsinə, güclənməsinə nail olunur. Məsələn, cari dövrdə fiskal siyasətin əsas istiqamətlərindən biri "neft kapitalının insan kapitalına çevrilməsidir" ki, bu da özündə respublikamıəzda mövcud olan fəaliyyət növləri üzrə yüksək ixtisaslı, peşəkar kadrların hazırlanmasını əks etdirir.

Digər tərəfdən "artan əhali - yüksələn tələbat həcmi və səviyyəsi" prinsipi əsasında tələbatı for-malaşdıracaq yönlərdə əsaslı (həmçinin perspektiv dövrlərə hesablanmış) işlərin icrasını da aktuallaşdı-rırdı ki, bunların bəlli maliyyə, texniki və digər baxımdan həcmi fiskal siyasətin payına düşürdü.

Fiskal siyasət məzmun etibarı ilə "aksyoma" və ya "postulat" deyil, reallıqda yaranan iqtisadi və-ziyyətin xüsusiyyətləri əsasında ona spesifik dəyişikliklər edilə bilər. O, adətən ölkənin makroiqtisadi (proqnozlaşdırılmış) konturları nəzərə alınmaqla qurulur və icra olunur.

Bu sahədə qabardılası məsələ-lərdən biri kimi Bakı – Tiflis – Axalkalaki – Qars dəmir yolunun tam istifadəyə verilməsi nümunə olaraq göstərilə bilər. Tamamilə istifadəyə verilməsi 2017-ci ilin əvvəlində nəzərdə tutulan bu marşrut ilk növbədə aşağıdakı 3 məqama diqqəti çəkir:

1.Avropa – Asiya əlaqələrində yükdaşıma (sonradan isə mümkün olarsa, sərnişindaşıma) yönündə
tamhəcmli və zaman etibarı ilə səmərəli hərəkətlənmənin təmin olunması;

2.kifayət qədər aktiv iqtisadi əlaqələrə malik Rusiya və İran arasında yükdaşımaların həyata keçirilməsi;

3.Ölkəmizin əsas hissəsi ilə coğrafi baxımdan birbaşa quru əlaqəsi olmayan Naxçıvan Muxtar Respublikasının vahid dəmir yolu sisteminə qoşulması (Qarsdan Naxçıvana dəmir yolunun çəkilməsi əsasında).

Qeyd olunmalıdır ki, hal-hazırda haqqında bəhs olunan dəmir yolu marşrutunun Gürcüstan – Azərbaycan hissəsindən artıq istifadə olunmaqdadır. Misal üçün, Ukrayna Respublikasından yola Salı-nan 2 qatar (onlardan birincisi sınaq qatarı idi) ölkəmizən tranzit keçidi istifadə etməklə Çinə göndəril-miş və yüklər artıq son ünvana çatdırılmışdır. Əməliyyatın nəticəsinin xarakterizə edilməsi istər zaman, istərsə də maliyyə vəsaitlərinin xərclənməsi baxımından dəfələrlə qənaətin əldə olunması ilə fikir söyləməyə imkan verir.

Faktiki fəaliyyətdə olan layihə perspektiv dövr üzrə planlaşdırma işlərinin həyata keçirilməsini də şərtləndirmişdir. Belə ki, artıq tammənalı təcrübi sınağının keçirilməsi nəzərə tutulan marşrutun möv-cudluğu (hələlik hissəvi olsa da) İran İslam Respublikası tərəfindən müvafiq beynəlxalq nəqliyyat dəh-lizinə qoşulma istəyini də ortaya qoymuşdur. Məhs bu məqsədlə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2016-cı ilin 23 fevral tarixində bu ölkəyə baş tutmuş səfərində iki ölkənin dəmir yolları sisteminin əlaqələndirilməsinə yönələn "Qəzvin – Rəşt – Astara (İran) – Astara (Azərbaycan)" dəmir yolunun tikintisi ilə bağlı yazılı memorandum imzalanmışdır. Hər iki ölkənin maraqlarına xidmət edəcək bu layihə bir tərəfdən ölkəmizin nəqliyyat-tranzit imkanlarının genişləndirilməsinə xidmət edirsə, digər tərəfdən İran yüklərinin Çinə və Avropaya daşınmasını asanlaşdırmaq məqsədini güdür. Həmçinin İrandan Fars körfəzinə və Hindistana qədər uzanan dəmir yolunun mövcudluğu nəzərə alınarsa, vahid tranzit sistemi əhatə edən məntəqələrin hər birindən (Avropa, Asiya ölkələrindən, həmçinin Azərbay-canın özündən) yüklərin Fars körfəzinə (zərurət yarandıqda buradan dəniz nəqliyyatı ilə digər məntəqələrə) və uzaq Hindistana qədər çatdırılmasını təmin etmiş olacaqdır.

2019-cu ildə tamamilə istismara verilməsi nəzərdə tutulan "Qəzvin – Rəşt – Astara – Astara" mar-şrutu istər ölkəmizdə bərqərar olmuş sabit və dayanıqlı iqtisadi durumun, onun dünya arenasında kifayət qədər "söz sahibi" olmasının, istərsə də təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və uzun illərdən bəri həyata keçirilən fiskal siyasətin, iqtisadi fəaliyyət və istiqamətlər üzrə atılan diversifikasiya adımlarının uğurlu nəticələrindən hesab oluna bilər. Digər tərəfdən isə, formalaşdırılacaq işgüzar mühit (analoji layihələrdə də müşahidə olunduğu kimi) ölkəmizdə insanların maddi rifah halının yüksəldil-məsinə, yeni iş yerlərinin açılmasına, çoxsaylı iqtisadi və sosial layihələrin perspektiv dövrdə həyata keçirilməsinə öz töhvəsini verəcəkdir.

Fikrimizi ümumiləşdirərək qeyd etmək olar ki, Azərbaycan Respublikasının sosial-iqtisadi inkişa-fında özünəməxsus rola malik "Əsrin müqaviləsi" ilə, onun əsasında tikilərək istismara verilə və Vətəni-mizin maliyyə müstəqilliyində aktiv rol oynayan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri ilə qanu-nauyğun şəkildə əlaqələndirilmiş fiskal siyasət və onun müxtəlif layihələr üzrə maddiləşən "nəticələri" Azərbaycan Respublikasının perspektiv dövrdə də maliyyə imkanlarının artırılmasına, ölkə daxilində sosial vəziyyətin yüksəlməsinə səbəb olacaq, onun çiçəklənməsinə müsbət təsir göstərəcəkdir.

## ƏDƏBİYYAT


1. Abdullayev A.P. İqtisadiyyat və iqtisadi siyasət. Bakı, Asiya, 2003, 216 s
2. Bağırov M.S. Statistika kursu. Naxçıvan, Əcəmi, 2014, 605 s

3. Bağırov M.S. Yeni təsərrüfatçılıq şəraitində idarəetmə sisteminin təkmilləşdirilməsi məsələləri // ADPU-nun Xəbərləri. Humanitar və pedaqoji elmlər seriyası. 2005, s. 250-253
4. Əhmədov N.H. Dövlət tənzimlənməsinin iqtisadi mexanizmləri. Bakı, Sabah, 2011, 194 s
5. Nadirov A.A. Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf məsələləri. Bakı, Elm, 2001, 450 s
6. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər. Bakı, ADİU, 2009, 291s
7. Şirəliyev A.İ., Mahmudov C.İ. İqtisadi artım və sosial tərəqqi. Naxçıvan, İdeya, 2012, 146 s
8. Vəliyev D.Ə. Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası. Bakı, Adiloğlu, 2008, 428s
9. Булатов А.С. Экономика. М: Экономикс, 2004, 894 с
10. Малахова Н.Г. Финансы и кредит. М: Дело и сервис, 2010, 544с
11. Раджабли А. Теория национальной безопосности. Баку, БСУ, 2005, 224 с
12. Самедзаде З.А. Этапы большого пути (Экономика Азербайджана за полвека, её реалии и перспективы). Баку, Нурлан, 2004, 334s

## ABSTRACT

**Mehdi Bagirov**

**The country's socio-economic development:**
**"Baku – Tiflis - Ceyhan" factor and the prospect of fiscal polisy**

The article is carried out in the Republic of Azerbaijan after gaining independence is about economic policy. As an integral element of the large-scale international project are addressed and sufficient capacity. The main object of the research topic as a major oil export pipeline Baku - Tiflis – Ceyhan its initial formation of a package of stock and shareholders, technical parameters are described on advanta-ges for the country.

Also it is noted that the goal of the commissioning of the pipeline plays an important role in the implementation of fiscal policy. So that fiscal policy organization based in the country in terms of the availability of sufficient financial resources are available. This is one of the leading special weight fell on the same line.

Here are the other large project in the Baku - Tiflis – Ceyhan is about playing the role of substan-tial financial support. As an example in this direction is the commissioning of the Baku - Tiflis – Akhalkalaki – Qars railway, transportation of project have been talked about for the role play. As an example of the direction of Qazvin – Rasht – Astara (İran) – Astara (Azerbaijan) singed a bilateral memorandum on the construction of the railway are appeling.

## РЕЗЮМЕ

**Мехти Багиров**

**СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ СТРАНЫ:**
**ФАКТОР «БАКУ-ТБИЛИСИ–ДЖЕЙХАН» И**
**ПЕРСПЕКТИВЫ ФИСКАЛЬНОЙ ПОЛИТИКИ**

В статье повествуется об экономической политике, проводимой в Азербайджанской Респуб-лике после обретения независимости. Как составной элемент, обращается внимание на крупно-обьемные и довольно большие в финансовом отношении международные проекты.

В исследуемом проекте одним из важных объектов выбран основной трубопровод Баку – Тбилиси – Джейхан, формирование его первоначального уставного капитала и пайщики, технические параметры, приоритеты, создаваемые для нашей страны.

Также отмечается, что для претворения в жизнь целенаправленной фискальной политики в Азербайджане роль сдачи этого трубопровода в эксплуатацию велика. Так как, основательная организация и проведение в стране фискальной политики стало возможным в результате сущест-

вования финансовых ресурсов, основной удельный вес в котором принадлежит именно этому трубопроводу.

В работе также повествуется и других крупномасштабных проектах, в которых щсновной финансовой опорой стал «Баку – Тбилиси – Джейхан». В этом направлении в примерном повествовании рассматривается сдача в эксплуатацию железнодорожного маршрута «Баку – Тбилиси – Ахалкалаки – Карс», его роль в становлении возможным очередных транспортных и других проектов в перспективном периоде.

Очередным примером, рассматриваемом в этом плане является заключение двухстороннего меморандума по строительству железной дороги по маршруту «Газвин – Рашт – Астара (Иран) – Астара (Азербайджан) и его возможностях.

NDU-nun Elmi Şurasının 30 mart 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. ELMİ ƏSƏRLƏR, 2016, № 6(75)

NAKHCHIVAN STATE UNIVERSITY. SCIENTIFIC WORKS, 2016, № 6 (75)

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. НАУЧНЫЕ ТРУДЫ, 2016, № 6 (75)

**LƏTİFƏ NOVRUZOVA**
*Naxçıvan Dövlət Universiteti*

**UOT:331**

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ ƏMƏK EHTİYATLARI VƏ ONLARIN MƏŞĞULLUĞU

**Key words:** *Labor resources, employment, unemployment, economy, economic active population, private sector.*

**Ключевые слова:** *Трудовых ресурсы, занятост, безработица, экономика, экономически активное население, частный сектор.*

Azərbaycanda, eləcə də Naxçıvan Muxtar Respublikasında iqtisadi sistemin dəyişməsi, əmək ehtiyatlarından istifadə sahələrinin də dəyişməsinə səbəb olmuşdur. Əvvəlki dövrlərdə əmək ehtiyatlarının çalışdığı bəzi sahələr artıq fəaliyyət göstərmir. Eyni zamanda müstəqillik illərində yeni mülkiyyət formaları və yeni təsərrüfat və xidmət sahələri yaranmışdır ki, bu da əmək ehtiyatlarından istifadə üçün yeni imkanlar yaradır.

Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının müasir vəziyyətinin təhlili onun dinamik və sürətli inkişaf mərhələsinə keçməsini göstərir. Lakin bu heç də bütün problemlərin həll olunduğu demək deyildir. İqtisadi və sosial sahədə hələ də həll olunmamış bəzi problemlər var və onların aradan qaldırılması mühüm strateji vəzifə kimi qarşıda durur. Belə mühüm problemlərdən biri bütünlükdə ölkəmizdə, o cümlədən də muxtar respublikamızda işsizliyin aradan qaldırılması və əhalinin tam, səmərəli məşğulluğuna nail olunmasından ibarətdir. Təsadüfi deyil ki, ölkə başçısı cənab İlham Əliyevin sərəncamı ilə 2005-ci il oktyabr ayının 26-da 2007-2010-cu illər, sonralar isə 2011-2015-ci illər və 2016-2025-ci illər üzrə «Azərbaycan Respublikasının məşğulluq strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramları», Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun 2013-cü il 18 dekabr tarixli sərəncamı ilə 2014-2015-ci illərdə və növbəti 2016-2020-ci illərdə «Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun

artırılması üzrə Dövlət Proqramları» qəbul olunmuşdur. Bu mühüm Dövlət sənədləri əhalinin səmərəli məşğulluğunun təmin edilməsi və işsizliyin aradan qaldırılmasının respublikamız üçün nə qədər prioritet məsələ olduğunu göstərir.

Əhalini təsərrüfatın müxtəlif sahələrində fəaliyyətinə görə əmək ehtiyatları və iqtisadi cəhətdən fəal əhali qruplarına ayırırlar.

Əmək ehtiyatları qrupuna təsərrüfat sahələrində işləyən əmək qabiliyyətli yaşlı əhali ilə yanaşı, təqaüdə çıxan, lakin əmək fəaliyyəti ilə məşğul olanlar və 14-16 yaşlarında olub, istehsal və xidmət sahələrində işləyən yeniyetmələr aiddir.

Muxtar respublika üzrə əmək ehtiyatlarının əsas hissəsini ümumi əhali arasında da payı yüksək olan, iqtisadiyyatın müxtəlif sahələrində çalışan əmək qabiliyyətli yaşda olan əhali təşkil edir. İkinci yeri əmək qabiliyyətli yaşdan yuxarı olub, lakin iqtisadiyyatda çalışanlar tutur. Yeniyetmələrin isə iqtisadi fəaliyyətə cəlb olunması əsasən mövsümi xarakter daşıyıb, yay dövrünə təsadüf edir.

İqtisadi fəal əhali termindən əhali termindən əhali coğrafiyasında geniş istifadə olunur. O, məşğul olan əhalinin sayını, onun tərkibini və məşğulluq səviyyəsini göstərir. İqtisadi fəal əhaliyə onun gəlir mənbəyindən asılı olmayaraq məşğul olan əhali, həmçinin işləmək istəyən və iş axtaranlar aiddir (1, səh.100).

İqtisadi fəal əhalinin sayının dəyişməsinə əhalinin təbii artım tempi, miqrasiyalar, yeni iş yerlərinin yaradılması və ya iqtisadi böhran, əmək tutumlu istehsal sahələrinin yaradılması və son dövrlərdə isə elm tutumlu sahələrin yaradılması ilə əlaqədar əhalinin təhsil səviyyəsi və s. amillər təsir göstərir.

XX əsrin 80-ci illərindən başlanan iqtisadi böhran, 90-cı illərdə SSRİ-nin dağılması ilə əlaqədar olaraq yaranan yeni müstəqil dövlətlər arasında olan iqtisadi əlaqələrin qırılması, erməni təcavüzkarlığı, muxtar respublikanın Azərbaycanın əsas hissəsi ilə iqtisadi əlaqələrin çətinləşməsi fəal əhalinin məşğuliyyətində də ciddi problemlər yaratmışdır. Azalma məşğul olan əhali arasında da getmişdir. İşsizlərin sayının artmasına əvvəlki dövrlərdə müqayisədə təbii artım sürətinin nisbətən azalmasına baxmayaraq, əhalinin artan sayı da öz təsirini göstərirdi. İş axtaran o halda işsiz kimi qeydə alınır ki, ona ixtisasına uyğun iş təklif etmək olmur. Məşğulluq idarələrinin köməyi ilə iş tapmaqda isə bəzi problemlər yaranır.

- müəssisələr, təşkilatlar, idarələr boş olan iş yerləri haqqında məlumatlar vermir.
- təklif edilən iş yerləri aşağı ixtisas tələb edir, məvacib azdır (2, s.80).

2000-ci ildə muxtar respublikada yaşayan 361,4 min nəfər əhalinin 48%-ni iqtisadi cəhətdən fəal əhali təşkil etmişdir ki, onların da 5812 nəfəri məşğulluq xidməti orqanlarında rəsmi işsiz kimi qeydə alınmışdır. 2009-cu ildə iqtisadi cəhətdən fəal əhali ümumi əhalinin 51,8%-ni təşkil etmişdir ki, onun da 100 nəfəri işsizlik statusu almışdır. Qeydə alınmış rəsmi işsizlərlə yanaşı xeyli sayda qeydə alınmamış işsizlər də vardır.

**Naxçıvan MR üzrə əmək bazarının əsas sosial-iqtisadi göstəriciləri**

| İllər / Göstəricilər | 2000 | 2003 | 2006 | 2009 | 2011 | 2014 |
|---|---|---|---|---|---|---|
| Əhalinin illik sayının (min nəfər) | 361,4 | 372,3 | 385,0 | 399,9 | 414,3 | 437,6 |
| İqtisadi fəal əhali (min nəfər) | 173,8 | 177,2 | 182,5 | 207,3 | 216,5 | 228,6 |
| İqtisadi fəal əhalinin ümumi sayından olanlar (min nəfər) | 168,0 | 169,9 | 174,9 | 207,2 | 216,5 | 228,6 |
| Məşğulluq xidmətlərində rəsmi status olan işsizlər (nəfər) | 5812 | 7284 | 7632 | 100 | 32 | ------ |
| Kişilər | 2099 | 2666 | 2644 | 40 | 4 | ------ |
| Qadınlar | 3713 | 4618 | 4988 | 60 | 28 | ------ |

Məlumat: www statistika nmr az saytından.

Hal-hazırda müşahidə olunan əsas problemlərdən biri gənclər arasında işsizliyin artmasıdır. İşsizliyin ən yüksək səviyyəsi isə 20-24 yaşlı gənclər arasında qeydə alınmışdır. Bu da bir çox obyektiv və subyektiv amillərlə bağlıdır:

- gənclərin nisbətən aşağı peşə ixtisas və peşəkarlıq səviyyələrinə malik olmaları;

- iş yerlərini tez-tez dəyişmələri;

- təhsil alan və təhsilini bitirmiş gənclərin işə götürənlərin tələbini lazımi səviyyədə ödəyə bilməmələri;

- həmçinin gənclərin öz seçdikləri peşə və ixtisasla təmin olunmaq imkanlarının məhdudluğu.

Aparılan araşdırılmalardan məlum olur ki, təhsilin əksər növləri üzrə qızların xüsusi çəkisi adətən oğlanlarınkından yüksək olsa da, işə götürənlərin qəbulda adətən oğlanlara üstünlük verməsi qızların işsizlik problemi ilə daha çox rastlaşmasına səbəb olur. Belə ki, Naxçıvan MR əmək bazarının sosial-iqtisadi göstəricilərindən məlum olur ki, 2000-ci ildə muxtar respublika üzrə 5812 nəfər məşğulluq xidməti tərəfindən rəsmi işsiz statusu olmuşdur ki, onlardan 2099 nəfəri kişi, 3713 nəfəri qadın olmuşdur. 2006-cı ildə bu rəqəm kişilər üzrə 2644, qadınlar üzrə 4988, 2011-ci ildə kişilər üzrə 4, qadınlar üzrə 28 nəfər olmuşdur.

Muxtar respublikada qadınların ən yüksək xüsusi çəkiyə malik olduqları sahələrə təhsil, səhiyyə, sosial xidmət göstərilməsi pərakəndə ticarət, kənd təsərrüfatı və ev təsərrüfatı üzrə xidmətlər daxildir. Lakin bunlara baxmayaraq hazırda məşğulluq sahəsində gender bərabərsizliyinin aradan qaldırılması sahəsində ciddi işlər aparılır. Məşğulluq sahəsində dövlət proqramının həyata keçirilməsi prosesində qadınlar arasında işsizliyin aradan qaldırılması üçün yeni iş yerlərinin yaradılması ilə yanaşı, peşə hazırlığı və yenidən hazırlıq sisteminin özünəməşğulluq və natamam məşğulluq formalarının, iş rejiminin və s.-in inkişafına diqqət verilməlidir. Həmçinin qadın sahibkarlığın inkişaf etdirilməsi üçün şərait yaradılmalıdır.

90-cı illərin ortalarından başlayaraq respublikamızda aparılan bazar yönümlü islahatlar və iqtisadiyyatda struktur dəyişiklikləri nəticəsində əmək ehtiyatlarının özəl bölmədəki payı ildən-ilə artır. Bu dövrdə kənd yerlərində torpaq islahatlarının başa çatması, burada yaşayan əhaliyə torpaq, paylarının verilməsi özünə məşğulluq əsasında fəaliyyət göstərən ailə kəndli təsərrüfatlarının inkişafına təkan vermişdir.

Eyni zamanda yeni yaradılmış müəssisə və təşkilatlar, fəaliyyətini bərpa etmiş müəssisə və təşkilatlar hesabına yeni iş yerlərinin yaradılmasına və əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə şərait yaranmışdır. Hazırda muxtar respublikada Ümumi Daxili Məhsulun tərkibində özəl bölmə 87%-lik paya sahibdir. 2014-cü ildə istehsal olunan sənaye məhsulunun 92,6%-i, kənd təsərrüfatında istehsal olunan məhsulun 99%-i, nəqliyyatda daşınan yüklərin 97,6%-i, sərnişin daşınmalarının 88,7%-i bölmənin payına düşmüşdür ki, bu da əmək ehtiyatlarından istifadəyə öz müsbət təsirini göstərir.

Muxtar respublikada əmək bazarının nəzəri və təcrübi cəhətdən nizamlanması baxımından ən çox əhəmiyyət kəsb edən məsələ işsizliyin yarada biləcəyi neqativ halların qarşısının alınması üçün problemin həllidir. İşsizlik bir qayda olaraq yoxsulluğa və aztəminatlığa şərait yaradır, sosial münaqişələrin yaranmasına səbəb olur, dövlət və ictimai institutlara olan etibarı azaldır, ekstrimist qrupların və hərəkətlərin mövqeyini gücləndirir, mənəvi və fiziki sağlamlığa mənfi təsir göstərir. Buna görə də işsizliklə mübarizə günün ən aktual problemlərindəndir.

Təsadüfi deyildir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2016-cı il yanvar tarixli sərəncamı ilə təsdiq olunmuş «2016-2020-cı illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması» üzrə Dövlət Proqramında əhalinin məşğulluğunun təmin edilməsi məqsədilə aşağıdakı istiqamətlərdə məşğulluq siyasətinin aparılması nəzərdə tutulmuşdur:

- muxtar respublikada məşğulluğun artırılması məqsədilə yerli resurslara əsaslanan yeni istehsal və xidmət müəssisələrin yaradılması;

- yeni iş yerlərinin yaradılması məqsədilə kiçik və orta sahibkarlığın inkişafına dövlət maliyyə dəstəyinin göstərilməsi;

- kəndlərdə məşğulluq ənənələrini nəzərə almaqla kiçik müəssisələrin yaradılması;

- müxtəlif ixtisaslar üzrə peşə hazırlığının təşkili;

- kənd xidmət mərkəzlərinin müvafiq kadrlarla təmin edilməsi;

- sahibkarların kreditləşməsi zamanı innovasiyalar tətbiq olunan yeni iş yerlərinin yaradılmasına yönəldilmiş layihələrə üstünlük verilməsi;

- özünəməşğulluğun təmin edilməsinə şərait yaradılması.

Bütün bu yuxarıda deyilən tədbirlərin və məşğulluq sahəsində müəyyən edilmiş dövlət siyasətinin uğurla həyata keçirilməsi üçün muxtar respublikada hər cür şərait vardır. Şübhəsiz ki, bu tədbirlərin reallaşdırılması əhalinin məşğulluğunun təmin edilməsinə müsbət təsir göstərəcəkdir.

## ƏDƏBİYYAT


1. Ковалев С.А., Ковальская Н.Я. География поселения СССР. Издательство МГУ. 1980, 287 с.
2. Paşayev N.Ə., Əyyubov N.H., Eminov Z.N. Azərbaycan Respublikasının iqtisadi, sosial və siyasi coğrafiyası. Çıraq nəşriyyatı, 2010, 415 s.
3. “2016-2020-ci illərdə Naxçıvan MR-də əhalinin məşğulluğunun artırılması” üzrə Dövlət Proqramı.
4. Statistika komitəsinin www statistika. n.m.r. və saytı.



## ABSTRACT

**Latifa Novruzova**

**Labor resources of Nakhchivan Autonomous Republic and their employment**

In article on the background of social-economic development the change and complexity of labor resources employment, the unemployment problems are investigated. Factors affecting to the use of women and young’s labor, among them special attention are given to the issues of unemployment and employment.

At the end of the article are dialed with the main directions of state program according to increase population’s employment in Nakhchivan AR



## РЕЗЮМЕ

***Лятифа Новрузова***

**Трудовые ресурсы и их занятость Нахчыванской Автономной Республики**

В статье на фоне социально-экономического развития Нахчыванской АР изучены проблемы сложившего состояния и изменения в занятости трудовых ресурсов и безработицы. Особое внимание уделено изучение факторов влияющих на исползование труда женщин и молодёжи, вопросов изменения уровня их занятости и безработицы.

В заклюгительной части стаьти освещаются основные направления «Государственной Программы по повышению занятости населения в Нахчыванской Автономной Республике» (2016-2020).



NDU-nun Elmi Şurasının 30 mart 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *Hüquq üzrə fəlsəfə doktoru, dosent* Y.Hüseynov

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. ELMİ ƏSƏRLƏR, 2016, № 6(75)

NAKHCHIVAN STATE UNIVERSITY. SCIENTIFIC WORKS, 2016, № 6 (75)

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. НАУЧНЫЕ ТРУДЫ, 2016, № 6 (75)

**KƏMALƏ TƏHMƏZBƏYOVA**
*NDU*

**UOT:331**

# AZƏRBAYCANDA YENİ İNNOVASİYALARIN TƏTBİQİ İSTİQAMƏTLƏRİ

**Açar sözlər:***innovasiya,innovasiyalaşmanın istiqamətləri, innovasiya bazarları, elektron hökümət, artım, kadr*

**Key words:***innovation, problems ,evaluation methods in Azerbaijan, potential, assessment-evaluation methods.*

**Ключевые слова;** *инновации,инфраструктура, потенциал,инновационное развитие,економических процессов,актуальность*

Bu gün Azərbaycanın sürətli inkişafını dəqiq aydınlaşdırmaq, innovasiyalaşdırma istiqamətlərini müəyyənləşdirmək məqsədi ilə keçmişi qismən araşdıraq. 1995-ci ilə qədər Azərbaycanda ümumi inkişaf səviyyəsi xeyli aşağı düşmüşdür. Məsələn: 1995-ci ildə onun ümumi məhsulunun həcmi 1990-cı il səviyyəsinin 48%, o cümlədən mühüm sənaye məhsulları istehsalının isə 30%-ni təşkil etmişdir. Araşdırmalar göstərir ki, Naxçıvan Muxtar Respublikasında da istehlak edilmiş sənaye məhsullarının həcmi kəskin dərəcədə azalmağa meylli olmuşdur. Belə ki, Naxçıvan Muxtar Respublikasında sənaye məhsulları istehsalının dinamikasının təhlili göstərir ki, 5 il ərzində sənaye istehsalı hər ( 1994-cü ildən başqa ) özündən qabaqkı illərə nisbətən xeyli aşağı düşmüşdür. Bu rəqəm 1991-ci ildə 1990-cı ilə nisbətən 6,3%, 1992-ci ildə 1991-ci ilə nisbətən 63,2%, 1993-cü ildə 1992-ci ilə nisbətən 36,5%, 1995-ci ildə isə 1994-cü ilə nisbətən 57,7% azalma müşayiət olunmuşdur.

Bütövlükdə yəni ölkə miqyasında baş verən tənəzzül xarici iqtisadi əlaqələrdə də özünü büruzə vermişdir, bu əlaqələrdə mənfi saldo yaranmış ölkənin maliyyə vəziyyətinin də xeyli pisləşməsinə səbəb olmuşdur. Bu dövrdə inflyasiya, hiper inflyasiya səviyyəsinə yüksəlmişdir. İşsizlik son həddə çatmışdır. 1990-1995-ci illər üzrə aparılan tədqiqatlar göstərir ki, ölkədə işsizlərin sayı 1150 minə çatmışdır. Tənəzzülün nəticəsi olaraq 1992-1994-cü illərdə milli gəlir 50%

azalmış, 1993-cü ildə MDM-un 14,4 % büdcə gəliri təşkil etmişdir. Əhalinin istehlakında dəyişmələr 1991-1993-cü illərdə kəskin yoxsulluqla nəticələnmişdir.

Təhlilə əsasən belə nəticəyə gəlmək olar ki, iqtisadi sabitliyi möhkəmləndirmək və onu inkişaf etdirmək üçün görülən bütün tədbirlər elmi əsaslar üzərində qurulmalıdır. Məhz bu dövrdə bütün diqqət iqtisadi sabitliyin bərpa olunmasına yönəldilmişdir. İqtisadi sabitliyin qazanılması çoxcəhətli məsələlərlə bağlı olmuşdur. Belə ki, sabitliyə nail olmaq üçün ölkədə struktur dəyişikliklər, elmi – texniki tərəqqi tətbiq edilməli və idarəetmənin ən səmərəli metodları seçilməli eyni zamanda əməyin səmərəli təşkili ön plana kecirilməli idi. Sabitləşmə və artım dedikdə artımın hansı amillərlə və struktur dəyişiklik hesabına əldə edilməsi nəzərdə tutulur. Lakin sabitləşmə dövründən sonrakı artım yeni keyfiyyət xassəsi kəsb etməlidir. Beləliklə iqtisadi sabitləşmə iqtisadi artımla müşayiət olunur. Lakin iqtisadi artımın yeni keyfiyyət kəsb etməsini tamamlamaq üçün daha mütərəqqi metodlar tətbiq edilməlidir. Əslində sabitləşməyə yalnız çoxalma kimi baxmaq düzgün olmazdı. Qeyd etdiyimiz kimi iqtisadi sabitləşmə o zaman səmərə verir ki, istehsalın kəmiyyət və keyfiyyət tərəfləri vəhdətlik təşkil etsin. Bu o deməkdir ki, kəmiyyətcə artım öz-özünə baş vermir. Bu istehsalın strukturunda müəyyən dəyişiklilərə əsaslanır. Yəni bu proses intensiv inkişaf amillərinə əsaslanmalıdır. Heydər Əlyev siyasəti, iqtisadi modelin düzgün seçilməsi, islahatların düzgün aparılması, dövlət proqramlarının uğurla həyata keçirilmiş və Cənab İlham Əliyev tərəfindən bu proqramların davam etdirilməsi, sosial təminatın gücləndirilməsi və ölkə infrastrukturun yaradılması, ordunun yenidən qurulması, Azərbaycanın tam müstəqil, sürətlə inkişaf edən bazar iqtisadiyyatı ölkələri sırasında özünə layiq yer tutmasına səbəb olmuşdur. Məhz elə bu daxili və xarici siyasətin nəticəsidir ki, ölkədə əmin-amanlıq təmin edilmiş, qlobal böhranın ölkəmizə ağır təsirinin qarşısının alınması üçün uğurlu tədbirlər görülmüşdür və görülməkdədir. Hazırda diyə bilərik ki, Azərbaycan sosial–iqtisadi inkişafın daha mütərəqqi yolunu müəyyənləşdirməkdədir. Bu yol ölkə tələbatının yerli sənaye və kənd təssərrüfatı malları ilə təmin olunması və ixracın gücləndirilməsi sürətli və tam innovasiyalaşdırma proqramlarının hazırlanmasını və həyata keçirilməsini nəzərdə tutmuşdur. İnnovasiya dedikdə, elmi-texniki yenilik qısaca desək, hər hansı fəaliyyətdə tərəqqi deməkdir. Deməli innovasiya hər hansı bir fəaliyyətə yeni bir xüsusiyyət qatmağa, yeni keyfiyyət qazandırmağa, sürətli artıma, rəqabət qabiliyyətini yüksəltməyə və əlavə mənfəət qazandırmağa qadir bir prosesdir. Əslində innovasiyalaşmanı, iqtisadiyyatın, sosial təminatın, əmək məhsuldarlığının və keyfiyyətin inkişaf metodikası kimi də qəbul etmək olar. Bu metodu bazar iqtisadiyyatının xüsusiyyətləri doğurmuşdur. Bu sistemdə bazarlar istehsalı tənzimləmək imkanlarına malikdir. Zənnimizcə rəqabət ilkin mərhələdə bazarların doğurduğu bir amildir ki, sonrakı mərhələdə o, özunu istehsalda göstərir.Yəni bazarlarda rəqabət qabiliyyətinin artırılması və öz yerini möhkəmləndirməsi istehsala, onun xüsusiyyətlərinə, innovasiyalaşma dərəcəsinə əsaslanır. Lakin ölkə ərazisində əsas sahələrin innovasiyalaşması üçün bir çox şərtlərin olması vacibdir. Məsələn;

Bu sahədə maarifləndirmə işinin yüksək səviyyədə təşkili və dövlətin bu sahədə kansultasiya mərkəzlərinin yaradılması. 2) Orta, kiçik müəsissələrin innovasiyalaşdırma işinə dövlətin maliyyə yardımının artırılması.3) Ölkəyə yeni innovasiyaların gətirilməsinə dövlətin dəstəyi. 4)Bir neçə rayonda innovasiya bazarının yaradılmasına dəstək.5)Lizinq fəaliyyətinin müasir texnologiyalara əsaslanması.6)Ölkədə yeni innovasiyaların yaradılması imkanlarının gücləndirilməsi və dövlətin həvəsləndirmə tədbirlərinin təşkil olunması. 7)Yeni innovasiyalı texnologiyaların tələblərinə cavab verən kadrların hazırlanması.8)Xaricdən gətirilən yeni texnologiyalara vergi və rüsumların azadılması. Bu gün ölkəmizdə yeni texnologiyalarla yüksək təminat informasiya–kommunikasiya sahələrində müşahidə olunur. Belə ki ölkənin ən ucqar məntəqələrində müasir elektron ATS-lər qurulmuş və istifadəyə verilmişdir. Hazırda, Elektron Azərbaycan Dövlət proqramının həyata keçirilməsi davam edir. Bu ölkədə idarəetmənin avtomatlaşdırılmasına əsaslanır və bu nizam–intizamın artırılmasına, vaxta qənaət olunmasına şərait yaradır. İnnovasiyalı məhsulların artırılması üçün Sumqayıt Texnoloji Parkı yaradılmış və onun genişləndirilməsi işi həyata keçirilir. Bu parkda elektro-texniki avadanlıqların istehsalı həyata keçirilir. Park prezidentin 2012-ci il 5 noyabr tarixli sərəncamına əsasən yaradılmışdır. Sumqayıt, Gəncə və Qaradağda da sənaye parklarının yaradılması işi davam edir. Azərbaycanda baş

verən innovasiyalaşma prosesi Beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilmişdir, belə ki, Ümumdünya iqtisadi formun rəqabət qabiliyyətlilik indeksinin hesablanması zamanı 12 göstəricidən istifadə olunur. Azərbaycan, Qlobal Rəqabət Qabiliyyətlilik indeksi 2014-2015, hesabatına əsasən rəqabət qabiliyyəti səviyyəsinə görə ölkəmiz 148 ölkə içərisində 38-ci yerə, MDB–məkanında isə birinci olmuşdur. Ölkəmiz ilk dəfə dünyanın yuxarı orta gəlirli və yüksək insan inkişafı ölkələri qrupuna daxil olmuşdur. Azərbaycan Qafqazda investisiya reytinqinə malik yeganə ölkədir. Göründüyü kimi bu uğurlara təsir edən əsas amillərdən birinin innovasiya aktivliyi olması müəyyənləşdirilmişdir. Son dövrlər iqtisadi zonaların elmi–texnoloji kompleksinin innovasiya potensialının qiymətləndirilməsi həyata keçirilmişdir. Statistik göstəricilərə əsasən iqtisadi zonaların innovasiya potensialı asağıdakı kimi olmuşdur. Bakı innovasiya indeksi 0,582363. Naxçıvan-innovasiya indeksi -0,352685, Abşeron -0,293545, Gəncə -Qazax -0,279945 ,Quba – Xaçmaz -0,217213. Qeyd etmək yerinə düşər ki, Naxçıvan Muxtar Respublikasında hər sahədə və idarəetmədə innovasiyanın inkişafına xüsusi diqqət yetirilmişdir. İnnovasiyalaşmanın səviyyəsinə görə Bakı–Abşeron öndədir. Bu zonada elmi potensialla yanaşı, texnoparklar və azad iqtisadi zonalar yaradılır. Ölkəmizdə innovasiyalaşmanın ilkin və əsas istiqaməti neft hasilatı və neft emalı sahələri olmuşdur. Araşdırmalara əsasən diyə bilərik ki, mədənçıxarma sənayesində texnoloji innovasiyalara çəkilən xərclərin 92,3 faizi büdcə vəsaiti, 7,6 faiz müəssisələrin öz vəsaitləri 0,1 faizi isə büdcədənkənar fondların vəsaiti hesabına olmuşdur. Yeni texnologiyalara çəkilən xərclərin əsas istifadə istiqaməti neft sənaye sahələri olmuşdur.Texnoloji innovasiyalardan istifadənin ikinci böyük istiqaməti informasiya–kommunikasiya sahəsidir. Son 10 ildə regionda 1400dək ATS,1000 yaxın poçt binası tikilmiş, hər 100 nəfərdən 70 internet istifadəçisi olmuşdur.Vergi sisteminin 2006-cı ildən başlayaraq AVİS-nin tətbiqi vergi inzibatçılığının tam elektronlaşdırılmasına, 2010-cu ildən fiziki şəxslərin elektron qeydiyyatı tətbiqi, ƏDV depozit hesabatının tətbiqi, və s. bu sahənin də texnoloji innovasiyaladırılmasını sürətlənməsini göstərir. Hazırda istehsal sahələrinin sürətli innovasiyalaşması siyasəti aparılır. Beləki müəssisələrin texnoloji innovasiyalarla təminatı sahəsində bir çox işlər görülmüşdür. Qarşıda daha böyük işlər ,müəssisələrin innovasiyalaşdırma işinə maneçilik törədən amillərin araşdırılması və aradan qaldırılması, kənd təsərrüfatı sahələrinin elektronlaşdırılmasının sürətləndirilməsi bu sahəyə yeni texnologiyaların tətbiqinin təşkili məsələsinin həllində dövlətin iştirakı, ümumiyyətlə ölkənin bütün istehsal sahələrində baslamış yeni texnoloji islahatların sürətləndirilməsi və tam şəkildə regionların elektron hökümət sistemində birləşdirilməsi, innovasiyalaşdırma prosesinin tənzimlənməsi məqsədi ilə tövsiyə və qərarların hazırlanması məsələsi dayanır. Bütün bunlar "Azərbaycan-2020;gələcəyə baxış"inksaf konsepsiyasının uğurla həyata keçirilməsinə təminat verən əsas amillərdəndir.

## ƏDƏBİYYAT


1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı, 1997
2. Azərbaycanın Statistik göstəriciləri. Bakı, 2014
3. Biznesin əsasları. Bakı, 2005
4. Telman Hüsenov.Müəssisələrin iqtisadiyyatı. Bakı, 2003


## ABSTRACT


İn the artıcle the innovation development in Azerbaijan,the relevance of the formation of economic processes and systems based on innovation .Given the vveaknesses and the factors hindering the development of innovation in industrial enterprrises. Discloses methods for assessing the innovation potential and the problems encountered during the evaluatio. The article provides a block diagram of the control innovation potential in the regions by the examplet innovative potential of subjects.


## РЕЗЮМЕ

Встаьэ раскрто йновавцйонное в Азервайджане ,актуальность фоямировартя эконоьических процессов и систем основанных на иновации . Дано слабыестороны и факторы препятстиующих развитуию иноваций ипроьшленныч предприятий республики. Раслрыты методы оценки тнновационного потенциало и возникшие провлеьы во время оценки. В статье даны схема управления инновационного потенциало , оценено инновационныйпотенциал сивъе-кеовв примере регионов.

NDU-nun Elmi Şurasının 30 mart 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)
Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru* A.Rüstəmov

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. ELMİ ƏSƏRLƏR, 2016, № 6(75)
NAKHCHIVAN STATE UNIVERSITY. SCIENTIFIC WORKS, 2016, № 6 (75)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. НАУЧНЫЕ ТРУДЫ, 2016, № 6 (75)

**İSMAYIL BAĞIROV**
*Naxçıvan Dövlət Universiteti*
*E-mail:baqirovismayil@mail.ru*

**UOT:336.2**

# MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCAN RESPUBLİKASINDA VERGİLƏRIN YARANMASI VƏ İNKİŞAF TARİXİ

**Acar sözlər:** *vergilər sistemi, vergilər siyasəti, vergi islahatları, elektron vergi xidməti*
**Keywords:** *taxes system, taxes policy, taxes reforms, electronic taxes service.*
**Ключевые слова:** *налоговая система, налоговая политика, налоговые реформы, электронное налоговое обслуживание.*

Bildiyimiz kimi, vergilər müəyyən edilmiş qanun çərçivəsində təsərrüfat subyektlərindən və əhalidən dövlət tərəfindən alınan icbari ödənişlərdir. Vergilərin tarixi bəşəriyyətin tarixi qədər qədimdir. Vergilər dövlətin maliyyə ehtiyatlarının yaradılmasının əsas mənbəyi olmaqla, min illərdir ki, mövcuddur. Onlar dövlətin təşəkkül tapdığı və cəmiyyətin siniflərə bölündüyü andan iqtisadi münasibətlərin zəruri elementinə çevrilmişlər. Azərbaycan Respublikasının müstəqillik dövründə vergi sistemi 1991 - 1992-ci illərdən başlayaraq təşəkkül tapmışdır. Vergi münasibətlərinin hüquqi tənzimlənməsi təcrübəsinin olmaması, qanunvericiliyin hazırlanması üçün ayrılmış vaxtın az olması, ölkədəki iqtisadi və sosial böhran onun təşəkkül tapmasına bilavasitə öz təsirini göstərmişdir. Ölkənin vergi sisteminin qısa müddət ərzində qurulmasını zəruri edən əsas şərtlərdən biri də 1991-ci ildə Azərbaycanın müstəqillik əldə etməsi nəticəsində büdcənin gəlir hissəsini formalaşdırmaq zərurəti idi. Bunun üçün də müstəqillik dövründə Azərbaycan Respublikasında vergilərin yaranmasi və inkişafi tarixi mövzusu çox aktual bir məsələdir.

Azərbaycan Respublikasının vergi sistemi müstəqilliyimiz elan edildikdən sonra, 1991-ci ilin sonu 1992-ci ilin əvvəllərində təşəkkül tapmağa başlamışdır. Bu təşəkkül prosesini 3 mərhələyə ayırmaq olar:

1-ci mərhələdə 1991-1992-ci illəri əhatə edir. Bu mərhələdə əsasən gəlirlərə və xərclərə qoyulan vergilər haqqında qanunlar qəbul edilmişdir. 1991-ci ilin dekabrında “Əlavə dəyər vergisi”

və ”Aksizlər” haqqında,1992-ci ilin iyununda “Hüquqi şəxslərin mənfəətindən və gəlirlərin ayrı-ayrı növlərindən vergilər” və “Fiziki şəxslərdən gəlir vergisi” haqqında, 1992-ci ilin ortalarından başlayaraq respublikanın müstəqil vergi xidməti orqanı formalaşmağa başladı. 1992-ci il 21 iyul tarixdə qəbul edilmiş «Dövlət vergi xidməti haqqında» Azərbaycan Respublikasının Qanunu dövlət vergi xidmətiorqanlarının strukturunu, onların hüquq və vəzifələrini müəyyən etdi. Azərbaycan Respublikasının vergi sistemi yaradılarkən xarici ölkələrin təcrübəsindən geniş istifadə edilmişdir. Məhz buna görə də öz strukturu və quruluş prinsiplərinə görə o dünya iqtisadiyyatında geniş yayılmış vergitutma sistemlərinə uyğun gəlir. Azərbaycan Respublikasının vergi sisteminin əsas elementləri xarici ölkələrin vergi qanunvericiliyinin sadəcə köçürülməsi deyildir və onlar milli xüsusiyyətlər nəzərə alınmaqla formalaşdırılmışdır. [2].

2-ci mərhələdə 1993-1996-cı illəri əhatə əhatə edir. Bu mərhələdə əsasən bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq bir sıra yeni vergi növləri haqqına qanunlar qəbul edilmiş,onların normativ-hüquqi bazası yaradılmışdır.Başqa sözlə 1993 ci ilin fevralında “Torpaq vergisi”,1995 ci ilin martında “Əmlak vergisi” və “Mədən vergisi”, 1996-cı ilin dekabrında “Dövlət yol fonduna vergilər” haqqında qanunlar qəbul edilmiş, vergi qanunlarının tədbiqi ilə bağlı təlimatlar, əsasnamələr işlənib hazırlanmışdır.

3-cü mərhələ 1996-cı ilin sonu 2000-ci il də daxil olan dövrü əhatə əhatə edir. Bu mərhələdə əsasən cəmiyyətdə və iqtisadiyyatda baş verən keyfiyyət dəyişikliklərindən asılı olaraq əvvəlki mərhələdə qəbul edilmiş qanunların təkmilləşdirilməsi istiqamətində işlər aparılmış,müvafiq vergi qanunlarında dəyişikliklər və düzəlişlər edilmiş, Respublika Prezidenti H. Əliyev tərəfindən Respublika Nazirlər Kabinetinin 1998-ci ilin noyabr ayında keçirilmiş geniş iclasında ölkənin Vergi Məcəlləsinin qısa müddətdə hazırlanaraq qəbul olunması respublika hökumətinə, iqtisadi orqanların rəhbərlərinə ən vacib vəzifə kimi tapşırıldı. Odur ki, 1999-cu ilin iyun ayından etibarən qanunvericilik bazasının təkmilləşdirilməsi məqsədilə Vergi Məcəlləsinin layihəsinin hazırlanması vergi sistemində aparılan islahatların ən prioritet istiqaməti hesab edildi və bu vəzifənin yerinə yetirilməsi üçün geniş tədbirlər proqramı həyata keçirilməyə başlanıldı. [2].

Respublika Vergilər Nazirliyinin Maliyyə Nazirliyi və digər iqtisadi orqanlarla birgə həyata keçirdiyi məqsədyönlü fəaliyyəti nəticəsində, qısa müddətdə beynəlxalq standartlara və eyni zamanda ölkənin iqtisadi şəraitinə uyğun sənədin - Azərbaycan Respublikası Vergi Məcəlləsinin layihəsi hazırlandı, Respublika Milli Məclisində bir neçə oxunuşda müzakirə edildi və daha da təkmilləşdirilərək 2000-ci ilin iyul ayında qəbul olundu. Azərbaycan Respublikası Prezidentinin imzaladığı 11 iyul 2000-ci il tarixli "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə Azərbaycan Respublikası Vergi Məcəlləsi təsdiq edildi və onun 2001-ci ilin yanvar ayının 1-dən qüvvəyə minməsi nəzərdə tutuldu. [3].

Vergi Məcəlləsinin qəbul edilməsi ölkədə iqtisadi islahatların inkişaf etdirilməsində həqiqətən tarixi bir hadisə oldu. Bu qanunun qəbul edilməsi ilə ölkənin vergitutma sisteminə yenidən baxılmış oldu. Vergi Məcəlləsinin qəbul edilməsi nəticəsində ölkədə əvvəllər fəaliyyətdə olan bəzi vergilər ləğv edildi, dövlət və yerli vergilər arasında dəqiq sərhəd müəyyənləşdirildi, bir sıra yeni vergilər daxil edildi. Bütün bunlar təsərrüfatçılıq şəraitinin keyfiyyətcə dəyişməsinə səbəb oldu. [6].

Vergi Məcəlləsinin qəbul edilməsi ölkədə vergitutma prosesini tənzimləyən norma və qaydaları sistemləşdirməyə imkan verdi. Vergi Məcəlləsi qəbul edilənə qədər vergitutmanın vahid qanunvericilik və normativ bazası yox idi, ölkədə bu sahədə yüzlərlə normativ sənəd fəaliyyətdə idi. Vergi Məcəlləsinin qüvvəyə minməsi ilə bütün bu aktlar öz hüquqi qüvvəsini itirmiş oldu.

Azərbaycan Respublikasının Vergi Məcəlləsi Azərbaycan Respublikasında vergi sisteminin, vergitutmanın ümumi əsaslarını, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydalarını, vergi ödəyicilərinin və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələrini, vergi nəzarətinin forma və metodlarını, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyəti, dövlət vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilməsi qaydalarını müəyyən edir. [9].

Mütəxəssislərin, iş adamlarının, beynəlxalq maliyyə qurumlarının Azərbaycan Respublикasının Vergi Məcəlləsi haqqında rəyi ondan ibarətdir кi, Vergi Məcəlləsi, ölкədə yaradılmış vergi mühiti azad sahibкarlıq üçün geniş imкanlar yaradır və hazırda Respublикada biznesin, sahibкarlığın inкişafı üçün vergi qanunvericiliyində, bütövlüкdə vergi sistemində ziddiyyət və maneçiliк yoxdur. Bununla belə, tam ədalətli vergitutmanın bütün incəliкlərini özündə birləşdirən vergi sisteminin, vergi qanunvericiliyinin yaradılması deməк olar кi, hələ dünyanın heç bir ölкəsinə müəssər olmamışdır. Ona görə də vergi sisteminin səmərəliliyinin artırılması, iqtisadi inkişafın artım surətini zəifllədən vergi maneələrinin aradan qaldırılması, yüksək peşə keyfiyyətlərinə malik vergi xidməti orqanı əməkdaşlarının yetişdirilməsi hər bir dövlətinin vergi siyasətinin əsasını təşkil etməlidir. Bunun üçün dövlət ardıcıl olaraq səmərəli vergi islahatları aparmalı və onların həyata keçirilməsində nəzarəti gücləndirməlidir. İEÖ – də hər 5 - 7 ildən bir əsaslı vergi islahatları, hər 2 – 3 ildən bir isə fəaliyyətdə olan vergi normalarınıən səmərəliliyinin dərin təhlili aparılır. Bu baxımdan Azərbaycan Respublикasıda istisna deyil. Belə кi, Azərbaycan Respublикasının Vergi Məcəlləsinə 2002-ci ildən, 2015-ci ilə kimi hər il əlavə və dəyişiкliк edilmişdir. Bu isə respublикanın vergi sistemində onun təкmilləşdirilməsi istiqamətində işlərin bu gün də davam etdirildiyini bir daha təsdiq edir. [3].

Vergi sisteminin inkişaf etdirilməsinin əsas istiqamətləri, dövlət idarəçiliyinin müasir Avropa standartlarına uyğunlaşdırılması sahəsində təkmilləşdirmələr aparılmasından, vergi orqanları ilə vergi ödəyicilərinin arasında texnoloji baxımdan mükəmməl elektron əlaqələrin yaradılmasından, müasir kompyuter və proqram təminatları, geniş təhlil bazasına malik informasiya sistemlərinin qurulması istiqamətində işlərin davam etdirilməsindən ibarətdir. Belə ki, Azərbaycan Respublikasının Prezidentinin 2005-ci il 12 sentyabr tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında vergi inzibatçılığının təkmilləşdirilməsi Dövlət Proqramının *(2005-2007)* əsas məqsədi ölkədə vergi sistemini beynəlxalq standartlara uyğunlaşdırmaqla bu sahədə səmərəli inzibatçılığın yaradılmasına nail olmaqdan və ölkənin sosial-iqtisadi inkişafının sürətləndirməsinə təkan verən vergi daxilolmalarının müntəzəm artmasını təmin etməkdən ibarətdir. [11]:

Ölkə başçısının yuxarıda qeyd edilən müvafiq sərəncamının məntiqi davamı kimi 2005-ci il 21 oktyabr tarixli digər bir Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)” rəhbər tutularaq 2006-cı ildən başlayaraq Vergilər Nazirliyi sistemində vergi inzibatçılığı proseslərinin elektron qaydada aparılmasına imkan verən “Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi” (AVİS) tətbiq edilir. 2007-2009-cu illərdə AVİS-də yerinə yetirilən iş prosesləri genişləndirilmişdir. AVİS vasitəsilə həm vergi xidmətində sənəd dövriyyəsi elektron formata keçirilmiş və operativ informasiya mübadiləsi təmin olunmuş, həm də vergi bəyannamələrinin qəbulu və emalı prosesi sadələşdirilmiş, iqtisadi təhlilin həyata keçirilməsi və proqnozların tərtibinə imkan yaradılmışdır ki, bu da vergi xidmətinə daha səmərəli nəzarət mexanizmlərini tətbiq etməyə imkan vermişdir. Məhz AVİSin yaratdığı geniş imkanlar hesabına 2007-ci ildə ölkəmizdə elektron bəyannamə sisteminin tətbiqi mümkün olmuş və bu məqsədlə İnternet Vergi İdarəsi yaradılmışdır. Müvafiq sistemin tətbiqi nəticəsində Azərbaycan vergi xidməti təkcə MDB ölkələri arasında deyil, həm də Şərqi Avropada ən modern informasiya texnologiyasına malik xidmətlərdən birinə çevrilmişdir. [ 9 ].

Davamlı iqtisadi inkişafın təmin edilməsi sahibkarlığın dəstəklənməsi sahəsində yeni vəzifələr müəyyən etmişdir. Bildiyimiz kimi mövcud çoxpilləli biznesə başlama prosedurаları, mürəkkəb icazələr sistemi uzun müddət tələb etməklə bərabər, bəzi hallarda bürokratik əngəllər və süründürməçilik yaradırdı. Məhz buna görə də göstərilən mənfi halların aradan qaldırılması, ölkədə sahibkarlığın sürətlə inkişaf etdirilməsi və daha əlverişli biznes mühitinin formalaşdırılması məqsədilə Prezident İlham Əliyevin “Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin “bir pəncərə” prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında” 2007-ci il 25 oktyabr tarixli Sərəncamı ilə 2008-ci il yanvarın 1-dən başlayaraq sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin “bir pəncərə” prinsipi üzrə vahid dövlət qeydiyyat orqanı Azərbaycan Respublikasının Vergilər Nazirliyi müəyyən edilmişdir. [11].

Bununla da sahibkarların dövlət qurumlarından asılılığı azalmış, qeydiyyat prosesi sadələşmişdir. Belə ki, yeni sistemin tətbiqi prosedurların sayını üç dəfə, qeydiyyat dövrünü isə 20 dəfə azaltmışdır. İndiyədək yeni biznesə başlamaq üçün 15 prosedur keçmək, 33 sənəd təqdim etmək lazım idi. Qeydiyyat dövrü isə 72 gün idi. Vahid orqanda qeydiyyat başladıqdan sonra isə sənədlərin tam hazır olması şərtilə, üç gün kifayət edir. Sənədlərin ümumi sayı isə beşə endirilmişdir. Yeni qeydiyyat sistemi insan ehtiyatlarından istifadəyə də qənaət edir. Əvvəllər qeydiyyat prosesinə 500 dövlət işçisi cəlb edilirdisə, indi bu rəqəm bütün respublika üzrə Vergilər Nazirliyinin 85 əməkdaşına bərabərdir. Çoxpilləli sistem

bəzən bürokratik maneələrə səbəb olurdu. Lakin sahibkarlıq fəaliyyətinin qeydiyyat prosedurunun sadələşdirilməsi ilə bu problemlər aradan qaldırılmışdır. Biznesin qeydiyyat sistemində "vahid pəncərə" prinsipinin tətbiqi biznesin sadələşdirilməsinə böyük təsir göstərəcəkdir. Bu, ölkədə daha çox inkişaf etmiş kiçik və orta sahibkarlığın fəaliyyətə başlama prosesinin sürətlənməsi üçün vacib addım olacaq, ölkədə işgüzar iqlimi yaxşılaşdıracaqdır. Onu da qeyd edək ki, sahibkarlıq subyektlərinin "bir pəncərə" prinsipi ilə qeydiyyatı sistemi Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən müəssisələrin qeydiyyatı sahəsində ən uğurlu islahat hesab edilmiş və "Doing Business" hesabatının "Biznesə başlama" reytinqində Azərbaycan Respublikası 64-cü yerdən 13-cü yerə yüksəlmişdir.

2008-ci ildə Azərbaycanda ilk dəfə ƏDV inzibatçılığı prosesində vergi nəzarətinin tam elektronlaşdırılmasına imkan verən ƏDV depozit hesablarının tətbiqinə başlanmışdır. Vahid ƏDV depozit hesabının tətbiqi ƏDV üzrə vergidən yayınmaların qarşısının alınmasına, eyni zamanda vergi ödəyicilərinin ƏDV üzrə inzibati yükünün azaldılmasına da şərait yaratmışdır. Qeyd etmək lazımdır ki, bu sistem vergi orqanları üçün geniş bir informasiya bazası rolunu oynamaqdadır.

Vergi sisteminin dünya standartlarına cavab verməsi istiqamətində görülən tədbirlərdən biri də Azərbaycan Respublikası Prezidentinin "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" 2011-ci il 23 may tarixli Fərmanıdır. Müvafiq fərmanın icrası ilə əlaqədar biznes mühitinin yaxşılaşdırılması məqsədilə 2011-ci il iyun ayının 1-dən fiziki şəxslərin, 2012-ci il fevral ayının 7-dən isə hüquqi şəxslərin internet vasitəsilə elektron qeydiyyatına başlanılmışdır. Qeyd etmək lazımdır ki, hüquqi şəxslərin elektron dövlət qeydiyyatı iki üsulla: sürətli və adi qaydada həyata keçirilir. Təsisçi bir nəfər olduqda sürətli elektron qeydiyyat tətbiq edilir ki, bu da cəmi bir neçə dəqiqə çəkir. Təsisçilərin sayı 1-dən çox olduqda və ya hüquqi şəxsə dair daha geniş məlumtların daxil edilməsi tələb olunduqda adi elektron qeydiyyat sistemi seçilir ki, bu da 20 dəqiqədən 3 günədək davam edir. E-qeydiyyatın tətbiqi nəticəsində biznesə başlamaq üçün prosedurların sayı 6-dan 3-dək, tələb olunan sənədlərin sayı isə 7-dən 2-dək azaldılmışdır [11]:.

Qeyd etmək lazımdır ki, məhz həyata keçirilən tədbirlər nəticəsində 2010-cu il yanvarın 1-dən etibarən elektron vergi-hesab fakturalarının tətbiqinə başlanılmışdır. Nəticədə vergi ödəyiciləri tərəfindən satılan mallara (iş, xidmətlərə) görə vergi hesab-fakturaları elektron formada təqdim olunur. Elektron vergi hesab-fakturalarının tətbiqi həm vergi ödəyiciləri üçün inzibatçılığın sadələşdirilməsinə, həm də bu sahədə aparılan vergi nəzarətinin səmərəliliyinin artırılmasına əlverişli şərait yaradır.

Vergi ödəyicilərinə xidmətin genişləndirilməsi və xidmətlərin keyfiyyətinin artırılması istiqamətində görülən tədbirlərdən biri də 2011-ci ildə qəbul edilmiş "2011-2015-ci illərdə vergi orqanları tərəfindən vergi ödəyicilərinə göstərilən xidmətlərin inkişafı Konsepsiyası"dır. Konsepsiyanın qəbul edilməsində məqsəd vergi ödəyiciləri ilə əlaqələri partnyorluq və qarşılıqlı əməkdaşlıq prinsipləri əsasında, daha müasir informasiya texnologiyalarından istifadə etməklə qurmaq və vergi qanunvericiliyinə könüllü əməletmə prosesinin inkişaf etdirməkdir. [11]:

Respublikamızda vergi ödəyicilərinin operativ şəkildə məlumatlandırılması üçün informasiya bülletenləri və bukletlər nəşr edilir. Vergilər Nazirliyinin internet saytı yaradılmışdır və bu sayt məlumatlar əldə etmək, vergi qanunvericiliyinə aid suallar vermək imkanı yaradır ki, bunun nəticəsində ödəyicilər sorğularına dəqiq və operativ cavab alırlar; bu saytda vergilər mövzusunda ictimai fikrin öyrənilməsi məqsədilə "Səsvermə" bölməsi, "Vergi testi" bölməsi və saytda olan hər hansı məlumatı asanlıqla tapmaq üçün "Axtarış sistemi" yaradılmışdır [ 9 ].

Yuxarıda qeyd edildiyi kimi müstəqilliyimizin bərpasının ilk dövrlərindən başlayaraq respublikamızın vergi siyasətinin təkmilləşdirilməsinə və inkişafına xidmət edən mühim addımlar atılmışdır. Fikrimizcə, aşağıda sadalanan təkliflərin həyata keçirilməsi də bu istiqamətə öz töhfəsini verəcəkdir:

- müasir informasiya texnologiyalarına əsaslanan, keyfiyyətinə görə seçilən vergi xidmətlərinin strukturunun genişləndirilməsi;
- vergi gəlirlərinin dövlət büdcəsinə tam və vaxtında daxil olmasına mane olan, vergidən yayınma hallarına səbəb olan amillərin araşdırılaraq, qarşısının alınması istiqamətində müntəzəm olaraq tədbirlərin görülməsi;
- investorların ölkəmizin vergi sisteminə adaptasiyasının əhəmiyyətli dərəcədə sadələşdirilməsi;
- vergi yükünün ədalətlilik baxımından optimal həddinin müəyyən olunması;
- sahibkarlığın xüsusi çəkisinin artırılması, onun daxili və xarici bazarlara çıxış imkanlarının gücləndirilməsi məqsədilə vergi güzəştlərinin artırılması;

Araşdırmanın sonunda belə bir nəticəyə gəlmək olar ki, həyata keçirilən kompleks islahatlar vergilərin toplanmasında son illərdə yaranmış geriliyin aradan qaldırılmasına nail olunmuş, dövlət

büdcəsinə daxilolmaların artmasına müsbət təsir göstərmişdir.Bütün bunların nəticəsində, Azərbaycanda sabit vergi sistemi yaradılmışıdır.

Bununla belə, qarşıda həll olunmamış bir sıra məsələlər də vardır. Ona görə də, vergi islahatlarının bundan sonra da davam etdirilməsi və daha çevik vergi sisteminin yaradılması məqsədəuyğun sayılır. Burada başlıca vəzifə vergi orqanlarında şəffaflığın təmin olunması, vergi qanunvericiliyinin təkmilləş dirilməsi istiqamətində işlərin davam etdirilməsi, vergi inzibatçılığının səmərəliliyinin artırılması, vergi hüquqpozmaları və eyni zamanda, korrupsiya ilə mübarizənin gücləndirilməsinə nail olmaqdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı, 2015,
2. Məmmədov F.Ə. və başqaları.Vergilər və vergitutma.Bakı, 2010, 512 s
3. Azərbaycan respublikasının vergilər nazirluyi-10il (2000-2010) Bakı, 2010, 189 səh
4. Kəlbiyev Y.A. Fiskal siyasət və milli iqtisadiyyatın tənzimlənməsi problemləri.Bakı, Elm, 2005, 468
5. Rzayev Z.H. Vergi menecmenti.Dərslik.Bakı, 2007, 324 s
6. Zahid.R. H, Şayiq X.İ İqtisadi tərəqqi və vergi siyasəti Bakı, 2008, 271 səh
7..Məmmədov Ə. C Seyfullayev İ.Z Vergi və İnvestisiya Bakı, 2013, 376 s
8.A.Musayev, Y.Kəlbiyev. Azərbaycan Respublikasında Vergi Xidməti: islahatlar və nəticələr. Bakı, 2002
9. www.taxes.gov.az - Azərbaycan Respublikasının Vergilər Nazirliyi
10.www.economy.gov.az- **İqtisadiyyat və Sənaye Nazirliyi**
11. www.e-qanun.az


## ABSTRACT


**Bagirov Ismayil**

**Independence of the Republic of Azerbaijan on establishment and development tax**

After the declaration of independence and improve the tax system, the tax service has been done to modern standards in the field of tax legislation and significant steps have been taken to improve tax administration. At this point, at this stage of the economic development of the country's economy to improve the tax system, which is of particular importance in the forests.


## РЕЗЮМЕ


**Багиров Исмаил**

**Независимость Азербайджанской Республики по налогу на создании и развитии**

После провозглашения независимости и улучшить налоговую систему, налоговая служба уже сделано по современным стандартам в области налогового законодательства и значительные шаги были предприняты для улучшения налогового администрирования. На данный момент, на данном этапе экономического развития экономики страны по совершенствованию налоговой системы, которая имеет особое значение в лесах.



NDU-nun Elmi Şurasının 30 mart 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru* A.Rüstəmov

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. ELMİ ƏSƏRLƏR, 2016, № 6(75)

NAKHCHIVAN STATE UNIVERSITY. SCIENTIFIC WORKS, 2016, № 6 (75)

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. НАУЧНЫЕ ТРУДЫ, 2016, № 6 (75)

**DİLSUZ QASIMOV**
*Naxçıvan Dövlət Universiteti*
*E-mail: qasimov.dilsuz@gmail.com*

**UOT:338.2**

# DÖVLƏT PROQRAMININ ƏSAS İSTİQAMƏTLƏRİNDƏN BİRİ DƏ AQRAR SEKTORUN İNKİŞAFIDIR

**Açar sözlər:** *Region, aqrar sahə, Dövlət Proqramı, sosial-iqtisadi inkişaf, ərzaq təhlükəsizliyi*

**Key words:** *region; agrarian sector; State Program; socioeconomic development; food supply security*

**Ключевые слова:** *Регион, аграрная отрасль, Государственная Программа, социально-экономическое развитие, продовольственная безопасность*

1991-ci ildə Sovetlər İttifaqının dağılmasından və Azərbaycanın müstəqillik əldə etməsindən sonra qarşıda duran həlli vacib problem yeni iqtisadi siyasətinin həyata keçirilməsi və xüsusən də ilk olaraq Azərbaycan kəndlisinin ümdə arzusu olan torpaq islahatlarının aparılması idi. Sovetlər İttifaqında mövcud olan asılı iqtisadiyyat sisteminin dağılması digər respublikalar kimi Azərbaycanı da ağır iqtisadi böhrana salmış, Respublikanı bu böhrandan çıxarmasının yeganə və düzgün yolu ölkə iqtisadiyyatını qısa bir müddətə yeni iqtisadi əsaslarla bərpa etmək idi. Ümummilli Lider Heydər Əliyev tərəfindən uzun illərdən bəri Azərbaycan əkinçisinin torpaq mülkiyyətçisi olması arzusu nəhayət reallaşdırıldı, o cümlədən torpağa münasibətdə tarixi ədalət bərpa edildi, torpaqlar pulsuz olaraq kəndliyə verildi və yeni torpaq əkinçi münasibətlərinin formalaşması üçün real şərait yaradıldı. Muxtar Respublikada ilk dəfə olaraq iqtisadi islahatlar aparıldı, keçmiş planlı təsərrüfat sisteminin yerində bazar iqtisadiyyatına əsaslanan özəl sektorun yaradılması ilə yeni həyata başlanıldı.(3)

Müasir Azərbaycanın qurucusu, inkişafın Azərbaycan modelinin müəllifi Ümummilli lider Heydər Əliyev strategiyasının həyata keçirilməsi nəticəsində ölkədə siyasi və makroiqtisadi sabitliyə nail olunmuş, iqtisadiyyatın bütün sahələrində köklü islahatlar aparılmış, dinamik sosial-iqtisadi inkişafın möhkəm təməli yaradılmışdır

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)"nın uğurlu icrası bütün regionların inkişafında yeni bir mərhələnin yaranmasına səbəb olmuş, formalaşmış əlverişli iqtisadi mühit ölkənin sosial-iqtisadi inkişafı sahəsində başlanmış tədbirlərin davam etdirilməsi zərurətini yaratmışdır. Ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafa, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olunması məqsədilə 2004-cü ildən başlanmış tədbirlərin davam etdirilməsi üçün Azərbaycan Respublikasının Prezidentinin 2009-cu il 14 aprel tarixli 80 nömrəli Fərmanı ilə "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir. "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın uğurlu icrası nəticəsində ölkədə makroiqtisadi göstəricilərin səviyyəsində yüksək artım əldə edilmiş, sosial-iqtisadi inkişaf sahəsində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi əhalinin həyat səviyyəsinin daha da yüksəlməsində mühüm rol oynamışdır.

Ümumilikdə, ötən dövr ərzində regionların sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilən siyasət ölkənin makroiqtisadi göstəricilərinin sürətlə yaxşılaşmasına səbəb olmuş, Ümumi Daxili Məhsul (ÜDM) 3,2 dəfə, adambaşına ÜDM-in həcmi 2,8 dəfə, qeyri-neft sektoru 2,6 dəfə artmış və ölkəmizdə orta illik iqtisadi artım 12,9 % təşkil etmişdir. Son 10 ildə strateji valyuta ehtiyatları 31 dəfə, xarici ticarət dövriyyəsi 6,6 dəfə, ixrac 9,3 dəfə, idxal 4,1 dəfə, qeyri-neft ixracı 4,7 dəfə artmışdır.(1)

Həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,2 milyondan çox yeni, o cümlədən 900 min daimi iş yeri açılmış, 55,6 min yeni müəssisə yaradılmışdır. Yeni açılmış iş yerlərinin 80 faizə yaxını regionların payına düşmüşdür. Kənd təsərrüfatı sahəsində ərzaq təhlükəsizliyinin təmin olunması üçün bitkiçilik və heyvandarlıq sahələri inkişaf etdirilmiş, ərzaq məhsulları ilə özünü təminetmə səviyyəsi daha da yaxşılaşdırılmışdır. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi, kənd təsərrüfatı məhsulları istehsalçılarının istifadə etdikləri yanacağın, motor yağlarının və mineral gübrələrin dəyərinin orta hesabla 50 faizinin dövlət tərəfindən ödənilməsi, eləcə də dövlət büdcəsinin vəsaiti hesabına buğda istehsalının stimullaşdırılması məqsədilə yardım verilməsi, toxumçuluq və damazlıq işləri üzrə müəyyən işlərin görülməsi, aqroservis xidmətlərindən güzəştli qiymətlərlə istifadə, Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu və Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi tərəfindən kənd təsərrüfatı məhsulları istehsalçılarına verilmiş güzəştli kreditlər kənd təsərrüfatı istehsalı sahəsində ilbəil dinamik inkişafın əldə edilməsini təmin edən amillərdən olmuşdur.(3)

Kənd təsərrüfatının ümumi məhsulu son 10 ildə 1,5 dəfə, taxıl istehsalı 43,9 faiz, kartof istehsalı 29,1 faiz, tərəvəz 17,8 faiz, bostan məhsulları 20,5 faiz, meyvə və giləmeyvə 49,1 faiz, üzüm istehsalı isə 2,4 dəfə artmışdır(1).

Naxçıvan Muxtar Respublikasının inkişafın yeni keyfiyyət mərhələsinə yüksəlməsində son on ildə regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramlarının uğurlu icrası böyük əhəmiyyət kəsb edir. Regionların hərtərəfli tərəqqisi sahəsində 2004-cü ildən başlanmış məqsədyönlü siyasətə uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 9 iyun tarixli Sərəncamı ilə “Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)” və 2009-cu il 28 may tarixli Fərmanı ilə “Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” təsdiq edilmişdir. Hər iki dövlət proqramının uğurlu icrası nəticəsində muxtar respublikada real sektorun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, tarazlı və davamlı inkişafa, kommunal xidmət və sosial infrastruktur təminatının yaxşılaşdırılmasına, məşğulluğun artırılmasına və həyat səviyyəsinin yüksəldilməsinə nail olunmuşdur.

Ötən 10 il ərzində sosial-iqtisadi inkişaf sahəsində həyata keçirilən tədbirlər muxtar respublikanın makroiqtisadi göstəricilərinin yaxşılaşmasına səbəb olmuş, Ümumi Daxili Məhsulun həcmi 13,9 dəfə, hər bir nəfərə düşən Ümumi Daxili Məhsul 12 dəfə, o, cümlədən kənd təsərrüfatı məhsulları istehsalı 4,7 dəfə artmışdır. Muxtar respublikanın hərtərəfli inkişafı istiqamətində həyata keçirilən tədbirlərin davamı olaraq, “Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-

iqtisadi inkişafı Dövlət Proqramı" nın icrası muxtar respublika iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb etməklə, sahibkarlıq fəaliyyətinin genişlənməsində, yeni müəssisələrin və iş yerlərinin yaradılmasında, irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsində, kommunal-məişət xidmətlərin səviyyəsinin yüksəldilməsində, nəticədə, əhalinin rifah halının daha da yaxşılaşdırılmasında müstəsna rol oynayacaqdır.

İqtisadi təhlil göstərir ki, "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın əhatə etdiyi ötən beş ildə Ümumi Daxili Məhsulun (ÜDM) real həcmi 2,9 dəfə artaraq 2 milyard 338 milyon 928 min manata çatmış, hər bir nəfərə düşən nominal həcmi 2,7 dəfə artaraq 5 min 423 manat təşkil etmişdir. Muxtar respublikanın kənd təsərrüfatında 2,2 dəfə artıma nail olunmuşdur.(1)

İqtisadi və sosial sahələrdə əldə olunan nailiyyətlər əhalinin rifah səviyyəsinin davamlı yüksəlişinə, məşğulluq imkanlarının genişlənməsinə, habelə bir işçiyə hesablanmış orta aylıq əmək haqqının 1,6 dəfə artaraq 376,6 manata çatması əhalinin gəlirlərinin yüksəlməsi ilə nəticələnmiş və 2013-cü ildə 1 milyard 737 milyon manatdan çox olmuşdur. Muxtar respublika iqtisadiyyatının inkişafına bütün maliyyə mənbələri hesabına qoyulmuş investisiyanın illik həcmi son beş ildə 3,4 dəfə artaraq 1 milyard 37 milyon 748 min 400 manat təşkil etmişdir. Həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində həmin müddətdə muxtar respublikada 22.296 yeni, o cümlədən 19.215 daimi iş yeri açılmışdır. İqtisadiyyatın dinamik inkişafının nəticəsi olaraq, 2013-cü ildə muxtar respublikada 346 növ, 988 çeşiddə məhsul istehsal edilmişdir ki, bunun 115 növ, 459 çeşidi ərzaq məhsullarının payına düşür. Özəl sektorun inkişaf göstəricilərinin dinamikası göstərir ki, da həyata keçirilən iqtisadi islahatların uğurlu nəticəsində son illər ərzində muxtar respublikanın Ümumi Daxili Məhsulunda özəl bölmənin xüsusi çəkisi artmış və 87 faiz təşkil etmişdir.(2)

Kənd təsərrüfatı sahəsində ərzaq təhlükəsizliyinin təmin olunması üçün bitkiçilik və heyvandarlıq sahələri inkişaf etdirilmiş, ərzaq məhsulları ilə özünü təminetmə səviyyəsi daha da yaxşılaşdırılmışdır. Belə ki, kənd təsərrüfatının ümumi məhsulu son beş ildə 2,2 dəfə, kartof istehsalı 1,2 dəfə, tərəvəz istehsalı 1,1 dəfə, meyvə istehsalı 1,2 dəfə, üzüm istehsalı 1,1 dəfə artmışdır. Bu müddət ərzində diri çəkidə ət istehsalı 17,2 faiz, süd istehsalı 9,1 faiz, yumurta istehsalı 30,4 faiz, yun istehsalı 9,8 faiz artmış, ərzaq məhsulları ilə özünü təminetmə səviyyəsi daha da yaxşılaşdırılmışdır. Bütün bunlar növbəti illərdə də muxtar respublika iqtisadiyyatının davamlı inkişafının təmin edilməsi üçün möhkəm baza yaratmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın əsas məqsədi real sektorun inkişafı, iqtisadiyyatın diversifikasiyası, sürətli inkişaf istiqamətində tədbirlərin davam etdirilməsi, xüsusilə kəndlərin inkişafı ilə bağlı infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılmasından ibarətdir.

Dövlət Proqramında Muxtar respublika iqtisadiyyatının vacib sahəsi olan kənd təsərrüfatında ardıcıl islahatların və yeni texnologiyaların tətbiqi davam etdirilməklə aqrar bölmənin inkişafı istiqamətində aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur: (2)

- daxili bazarın tələbatının yerli istehsal hesabına ödənilməsi səviyyəsini yüksəltmək üçün ərzaq məhsulları istehsalı həcminin artırılması, tələbatdan artıq istehsal edilən kənd təsərrüfatı məhsullarının ixracının stimullaşdırılması;
- ərzaq və digər kənd təsərrüfatı malları bazarlarının qorunması, yerli istehsal və idxal olunan ərzaq məhsullarının keyfiyyətinə ciddi nəzarətin davam etdirilməsi;
- aqrar sənaye sektoruna yerli və xarici investisiyaların cəlb edilməsi;
- suvarma sistemlərinin yenidən qurulması və torpaqların meliorativ vəziyyətinin sağlamlaşdırılması, mövcud su resurslarından istifadə imkanlarının genişləndirilməsi və suvarma-drenaj şəbəkələrinin inkişaf etdirilməsi;
- baytarlıq, texniki nəzarət, sanitar və fitosanitar tədbirlərin gücləndirilməsi;
- fermer təsərrüfatlarına dövlətin maliyyə dəstəyinin gücləndirilməsi, mikrokredit təşkilatları və kredit ittifaqlarının fəaliyyətinin stimullaşdırılması;
- kənd təsərrüfatı sahəsində sığorta sisteminin inkişaf etdirilməsi;

- aqrar sektora xidmət edəcək birjaların, topdansatış bazarların, auksionların təşkilinin dövlət tərəfindən dəstəklənməsi;
- fövqəladə hallar şəraitində əhalinin ərzaq məhsulları ilə normal təminatı mexanizminin təkmilləşdirilməsi;
- üzümçülüyün bərpası üçün mövcud üzüm bağlarında aqrotexniki tədbirlərin həyata keçirilməsi və yeni üzümlüklərin salınmasının davam etdirilməsi;
- qiymətli balıq növlərinin istehsalına dövlət dəstəyinin gücləndirilməsi, onların artırılması və istifadəsi ilə bağlı layihə və tədbirlərin həyata keçirilməsi;
- daha uzunmüddətli və daha çox meyvə-tərəvəz çeşidinin saxlanmasına imkan verən soyuducu anbarların yaradılması;
- aqrar sahədə ixtisaslı kadr potensialının gücləndirilməsi;
- gübrə istehsalı, zərərvericilərə qarşı dərmanlar və kənd təsərrüfatının inkişafına müsbət təsir edən məhsulların istehsalının dəstəklənməsi;
- müasir texnika və texnologiyanın kənd təsərrüfatında tətbiqinə nail olunmasının dəstəklənməsi. Dövlət Proqramında müəyyən edilmiş məqsədə nail olmaq üçün muxtar respublikada ixracyönümlü və rəqabətədavamlı məhsul istehsalı istiqamətində sahibkarlığın inkişafının sürətləndirilməsi, əhalinin, xüsusilə kənd əhalisinin məşğulluq səviyyəsinin və gəlirlərinin artırılması, infrastruktur təminatının, o cümlədən kommunal xidmətlərin daha da yaxşılaşdırılması istiqamətində tədbirlərin davam etdirilməsi kimi mühüm vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur.

## ƏDƏBIYYAT


1. "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın əsas yekunları. Şərq qapısı qəzeti, 02.09.2014
2. Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Şərq qapısı qəzeti, 02.09.2014
3.A.A.Rüstəmov,D.Q.Qasımov-Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Dərs vəsaiti. Bakı, 2013, 406 səh


## ABSTRACT


**Dilsuz Kassumov**

**the promotion of agrarian sector as a main priorities of State Program**

In this paper was researched the development of agrarian sector and providing food supply security as a main priorities of "State program of socioeconomic development of Nakhchivan Autonomous Republic in 2014-2018 years" by the precise economic policy in the Republic of Azerbaijan started after 2014 year.


## РЕЗЮМЕ


**Дилсуз Гасымов**

**Развитие аграрного сектора как основное направление Государственной Программы**

В статье развитие аграрного сектора и обеспечение продовольственной безопасности населения, являясь продолжением целенаправленной экономической политики начатой с 2004-го года в Азербайджане, исследовано как одно из основных направлений «Государственной Программы социально-экономического развития Нахчыванской Автономной Республики на 2014-2018-го годы».



NDU-nun Elmi Şurasının 30 mart 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru* N.Əhmədov

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. ELMİ ƏSƏRLƏR, 2016, № 6(75)

NAKHCHIVAN STATE UNIVERSITY. SCIENTIFIC WORKS, 2016, № 6 (75)

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. НАУЧНЫЕ ТРУДЫ, 2016, № 6 (75)

**ƏŞRƏF ƏLƏKBƏROV**
*Naxçıvan Dövlət Universiteti*
*e-mail: a.ashraf@mail.ru*

**UOT:330.1**

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİ ZƏRURİLİLİYİ

**Açar sözlər:** *Qloballaşma, ərzaq təhlükəsizliyi, kənd təsərrüfatı, aqrar sektor,ekoloji təmiz məhsul*

**Key words**: *Globalization, food security, agriculture, agro-industry, eco-friendly products*

**Ключевые слова**: *Глобализация, продовольственная безопасность, сельское хозяйство, аграрный сектор, экологически чистый продукт*

Müasir dünya iqtisadiyyatının məruz qaldığı çoxsaylı sıxıntılar göstərir ki, heç bir dövlət üzləşdiyi problemləri təkbaşına və ya təcrid olunmuş vəziyyətdə həll etmək iqtidarında deyildir. Ona görə də dünya dövlətləri mövcud imkanların birləşdirilməsini və iqtisadi problemləri birlikdə həll etməyi vacib hesab edərək, qloballaşmanın bu baxımdan səmərəli vasitə olacağı qənaətinə gəlmişlər.

İqtisadi və ticari əlaqələrin intensivləşdirilməsi, dövlətlərarası ticarət dövriyyəsinin stimullaşdırılması, istehlak bazarında sağlam rəqabətin formalaşdırılması və s. kimi amillərə əsaslanaraq dünya birliyinin əksər dövlətləri iqtisadiyyatının qloballaşdırılmasını problemlərin həllində optimal həll variantı kimi nəzərdə tuturlar. Belə bir şəraitdə istehsalçılar maddi-texniki vəziyyətlərindən asılı olmayaraq qlobal bazarda bərabər hüquqlarla təmsil olunmalı, rəqabət isə əsas tənzimləyici rolunda çıxış etməlidir.

Ərzaq problemi bütün dövrlərdə aktuallıq kəsb etməklə bəşəriyyətin inkişaf tarixində heç bir zaman əhəmiyyətini itirməmişdir. Ərzaq problemi bütün zamanlarda özünü büruzə versə də, dünya çapında əsas etibarı ilə Fransa-İngiltərə yüzillik müharibəsi dövründə özünü qabarıq şəkildə təzahür etmişdir. Bu isə bilavasitə onunla şərtlənir ki, cəmiyyət üzvlərinin, hər bir fərdin fiziki mövcudluğu onun qida məhsullarına olan tələbatının ödənilməsindən bilavasitə asılıdır. Tələbatın ödənilməsi ilə istehlakın maddi əsasını təşkil edən kənd təsərrüfatı ərzaq məhsullarının istehsalı ilə bağlıdır.

“Maddə kütləsinin saxlanması” qanunu fəaliyyət göstərir, onda istehsal etdiyimizdən artıq istehlak etmək mümkünsüzdür. Doğrudur, humanitar yardımlar, idxal kanalları hesabına tələbatın qarşılanması bu və ya digər dövrdə problemin həllinə köməklik göstərsə də bu proses uzunmüddətli və daimi xarakter daşıya bilməz.

Məlum olduğu kimi qida məhsullarına olan tələbatın ödənilməsi əhalinin həyat səviyyəsini xarakterizə edən mühüm arqument olmaqla cəmiyyət üzvlərinin yaşayış imkanlarını nə dərəcədə reallaşdırmasını şərtləndirir. Bu proses əslində fasiləsiz, davamlı xarakter daşıyır, ən azı ona görə ki, bəşəriyyət heç zaman istehlakı dayandıra bilməz, istehlakın dayandırılması hər bir fərdin fiziki mövcudluğunun sonu deməkdir. Odur ki, qida məhsullarının istehsalı davamlı olaraq artırılmalıdır. Məhz bu baxımdan bəşəriyyətin bütün tarixi ərzində ərzaq təminatının yaxşılaşdırılması beynəlxalq miqyas almaqla ölkələrin milli təhlükəsizliyində öz aktuallığını saxlamışdır. BMT-nin yaranması ilə əlaqədar dünya miqyasında ərzaq qıtlığını aradan qaldırmaq məqsədilə dövlətlərin səyləri birləşdirilmişdir. Belə ki, BMT-nin təşəbbüsü ilə 1996-cı ildə “Ümumdünya ərzaq təhlükəsizliyi haqqında Roma deklarasiyası” qəbul edilmiş və 2015-ci ilə qədər doyunca qidalanmayanların sayının 2 dəfəyə qədər azalması və cəmiyyət üzvlərinin ərzaq təminatının yaxşılaşması vəzifəsi qarşıya qoyulmuşdur.

BMT-nin “IV dekadada (1990-2000) beynəlxalq inkişaf strategiyası”nda qeyd edilir ki, əhalinin ərzağa olan artan tələbatının ödəilməsi məhsul istehsalının artırılmasından bilavasitə asılıdır. Ərzaq istehsalının həcminin artması tempi XX əsrin sonlarında ildə 4% təşkil etmişdir ki, bu da ərzaq təhlükəsizliyinin təmin edilməsinə münbit şərait yaratmaqla, aqrar-sənayenin inkişafının dəstəklənməsinin bilavasitə nəticəsi kimi dəyərləndirilir.

Beynəlxalq miqyasda ərzaq təhlükəsizliyinin yaranması BMT-nin 1974-cü ildə İtalyanın paytaxtı Romada keçirilən ümumdünya ərzaq konfransında öz əksini tapmışdır. Həmin konfransın yekdilliklə qəbul etdiyi qənaətnaməyə əsasən beynəlxalq ərzaq təhlükəsizliyi sisteminin yaradılması nəzərdə tutulmuşdur. Təbii ki, bu sistem ərzaq probleminin həlli məqsədilə dünya ölkələrinin səylərinin birləşdirilməsini və ölkələr arasında kordinasiya mexanizminin formalaşmasını nəzərdə tutmuşdur və onun əsas müddəalarına aşağıdakılar şamil edilmişdir.

- ərzaq çatışmamazlığının əvvəlcədən xəbər verilməsi sistemi və beynəlxalq miqyasdabazarların monitorinqi;
- beynəlxalq səviyyədə tənzimlənən milli ərzaq ehtiyatlarının yaradılması;
- ehtiyacı olan ölkələrə humaitar yardım formasında ərzaq köməkliyinin göstərilməsi;
- inkişaf etməkdə olan ölkələrin beynəlxalq kənd təsərrüfatı məhsulları satışında payının davamlı olaraq artırılması yolu ilə onların qloballaşma prosesinin mənfi təzahürlərindən beynəlxalq səviyyədə müdafiə olunması.

Məhz Roma konfransından sonra kənd təsərrüfatı məhsulları bazarında sabitliyin qorunması, beynəlxalq ərzaq təhlükəsizliyi dünya ictimaiyyətinin diqqətini cəlb etməklə beynəlxalq ekoloji və qeyri-hökumət təşkilatlarının fəaliyyətinin prioritet istiqamətlərinə çevrildi. Ərzaq təhlükəsizliyinin beynəlxalq miqyas alması xüsusilə qloballaşma fonunda özünü tam aktuallığı ilə təzahür etdirmişdir. Ərzaq təhlükəsizliyinin təmin edilməsi istehsalın artırılması və əhalinin alıcılıq qabiliyyəti ilə bilavasitə bağlı olduğundan bu proses daha çox ölkənin maliyyə imkanlarından, dövlət büdcəsiin vəziyyətindən də bilavasitə asılı olur. Odur ki, son zamanlar bu aktual problemin həllində beynəlxalq maliyyə qurumları-Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (BEİB), Avropa Yenidənqurma və İnkişaf Bankı (AEİB), Beynəlxalq Valyuta Fondu (BVF) və s. təşkillatlar da aktiv rol oynamağa başladılar.

Araşdırmalar göstəririr ki, beynəlxalq ərzaq təhlükəsizliyi ilə bağlı strategiyanın reallaşdırılması ilə bağlı konkret tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi ölkənini iqtisadi inkişaf səviyyəsindən bilavasitə asılıdır. Belə ki, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə bu problemə yanaşma kifayət qədər fərqlidir. Bu isə hərşeydən əvvəl beynəlxalq ərzaq ehtiyatları yaradılması, beynəlxalq ərzaq bazarına inkişaf etməkdə ola ölkələrin daxil olması imkanlarının yetərincə məhdudluğu ilə bilavasitə bağlıdır. Qeyd etmək lazımdırki, inkişaf etməkdə olan ölkələrin iqtisadi imkanları onların beynəlxalq ərzaq bazarında bərabərhüquqlu partnyor kimi fəaliyyət göstərmək və rəqabət aparmaq baxımından iştirakını məhdudlaşdırır. Belə ki, həmin

ölkələr beynəlxalq bazar konyukturundan, bazarda dövri olaraq yaranan qiymət dalğalanmalarından, eləcə də ixracçı ölkələrin razılaşdırılmış oliqipolist inhisarçılığı əsasında fəaliyyət göstərir və burada kənar iştirakçı ayrıseçkilik tendensiyalarına məruz qalır.

Bu baxımdan inkişaf etmiş ölkələr beynəlxalq ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından yaradılan ərzaq ehtiyatlarını daha çox ixraca yönəltməklə, eyni zamanda mövcud xərclərin azaldılmasına cəhd göstərirlər. Inkişaf etməkdə olan ölkələrdə isə ərzaq ehtiyatları bilavasitə milli ərzaq təhlükəsizliyinin təmin edilməsinə istiqamətlənir. İnkişaf etməkdə olan ölkələrdə ərzaq ehtiyatlarının formalaşmasına çəkilən xərclərin əsas hissəsi məhsulun saxlanması ilə bağlı infrastruktur obyektinin yaradılmasına sərf olunur.

Ərzaq təhlükəsizliyini şərtləndirən əsas amillərdən biri də aqrar sahəsir. Aqrar sahə, ələlxüsus da kənd təsərrüfatı özünün bir sıra xüsusiyyətlərinə görə iqtisadiyyatın digər bölümlərindən fərqlənir. Bu sahənin səciyyəviliyi kənd təsərrüfatı istehsalının bir sıra obyektiv və təbii amillərdən ciddi asılılığından irəli gəlir. Torpaq və su ehtiyatlarının aşınma proseslərinin sürətlənməsi, kənd təsərrüfatı və ərzaq məhsullarına tələb-təklif nisbətinin qeyri-proporsional dəyişməsi, böhran, depressiya halları və s. aqrar sahə üçün əlavə çətinliklər törədir. Bütün bunlar hamısı müasir dövrdə çevik aqrar siyasətin həyata keçirilməsini tələb edir. Aqrar sektorun dayanıqlı və davamlı inkişafının təmin edilməsi, ölkənin ərzaq təhlükəsizliyi üçün etibarlı əsasların yaradılması, habelə milli istehsalçıların dünya bazarlarında artan rəqabətlə ayaqlaşması üçün müasir aqrar siyasət aqrar sektorun qlobal bazarda rəqabətqabiliyyətli olmasına möhkəm baza yaratmalıdır.

Qeyd olunduğu kimi, müasir istehsal və iqtisadi münasibətlər təsərrüfatçılıq subyektlərinin nə dərəcədə rəqabətqabiliyyətli olmasından asılıdır. Xüsusən, kənd təsərrüfatı və ərzaq məhsullarına qarşı artan tələblər istehlak bazarlarında rəqabəti daha da kəskinləşdirmişdir. Bu amil göstərir ki, istehsalçılar müasir texnologiyalardan və standartlardan bəhrələnməli, beynəlxalq norma və qaydaların şərtlərinə uyğun məhsul istehsal etməlidirlər. Yalnız innovasiyaların, yeni elmi nailiyyətlərin tətbiqi və müasir tələblərə cavab verən texniki normalara uyğun istehsal sahələrinin yaradılması qloballaşan dünya iqtisadiyyatında rəqabətədavamlı məhsulların istehsalına şərait yaratmış olacaq. Bununla da ümumi bazarda yer almağa köməklik göstərəcəkdir.

Azərbaycan Respublikasından qlobal bazara çıxarıla biləcək kənd təsərrüfatı və ərzaq məhsullarının həm istehsal potensialı, həm də çeşidi xeyli genişdir. Azərbaycanın aqro-iqlim şəraiti, torpaq və su ehtiyatları bu ərazilərdə müasir tələblərə və beynəlxalq standartlara uyğun məhsulların istehsalı üçün yaxşı əsasdır.

Hazırda qloballaşan dünyanın ərzaq bazarında təhlükəsiz və keyfiyyətli ərzaq məhsullarına ciddi ehtiyaclar vardır və bu tələbat getdikcə artmaqdadır. Müasir dünya artıq ekoloji təmiz ərzaq və kənd təsərrüfatı məhsullarının vacibliyini yəqin etmişdir və belə məhsulların istehlakına üstünlüyü davamlı olaraq artırmaqdadır. Ərzaq təhlükəsizliyinin əsas məqsədi ölkə əhalisini kənd təsərrüfatı məhsulları, xammal və ərzaqla davamlı olaraq, etibarlı təmin etməkdən ibarətdir. Bu məqsədə çatmaq üçün daxili istehlak bazarında həyat və sağlamlıq üçün təhlükəsiz ərzaq məhsullarının yetərincə fiziki mövcudluğu təmin edilməlidir. Əhali isə həmin ərzağı əldə etmək imkanına malik olmalıdır. Ümumiləşdirilmiş formada desək, ərzaq təhlükəsizliyi ərzağın istehlakçı üçün fiziki və iqtisadi cəhətdən münasib olmasıdır. Bu əsas kriteriyalardan əlavə olaraq, ərzaq təhlükəsizliyi anlayışına ərzaq məhsullarının kalorilik səviyyəsi, keyfiyyəti, təhlükəsizliyi (sağlamlığı) və s. kimi amillər də daxildir.

Qloballaşan iqtisadiyyatda idxal-ixrac əməliyyatları tamamilə normal haldır və dünya dövlətləri bu sahədə mövcud problemlərin aradan götürülməsi, dövlətlərarası ticarətə maneələrin dəf edilməsi və qlobal ticarət əlaqələrinin vahid qaydalar çərçivəsində qurulması məqsədilə uzun illərdir ki, danışıqlar aparırlar. İkitərəfli və çoxtərəfli danışıqlar nəticəsində 1995-ci ildə Ümumdünya Ticarət Təşkilatı (ÜTT) yaradılmışdır. ÜTT 1947-ci ildə bağlanmış Tariflər və Ticarət üzrə Baş Sazişin varisidir və onun əsas məqsədi beynəlxalq ticarətin liberallaşdırılmasından və üzv dövlətlər arasında iqtisadi-siyasi əlaqələrin tənzimlənməsindən ibarətdir. ÜTT-nin tələblərinə əsasən, üzv dövlətlər arasında ticarət əlaqələrini məhdudlaşdırıcı tədbirlərə yol verilmir və bütün tərəfdaşlar eyni tələblər çərcivəsində əməkdaşlıq etməlidirlər.

Etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının başlıca şərti, dövlətin kompleks təhlükəsizliyinin, o cümlədən iqtisadi təhlükəsizliyinin mühüm komponentlərindəndir. Müasir dövrdə ərzaq təhlükəsizliyi dedikdə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) tərəfindən qeyd edildiyi kimi, əhalinin sağlam və fəal həyat tərzi sürməsinə imkan verəcək səviyyədə zəruri və keyfiyyətli ərzaq məhsulları istehlakı üçün istənilən vaxtda onların fiziki və iqtisadi əlyetərliliyinin təmin edilməsi başa düşülür.

Son illər dünya bazarında enerji daşıyıcılarının qiymətinin bahalaşması, aparıcı ölkələrin maliyyə bazarında baş verən mənfi meyillər, habelə əhalinin sayının artması nəticəsində ərzaq məhsullarına tələbatın yüksəlməsi, iqlim dəyişikliyi, məhdud su ehtiyatları kimi səbəblərlə bağlı əsas ərzaq məhsullarının dünya bazarındakı qiyməti artır, bəzi ölkələrdə ərzaq qıtlığı real təhlükəyə çevrilir.

Ərzaq məhsullarının istehsalının dünyadakı əhali artımına adekvat olmaması faktı FAO-nun məlumatlarında da öz əksini tapır. Adı çəkilən təşkilatın araşdırmalarına əsasən, son illərdə dünyada ərzaq istehsalının illik artımının azalması tendensiyası müşahidə edilir və bu azalmanın növbəti illərdə də davam edəcəyi proqnozlaşdırılır. Dünya əhalisinin sürətlə artması müqabilində isə ərazi və su resurslarının məhdud olması qlobal ərzaq təhlükəsizliyi üçün təhdiddir. Bu səbəbdən daha məhsuldar üsulların tətbiqi və qənaətcil suvarma texnologiyalarından istifadə zəruridir. Hazırda qlobal istiləşmə və iqlim dəyişikliyi insanların ərzaq məhsullarına tələbatının ödənilməsində əhəmiyyətli rol oynayan kənd təsərrüfatı sektoruna daha çox mənfi təsir göstərir. Kənd təsərrüfatını iqlim dəyişikliklərinə adaptasiya etmək qlobal ərzaq təhlükəsizliyinin təmin olunması və ekosistemi qorumaq baxımından vacib olmaqla yanaşı, həm də çox xərc tələb edir.

Enerji daşıyıcılarındakı qiymət dəyişiklikləri və bununla əlaqədar bioenerjidən istifadənin yayılması da kənd təsərrüfatı məhsullarına tələbatı artırır. Son illər dünyada bioyanacaq məqsədilə əkilən sahələrin genişlənməsi ərzaq məqsədləri üçün əkinləri azaltmış, bu isə qida məhsullarının təklifinin məhdudlaşmasında və qiymətinin artmasında böyük rol oynamışdır. Məsələn, qarğıdalı, buğda, şəkər qamışı, şəkər çuğunduru kimi kənd təsərrüfatı məhsullarının bioyanacaq üçün istifadə olunması qlobal ərzaq təhlükəsizliyi üçün ciddi problemlər yaradır.

Bütün bunlar qlobal ərzaq təhlükəsizliyi naminə dünya ölkələrini daha təkmil aqrar siyasət müəyyənləşdirməyə, qarşıda duran risklərlə birgə mübarizə aparmağa, daha yeni və müasir texnologiyaları tətbiq etməyə vadar edir. Beləliklə, hazırda ərzaq təhlükəsizliyi probleminin səmərəli həlli dünyada gedən sürətli qloballaşma prosesi fonunda ən mühüm məsələlərdəndir.

Qlobal iqtisadi sistemə səmərəli inteqrasiya yolunu seçmiş və davamlı sosial-iqtisadi inkişaf mərhələsinə qədəm qoymuş ölkəmizdə ərzaq təhlükəsizliyi probleminə kompleks yanaşma nəticəsində Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 25 avqust tarixli Sərəncamı ilə "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" qəbul edilmişdir. Dövlət Proqramında əkinə yararlı torpaq sahələrindən səmərəli istifadə olunması, bitkiçiliyin, xüsusən taxılçılığın, meyvəçiliyin, tərəvəzçiliyin, üzümçülüyün, heyvandarlığın, o cümlədən ət və süd məhsulları istehsalının inkişaf etdirilməsi üzrə nəzərdə tutulmuş tədbirlərin vaxtında və uğurla həyata keçirilməsi ölkədə ərzaq məhsullarının istehsalında artıma və hər bir ölkə vətəndaşının keyfiyyətli və təhlükəsiz ərzaq məhsullarına tələbatının tam ödənilməsinə şərait yaradır. Dövlət Proqramının uğurlu icrası qarşıdakı illərdə də ölkəmizin ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edəcəkdir.

Azərbaycan qeyri-neft sektorunun prioritetliyinə əsaslanaraq aqrar sahənin inkişafına böyük önəm verir. Aqrar sektorda aparılan köklü islahatlar bu sahənin sürətli inkişafına əlverişli zəmin yaratmışdır. 1995-ci ildən başlayaraq iqtisadiyyatın bazar münasibətləri əsasında qurulması və torpaq islahatlarının aparılması nəticəsində kənd təsərrüfatında ciddi struktur dəyişiklikləri baş vermiş, yeni sahələr yaranmış, məzmunca fərqli münasibətlər formalaşmışdır. Bu gün dövlət tərəfindən kənd təsərrüfatı istehsalçılarına və emal müəssisələrinə geniş texniki və maliyyə dəstəyinin göstərilməsi aqrar bölmənin inkişafında mühüm rol oynayır. "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 yanvar tarixli Sərəncamına uyğun olaraq, kənd təsərrüfatı məhsulları istehsalçılarının istifadə etdikləri yanacağın, motor yağının və mineral gübrələrin dəyərinin orta hesabla 50 faizinin dövlət

tərəfindən ödənilməsi, buğda səpininin, toxum və ting istehsalının subsidiyalaşdırılması kənd təsərrüfatı istehsalına güclü təkan vermişdir. Bununla yanaşı, damazlıq heyvanların idxal olunması və heyvandarlıqla məşğul olan kənd təsərrüfatı məhsulları istehsalçılarına 50 faiz güzəştlə lizinq yolu ilə satılması həyata keçirilir.

Ölkədə aparılan aqrar siyasətin tərkib hissəsi kimi lizinq münasibətlərinin inkişafı məqsədilə 2005-ci ildə "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti (ASC) yaradılmış və ötən müddət ərzində ASC-nin nəzdində müxtəlif bölgələrdə fəaliyyət göstərən aqroservis filialları tərəfindən kənd təsərrüfatı məhsulları istehsalçılarına sifarişlər əsasında müxtəlif aqrotexniki xidmətlər göstərilir. "Aqrolizinq" ASC-nin fəaliyyətə başladığı ildən bu qanunun xətti ilə müxtəlif növ kənd təsərrüfatı texnikaları, texnoloji avadanlıqlar, damazlıq inəklər, mineral gübrə və pestisidlər dövlət büdcəsindən ayrılmış vəsait hesabına ölkəyə gətirilərək fermerlərə güzəştli şərtlərlə satılır. Aqrar sahənin inkişafında Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə verilən güzəştli kreditlərin rolu xüsusi qeyd edilməlidir.

Ərzaq təhlükəsizliyinin başlıca şərtlərindən biri də dövlət ərzaq ehtiyatlarının təşkili və onların səmərəli idarə olunmasıdır. Bununla bağlı taxıl məhsulları üzrə dövlət ehtiyatının yaradılması və idarə olunması ilə əlaqədar qanunvericilik bazası 2009-cu ildə təkmilləşdirilərək, Dövlət Taxıl Fondunun səmərəli fəaliyyəti təmin edilmişdir. Həmçinin tələbata uyğun yeni elevator və anbarların tikilməsi istiqamətində mühüm işlər görülmüşdür.

Məlum olduğu kimi ərzaq bazarı əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində mühüm rol oynayır. Ərzaq bazarında sabitliyin təmin edilməsi ölkənin sosial-iqtisadi inkişaf səviyyəsindən, eləcə də əhalinin alıcılıq qabiliyyətindən, hətta xarici iqtisadi əlaqələrin xarakterindən də bilavasitə asılıdır. Ümumi iqtisadi aktivliyi gücləndirən amillərdən biri yüksək keyfiyyətli, beynəlxalq standartlara cavab verən yerli istehsal məhsullarının dünya bazarlarına sərbəst çıxarılmasından, satış problemlərinin səmərəli həllindən, ixrac potensialının daha da gücləndirilməsindən ibarətdir.

## ƏDƏBİYYAT


1. Əhmədov. N.H. Azərbaycanda xarici iqtiadi əlaqələrin inkişafı və istehlak bazarının formalaşması. Bakı, ADPU-nun mətbəəsi, 2005, 80s
2. Qəribov A.H. Azad iqtisadi zonalar və iqtisadi təhlükəsizliyin tənzimlənməsi. Naxçıvan, İdeya, 2011, 264s
3. Экономическая и национальная безопасность / Под редакцией Л.П. Гончаренко. Москва, Экономика, 2008, 543 с
4. Балабанов В.С., Борисенко Е.Н. Продовольственная безопасность: международные и внутренние аспекты. Москва, Экономика, 2002, 544 с
5. Məmmədov M.M. Ərzaq bazarının formalaşmasının bəzi məsələləri / Azərbaycan Aqrar Elmi, 2004, № 4-6
6. Xəlilov H.A. Milli ərzaq təhlükəsizliyi: bazar transformasiyaları və iqtisadi qloballaşma amilləri. Bakı, Adiloğlu, 2001, 176 s


## ABSTRACT


In the article, in the modern economic situation the merits of globalization were assessed and in the globalization situation the factors affecting food security were analyzed from various viewpoints.

Experience of developed countries shows that the creation of food reserves creates favorable condition for insure food crises by natural disasters and climate change. In this regard, in the practice of developed countries and countries in the process of transformation are widespread the circumstances of the creation of a national food reserves. Usually it is widely used in food resources toward to stabilize the level of prices on the market. At this time, it is particularly

significant from point of consumers ability to pay view and at the same time from point of the realization of the government's efforts to create social and political stability at the society and achieving a reasonable and stable price level view.
For adapting globalization in the world economy and dynamics of change in the conyuctor of global consumer market, by agrarian sector adjusting to international norms and requirements of legal base as well as relations of production, thus ensuring the competitive national production should be the main target of agricultural policy. To achieve the goals in this area, implementation of events like food security, reduce dependence on imports, food safety measures, rational use and protection of land and water resources, supporting of scientific research, modern cadres for village, modern village, reduction of urbanization, the expansion of the export potential are important factors.

In the article also the scientific analysis of the factors influencing food security were announced and problems faced were researched.

## РЕЗЮМЕ

В статье оценена сущность глобализации в современных экономических условиях и с различных аспектов проанализированы факторы, влияющие на продовольственную безопасность в условиях глобализации.

Практика развитых стран показывает, что создание продовольственных запасов также создаёт благоприятные условия для страховки от продовольственного кризиса, которые могут быть порождены стихийными бедствиями, климатическими изменениями. С этой точки зрения в практике развитых стран и даже стран, проживающих трансформационный процесс, в широкой форме встречаются случаи создания национальных продовольственных запасов. Продовольственными запасами обычно широко пользуются для стабилизации уровня цен на рынке. В это время с точки зрения покупательной способности потребителей достижение стабильного и подходящего уровня цен с целью реализации усилий государства в деле создания в обществе социально-политической стабильности, приобретает особенно важное значение. Для приспособления к глобализации, происходящей в мировой экономике и динамике изменения в конъюнктуре глобального потребительского рынка, главной целью аграрной политики должно быть приведение в соответствие с международными нормами и требованиями и нормативно-правовую базу по аграрному сектору, производственные отношения и, таким образом обеспечение устойчивости национального производства к конкуренции. Для достижения поставленной цели в этой области важнейшим фактором является проведение в жизнь мероприятий по продовольственной безопасности, уменьшению зависимости от импорта, пищевой безопасности (здоровью), эффективному использованию земельных и водных ресурсов и их защите, поддержке научных исследований, направлению современных кадров в деревню, уменьшению современной сельской урбанизации, расширению экспортного потенциала.

Здесь также исследованы научный анализ факторов, влияющих на продовольственную безопасность и возникшие при этом проблемы.

NDU-nun Elmi Şurasının 30 mart 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. ELMİ ƏSƏRLƏR, 2016, № 6(75)
NAKHCHIVAN STATE UNIVERSITY. SCIENTIFIC WORKS, 2016, № 6 (75)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. НАУЧНЫЕ ТРУДЫ, 2016, № 6 (75)

**HƏSƏN MƏMMƏDOV**
*hesenmemmedov@hotmail.com*
*NDU*

**UOT:330.1**

# İQTİSADİYYATIN DAYANIQLI İNKİŞAFINA TƏSİR EDƏN İNFRASTRUKTURLARIN İNKİŞAF QANUNAUYĞUNLUQLARI

**Açar sözlər:** *dayanıqlı inkişaf, infrastruktur, istehsal infrastrukturu, sosial infrastruktur, bazar infrastrukturu, beynəlxalq infrastruktur, inkişaf qanunauyğunluqları, əmək bölgüsü*

**Keywords:** *sustainable development, infrastructure, industrialy infrastructure, social infrastructure, market infrastructure, international infrastructure, development patterns, the division of labor*

**Ключевые слова:** *устойчивое развитие, инфраструктура, производственная инфраструктура, социальная инфраструктура, рыночная инфраструктура, международная инфраструктура, закономерность развития, разделение труда*

Yerinə yetirdiyi funksiyalardan asılı olmayaraq infrastrukturların mühüm cəhətlərindən biri onun daimi olaraq sivilizasiyanın yüksəlişinə uyğun inkişaf etməsidir. Məlumdur ki, cəmiyyət ibtidaidən aliyə, sadədən mürəkkəbə doğru inkişaf etməkdədir. Sivilizasiyanın bu inkişaf tempinə uyğun olaraq ayrı-ayrı iqtisadi sahələr daim inkişaf edir və təkmilləşir. Nəticədə bu sahələrin köməkçi komponentləri kimi çıxış edən istehsal, sosial, bazar, ekoloji və s. infrastrukturlar da bir qayda olaraq, onlarla birlikdə formalaşır, inkişaf edir və təkmilləşir. Dünyada gedən qlobal dəyişikliklər və elmi-texniki tərəqqinin kompleks inkişafı müxtəlif təbiətli infrastrukturlara təsir edərək, onları daim kəmiyyət və keyfiyyətcə mütərəqqi dəyişikliklərə məruz qoyur (2).

Sivilizasiyanın inkişafı ilə əlaqəli şəkildə infrastrukturların mütəmadi olaraq inkişafı artan tələbatlarla bilavasitə sıx bağlıdır. Artan tələbata uyğun olaraq infrastrukturların kəmiyyət və keyfiyyətcə artımı obyektiv zərurət kəsb edir. İnfrastrukturların inkişafı öz növbəsində tələbata biganə deyildir, ona təsir göstərərək, inkişafını təmin edir.Tələbata təsir mexanizmi nəzərə alınaraq, dövlət iqtisadiyyatı tənzimləmə prosesini həyata keçirərkən, infrastrukturların təsir mexanizmindən

istifadə etməli və bu zaman infrastrukturların mütəmadi olaraq çeşidli artımı, mütərəqqi-innovasiya inkişafı heç vaxt dövlət və hökumət orqanlarının diqqətindən yayınmamalıdır.

Tədqiqatlardan göründüyü kimi, infrastrukturlar heç də adi bir hal kimi öz-özünə meydana gəlməmişdir. O, cəmiyyətin ehtiyac və təlabatlarına müvafiq olaraq yaranmış və iqtisadi təlabatın artması qanununa uyğun olaraq inkişaf etməkdədir. Sivilizasiya mütəmadi olaraq mütərəqqi inkişaf meylini özündə təcəssüm etdirdiyi kimi, təkrar istehsal prosesində yerinə yetirdiyi funksiyalara xas olan bir xüsusiyyətlə infrastrukturlar da sadədən mürəkkəbə doğru inkişaf etmiş, struktur və çeşidi daim yeniləşmiş və mükəmməlləşmişdir. Bazar münasibətlərinin indiki şəraitində, sivilizasiyanın inkişaf etdiyi bir zamanda digər iqtisadi sahələr kimi infrastruktur sahələri də sabit qalmır, daim inkişaf edib, təkmilləşir. Beləliklə, infrastrukturlar da iqtisadi münasibətlərin tərkib hissəsi kimi təlabatın artması qanununa müvafiq təsnifata uğramış və zənginləşmişdir. Bu heç də o demək deyil ki, infrastrukturların tərəqqisi öz-özünə yaranan bir prosesdir.

İnfrastrukturlar öz-özünə heçdən meydana gəlmədiyi kimi, heç zaman da öz-özünə formalaşıb, inkişaf edə bilməz.O, yalnız cəmiyyətdə mövcud olan iqtisadi münasibətlərin obyektiv və subyektiv təsirləri altında həqiqi gerçəkliyə, cəmiyyət üzvlərinin iqtisadi fəaliyyəti, onların ehtiyac, təlabat və mənafeləri ilə əlaqədar olaraq zərurətə çevrilirlər. “Ehtiyac və təlabat” cəmiyyət üzvlərinin fəaliyyəti ilə bağlı yaxın mənalı anlayışlar olsalar da, bir iqtisadi kateqoriya kimi hər birinin ayrı-ayrı cəhətləri və tərəflərinin ümumiləşdirilmiş nəzəri ifadələri vardır. Məsələn, ehtiyac dedikdə iqtisadi münasibətlər sistemində cəmiyyət üzvlərinin yaşayış prosesində nəyinsə çatışmadığını duymaq hissi başa düşülürsə, tələbat dedikdə isə cəmiyyət üzvlərinin fərdi xüsusiyyətlərindən asılı olaraq xüsusi formaya düşən ehtiyac nəzərdə tutulur. Beləliklə, tələbat iqtisadi münasibətlər sistemində obyektin fərdi xüsusiyyətlərinə malik olan ehtiyac kimi dərk edilməlidir. İqtisadi münasibətlərin təzahür forması olmaq etibarı ilə yaranan təlabat, bir iqtisadi kateqoriya kimi, elmi səciyyə kəsb edən anlayışdır.

İnfrastrukturların müxtəlifliyi və daim artması prosesi iqtisadi təlabatların təsnifatı ilə əlaqəli şəkildə baş verir. İqtisadi ədəbiyyatlarda tələbatlar müxtəlif şəkildə təsnifləşdirilir. Lakin ən çox, bizim də qəbul etdiyimiz kimi, ehtiyaclara müvafiq qaydada tələbatlar üç böyük qrupda birləşdirilir:-1) iqtisadi (maddi); 2) sosial-mənəvi; 3) fizioloji tələbat. İqtisadi tələbatlar maddi ehtiyacların ödənilməsi kimi çıxış etdiyindən içtimai-tarixi xarakter daşıyır. O, ilkindir (1). K.Marksın təbirincə desək, “insanlar elm, maarif və mədəniyyətlə məşğul olmazdan əvvəl, ilk növbədə yeməli, içməli və geyməlidirlər” (4). Maddi tələbat iqtisadi münasibətlərin ifadəsi kimi təzahür edir. Eyni zamanda bir çox hallarda mövcud tələbatların xeyli hissəsi iqtisadi tələbatla, yəni maddi əşya formasında ödənilir. Qeyd etdiyimiz kimi iqtisadi tələbatların həcmi və onların ödənilməsi səviyyəsi cəmiyyətin, ölkənin və ayrı-ayrı fərdlərin mədəni səviyyəsindən çox asılıdır.

Bildiyimiz kimi resurslar məhdud, ehtiyac və tələbatlar isə sonsuzdur. Bunları müəyyən spesifik xüsusiyyətlərə malik, ictimai təkrar istehsal prosesinin aparıcı fazası olan istehsal sferasında iqtisadi münasibətlərin inkişafına xidmət edən istehsal infrastrukturuna da şamil etmək olar. Tələbat cəmiyyətin maddi həyatında, ictimai təkrar istehsal prosesində xüsusi əhəmiyyət kəsb edən məqama səbəb olur. Belə ki, tələbat olmadan təkrar istehsal prosesi baş tuta bilməz, çünki tələbat olmadan istehlak mümkün deyildir. Cəmiyyətin istehlak prosesi tamamlanmadan istehsal üçün tələbat yarana bilməz. Beləliklə, istehsal və istehlak prosesləri cəmiyyətin artan tələbatlarının təsiri altında biri-birini tamamlayır, yəni istehsal istehlak doğurur, istehlak isə öz növbəsində istehsala təsir göstərərək onun təkrar fəaliyyəti üçün şərait yaradır. Cəmiyyətin istehlak prosesinin inkişafı öz növbəsində yeni ictimai tələbatlar doğurur.T.Vəliyev tələbatları təsnifləşdirərkən fərdlərin, sosial təbəqələrin, ölkələrin, millətlərin və s. özünə məxsus yeri olduğunu göstərir. Bəzi ümumi cəhətlərə diqqət yetirərək qeyd edir ki, ümumiyyətlə, cəmiyyət tərəqqi etdikcə onun sosial-iqtisadi tələbatı da artır, inkişaf edir; insanların mədəni və mənəvi səviyyəsi yüksəldikcə tələbatları da artır və zənginləşir; təlabatlar artdıqca və təmin olunduqca öz növbəsində yeni-yeni tələbatlar doğurur; tələbatlar, onların təsnifatı və öyrənilməsi barədə kütləvi informasiyalar, ədəbiyyatlar, məlumatlar yayıldıqca onlar adamlarda geniş miqyaslı tələbatlar doğurur; yer kürəsində əhali artdıqca, kəmiyyət və keyfiyyət dəyişiklikləri baş verdikcə tələbatların dairəsi də genişlənir; maddi, mənəvi nemətlərə, xidmətlərə aid müxtəlif tələbatlar artır (1).

Yuxarıdakı fikirlər mövcud məhdud resurslar çərçivəsində əhalinin tələbatlarının ödənilməsi imkanlarını da nisbətən məhdudlaşdırır. Buna görə də insanlar fəaliyyətlərini daim resursların məhdudluğunu aradan qaldırmağa yönəltməyə çalışırlar.

Cəmiyyətin sonsuz tələbatları şüur və iradədən asılı olmayaraq bəşəriyyətin yaranışından etibarən artmağa başlamış və obyektiv iqtisadi qanun səviyyəsinə yüksəlmişdir. İctimai tələbatın artması bəşəriyyətin tarixi boyu fəaliyyət göstərəcəkdir. Ona görə də, elmi iqtisadi ədəbiyyatlarda bu, iqtisadi qanun kimi qiymətləndirilir. İqtisadi tələbatın artması qanunu ən ümumi iqtisadi qanun kimi fəaliyyət göstərsə də, tarixi tərəqqinin müxtəlif inkişaf pillələrində biri-birindən ayrılan mühüm cəhətlər, fərqlər ona müəyyən təsir göstərir. Bu özünü digər infrastruktur sahələri kimi istehsal infrastrukturunda da daim təzahür etdirib və etdirməkdədir. Həmin mərhələnin spesifik iqtisadi qanunları ilə ən ümumi və ümumi iqtisadi qanunlarının fəaliyyəti qarşılıqlı təsirdə olurlar.

Maddi istehsal sahələrində fəaliyyət göstərən, istehsalın ümumi inkişafına xidmət edən istehsal infrastrukturları, onlara sərf edilən məsrəflərin kəmiyyəti ilə əlaqədar olaraq inkişaf edir və təkmilləşir (2).

Geniş təkrar istehsalda digər çoxsahəli infrastrukturlarla yanaşı istehsal infrastrukturu istehsalın səmərəliliyinin artmasına əhəmiyyətli təsir göstərir. Bu proseslər qanunauyğun, sabit və daim təkrarlanan obyektiv bir proses kimi fəaliyyət göstərir. Bazar münasibətləri şəraitində bu iqtisadi proseslər mütəmadi olaraq yüksələn xətlə inkişaf edərək, obyektiv iqtisadi qanun səviyyəsinə qədər yüksəlir və iqtisadi münasibətlər sistemində özünə müvafiq yer tapır.

İstehsal infrastrukturu iqtisadi tələbatların mütəmadi olaraq artması prosesi ilə bağlı olub, mənafelər problemi ilə üzləşir. Mənafelərə tələbatların konkret bir təzahür forması kimi yanaşılmalıdır. Mənafelər də öz növbəsində müəyyən təsnifatda birləşdirilir. Sosial-iqtisadi tələbatların artması mənafeləri bilavasitə fərdi, kollektiv, ümumi və xüsusi formalarda təzahür etdirir. Bunların hər biri arasında qarşılıqlı üzvi bağlılıq və daxili əlaqələr mövcuddur. İqtisadi münasibətlər baxımından mənafelərin idarə edilməsi mülkiyyətin bütün formalarında iqtisadi reallaşdırma üçün çox mühüm əhəmiyyətə malikdir. İqtisadi azadlıq şəraiti, mülkiyyət formalarının tam hüquq bərabərliyi və bu bərabərliyə əsaslanan real iqtisadi münasibətlər sistemi mənafelərin düzgün uyğunlaşdırılması üçün əlverişli şərait yaradır. İqtisadi mənafelər toplusu hər şeydən əvvəl və bilavasitə maddi nemətlər istehsalı prosesində formalaşır və sonra bu mənafelər maddi maraq formasında stimullar sistemi ilə təzahür edir. Mənafeyin son reallaşması istehlak tələbinın ödənilməsi olur (2).

Mülkiyyət münasibətləri mövcud mülkiyyət formasından, onların genetik mənbəyindən və mahiyyətindən asılı olaraq iqtisadi mənafelər şəklində təzahür edir. Mənafe dedikdə mülkiyyətin dialektik inkişafı ilə müəyyən edilən, qrup və fərdlərin şəxsi yaşayış tərzlərinin təkrar istehsalı şəraitini əhatə edən cəmiyyətin obyektiv münasibəti başa düşülür. Mülkiyyət formalarının mənimsənilməsi, mənafelərə uyğyn reallaşması bu prosesə müvafiq iqtisadi kateqoriyalar vasitəsi ilə həyata keçirilir. İqtisadi mənafelərin duzgün uyğunlaşdırılması mülkiyyət formalarının səmərəli reallaşdırılmasının ən mühüm şərti, metodu və formasıdır.

Bazar münasibətləri şəraitində yeni iqtisadi münasibətlərin təşəkkülünün ana xəttini sosial və iqtisadi mənafelərin tam vəhdət halında tərəqqisi təşkil edir. İnkişaf etmiş iqtisadi-sosial mənafelər insanlarda yeni fəaliyyətə can atmağa stimul yaradır. Beləliklə, mənafelər sosial-iqtisadi həyatda fəaliyyətin hərəkətverici qüvvəsi kimi çıxış edir. Buna görə də mənafelər istər iqtisadi, istərsə də sosial sferada mühüm həlledici rol oynayır. Bunu tam mənası ilə istehsal və sosial infrastrukturlara şamil etmək olar.

Sosial-iqtisadi inkişafın yeni mərhələsinə qədəm qoyan respublikamızın müstəqilliyə, yeni iqtisadi sistemə daxil olması onun qarşısında çox mühüm təlabatların dayandığını ortaya çıxarır. Bu tələbatlar digər iqtisadi sahələrlə yanaşı müəyyən qədər də istehsal, sosial və bazar infrastrukturlarına olan tələbatlardır. İstehsal, sosial və bazar infrastrukturlarına aid hesab edilən tələbatlar müstəqil respublikanın iqtisadi-sosial və milli mənafeləri ilə səciyyələnir. Bu isə Azərbaycanda aşağıdakı bir sıra strateji problem-vəzifələrin həyata keçirilməsini zəruri edir: - sahibkarlıq və biznes fəaliyyətinin daim genişlənməsi; mövcud istehsal müəssisələrinin səmərəli

fəaliyyətinin təşkili və yeni müəssisələrin yaradılması; istehsal vasitələri üzərində mülkiyyət formalarının dəyişilərək özəl mülkiyyət formalarına çevrilməsi; yeni iş yerlərinin yaradılması; iqtisadi təhlükəsizlik hallarının qorunması; iqtisadiyyatda yenilikçiliyə doğru struktur dəyişikliklərin aparılması; istehsal, sosial və bazar infrastrukturlarına geniş meydan verilməsi; əhalinin bütün təbəqələrinin maddi rifah halının yüksəlişinə nail olunması və s. kimi məqsədyönlü vəzifələrin həyata keçirilməsi.

Bütün bunlar isə inkişaf etmiş əmək bölgüsü olmadan həyata keçirilə bilməz. Əmək bölgüsü cəmiyyətdə baş verən iqtisadi münasibətlərin təzahüründən yaranmışdır. O, cəmiyyət tarixində, onun inkişafında mühüm funksiyalar yerinə yetirən obyektiv iqtisadi kateqoriya və qanunlardan biridir. Başqa sözlə, əmək bölgüsü cəmiyyət üzvlərinin şüur və iradəsindən, arzu və istəklərindən asılı olmayaraq mövcud olan mahiyyət və məzmuna malikdir. Daha da konkretləşdirmiş olsaq, əmək bölgüsü sivilizasiyanın inkişafı ilə əlaqədar olaraq obyektiv iqtisadi tələbatdan irəli gəlmiş iqtisadi kateqoriyadır. Cəmiyyətdə hər bir inkişaf pilləsinə müvafiq olaraq, əmək bölgüsü mövcuddur. O, tarixin ilkin mərhələsində yaranmış və obyektiv bir proses kimi məhsuldar qüvvələrin inkişafı və əmək məhsuldarlığının artması hesabına daim təkamül etmiş və müasir, mürəkkəb bir şəkil almışdır.

Tarixin müxtəlif pillələrində əmək bölgüsü formalaşmış, dərinləşmiş və əhatə dairəsi genişlənmişdir. Müasir dövrdə, bazar iqtisadiyyatı şəraitində inkişaf etmiş əmək bölgüsü əsas şərt hesab edilir. Buna görə də onun aktuallığı gerçəkləşir.

İqtisad elminin mühüm kateqoriyalarından biri olan əmək bölgüsü hələ ta qədimdən mütəfəkkirlərin diqqətini cəlb etmişdir. Bu aktual məsələ ilə eramızdan əvvəl alimlər məşğul olmuş, bu iqtisadi kateqoriya haqda dəyərli fikirlər irəli sürmüşlər. Homer, Platon, Diodordan, Fukiddin, Ərəb alimi İ.Xəldun, V.Petti, A.Smid, D.Rikardo, marksizmin baniləri, böyük Azərbaycan mütəfəkkiri N.Tusi əmək bolgüsü haqda iqtisad elminə zəngin elmi müddəalar vermişlər (1).

Sivilizasiyanın müasir mərhələsində əmək bölgüsü sürətlə artaraq bazar iqtisadi münasibətlərini durmadan inkişaf etdirir. Ona görə də, müasir şəraitdə əmək bölgüsü qanununun daha dərindən öyrənilməsi, iqtisadi hadisə və proseslərin bu kontekstdə açıqlanması xüsusi əhəmiyyət kəsb edir.

Nəzərə almaq lazımdır ki, əmək bölgüsü şüurlu, məqsədyönlü fəaliyyət olan ictimai əməyin ümumi bir halıdır. Nəzəri-iqtisadi baxımdan yanaşıldıqda əməyin özünü onun ictimai formalarından fərqləndirmək lazımdır. Əməyin ictimai forması iqtisadi kateqoriyadır. Əmək bölgüsü cəmiyyətin xüsusi iqtisadi fəaliyyət dairəsi ilə bağlı olan mürəkkəb və çoxtərəfli bir kateqoriyadır. Onun fəaliyyət sferası konkret iqtisadi sahə hüdudlarından kənarlaşaraq cəmiyyətin digər sahələrini də əhatə edir. Cəmiyyətin və iqtisadi münasibətlərin inkişafı bu iqtisadi sahələrlə bağlı olduğundan orada mövcud olan əmək bölgüsü də mahiyyət etibarı ilə cəmiyyətin ümumi iqtisadi-sosial inkişafında xüsusi əhəmiyyət daşıyır.

Marksizmin baniləri əmək bölgüsü məsələsini təhlil edərək cəmiyyətdə ümumi, xüsusi və fərdi əmək bölgüləri olduğunu göstərmişlər. İctimai istehsalın iri əmək və kapital tutumlu sahələri olan sənaye, tikinti, nəqliyyat, rabitə, kənd təsərrüfatı və sair sahələrə ayrılması ümumi əmək bölgüsü adlanır. Bu sahələrin özləri də ayrı-ayrı sahələrə bölünürlər. Bu bölgüdə daha kiçik, özünəməxsus konkret funksiyalar yerinə yetirən ayrıca sahələr isə xüsusi əmək bölgüsünə şamil edilir(4). Bir firma və müəssisə daxilində fərdi qaydada əməyin bölgüsü isə fərdi əmək bölgüsünə aid edilir. Bunların hər biri ictimai əmək bölgüsünün müstəqil halqalarını ifadə edirlər. İstehsal, sosial və bazar infrastrukturlarını da eyni qaydada sistemləşdirmək olar. Məsələn, istehsalın ümumi inkişafına xidmət edən enerji-yanacaq sahələrinə bir istehsal infrastrukturu kimi yanaşıldıqda o, elektroenergetika, neft-qaz, günəş, külək və biokütlə kimi növlərə; yük nəqliyyatı isə istehsal infrastrukturu kimi şosse, dəmiryolu, su, hava və boru kəmər nəqliyyatı növlərinə; rabitə kommunikasiya, su təchizatı, anbar təsərrüfatı, topdansatış ticarət və elm kimi istehsal infrastrukturu sahələri də öz növbəsində ayrı-ayrı növlərə bölünür.

Əhalinin maddi və mədəni rifah halının yüksəldilməsinə xidmət edən sosial infrastrukturları və bazarın ümumi inkişafını təmin edən bazar infrastrukturlarını da eyni qaydada müxtəlif aspektlərdən yanaşaraq təsnifləndirmək olar (1).

Əmək bölgüsü kateqoriyasına müxtəlif istiqamətlərdə yanaşmaq mümkündür. Belə ki, əmək bölgüsünə mühüm sahə kimi baxıldıqda onu ilkin təbii əmək bölgüsü, ərazi əmək bölgüsü, texniki əmək bölgüsü, beynəlxalq əmək bölgüsü və sair növlərə ayırmaq olar. Buradan göründüyü kimi əmək bölgüsünə həm ümumi, həm də konkret iqtisadi kateqoriya kimi baxıla bilər. Ümumi iqtisadi kateqoriya kimi yanaşıldıqda onun bir çox sahələri əhatə etməsi, konkret iqtisadi kateqoriya kimi baxıldıqda isə nisbətən dar çərçivədə, konkret funksiyalar yerinə yetirən məhdudluq mənasında işlədilməsi nəzərə alınmalıdır. Qeyd etmək lazımdır ki, sivilizasiyanın hər hansı bir inkişaf mərhələsində ümumi əmək bölgüsü ilə mövcud müəssisə və firmalar daxilində olan əmək bölgüsü arasında ümumilik və xüsusilik vardır. Müəssisə və firmalar daxilindəki əmək bölgüsü cəmiyyət daxilindəki əmək bölgüsünün tərkib hissəsinə daxil olmaqla yanaşı ayrıca iqtisadi kateqoriyadır. Ümumi əmək bölgüsündə əməyin ixtisaslaşması və mübadiləsi kimi iki mühüm cəhətlər ifadə olunur. Bu cəhətlərin hər biri digəri ilə bağlıdır. Bunların hər hansı birini nəzərə almasaq əmək bölgüsü iqtisadi kateqoriya kimi qəbul edilə bilməz. İxtisaslaşma ilkin mövqeyə malik olsa da əmək bölgüsündə öz özlüyündə yaranmamışdır. Əməyin ixtisaslaşması o vaxt yaranıb, inkişaf edə bilər ki, ona tələbat yaransın, onun inkişafına şərait yaradan, təkan verən amil olsun. İxtisaslaşan sahələr isə mütəmadi olaraq başqa sahələrin ehtiyac və tələbatlarını ödəməsə, onlar tərəfindən istehlak olunmasa bu proses dayana bilər. Ona görə də əmək bölgüsünün fasiləsiz fəaliyyətdə olması onun özünün obyektiv mahiyyətindən irəli gəlir. Bazar münasibətlərinin müasir inkişaf mərhələsində mövcud əmək bölgüsü əməyin ixtisaslaşması və inteqrasiyası prosesləri ilə inkişaf edir. Hal-hazırda istər istehsal, istər sosial və istərsə də xidmət sferalarında ictimai əmək bölgüsü dialektik vəhdətdə olan ikili cəhətə malik bir iqtisadi kateqoriya kimi özünü büruzə verir. İqtisadi həyatda əmək təbiət etibarı ilə müxtəlif növlərə ayrılır. Bu müxtəliflik isə əmək bölgüsündə təcəssüm olunaraq ayrı-ayrı əmək növlərinə ayrılır ki, bunun da nəticəsində ixtisaslaşma meydana gəlir.

İqtisadi münasibətlər inkişaf etdikcə əməyin ixtisaslaşması dərinləşərək iqtisadi inteqrasiyanın yaranmasına gətirib çıxarır.İnfrastrukturların inkişafının təmin olunması məqsədilə bu sahələrə tətbiq olunan əməklərin və iqtisadi fəaliyyətlərin düzgün, qanunauyğun şəkildə ixtisaslaşması ən mühüm iqtisadi amillərdən biri kimi nəzərə alınmalıdır. Burada söhbət sadəcə ixtisaslaşmadan getmir, məqsəd səmərəli, faydalı fəaliyyətdən, ölkənin iqtisadi mənafelərinin inkişafına uyğun gəlməsi zəruriliyindən gedir. Səmərəli ixtisaslaşma və əmək bölgüsünün dərinləşməsi nəticəsində iqtisadi fəaliyyət sahələri daha da konkret funksiyalar yerinə yetirir ki, bu da əmək məhsuldarlığının artmasına gətirib çıxarır. Əməyin fəaliyyət dairəsi konkretləşdirilmədikdə isə heç bir sahədə faydalı iş görmək mümkün ola bilməz. Bütün bunlar isə əmək bölgüsü vasitəsilə tənzimlənir. Bazar münasibətləri şəraitində mövcud iqtisadi amillər dəsti ölkədə əmək bölgüsünü, onun ixtisaslaşma və rabitə cəhətlərini daim inkişafa doğru meyl etdirir.

Cəmiyyətin müxtəlif inkişaf mərhələlərində infrastrukturların funksional fəaliyyəti özünü əyani şəkildə təzahür etdirir. Bu fəaliyyət ilk növbədə onların çox şaxəliliyi, geniş əhatəyə malik olmaları və daim artmaları ilə səciyyələnir. Bu cəhət isə onların artan mütərəqqi keyfiyyəti və səmərəliliyi ilə yanaşı getməlidir. Əgər tərəqqi ilə bağlı olaraq səmərəlilik özünü göstərməzsə, onun faydasını nə elmi-nəzəri, və nə də praktiki baxımdan yüksək qiymətləndirmək olmaz. Bu gün hər sahədə, eləcə də infrastrukturların fəaliyyətində səmərəli nəticə baş vermirsə, onu cəmiyyətin tərəqqisi üçün xarakterik hesab etmək mümkün deyil.

Qeyd etmək lazımdır ki, müasir dövrdə səmərəlilik problemi yalnız maddi istehsal sahələri üçün deyil (əlbəttə, burada xüsusi ilə əhəmiyyətlidir), həm də bütün infrastruktur sahələri üçün zəruridir. Buraya da dörd cəhət vəhdət halında çulğalaşmalıdır. Onlar aşağıdakılardır: faydalılığın, səmərəliliyin, iqtisadi-sosial dəyərliliyin artması və nəticədə sivilizasiyanın yüksəlməsi.

İqtisadi faydalılıq nemətlərin məhdudluğundan, tələbatın çox olmasından və müvafiq məsrəflərin həcmindən asılıdır. Bununla əlaqədar vaxtı ilə iqtisadi-sosial həyatda faydalılıq nəzəriyyəsi meydana gəlmişdir. Beləliklə, faydalılıq həddi nəzəriyyəsi ən yüksək zirvədir və qədim tarixi kökə malikdir. İqtisadi ədəbiyyatda ümumi faydalılıq nəzəriyyəsinin aydın və dəqiq tərifi XVIII əsrin iqtisadçısı olan E.B.Kondinyaka və F.Qalianiyə məxsusdur. Onların elmi fikirlərində bu öz ifadəsini tapmışdır. Bu baxışlar Jan Batist Sey tərəfindən bə qəbul edilmişdir. İqtisadi

ədəbiyyatda özünə geniş yer tapmış faydalılıq həddi nəzəriyyəsi bilavasitə alman iqtisadçısı Q.Qessen və Avstriya məktəbinin nümayəndələri K.Menger, F.Viber, E.Bem-Baverk, iqtisadi-riyazi məktəbin nümayəndəsi ingilis U.Cexvons, İsveçrə iqtisadçısı L.Valrasın adları ilə də sıx bağlıdır (1).

İnfrastrukturların daim ümumi inkişafı və tələbatla mütənasib kəmiyyət və keyfiyyət artımı obyektiv zərurət kəsb edir. O, dövlətin iqtisadiyyatı tənzimlənməsi fəaliyyətində mühüm yer tutmalıdır. Daim onun çeşidli artımı, mütərəqqi-innovasiya inkişafı dövlətin diqqət mərkəzindən kənarda qalmamalıdır.

Səmərəlilik müasir dövrdə bəşər cəmiyyəti fəaliyyətinin ən başlıca xarakterik cəhətlərindən biridir. İqtisadi səmərəlilikdə ən bəsit təsəvvür məsrəflərin müqayisəsi nəticəsində meydana çıxır. Deməli, səmərəliliyi artırma onun vahidinə düşən əvvəlki məsrəfin (maddi, maliyyə və əmək) kəmiyyətinin müqayisəli nəticəsi ilə bağlıdır. Maddi istehsalın səmərəliliyi ilə qeyri-istehsal sahələrin və qurumların səmərəliliyi məsələsi arasında müəyyən metodoloji fərqi nəzərə almaq lazımdır. İstər istehsal, istərsə də qeyri-istehsal sahələrində infrastrukturların səmərəliliyinin artması təsadüfü xarakter daşımır və qanunauyğun, sabit, təkrarlanan obyektiv bir proses kimi fəaliyyət göstərir.

İnfrastrukturların bir çoxu öz mahiyyətinə görə bilavasitə sosial dairəyə məxsusdur. Ona görə də, burada sosial səmərəlilik probleminə də toxunmaq lazım gəlir. İnfrastrukturların sosial səmərəliliyi və bunun artması problemi müəyyən elmi və nəzəri maraq doğurur. Sosial səmərəlilik barədə italyan alimi Vilfredo Paretonun ideyası və işləmləri ədəbiyyatda daha yüksək qiymətləndirilir. Onun fkrincə, ümumiyyətlə sosial səmərə ümumcəmiyyət miqyasında optimallaşmağa doğru istiqamət götürür. İqtisadiyyatın bütün sahələrində olduğu kimi, sosial səmərəlilik də son faydalılıq məsrəflərinin həddini ötüb keçməlidir. Lakin bunu ölkəmizin yeni iqtisadi sistemə keçid şəraiti üçün demək olmaz. Bu dövrdə infrastrukturların xeyli hissəsində sosial keyfiyyətlilik optimallıqdan hələ uzaqdır. Odur ki, ondan danışmaq hələ mümkün deyil. Xarici baxımla sosial səmərəlilik cəmiyyət üçün əlavə məsrəf və fayda kimi görünür, lakin bu bazar münasibətləri şəraitində xüsusi sahibkarlar üçün faydalı olmur. Buna görə də, iqtisadi ədəbiyyatda bu bəzən əlavə səmərəlilik adlandırılır. İnfrastrukturların funksional fəaliyyətində mühüm cəhətlərdən biri onun daim cəmiyyətin inkişaf səviyyəsinə uyğunluğu və mütərəqqilik meylidir. Məlumdur ki, cəmiyyətin həm məhsuldar qüvvələri və iqtisadi münasibətləri intəhasız irəliləməkdə, təkmilləşməkdə və mütərəqqi meyllə inkişafda davam edir. Elmi-texniki tərəqqi ilə üzvü əlaqədar olaraq istehsal infrastrukturları daim kəmiyyət və keyfiyyətcə daha mütərəqqi dəyişikliklərə məruz qalırlar. Onların innovasiya-yeniləşmə dəyişiklikləri daha intensiv xarakter alır. Bu sahədə sivilizasiyanın tarixi inkişafı mühüm əhəmiyyət kəsb edir.

İnfrastrukturların inkişafı istehsalın daha da intensivləşdirilməsinin, cəmiyyətin artmaqda olan maddi və mənəvi tələbatının ödənilməsi və insan amilinin fəallaşması ilə bağlı olan sosial məsələlərin həllinin zəruri şərtidir. Beynəlxalq əmək bölgüsü dərinləşdikcə və iqtisadi inteqrasiya inkişaf etdikcə ayrı-ayrı ölkələrin təsərrüfat komplekslərinə aid beynəlxalq infrastrukturların biri-birinə bağlı olan ünsürlərinin inkişafı və təkmilləşdirilməsi də xüsusi əhəmiyyət kəsb edir. Beynəlxalq infrastrukturlar xarici iqtisadi fəaliyyətə və beynəlxalq ünsürlərə xidmət edən nəqliyyat sistemini, informasiya və rabitə sistemlərini, ətraf mühitin mühafizəsini, təbii ehtiyatlardan səmərəli istifadəni, birgə obyektlərin normal fəaliyyətini təmin edən bir çox obyekt və qurğuların milli ünsürlərinin məcmusu deməkdir. Beynəlxalq infrastrukturların təkmilləşdirilməsi və inkişafı qarşılıqlı əmək bölgüsünün dərinləşdirilməsi və qarşılıqlı faydalı beynəlxalq təsərrüfat əlaqələrinin genişləndirilməsi üçün əlverişli şərait yaradır.

İqtisadiyyatın dayanıqlı inkişafına təsir edən infrastrukturların inkişaf qanunauyğunluqları istiqamətində apardığımız tədqiqatların nəticəsi göstərir ki, "iqtisadi tələbatların artması" və "ictimai əmək bölgüsü" qanunlarının qarşılıqlı, vəhdətdə fəaliyyəti maddi və qeyri-maddi istehsal sahələrinin inkişafına təsir etdiyi kimi, həmin sahələrin ümumi inkişafına xidmət edən infrastruktur sahələrinin də inkişafının ayrılmaz tərkib hissəsidir.

**ƏDƏBİYYAT**

1. Vəliyev T.S. İnfrastrukturlar: mahiyyəti, təsnifatı və əhəmiyyəti. Bakı, Elm 2000, 169 s
2. Məmmədov H.Ə. Bazar münasibətləri şəraitində istehsal infrastrukturunun inkişafı. Bakı, 2007(iqtisad üzrə fəlsəfə doktoru dissertasiyası)
3. Cəbiyev R.M. Azərbaycanda bazar infrastrukturunun formalaşması və inkişafı. Bakı, 2000, 147 s
4. Marks K. Kapital, 1 c. Bakı, 1949, 679 s
5. Носова С.С. Инфраструктура в системе общественного производства. М.: Наука, 1982, 81 с

## РЕЗЮМЕ

**Гасан Мамедов**

## ЗАКОНОМЕРНОСТИ РАЗВИТИЯ ИНФРАСТРУКТУРЫ, ПОВЛИЯЮЩИЕ НА УСТОЙЧИВЫЕ РАЗВИТИЕ ЭКОНОМИКИ

В статье к исследованию привлечены закономерности развития инфрастуктуры, повлияющие на стабильное развитие экономики.

Обосновывается мысль, что развитие инфраструктуры непосредственно связано с повышенными потребностями. Поэтому, государство, осуществляя регулирования экономики, должно использовать механизм влияния инфрастуктур и при этом постоянно повышать вид инфраструктур, никогда не забывать о прогрессивно-инновационном развитии.

Также доказывается, что инфрастуктуры, как обычное явление, не возникают самовольно. Она создается в соответствии с потребностями и нуждами общества и развивается закономерно с повышенными потребносями экономики. Инфраструктуры развиваются от простого к сложному, их структуры и виды систематически обновляются и совершенствуются. В современных рыночных отношениях, во временах развития цивилизации, как и другие отрасли экономики, сферы инфраструктуры также не остаются неизменными, развиваясь, систематически усовершенствуются. Таким образом, инфрастуктуры, как составная часть экономических отношений, в соответствии с повышением потребности классифицированы и обогащены.

Инфрастуктуры, как несамовольное явление, никогда не может формироваться и развиваться. Она может стать необходимостью только под влиянием объективных и субъективных экономических отношений, существующих в обществе и превращаться в необходимость в результате экономической деятельности членов данного общества, употребляя их нужды, потребности и интересов.

Как результат исследования показывается, что как «повышение экономических потребностей» и «распределение труда» влияют на развитие взаимной и единой деятельности материальных и нематериальных производственных сфер, так и обуславливают общее развитие инфрастуктур, обслуживающих отдельные ее отрасли.

NDU-nun Elmi Şurasının 30 mart 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. ELMİ ƏSƏRLƏR, 2016, № 6(75)

NAKHCHIVAN STATE UNIVERSITY. SCIENTIFIC WORKS, 2016, № 6 (75)

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. НАУЧНЫЕ ТРУДЫ, 2016, № 6 (75)

**HÜSEYN BAĞIRSOYLU**
*NDU*

**UOT:332.1**

# SƏRBƏST TİCARƏT ZONALARININ YARADILMASINDA REGİONAL İMKANLARIN MÖVCUDLUĞU VƏ ONLARIN QİYMƏTLƏNDİRİLMƏSİ YOLLARI

**Açar sözlər:** *sərbəst iqtisadi zonalar, sərbəst ticarət zonaları, regional imkanlar, ticarət əməliyyatları, qiymətləndirmə fəaliyyəti*

**Keywords**: *free economic zones, free trade zones, regional opportunities, trade and assessment activities.*

**Ключевые слова:** *свободные экономические зоны, свободные торговые зоны, региональные возможности, торговые операции, оценочная деятельность.*

Müasir iqtisadi şərait cəmiyyətdə baş verən çoxsaylı və rəngarəng proseslərin mövcudluğu ilə, işgüzar fəaliyyətin idarəetmə, regional, tənzimləmə, inzibati və digər yön və xüsusiyyətlərinin təzahürü ilə səciyyələnir. İstər istehsaldan istehlaka doğru gedən yolun ümumi qiymətləndirilməsində, istərsə də bu prosesin daha əhatəli, ayrı-ayrı maddələr, iştirakçı subyektlər, tərəflər üzrə həyata keçirilməsində tələblərə müvafiq araşdırma proseslərinin təşkili və icrası mühüm əhəmiyyət kəsb edir. Nəzərə alınmalıdır ki, bu əməliyyatların hər biri ümumi məqsədin (əhalinin tələbatının ödənilməsinin) həyata keçirilməsinin tərkib hissəsi hesab olunur, fərdi xüsusiyyətlər məcmusu kimi çıxış edir, müxtəlif situasiyalarda fərqli ifadə olunma parametrlərinə, kombinasiya və şəklinə malikdirlər.

Regional imkanların qiymətləndirilməsində "istehsal – bölgü – mübadilə - istehlak" ardıcıllığının hər bir mərhələsinin özünəməxsus cəhətləri nəzərə alınmalı, fəaliyyətin təşkilinin ümumi mənzərəsində onun payı müəyyənləşməlidir. Digər tərəfdən, mərhələlərdə təsərrüfat-təşkilati proseslərin formalaşması və inkişafı istiqamətləri də diqqətdən kənarda qalmamalıdır.

Məqalədə əsas araşdırma elementi kimi sərbəst ticarət zonalarının sistemli öyrənilməsi, onların ümumi cəhətlərinin regional imkanlarla qarşılaşdırılması və bu əsasında spesifik quruluşa malik mübadilə məkanının müəyyənləşdirilməsi nəzərdə tutulur.

Müvafiq zonaların tarixi inkişafı prosesi özünəməxsusluğu ilə fərqlənir. Belə ki, təməlini azad (sərbəst) zonalardan götürən bu qrup bir tərəfdən sələfinin xarakter və xüsusiyyətlərini özündə daşımaqdadırsa, digər tərəfdən özünün xalis ticarət seqmentinə aid olması ilə spesifikasını sərgiləmiş olur. "Nəticə etibarı ilə, azad zonalar – ilk dəfə olaraq, xaricdən ölkəyə gələn malların boşaldılması, başqa ölkələrə, və ya ixrac olunmuş ölkəyə təkrarən qaytarılacağı, gömrük rəsmiləşdirilməsindən tam və ya qismən azad olunması mümkün olan liman mənasında işlədilmişdir. [4;11]

Ardıcıl iqtisadi inkişaf mərhələləri üzrə tədqiqatın təşkili sərbəst iqtisadi (*işgüzarlıq*) zonalar haqqında ilk fikir və informasiyaların XV əsrə təsadüf etdiyini göstərir. Merkantilizm ideyalarının geniş vüsət aldığı həmin dövrdə sərbəst (müstəqil) şəhərlər və onlarla bağlı ticarət və nəqliyyat xidmətlərinin maneəsiz həyata keçirilə biləcəyi sərbəst məkanlar (adətən şəhərlərdənkənar, lakin çox uzaq olmayan) ifadəsi ilə rastlaşılır. Zamanla iqtisadi sanksiya xarakteri daşıyan alətlərin (idxala qarşı qoyulan qadağalar və s. üzrə) istifadəsi bir çox istiqamətlərdə bərqərar olmuşdur ki, bunun nəticəsində də sərbəst (açıq) şəhərlərin işgüzar fəaliyyət imkanlarının səviyyəsi mütəmadi olaraq aşağı düşür, toplanacaq vergi və rüsumların həcmlərində geriləmələr müşahidə olunmaqda idi.

Yaranan vəziyyət ilk növbədə ticarət sahəsində ixtisaslaşan zonalara özünün mənfi təsiri ilə seçilirdi. Bu məqsədlə artıq XVI əsrdən başlayaraq Ağdəniz şəhərlərinin (xüsusilə də Çekova şəhərində) daha mütərəqqi sərbəst fəaliyyət mühitinə transformasiyası təmin olunur. Zamanla istər bu şəhərlərin sayı, istərsə də onların aid olduğu ölkələrin sayı artır. Müasir dövrdə artıq dünyanın bir çox ölkələrində tanınmış və kifayət qədər ixtisaslaşma səviyyələrinə malik sərbəst zonalar (Honq-Konq (Çin), Altonaya (Danimarka), Dunkirk, Bayonne, Loriend (Fransa) və s.) fərqləndirilir. XX əsrin sonlarına doğru sərbəst iqtisadi zonaların ölkələr üzrə dinamikasında baş verən dəyişikliklər onların sayının kifayət qədər sürətlə artması haqqında fikir söyləməyə imkan verir. Belə ki, ABŞ-da 1970-ci ildə mövcud olmuş 10 müvafiq zonaya qarşılıq bu göstərici 1980-ci ildə 60-a (yəni 6 dəfə çox), 1990-cı ildə isə 80-ə bərabər idi (müvafiq olaraq 8 dəfə və 1,33dəfə). Bu göstərici eyni zaman ifadələrində Avropa Ölkələrində 50, 90, 120, Afrika ölkələrində 10, 50, 70, Orta Şərq ölkələri üzrə 2, 15, 50, Uzaq Şərq ölkələri üzrə 15, 35, 60 vahidi təşkil etmişdir. Ümumilikdə dünya üzrə isə sərbəst iqtisadi zonaların sayı 1970-ci ildəki 131-dən, 1980-ci ildə 362-yə, 1990-cı ildə isə 500-ə yüksəlmişdir.

Həmçinin bir faktı qeyd etmək yerinə düşər ki, sərbəst iqtisadi zonaların yaradılmasında əsas ağırlığı inkişaf etməkdə olan və zəif inkişaf etmiş ölkələr təşkil edir. Misal üçün, 1975-ci ildə təkcə zəif inkişaf etmiş ölkələr tərəfindən 103 sərbəst iqtisadi zonanın yaradılması haqqında informasiyalar mövcuddur.

Sərbəst zonaların tarixi inkişafı onların tərkibinin müəyyənləşməsinə də təsir göstərmişdir. Bu baxımdan bildirilən düşüncələr sərbəst zonaların aşağıdakı qruplarının seçilməsini səciyyələndirir (sxem 1.)

***Sxem 1. Sərbəst iqtisadi zonaların formaları.***




*Mənbə: sxem müəllif tərəfindən tərtib olunub*

Sxem 1-in məlumatlarından da göründüyü kimi, sərbəst iqtisadi zonalar kifayət qədər geniş tərkibə malikdirlər. Bununla belə ifadə olunan qruplar zonalar üzrə fərdiliyin qorunmasına işarə vurur. Halbuki beynəlxalq təcrübədə bu qrupların (məsələn bankçılıq və sığortaçılıq istiqamətlərinin) eyni zonada fəaliyyət göstərməsinə də rastlanılır. Düşünürük ki, müvafiq istiqamətdə sərbəst universal (bir neçə formanı birləşdirən) zonanın yaradılması imkanlarının (sahəvi yerləşdirmə, optimallıq və s. baxımdan) nəzərdən keçirilməsi, bu istiqamətdə sistemli araşdırmaların aparılması məqsədəuyğun olardı.

İqtisadi təcrübədə haqqında bəhs etdiyimiz "universallıq" məsələsi bir neçə aspektdə qiymətləndirməyə məruz qala bilər. Bu, bir tərəfdən daha əhatəli, çoxtərəfli xidmətlərin göstərilməsini özündə ehtiva etdiyi halda digər tərəfdən isə elə həmin zonalar üzrə fərdi geriləmə hallarının aradan qaldırılması (məsələn, 1958-ci ildə İrlandiyada – Şennon hava limanında olduğu kimi) üçün istifadə oluna bilər.

Sərbəst iqtisadi zonaların aparıcı tərkib hissəsini təşkil edən sərbəst ticarət zonaları tədqiqatın həyata keçirilməsində əsas məqamlara toxunmağa imkan verir. Bu baxımdan araşırma işində biz ilk növbədə aşağıdakı iki maddəni dərindən incələməli, müvafiq fərqləndirmə işlərini aparmalıyıq:

1. Sərbəst ticarət zonasının ümumi təzahür forma və imkanları, onların çoğrafi yerləşdirilmə və fəaliyyətinin təşkili məsələləri və s.
2. Regional səviyyədə (konkret halda Naxçıvan Muxtar Respulikası sərhədləri çərçivəsində) ümumi cəhətlərin ifadə olunma xüsusiyyətləri.

"*Sərbəst ticarət zonaları*" anlayışı məzmun ifadəsində ilk növədə aşağıdakı parametrlərin mövcudluğuna diqqəti çəkir:

- ✓ istənilən ölkə üzrə xarici ticarətdə tətbiq olunan qanun və qadağaların tamamilə və ya qismən dondurulması, fəaliyyətin həyata keçirilməsi baxımından daha əlverişli hala gətirilməsi;
- ✓ onların yaradılmasında məkan ifadəsinin əlverişliliyinin nəzərə alınması (əsasən sərhədyanı bölgələrdə, dəniz və hava limanlarında və ya onların yaxınlıqlarında, dəmir yolundan aktiv istifadə imkanları olan ərazilərdə və s.);
- ✓ sərbəst ticarət zonasının ixtisaslaşma istiqamətinin (iqtisadi sahələr və fəaliyyət istiqamətləri üzrə) müəyyən edilməsi;
- ✓ sərbəst ticarət zonasının imkanlarının beynəlxalq təcrübə əsasında tarazlanması, onların səmərəlilik prinsipi əsasında optimallaşdırılması;
- ✓ məhsulların reallaşdırırlmasında "son istehlak ünvanı" (sərbəst ticarət zonasında satış prosesinin həyata keçirilməsi) və ya "tranzit ticarət" (reeksport və s.) qaydalarının tətbiqi;
- ✓ zonalar daxilində mübadilə prosesinin diapozonunun müəyyənləşdirilməsi, fəaliyyətin açıq və ya qapalı qaydada təşkilinə üstünlüyün verilməsi;
- ✓ zonaya kapital qoyuluşunun edilməsi şərtlərinin (iştirakçı tərəf, kapital qoyuluşunun istiqaməti, həcmi və s.) dəqiqləşdirilməsi;
- ✓ sərbəst ticarət zonasında baş verən əməliyyatları üzrə pul dövriyyəsinin tənzimlənməsinə yönəlik işlərin həyata keçirilməsi;
- ✓ onların fəaliyyəti üzərində hüquqi-inzibati və digər nəzarət formalarının fasiləsiz təşkilinin mümkün olması və s.

Sadalanan bəndlərdən hər biri sərbəst ticarət zonalarının xarakterizə olunmasında özünəməxsusluğu ilə fərqlənir. Belə ki, onlar məzmun etibarı ilə rəngarəngdir, araşdırma obyektinə fərqli "yanaşma bucaqlarını" təcəssüm etdirir.

İlk növbədə qeyd etmək lazımdır ki, beynəlxalq praktikada sərbəst ticarət zonalarının *açıq* və *qapalı* variantda fəaliyyəti təmin olunmaqdadır. Burada istifadə olunan hər iki ifadə sərbəst ticarət zonalarının fəaliyyət obyektləri ilə əlaqədardır. Belə ki, əgər həmin zonalarda hazır məhsul obyektlərinin növ, sahəvi aidiyyat, təyinat və digər şərtlər qoyulmadan satışı təşkil olunursa, bu zona açıq, əgər bəlli sahələrdə məhdudiyyətlər movcuddursa – qapalı zona qrupuna aiddiyyatı bildirir.

Digər tərəfdən reallaşdırılan məhsulların sahə aidiyyatı baxımından da sərbəst ticarət zonaları üzrə qruplaşdırmaların aparılması mümkündür. Bəhs olunan əlamət nəzərə alınmaqla müvafiq zonalar 2 qrupa bölünür:

1. hər hansı konkret sahə və ya istiqamətə aidiyyatı ilə seçilən sərbəst ticarət zonaları;
2. konkret sahə aidiyyatı bildirməyən, "*qarışıq*" məhsulların reallaşdırılması məkanı rolunu oynayan sərbəst ticarət zonaları.

Yerləşmə əlaməti baxımından limanlarda, gömrüklərdə və ya əlaqəli icra orqanları tərəfindən ayrılmış yerlərdə fəaliyyət göstərən sərbəst ticarət zonaları üstünlük təşkil edir.

Sərbəst ticarət zonalarının elmi araşdırmalarında qarşıya çıxan mühüm məsələlərdən birini də bu zonaların Naxçıvan Muxtar Respublikasının ərazisində yaradılma və yerləşdirilmə imkanlarının hərtərəfli öyrənilməsi təşkil edir. Bu məsələ bir çox aspektlərin optimal şəkildə əlaqələndirilməsini və vahid məcmuda fəaliyyətinin həyata keçirilməsini şərtləndirir.

Muxtar respublikanın sərbəst ticarət zonalarının yaradılması baxımından xarakterizə edilməsi ilk növbədə aşağıdakı komponentlərin mövcudluğunu zəruri edir:

1. Naxçıvanın iqtisadi potensialının atran templərə malik olması, bu məkanda istehsal olunan məhsulların həcm, keyfiyyət, çeşid əlamətləri baxımından yüksəlişinin təmin edilməsi;
2. Xarici ölkələrlə birbaşa həmsərhəd ərazilərin mövcudluğu;
3. Qanunvericilik bazasının hazırlanması,onun tətbiqi imkan və xüsusiyyətlərinin qiymətləndirilməsi;
4. Sərbəst ticarət zonasının yaradılması ilə bağlı yerli idarəetmə orqanının yarana biləcək mübahisəli məqamlara operativ reaksiya vermə imkanlarının mövcudluğu;
5. Sərbəst iqtisadi zonalarının mövcudluğunu təmin edəcək infrastruktur elementlərinin təşkil olunması və istifadəyə verilməsi imkanlarının qiymətləndirilməsi və s.

Muxtar respublikada yaradılması mümkün olan sərbəst ticarət zonasının ixtisaslaşması, fikrimizcə qarışıq xarakterə malik olmalı, özündə məhsul etibarı ilə daxili və xarici istehsalı təcəssüm etdirməlidir. Bu, ilk növbədə Naxçıvan iqtisadiyyatının məhsul istehsal etmək qabiliyyətinin kəmiyyət səviyyəsinin nisbətən aşağı rəqəmlərlə ifadə olması ilə səciyyələnməlidir. Bəhs olunan məsələ ilk növbədə aşağıdakı amillərlə əlaqəli şəkildə nəzərdən keçirilməlidir:

- ✓ müasir iqtisadi şəraitin qloballaşma meylinin daima diqqətdə saxlanılması;
- ✓ sağlam rəqabət mühitinin yaradılması;
- ✓ qiymətləndirmə fəaliyyətinin istehsalın elementləri və alıcı kontingentinin imkanları əsasında həyata keçirilməsi;
- ✓ əmək bazarının genişləndirilməsi, iştirakçıların sayının artırılması;
- ✓ regiondakı real maliyyədövriyyəsinə bu zonadan daxil olacaq vəsaitlərin təsiri;
- ✓ fiskal qaydada muxtar respublika iqtisadiyyatının digər sahə və istiqamətlərinə müsbət təsirin təmin olunması;
- ✓ muxtar respublikanın "Bakı – Tiflis – Axalkalaki – Qars" dəmir yolu sisteminə qoşulması hesabına yaradılması mümkün olacaq sərbəst ticarət zonası məhsullarının Avropa, Asiya, Fars körfəzi və Hindistana qədər çatdırılması və s.

Sadalanan faktorlar ümumi qaydada, beynəlxalq təcrübədən istifadə etməklə və daxili xüsusiyyətlər nəzərə alınmaqla qiymətləndirilməlidir. Sistemli araşdırmalar ayrı-ayrı məhsul növləri üzrə optimal konfiqurasiyaların təşkilini də nəzərə almalıdır ki, bu da istər reallaşacaq məhsulların həcminə, alıcı sayının artmasına, qiymətlərin səviyyəsinin aşağı düşməsinə, istərsə də keyfiyyət, ticarət əməliyyatlarının avtomatlaşdırma səviyyəsinin yüksəlməsinə, ticarət mədəniyyətinin müasir inkişaf mərhələsinə uyğun formalaşmasına şərait yaradacaqdır.

## ƏDƏBİYYAT


1. Abdullayev A.P. İqtisadiyyat və iqtisadi siyasət. Bakı, Asiya, 2003, 216 s
2. Vəliyev D.Ə. Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası. Bakı, Adiloğlu, 2008, 428s
3. İbrahimova N.H.Müasirləşən iqtisadiyyat və təsərrüfat fəaliyyətinin iqtisadi təhlili. Naxçıvan, Əcəmi, 2015, 184s
4. Qəribov.A.H. Azad iqtisadi zonalar və iqtisadi təhlükəsizliyin tənzimlənməsi. Naxçıvan,

İdeya, 2011, 264s
5. Qəribov A.H. Azad iqtisadi zonalar: imkanlar, prespektivlər. Bakı, Təhsil, 2001, 136s
6. Qəribov A.H., Bağırova İ.V. Gömrük işinin təşkili və regionun sosial-iqtisadi inkişafı. Naxçıvan, İdeya, 2012, 164s
7. Əhmədov N.H. Maliyyənin əsasları. Bakı, ADPU mətbəəsi, 2016, 448s
8. Bağırov M.S. Azərbaycanda irihəcmli iqtisadi layihələr: nəzəri mahiyyəti, hazırlanma prinsipləri və tətbiq istiqamətləri. Türkiyə, "Bilimsel Eksen", №1, Bahar buraxılışı, 2010, s.168-175

## ABSTRACT

**Huseyn Bagirsoylu**

**Free trade zones creation of regional opportunites and their evaluation methods**

The article in our country andin the international arena, their creation of free economic zones of the organization and regulation is attrating attention .İt is noted that the free economic zone of free trade zones are an important from one part of.Yet laid the foundation of the fiftenth centry were regularly after improvements.İn the case of free economic zones existing in the international arena,laid the example indicating the spesific numbers.

General trade-economic activities of the foundation is the point total. He also repeated and driving element of the production process.İt affects the level of production and other related factors increase the acceleration of trade.

Free trade zone, the implementation by means of certain features are. These characteristics in the article carefuly considered. Free trade zone became the main objects of research it is a sign of a settlement in this area, described the assessment of opportunities may arise in the development of methods, legal –administrative enough.

The article also features are draüing attention to the establishment of free economic zones in the Nakhchivan Autonomous Respublic and the organization of.

## РЕЗЮМЕ

**Гусейн Багирсойлу**

**Сушествование региональных возможностей при создании свободных торговых зон и пути их оценивания**

В статье особое внимане уделяется созданию свободных экономических зон, организации и регулированию их деятельности как внутри нашей страны, так и на международной арене. Отмечается, что одним из основных составных форм свободных экономических зон являются свободные торговые зоны. Такие зоны, основанные еще в пятнадцатом веке, подверглись постоянным усовершенствованиям. В работе используются примеры по свободным экономическим зонам с применением конкретных количественных показателей.

В общем плане, торговля считается одним из опорных точек совокупности экономической деятельности. Она также является пусковым элементом при повторных производственных процессах. Именно ускорение торгового оборота оказывает влияние на увеличение уровеня производства и других сопредельных факторов.

Проведение торговых операций путем свободных зон обладает своими особенностями. Эти особенности были учтены при проработке статьи.

Свободные торговые зоны были выбраны основными оюъектами исследования. При организации работ в статье в довольно широком плане повествуется о признаках их группирования, о способах правового и административного регулирования, об оценивании создающихся возможностей в этом направлении.

В статье также обращается внимание на возможности создания свободных торговых зон в Нахчыванской Автономной Республике и особенностям организации их деятельности.

NDU-nun Elmi Şurasının 30 mart 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru* N.Əhmədov

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. ELMİ ƏSƏRLƏR, 2016, № 6(75)

NAKHCHIVAN STATE UNIVERSITY. SCIENTIFIC WORKS, 2016, № 6 (75)

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. НАУЧНЫЕ ТРУДЫ, 2016, № 6 (75)

**ZAUR ƏLİYEV**
*Naxçıvan Dövlət Universiteti*
*E-mail: nb.zaur@gmail.com*

**UOT:336.7**

# AZƏRBAYCAN RESPUBLİKASINDA PULUN TƏKAMÜL PROSESİ, MÜASİR VƏZİYYƏTİ VƏ PUL SİYASƏTİ

*Pul yaxşı qulluqçudur, lakin pis ağadır.*
(Frensis Bekon)

**Açar sözlər:** *pul, əmtəə, pulun emissiyası, qəpik, manat, milli valyuta, pul siyasəti*

**Key words:** *money, commodity, emission of money, copeck, manat, national currency, monetary policy*

**Ключевые слова:** *деньги, товар, денежная эмиссия, копейка, манат, национальная валюта, денежной политики*

Bəşər cəmiyyətində pul təxminən 6-8 min ildir ki, yaranıb təşəkkül tapmış və uzun təkamül yolu keçmişdir. Pul məhsuldar qüvvələrin və əmtəə münasibətlərinin daha yüksək inkişafının nəticəsi kimi meydana çıxmışdır**.** [9]

Pul insanların eyni əmtəəyə malik olmaması onların bir-birində olan əmtəəyə ehtiyac yaradırdı və bu da insanlar arasında mübadilənin yaranıb inkişaf etməsinə səbəb olmuşdur.

Müasir dövrdə olduğu kimi, qədim dövrdə də insanlar öz tələbatlarını ödəmək üçün müəyyən növ əmtəəyə ehtiyac duyurdular. İnsanlar müəyyən tələbatlarını ödədikdən sonra qalan əmtəənin digər növ əmtəəyə müvafiq mübadiləsinə ehtiyac duyulurdu.

Birinci ictimai əmək bölgüsünün yaranması yəni maldarlığın əkinçilikdən ayrılması ilə mübadilə müntəzəm forma alır və dəyərin ikinci mübadilə forması tam və ya dolğun dəyər forması yaranır.

İkinci böyük ictimai əmək bölgüsü sənətkarlığın əkinçilikdən ayrılıb müstəqil sahəyə çevrilməsi mübadilənin inkişafında yeni pillə oldu və ümumi ekvivalentin təkmilləşməsinə gətirib çıxartdı. [6]

Pul bəşər tarixinin ən maraqlı məhsullarından biridir. Bəzi ədəbiyyatlarda milatdan əvvəlki dövrdə ən geniş formada olaraq istifadə edilən pulun mal-qara olduğu qeyd edilir. Əslində, İngilis dilində pul mənasını verən ***pecuniary*** kəliməsi latın dilində inək mənasını daşıyan ***pecun*** kəlməsindən əmələ gəlmişdir. [2, s.8]

Pul icad edilmədən əvvəl, balıqqulağından qiymətli metallara qədər müxtəlif mallar mübadilə vasitəsi olaraq istifadə edilmişdir. Əvvəllər ümumi ekvivalent kimi duz, xəz dəri, mal-qara, fil sümüyü, düyü, taxıl, yun, tütün və.s rol oynayırdı.

Tarixin bilinən ilk metal pulu isə e.ə. 7-ci əsrdə antik Lidyada istifadə edilmişdir. Lidyalılar tərəfindən istifadə edilən bu ilk metal pul qızıl və gümüş ərintisindən hazırlanmış və onun üzərinə aslan başı olan bir simvol işlənmişdir. [5, s.68]

Tarixi qeydlərə görə, e.ə. 118-ci ildə Çinlilər dəri puldan istifadə edirdilər. İlk kağız pul isə miladdan sonra 806-ci ildə yenə Çində meydana gəlmişdir. [2, s.9]

Bundan əlavə qaynaqlara görə kağız pul ilk dəfə London zərgərləri tərəfindən çıxarılmışdır. Zərgərlər işlədikləri qiymətli metalları saxlaya bilmək üçün lazımlı və etibarlı yerlərə sahib olduqlarından, xalq sahib olduğu sikkələri, qızılı və gümüşü mühafizə etmələri məqsədilə zərgərlərə verməyə başlamış, zərgərlər də qoruma məqsədiylə özlərinə təhvil verilmiş bu qiymətli metallar qarşılığında sahiblərinə qəbz vermişdirlər. Beləcə zərgərlər, daha çox qəbzi dövriyyəyə ötürmüş və beləcə müasir dövrümüzdəki kağız pulun meydana gəlmə tarixini də başlatmışdırlar. [2, s.8]

Qərbdə kağız pulların emissiya edilməsi 17-ci əsrin sonlarına təsadüf edir. İlk kağız pulu 1690-ci ildə ABŞ-da Massechusetts Hökuməti, İngiltərədə isə "Goldsmiths"- lər tərəfindən çap edilərək tədavülə buraxılmışdır. [5, s.76]

Azərbaycan ərazisindən tapılan ilk sikkələr Makedoniyalı İsgəndərin dövrünə aid edilir. Bizim eradan əvvəl III əsrdən başlayacaq qədim Azərbaycanda (Atropatena və Albaniya) digər gümüş sikkələr də kəsilmişdi. Həmin sikkələr Makedoniyalı İsgəndərin, Selevkiya və Parfiya hökmdarlarının sikkələrinə bənzəyirdi.

Azərbaycan VII əsrdə ərəb istilasına məruz qaldıqdan sonra Xilafətin pul dövriyyəsinə qatılır.

IX-XI əsr Azərbaycan Feodal dövlətlərində, o cümlədən Şirvanşahlar , Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər dövlətlərinin sikkələri, xüsusən də gümüş dirhəmlər nəinki Azərbaycanın daxili bazarının tələbatını ödəyir, hətta Qafqazda Xilafət sikkələri ilə yanaşı bir növ beynelxalq pul vahidi rolunu da oynayırdı. XV-XVI əsrlərdə Şirvanşah sikkələri - tenqeler bütün Qafqazda ödəniş vasitəsi hesab edilirdi.

XVI əsrin əvvəlində Səfəvilər dövlətində buraxılan müəyyən mənada həmin dövlətin iqtisadi gücünə dəlalət edirdi. Gülüstan (1913) və Türkmənçay (1928) müqavilələrinə görə Azərbaycanın şimal hissəsi Rusiyanın tərkibinə keçdikdən sonra xanlıqlara sikkə kəsməyə qadağa qoyuldu. Azərbaycan ümumrussiya pul dövriyyəsinə daxil edildi. [7]

Müasir dövrdə Azərbaycanda rəsmi pul vahidi manatdır. Hazırda dünyanın bir çox ölkələrində işlədilən **"moneta"** milli pul vahidinin adı o dillərə Şərqdən keçmişdir. Bu ad e.ə. **Bisitun** qayalarında mixi yazılarında **"manat" , "monnat"** kimi həkk olunmuşdur.

Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra, suverenliyin əsas atributlarından sayılan milli valyuta olan manat 1992-ci ilin 15 avqust tarixindən etibarən tədavülə buraxılıb.

1992-ci ilin avqustunda 1, 10 və 250 manatlıq əsginaslar, noyabrında 5, 10, 20 və 50 qəpiklik sikkələr, dekabrında 5 manatlıq əsginas, 1993-cü ilin martında isə 50, 100, 500 və 1000 manat nominallı kağız əsginaslar dövriyyəyə buraxılıb.

Azərbaycan Respublikasının birinci pul emissiyası 1992-ci ildə Fransa Mərkəzi Bankı tərəfindən çap edilib. Yeni dizaynla 1 və 10 manatlıq əsginaslar həmin şirkətdə istehsal olunub.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən 7 fevral 2005-ci il tarixdə "Azərbaycan Respublikasında pul nişanlarının nominal dəyərinin və qiymətlər miqyasının dəyişdirilməsi (denominasiyası) haqqında" imzalanmış fərmana uyğun olaraq 2006-cı il yanvarın 1-dən etibarən yeni nəsil pul nişanları dövriyyəyə buraxılmışdır.

Azərbaycan Respublikasının ərazisində manatdan başqa pul vahidlərinin ödəniş vasitəsi kimi işlədilməsi qadağandır. Manatın emissiyası və tədavüldən çıxarılması hüququ yalnız dövlətin müstəsna mülkiyyətində olan Mərkəzi Banka mənsubdur.

Yeni manata keçid zamanı 1 yeni manat 5000 köhnə manata bərabər tutulmuşdur.

- Sikkələr: 1, 3, 5, 10, 20, 50 qəpik
- Əsginazlar: 1, 5, 10, 20, 50, 100 manat

Yeni Azərbaycan manatı 28 dekabr 2005-ci ildə ölkə ictimaiyyətinə təqdim olunmuşdur. [9]

Hazırda Azərbaycan dünyada ən stabil, ən dəyərli pul vahidinə malik olan ölkələrdən biridir. Milli valyutanın kursu dünyanın aparıcı valyutaları - dollar, avro və funt-sterlinq qarşısında davamlı olaraq möhkəmlənib. 2008-2010-cu illəri əhatə edən ağır qlobal maliyyə böhranı zamanı da Azərbaycan öz milli valyutasının kursunu sabit saxlamağa nail olub. Nəticədə ölkə əhalisi bu böhranın nəticələrindən ciddi zərər çəkməyib. Hazırda manat nominal dəyərinə görə İngiltərə funt-sterlinqi, Yaponiya iyeni, Latviya latı və Küveyt dinarı istisna olmaqla həm dünyanın, həm də regionun ən dəyərli valyutası hesab olunur. Eyni zamanda yeni manat dövriyyəyə buraxıldıqdan sonra digər aparıcı valyutalar qarşısında öz məzənnəsini davamlı olaraq möhkəmləndirib və MDB ölkələrinin milli valyutaları ilə müqayisədə isə manatın ümumiyyətlə rəqibi yoxdur.

Beləliklə, Azərbaycan dünyada ən möhkəm milli valyutalardan birinə malik olmaqla öz iqtisadi mövqelərini daha da möhkəmləndirib, bununla da xarici investisiyalar üçün cəlbedici ölkəyə çevrilib. Ölkə prezidenti İlham Əliyevin bəyan etdiyi kimi Azərbaycanın iqtisadi potensialı və sənaye gücü manatın indiki kimi güclü qalmasına imkan verir. [11]

Bunu da qeyd etmək lazımdır ki, müasir dövrdə hələ Afrika və ya Avstraliya sakinlərinin yaşayış bölgələrində mübadilə iqtisadiyyatının tətbiqi hələ də davam edir. Hətta müasir dövrdə əhalinin çox böyük bir hissəsi pulun mövcud olduğu iqtisadiyyata keçmiş vəziyyətdə olsalar da iqtisadiyyatları inkişaf etməkdə olan bəzi iqtisadiyyatların bir hissəsində kiçik və şəhərlərə uzaq kəndlərdə müəyyən səviyyədə mübadilə iqtisadiyyatı etibarlılığını qismən qorumaqdadır. [4, s.51]

Ancaq indiki vaxtda hər nə qədər bəzi cəmiyyətlərdə mübadilə iqtisadiyyatı qismən etibarlılığını qorusa da, həm ictimai həyat həm də ictimai həyatı formalaşdıran iqtisadi əlaqələr çox mürəkkəb və dərin hala gəlmişdir və bu da mübadilə iqtisadiyyatının fəaliyyətini passiv hala gətirmiş, bu səbəbdən iqtisadi həyatı asanlaşdıracaq bir sıra ortaq meyar ya da vasitələrə ehtiyac yaranmışdır və bu səbəbdən insanlar zamanla pul iqtisadiyyatına keçmişdirlər.

Pul və onun iqtisadiyyatdakı rolu hələ qədim zamanlardan insanları düşündürür. Buna görə də pula iqtisadi ədəbiyyatlarda bir çox təriflər verilir. Aşağıda pulun bir neçə tərifi göstərilmişdir.

- **Pul** - insanların mal və xidmətləri digər fərdlərdən əldə etmək üçün müntəzəm istifadə etdikləri aktivlərin cəmidir.
- Pul - Gündəlik həyatda mal və xidmətlərin mübadiləsi, borcların və öhdəliklərin ödənilməsində istifadə edilən, və hər kəs tərəfindən ümumi ödəniş vasitəsi kimi qəbul edilən bir iqtisadi vasitədir.

Yuxarıda pulun bir neçə tərifini qeyd etdik indi isə pulun xüsusiyyətləri barədə məlumat verək.

- Daşına bilən: Pul olaraq istifadə edilən obyektlər bir yerdən başqa bir yerə asanlıqla daşına bilər.
- Davamlı olabilmə: Pul olaraq istifadə edilən obyektlər asan xarab olmamalıdır.

Müasir dövrümüzdə kağız pulun tərkibi 75% pambıqdan, 25% kətan liflərdən ibarətdir. Kətan lifinin tərkibində sellüloza miqdarının çox yüksək olması kağız pulun möhkəmliyini və uduculuğunu artırır. Bu səbəbdən bir kağız pul 4000 dəfə irəli və geri qatlanabilmə xüsusiyyətinə sahibdir. [10]

Müasir dövrümüzdəki dəmir pulların yəni qəpiklərin tərkibi mis, zinq və nikel kimi bəzi xam maddələrdən ibarətdirlər.

- Standart: Pul yerinə keçəcək obyektlər müəyyən bir standartda olmalıdır.
- Bölünəbilən: Pul kimi istifadə ediləcək obyektlər ticari mühitin ən kiçik əməliyyatlarını əhatə etməlidir. [1, s.26]

Bu gün pul olaraq qəbul etdiyimiz obyektlərdən bir qisminin, kompüter texnologiyası və internet vasitəsi ilə reallaşan elektron ticarətdəki inkişaflar səbəbi ilə, gələcəkdə pul əhatəsinin xaricində qalması da mümkündür. Bu səbəblə pul, sərhədləri müəyyən, dəyişməz bir tərifə və xüsusiyyətə sahib ola bilməz. Bu səbəbdən iqtisadçılar pulun qəti və dəyişməz bir tərifini vermə yerinə, pulun üzərinə götürdüyü funksiyaları sıralayaraq, bu funksiyaları yerinə yetirən hər şeyi pul anlayışı içərisinə daxil edərlər.

Pulun mahiyyəti aşağıdakı 3 xüsusiyyətin vəhdətində meydana çıxır:

- bilavasitə ümumi mübadilədə.
- mübadilə dəyərinin kristallaşmasında.
- ümumi iş vaxtının maddiləşməsində.

Pulun meydana gəldiyi gündən müasir günümüzədək pulun təkamülü prosesində bir çox pul nəzəriyyələri fəaliyyət göstərmişdir. Lakin onlardan üçü əsas nəzəriyyə kimi tanınmışdır ki, bunlar da aşağıdakılardır:

1. Nominalist pul nəzəriyyəsi
2. Metalist pul nəzəriyyəsi
3. Bank-pul nəzəriyyəsi

Pul öz təкamül prosesində aşağıdaкı mərhələlərdən кeçmişdir:

1) metal pul;
2) kağız pul;
3) kredit pulu və eleкtron pul.

Metal pul üçün ən yaxşı nümunə qızıldır. Qızıl yüzlərlə il boyunca mal və xidmətlərin satınalınmasında bir mübadilə vasitəsi olaraq istifadə edilmişdir.

Bir mal olaraq dəyəri olmayan, ancaq mal və xidmətlərin satınalınmasında bir dəyər ifadə edən obyektlərə kağız pul deyilir. İndiki vaxtda dəyişmə vasitəsi olaraq istifadə edilən kağız parçalarının mal olaraq heç bir dəyəri yoxdur. Bu kağız parçalarının pul olaraq qəbul edilmə səbəbi dövlətin bu kağızları qanuni ödəniş vasitəsi kimi qəbul etməsidir. [2, s.17]

Əmtəə münasibətlərinin ümumi xaraкter alması şəraitində кommersiya və bank krediti sahəsinin genişlənməsi kredit pulun meydana gəlməsinə gətirib çıxardı. Kredit pul öz inkişafında aşağıdakı mərhələlərdən keçmişdir: veksel, banknot, çeкk, elektron pul və onun ən son növü olan kredit kartı.

Tarixən aşağıda göstərilmiş emissiya rejimləri (pul sistemləri) olmuşdur.

**Tək mədən sistemi (Monometalizm) -** Dövranda olan pulun ya qızıl ya da gümüş olduğu bir sistemdir.

Bu sistemdə qızılın və ya gümüşün dəyəri o ölkədəki miqdarı ilə ölçülür. Məsələn, qızıl təchizatının artması vəziyyətində qızıl qiymətləri düşəcək. Gümüş təchizatının azalması vəziyyətində gümüş qiymətləri yüksələcəkdir.Tək mədən sistemi öz arasında; qızıl sikkə standartı, qızıl külçə standartı və qızıl valyuta standartı olaraq 3 yerə bölünür.

**Cüt mədən sistemi (Bimetalizm) -** Həm qızıl, həm də gümüşün dövriyyədə olduğu sistemdir. Bimetalizm sistemində Paraşüt nəzəriyyəsi, Gresham Aktı və Axsaq miqyaslı olmaq üzrə 3 əhəmiyyətli araşdırma sahəsi vardır.

**a) Paraşüt nəzəriyyəsi** - Fransız iqtisadçısı Leon Walras tərəfindən inkişaf etdirilmişdir. L.Walrasa görə, iqtisadiyyatda pul miqdarı artdıqca qiymətlər ümumi səviyyəsi yüksələcəkdir. Əgər metal miqdarı pul artımına ayaq uyduramazsa iqtisadiyyatda pul çətinliyi baş göstərəcək və qiymətlər ümumi səviyyəsi düşəcək. Bu vəziyyətdə qızıl miqdarındakı azalma gümüş miqdarındakı artımla və ya gümüş miqdarındakı eniş qızıl miqdarındakı artımla kompensasiya edilməlidir. Qızılın gümüşü, gümüşün də qızılı bir paraşüt kimi əhatə kompensasiya etməsi səbəbiylə bu nəzəriyyəyə "paraşüt nəzəriyyəsi" adı verilmişdir.

**b) Gresham Aktı** - Qızıl və gümüş pulların birlikdə dövriyyədə olduğu bimetalizm sistemində, insanlar qızılı qənaət, gümüşü isə istehlak məqsədi ilə istifadə edirlər. Ticari həyatda gümüşün qalması, qızılın isə bazardan çəkilməsi "Gresham Aktı"- nın etibarlı olmasına gətirib çıxarır. Buna iqtisadi ədəbiyyatlarda "pis pul, yaxşı pulu qovar" kimi adlandırırlar. Təbiidir ki, burada "pis pul, yaxşı pulu qovar" təbiri dəyər mənasındadır. Qızıl və gümüşün istifadəsi bir

iqtisadiyyatda; qızıl yaxşı pul, gümüş isə pis puldur. Pis pul olan gümüş, yaxşı pul olan qızılın istifadəsinə mane olar.

**c) Axsaq miqyaslı** - ABŞ-da yeni gümüş mədənlərinin 1870-ci illərdə kəşf edilməsi nəticəsində qızıl qiymətləri, gümüş qiymətinə daha yüksək dəyər qazanmışdır. Bu isə bimetalizmi tətbiq edən Avropa ölkələrindən böyük miqdarda qızıl qaçırılmasına səbəb olmuşdur. Ölkələrindən qızıl ixracını dayandırmaq üçün cüt mədən sistemi içərisində axsaq miqyaslı adlanan bir islahat tətbiq etmişlər. XIX əsrin son illərində tətbiq olunan bu islahat ilə Avropalılar, Amerikaya qızıl qaçırılmasının qarşısını almaq gümüş sikkə emissiyasını qadağan etmiş və gümüş sikkələrlə ediləcək ödəmələrə üstünlük vermişdir. Bu sistemə axsaq miqyaslı sistem deyilir.

Azərbaycan Respublikasında pul siyasəti Mərkəzi Bank tərəfindən həyata keçirilir.

Pul siyasəti əsasən qiymətlərin sabitliyinin təmin edilməsi məqsədilə həyata keçirilən tədbirlər sistemidir. Mərkəzi Bank valyuta məzənnəsi, pul kütləsi və faiz dərəcələrini tənzimləmək vasitəsilə inflyasiya proseslərinə təsir göstərir.

Ümumiyyətlə pul siyasətinin aşağıdakı növləri vardır:

1. Yumşaq pul siyasəti.
2. Sərt pul siyasəti.

Yumşaq pul siyasəti dedikdə tələbin canlandırılmasına və iqtisadi artımın stimullaşdırılmasına yönəldilmiş pul siyasəti nəzərdə tutulur. Yumşaq pul siyasəti yeridərkən Mərkəzi Bank verdiyi kreditlər üzrə faiz dərəcələrini aşağı salır, qiymətli kağızlar alaraq dövriyyəyə pul buraxır, banklara daha çox kreditlər verir, milli valyutanın məzənnəsinin ucuzlaşmasına şərait yaradır.

Sərt pul siyasəti inflyasiyanın məhdudlaşdırılmasına yönəldmiş siyasətdir. Sərt pul siyasəti yeridərkən Mərkəzi Bank verdiyi kreditlər üzrə faiz dərəcələrini yüksəldir, malik olduğu qiymətli kağızları sataraq dövriyyədəki pulu azaldır, milli valyutanın məzənnəsinin möhkəmlənməsinə şərait yaradır, banklara kredit verilməsini məhdudlaşdırır. [8

## ƏDƏBİYYAT


1. Sviridov O.Y. Pul, kredit, banklar: ali məкtəb tələbələri üçün ekspres-məlumat. /rus dilindən tərcümə. Bakı, İqtisad Universiteti nəşriyyatı, 2009
2. Məmmədov Z.F. Pul, kredit, banklar. Dərslik, 2006
3. Məmmədov Z.F. Maliyyə, pul tədavülü və kredit. Dərslik, 2007
4. Orhan Türkay, Ərdoğan Alkin İktisada Giriş, Eskişehir, 2001
5. Cəmil Erarslan İktisada Giriş Ders Notları, Kırklareli Universiteti, 2010
6. http://banker.az/pulun-mahiyy%C9%99ti-v%C9%99-z%C9%99ruriliyi/
7. http://baau.clan.su/news/q_dim_v_orta_sr_sikk_l_r/2012-08-10-703
8. http://www.nba.az/pages/faq/monetary-policy/
9. http://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_manat%C4%B1
10. http://www.madehow.com/Volume-3/Paper-Currency.html
11. http://www.azerbaijans.com/content_1791_az.html


## ABSTRACT


**Zaur Aliyev**

**The evolutionary process, the current state of modern money and monetary policy in the Republic of Azerbaijan**

The article aims to review main ideas relating to the strategic framework of monetary policy in the modern era.

The article considers the emission modes, monetary systems, past, current conditions and trends of improvement strategy of monetary policy


## РЕЗЮМЕ

**Заур Алиев**

**Еволюционный процесс денег, современной состояние денег и денежной политики в Азербайджанской Республике**

Основная цель этой статье следует рассматривать в стратегических рамок денежно-кредитной политики связанных с идеями современной эпохи.

Режимы выбросов, денежные системы, прошлое, текущее состояния, тенденций и улучшения стратегии, денежно-кредитной политики в целях отражены в этой статье.

---

NDU-nun Elmi Şurasının 30 mart 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 08)

Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru* N.Əhmədov

# MÜNDƏRİCAT

## TARİX ELMLƏRİ

1. **İsmayıl Hacıyev.** Heydər Əliyev və Azərbaycanda milli münasibətlər........................................3
2. **Rüfət Hüseynzadə.** Skala - təhsilin ilk tarixi məkanı...................................................................9
3. **Xəzər Hüseynov.** Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı tarixindən............14
4. **Zeynəb Quliyeva.** 2015-ci ildə I Kültəpə yaşayış yerindən aşkar edilmiş sümük alətlər...........19
5. **Zamin Əliyev.** XX əsrin əvvəllərində ABŞ, İngiltərə, Almaniya və Rusiyanın Azərbaycanda möhkəmlənmək uğrunda mübarizəsi.................................................................27
6. **Arzu Abdullayev.** Naxçıvanda sənətkarlıq və sənayenin inkişafı (XIX əsr)..............................32
7. **Gülşən Əliyeva**. "Pompeyin Qafqaz yürüşü"; Tarixdə xəyanət yaxud Qafqaz birliyi ideyası....39
8. **İlham Abbasov.** Azərbaycan Xalq Cümhuriyyəti və Hacı Zeynalabdin Tağıyev.......................45

## SİYASİ ELMLƏR VƏ HÜQUQ

9. **Гариб Аллахвердиев.** Великий политический лидер современности................................49
10. **Sevinc Abbasova.** Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı və qadınlar...................55
11. **Novruzəli Rəhimov.** Qloballaşma şəraitində hüquqi dövlət quruculuğunda mənəvi dəyərlər və sosial məsuliyyət...............................................................................................65
12. **Qəhrəman Behbudov.** M.Ə.Sabir yaradıcılığında beynəlxalq münasibətlər...........................73
13. **Bağır Babayev.** XX əsr Azərbaycan demokratik fikrində ruhanilərə münasibət..................80
14. **Анар Ялийев.** Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları: etnosiyasi münaqişələr və АТЯТ...............................................................................................................88
15. **Səbinə Qaraşova.** ABŞ-ın xarici siyasət strategiyasının konseptual əsasları............................93
16. **Telman Niftaliyev.** Azərbaycanda ordu quruculuğu və zabit heyətinin təkmilləşməsində Heydər Əliyevin liderlik xüsusiyyətlərinin təsiri....................................................99
17. **Муса Исмаилов.** Как воспринимают армяне себя сами?..................................................104

# İQTİSAD ELMLƏRİ

18. **Ağarza Rüstəmov, TalıbovA.H.** Müasir iqtisadi şəraitdə innovasiyalı sahibkarlıq fəaliyyətinin inkişafı məsələləri....................................................................................113
19. **Akif Mədətov, Asəf Qəribov**. Naxçıvan ərazi-istehsal kompleksi:formalaşması və inkişafının müasir mərhələsi.......................................................................................117
20. **Oktay Rzayev.** İstehsalat qəzaları və fəlakətlər zamanı qəza-xilasetmə və digər təxirəsalınmaz işlərin təşkili və yerinə yetirilmə metodları...............................................123
21. **Mehdi Bağırov.** Ölkənin sosial-iqtisadi inkişafı:"Baki – Tiflis – Ceyhan" faktoru və fiskal siyasətin perspektivləri..........................................................................127
22. **Lətifə Novruzova.** Naxçıvan Muxtar Respublikasının əmək ehtiyatları və onların məşğulluğu..............................................................................................................133
23. **Kəmalə Təhməzbəyova.** Azərbaycanda yeni innovasiyalarin tətbiqi istiqamətləri.......................137
24. **Bağır Bağırov.** Müstəqillik dövründə Azərbaycan Respublikasında vergilərin yaranması və inkişaf tarixi..................................................................................140
25. **Dilsuz Qasımov.** Dövlət proqramının əsas istiqamətlərindən biri də aqrar sektorun inkişafıdır.............................................................................................................145
26. **Əşrəf Ələkbərov**. Qloballaşma şəraitində ərzaq təhlükəsizliyinin təmin edilməsi zərurililiyi.............................................................................................................149
27. **Həsən Məmmədov.** İqtisadiyyatın dayanıqlı inkişafina təsir edən infrastrukturların inkişaf qanunauyğunluqları.........................................................................................155
28. **Hüseyn Bağırsoylu.** Sərbəst ticarət zonalarının yaradılmasında regional imkanların mövcudluğu və onların qiymətləndirilməsi yolları.........................................................162
29. **Zaur Əliyev.** Azərbaycan Respublikasında pulun təkamül prosesi, müasir vəziyyəti və pul siyasəti...........................................................................................................167